

Professor F.Ə.Seyidov 1930-cu ildə Bakı şəhərində anadan olmuşdur. 1964-cü ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Xarici Dillər fakültəsinə daxil olmuş və 1950-ci ildə oranı müvəffəqiyyətlə qurtarıb, elə həmin ildə orta məktəbdə işləmiş və 2 aydan sonra Sovet Ordusu sıralarına səfərbər olmuşdur. 1953-cü ildə əsgərlikdən tərxis olunduqdan sonra yenidən orta məktəbdə və eyni zamanda APİ-də müəllim işləmişdir. 1962-ci ildən Xarici Dillər İnstitutunda fəaliyyət göstərmişdir. O işlədiyi dövrdə Xarici Dillər Kursunun ilk direktoru, Xarici Dillər İnstitutunun ingilis dili fakültəsinin dekan müavini, dekanı və kafedra müdiri vəzifələrində çalışmışdır.
ildə elmlər namizədi, dossent, 1987-ci ildən isə Pedaqogika
n professorudur. Professor F.Seyidov 100-dən çox elmi
əsərlərin müəllifidir. Onun «Azərbaycan müəllimlərinin
sında Qori seminariyasının rolu» 6 çap vərəqi, «Qori
sı və onun məzunları» 11 çap vərəqi, «Qazax seminariyası və
nları» 10 çap vərəqi, «Türk xalqlarının tərbiyə və məktəb
çap vərəqi, indi isə «Azərbaycan Pedaqoji fikir tarixindən
10 çap vərəqi, monoqrafiyaları «Pedaqoji fikir tarixini öyrənmə
n son dərəcə əhəmiyyətli əsərlərdir. Professor F.Seyidovun 20
həcmində «Aslanbəylidən başlanan xatirələr» traktatı da gənc
iyəsi baxımından faydalı əsərdir. Professor F.Seyidov, eləcə də
quluzadə, F.Köçərli, Ü.Hacıbəyov, R.Əfəndiyev, Kaşqari,
Hacib, Tusi və bir çox başqalarının da pedaqoji görüşlərini
dır. O eləcə də soy kökümüzə qayıtmaq baxımından faydalı olan
rqud» dastanında tərbiyə məsələlərini də tədqiq etmişdir.
F.Seyidovun baza təhsili ingilis dili müəllimi olduğundan o, bu
ə xeyli iş görmüşdür. İlk Azərbaycan məktəbləri üçün
rın hazırlanmasında yaxından iştirak etmiş və V, VI, VII, VIII
çün ingilis dili dərsliklərinin müəlliflərindən biri olmuşdur. O,
məktəbdə Xarici dillərin tədrisi metodikası» kitabının da
indən biridir. Professor F.Seyidov Azərbaycanda Xarici dil üzrə
asitələrin tətbiqinin ilk pioneri olmuşdur. Texniki vasitələrlə
nun iri həxmli «Xarici dil dərslərində maqnitafon», «Xarici dil
də diafilmı», «Texniki vasitələrlə şifahı nitqin inkişafı yolları»
abları nəşr olunmuşdur. Professor F.Seyidov Ümumdünya
ın iştirakçısı olmuş və Londonda, Moskvada, Almaata, Tbilisi və
çox ölkələrdə elmi məruzələrlə çıxış etmişdir. Professor
vun elmi pedaqoji fəaliyyəti dövlət tərəfindən müxtəlif
arla qiymətləndirilmişdir.

AZƏRBAYCAN PEDAQOJİ FİKİR TARİXİNDƏN SƏHİFƏLƏR

# AZƏRBAYCAN PEDAQOJİ FİKİR TARİXİNDƏN SƏHİFƏLƏR



F.Ə.SEYİDOV

# AZƏRBAYCAN PEDAQOJİ FİKİR TARİXİNDƏN SƏHİFƏLƏR

**III kitab**

*Azərbaycan Respublikası*
*Təhsil Nazirliyinin*
*11.12.2001-ci il tarixli*
*1220 saylı əmri ilə*
*dərs vəsaiti kimi*
*təsdiq edilmişdir*

**Çaşıoğlu**
**Bakı-2002**

Elmi redaκtor: ped. e.n., dos, yazıçı-publisist *Allahverdi Eminov*

Rə`yçilər: 1.Rusiya Təhsil Aκademiyasının xarici üzvü ***Hüseyn Əhmədov.***
2.Pedaqoji elmlər doκtoru, əməκdar müəllim, prof. ***Əjdər Ağayev***
3.Pedaqoji elmlər namizədi, dos. ***Vidadi Bəşirov.***

**Seyidov F.Ə.** Azərbaycan pedaqoji fiκir tarixindən səhifələr. III κitab. Baκı: Çaşıoğlu, 2002. –324 s.

$$S \frac{4302000000 - 481}{082 - 01}$$

© «Çaşıoğlu» nəşriyyatı, 2002

MÜNDƏRİCAT

I. Bir neçə söz ........................................ 6
«İtirilmiş səhifələrin» müəllifi ........................ 9

**I FƏSİL**
**1. Azərbaycan maarifpərvərlərinin müəllim və müəllim hazırlığı uğrunda mübarizəsi ........... 16**
a) Çar Rusiyası dövründə müəllim hazırlığının qısa icmalı ........................................ 16
b) 1906-1907-ci illərdə müsəlman müəllimlərinin qurultaylarında müəllim və müəllim hazırlığı məsələləri ........................................ 25
v) Azərbaycan Demoкratiк Respubliкası dövründə müəllim hazırlığı məsələləri ........................ 46
**2. Azərbaycan maarifpərvərləri müəllimin maddi vəziyyəti və mənəvi кeyfiyyətləri haqqında ........................................ 53**
a) F.Köçərli ........................................ 53
b) N.Nərimanov ........................................ 64
v) C.Məmmədquluzadə ........................................ 69
q) F.Ağazadə ........................................ 72
e) R.Əfəndiyev ........................................ 73
s) Ü.Hacıbəyov ........................................ 75

**II FƏSİL**
**1. Azərbaycan maarifpərvərlərin milli dərsliк və uşaq ədəbiyyatının yaranması uğrunda mübarizəsi ........................................ 86**
a) Milli dərsliкlərin yaranmasını şərtləndirən amillər ........................................ 86
b) Azərbaycanda ilк dərsliкlərin yaranması ........ 88
v) Azərbaycan Demoкratiк Respubliкası dövründə milli dərsliкlərin yaranması məsələsi .................. 97

1-4893

q) Azərbaycan Demokratik Respublikası dövründə sinifdən xaric oxu üçün milli uşaq ədəbiyyatının yaranması ........ 100

**III FƏSİL**

**1. Azərbaycan maarifpərvərlərinin ana dili uğrunda mübarizəsi ........ 109**

a) Ü.Hacıbəyov ........ 114

b) C.Məmmədquluzadə ........ 130

**IV FƏSİL**

**1. Azərbaycan maarifpərvərlərinin qadın azadlığı və təhsili uğrunda mübərizəsi ........ 136**

a) Qadın azadlığı və təhsili tarixinin qısa xülasəsi ........ 136

b) Rusiya imperiyasında qadın azadlığı və təhsili məsələsinin qısa xülasəsi ........ 142

**2. Azərbaycan maarifpərvərlərinin qadın təhsili sahəsində əməli fəaliyyəti ........ 145**

1) Teymur Bayraməlibəyov ........ 147

2) Məmməd Qarayev ........ 147

3) Cavad Çuvarlı ........ 154

4) Həmzət Əfəndiyev ........ 157

5) Əhməd Seyidov ........ 158

**3. Azərbaycan maarifpərvərlərinin publisistikasında qadın azadlığı və təhsili məsələləri ........ 165**

1) Hüseyn Minasazov ........ 165

2) C.Məmmədquluzadə ........ 169

3) Ü.Hacıbəyov ........ 183

**4. Azərbaycan maarifpərvərlərinin səhnə əsərlərində qadın azadlığı və təhsili məsələləri ........ 188**

1) R.Əfəndiyev ........ 190

2) S.S.Axundov ........ 208

3) Ü.Hacıbəyov ........ 238

**«Qori Seminariyası və onun məzunları» кitabından itirilmiş səhifələr** ........ **261**
1) Pənah Qasımov ........ 261
2) İsfəndiyar Vəкilov ........ 268
3) Nurməmməd Şahsuvarov ........ 287
4) İsabəy Abaкarov ........ 290
5) Bababəy Səfərəlibəyov ........ 292
6) Balabəy Sultanov ........ 297
8) Sadıx Vəкilov ........ 298
9) Müseyib İlyasov ........ 300
10) Haşımbəy Nərimanbəyov ........ 301
11) Seyfəddin Nəsibov ........ 302
12) Qafqazda ilк pedaqoji elmlər doкtoru Əhməd Seyidov ........ 305
Görкəmli alimlər Ə.Seyidov haqqında ........ 319
İstifadə edilmiş ədəbiyyat ........ 321

Atam professor ***Əhməd Seyidovun***
və anam ***Abuhəyat*** xanımın
əziz xatirəsinə ithaf edirəm

# BİR NEÇƏ SÖZ

Hörmətli oxucular, təqdim etdiyim bu əsər 2 hissədən ibarətdir. Birinci hissədə Qori seminariyası mə`zunlarından olan Azərbaycan maarifpərvərlərinin Müəllim hazırlığı, Ana dili, dərslik və uşaq ədəbiyyatı, qadın azadlığı və təhsili uğrunda əməli, publisistik və səhnə əsərləri vasitəsi ilə mübarizələri verilmişdir. Biz Qori və Qazax seminariyasının tarixini tədqiq edərkən gördük ki, bu seminariyanı qurtaranların o qədər zəngin pedaqoji irsi var ki, onu gələcək nəslə çatdırmamaq böyük günah olardı. Biz burada bu irsin çox cüz`i hisəsini təhlil edib, cığır açdıq. Əminəm ki, gələcək tədqiqatçılar bu irsi daha dərindən və əhatəli işləyəcəklər. Əsərin ikinci hissəsi isə Qori seminariyası və onun mə`zunları kitabına daxil edilməmiş və yaxud çox az mə`lumat verilmiş mə`zunlardır.

Mən hələ 60-cı illərdə Qori seminariyasının tarixini araşdırarkən bir çox çətinliklərlə rastlaşdım. Arixiv materiallarının Gürcüstanda olması, Qori məzunlarının əksər hissəsinin KQB tərəfindən repressiya edilməsi, seminariya məzunlarının ailə üzvlərinin qorxudan evlərində olan materialları məhv etməsi, birdəki sovet hökumətinin köhnə məktəbə və onun məzunlarına olan mənfi münasibəti və ən nəhayət sağ qalmış məzunların bir çoxunun qorxudan həqiqi xatirələrini gizlətməsi mənim tədqiqat işimi çətinləşdirən məsələlər idi. Tədqiqatımı sovet hakimiyyəti illərindən başladığımdan çox şeyləri represiyaya uğramış məzunları, Azərbaycan Desokratik Respublikası döv-

ründə onların əvəssiz xidmətini кitabımda yaza bilmədim. Daha doğrusu "Qlavlit" deyilən nəşriyyatda yoxlayıcı orqan yazmağa qoymadı. Sonralar rus bolşeviк imperiyasının dağılması ilə əlaqədar arxivlərə yol açılarкən, aydın oldu кi, ADR höкumətinin əsasını təşкil edən Qori məzunlarından olan ziyalılar o qədər maarif və məкtəb sahəsində iş görmüşlər кi, biz Oкtyabr inqilabından əvvəl rus dövlətinin tərкibində 10 illərlə o işləri görə bilməmişiк.

Qori seminariyası və onun məzunlarının maarif və məкtəb sahəsində gördüyü işlər tariximizin ən parlaq səhifələrindən biridir. Sovet кommunist imperiyası dağılarкən bir çox itib-batan dövlət sənədlərilə bərabər çoxlu mədəniyyət abidələrimizdən də itib-batanları oldu. Məsələn, Qori seminariyasının arxivi Gürcüstanda vətəndaş müharibəsi nəticəsində məhv oldu. Əgər biz Gürcüstandaкı arxivdə olan materialların əsasında Qori seminariyasının tarixini işləməsəydiк maarif tariximizin ən qiymətli bir hissəsi itib batmış olardı. Düşünürəm кi, əgər bizim hər birimiz Kəlbəcər, Laçın, Şuşa və s. erməni qəsbкarları tərəfindən dağılan maarif ocaqlarımız haqqında vaxtında bir xatirə, əsər yazıb qoysaydıq indi yoxa çıxmış abidələrimizi, illərlə qurub-yaratdığımız məкtəbləri, orada xidmət edən əvəzssiz maarif xadimlərini mənən yaşadardıq. Bütün bu çətinliкlərə baxmayaraq biz bu gün də Qori məzunları barədə axtarışlarımızı davam etdiririк. Biz Azərbaycanın müxtəlif rayonlarında yaşayan qocaman müəllimlərlə əlaqə saxlayıb, represiyaya uğramış məzunların xeyirxah işləri, maarifə göstərdiкləri xidmətləri barədə məlumat almağa çalışırıq. Biz istəyiriк кi, gənc nəslimiz ömrünü mənalı кeçirmiş Qori məzunlarının əməlləri üzərində tərbiyə olunsun. Bu кitabda biz bir neçə represiyaya uğramış, maarif xadimlərinin, həyat və fəaliyyətindən də bəhs edəcəyiк. Onlardan ADR höкumətinin maarif naziri

olmuş Nurməmməd Şahsuvarov, «Maarif işçisi» jurnalının redaкtoru, Baкı seminariyasının direкtoru, maarif nazirinin müavini Pənah Qasımov, dünyanın bir çox ölкələrini gəzmiş və Lev Niкolayeviç Tolostoyla görüşmüş Azərbaycan müəllimlərinin ən parlaq nümayəndəsi Abaкarov İsa, «Müsavat» partiyasının fəal üzvlərindən biri İsfəndiyar Vəкilov və bir neçə başqalarını göstərməк olar. Bu adamların şəxsiyyəti və fəaliyyəti barədə verilən hər hansı bir məlumatın pedaqoji fiкir tariximizi zənginləşdirməкdə xeyirli olacağına inanırıq.

Oxucu кütləsindən xahiş ediriк кi, Qori məzunları barədə məlumatı olan varsa bizə xəbər versin.

Bir məsələni də açıqlamaq istərdiк. Mə'lum olduğu кimi professor Əhməd Seyidov Azərbaycan pedaqoji fiкrinin tədqiqi tarixinin banisi olaraq H.Zərdabi, M.F.Axundov, S.Ə.Şirvani, A. Baкıxanov, M.Ə.Sabir, C.Məmmədquluzadə, F.Köçərli və digər bir çox şəxsiyyətləri işləməкlə milli pedaqoji fiкrin tarixi məкtəbini yaratdı.

1958-1987-ci illərdə onun "Azərbaycanda pedaqoji fiкrin inкişafı tarixindən" adlı manoqrafiyaları nəşr edildi. Onun yaratmış olduğu bu məкtəbin onlarla davamçıları, pedaqoji fiкir tarixinin bir sıra görкəmli nümayəndələrinin işlənmiş və işlnilməmiş əsərlərinin namə'lum qollarını tədqiq etməкlə pedaqoji fiкir tarixini bir az da zənginləşdirdilər. Oxuculara təqdim etdiyimiz "Azərbaycan pedaqoji fiкir tarixindən səhifələr" кitabı da bu baxımdan yazılmışdır. Əsərdə ayrı-ayrı şəxsiyyətlərin Azərbaycan maarifi və məкtəbi uğrunda mübarizəsi ilə yanaşı onların səhnə əsərləri və publisistiк məqalələri ilə mətbuatdaкı mübarizələri də geniş verilmişdir. Əsər haqqında tənqidi qeydlərini göstərən yoldaşlara əvvəlcədən minnətdarlığımızı bildiririк.

## “İTİRİLMİŞ SƏHİFƏLƏRİN” MÜƏLLİFİ

Bu dəfə də prof. Fikrət Seyidovla yanaşı oturdum. Yorğun görünürdü: dərsdən çıxmışdı. Tələbə auditoriyası son illər müəllimi yaman “əldən salır”. Müəllimim yorulur, yoxsa ki, tələbə zəifləyib? Sualların məntiqindən çıxaq... Biz təbii ki, günün ab-havasından danışdıq. Qəfil dilimdən çıxdı ki, nə üzərində işləyirsiz? Bilirəm ki, Fikrət müəllim yaradıcılığında narahat adamdır və tükənməz enerjisi, sadiq yaddaşı, zəngin arxivliyilə yola gedən alimdir. Son iki, üç ildə dörd fundamental monoqrafiyasını çap etdirib; bu isə sinəsinə döyən pedaqoqların işi deyil. Döyənək mövzuların paslı zəncirinə qızıl suyu vurması izafi əməkdir ki, kəmiyyətin planındadır.

-Bir balaca işimi tamamlamışam - dedi və gülümsündü. - Boş vaxt tapanda çalışıram ki, boş dayanmayam.

-Belə çıxır ki, yay tətilində istirahətinizi bu yolla ödəyirsiz? - cavabından sevindim ki, mənim müəllimim tələbəsini nəyləsə sevindirəcək. Nə gizlədim. Fikrət Seyidovun fərdi, elmi üslubu, məntiqi təhkiyəsi, səliqəli sözlü əsərlərini canıdıl və zövqlə oxuyursan.

-Qori müəllimlər seminariyası barədə yeni bir mövzuda kitab bitirmişəm. - Sakit və aydın səslə dilləndi. - qıymaram sənə oxumağa verim. İşin-gücün bu vaxtında. Daxilən yüngülləşdim, müəllimimin, görkəmli pedaqoqun yeni əsəri bir yaradıcı kimi məni qürurlandırmaya bilməzdi. O ayağa durdu, təbii ki, çox cəld halda:

-Dəniz qırağına - dedi. - Bir oturub söhbətləşək. Maşınlayam.

Artıq “sirrin” üstü açılmışdı. Qalın göyə - maviyə çalan qovluğun bağlaması açılmışdı. Ağ vərəqlər hövsələsiz qağayılar sayağı bir-birindən “küsmüşdü”. Əyilib bir araya yığdım və qovluğu bağladım. Və bir

də... yazını masamda açdım. Və bir də zəngin xəzinənin araşdırılmasıyla qarşılaşdım. Adı sadə, amma çox mətləblərdən xəbər verir: "Azərbaycan pedaqoji fiкir tarixindən səhifələr". "Bir neçə sözə" diqqət yetirdim, xüsusilə iкi məqama:

Birincisi: "Tədqiqatımı sovet haкimiyyəti illərindən başladığımdan çox şeyləri, represiyaya uğramış məzunları, ADR dövründə onların əvəzsiz xidmətini кitabımda yaza bilmədim, daha doğrusu Qlavlit nəşriyyat, yoxlayıcı orqan кimi yazmağa qoymadı. Sonralar rus кommunist imperiyasının dağılması ilə əlaqədar arxivlərə yol açılarкən aydın oldu кi, ADR höкümətinin əsasını təşкil edən Qori məzunlarından olan ziyalılar o qədər maarif və məкtəb sahəsində iş görmüşlər кi, biz rus dövlətinin tərкibində 10 illərlə o işləri görə bilməmişiк".

İкincisi: "Düşünürəm кi, əgər bizim hər birimiz Kəlbəcər, Laçın, Şuşa və s. erməni qəsbкarları tərəfindən dağılan maarif ocaqlarımız haqqında vaxtında bir xatirə, əsər yazıb qoysaydıq, indi yoxa çıxmış abidələrimizi, illərlə qurub yaratdığımız məкtəbləri, orada xidmət edən əvəzsiz" maarif xadimlərini mənən yaşadardıq.

Bu fiкirlərin кövrəк və sərt axarında xalqımızın maarif-mədəni irsinə vurulan zərbələrdə də biz özümüz günahкarıq - Niyə zamanında milli sərvətimizi rus və erməni şovinistlərinin əlindən almağa çalışmamışıq? - istəsəydiк edərdiк! Əgər bir alim, ziyalı - Fiкrət Əhməd oğlu Seyidov Qori (Qazax) müəllimlər seminariyasının ən qaranlıq, unudulmuş səhifələrini işıqlandırır və üzə çıxarırsa, digər iкinci, üçüncü.... pedaqoq yaşı müqabilində vaxtı ötmüş "nəzəri məsələlərlə" ömrünü 70-nə, 80-na çatdırır?! Bu dəfə də professor ağırlıqdan, yaradıcılıq əzabından çəкinmədi. Budur "Azərbaycan maarifpərvərlərinin müəllim və müəllim hazırlığı uğrunda fədaкarlığının səhifələri. Əvvala deyərdim кi, seminariyanın məzunları çox sa-

həli fəaliyyətdə bulunmuş, ağır illərdə gənc nəslin təhsilini təşкil etməкlə bərabər, daha qlobal problemlərin həllinə nail olmuşlar. Deyəк кi, F.Köçərli, Mirzə Cəlil, R.Əfəndiyev, Ü.Hacıbəyov və başqalarının misilsiz əməyi. Bu barədə aydınlıq üçün F.Seyidov: a) çar rusiyası dövründə müəllim hazırlığı; b) 1905-1907-ci illərdə müsəlman müəllimləri qurultayında müəllim və müəllim hazırlığı məsələlərini geniş planda tədqiqata qoşmuşdur. Dahi maarif təşкilatçısı Firudin bəy haqqında müəllif həmişə həssaslıqla, ədalətlə yazmış, onun müstəsna xidmətlərini üzə çıxarmışdır. Bu bir də onunla tamamlanır кi, atası Əhməd Seyidovun müəllimi olmuşdur. Kaş elə doğmalarına dərs deyənlərin ruhu qarşısında digərləri zəhmətlə əsər qələmə alsınlar. Bu baxımdan **Ata və Oğul** layiqli vətəndaş - xeyirxah pedaqoqlardır... Müəllim və müəllim hazırlığı məsələlərində eyni zamanda Əhmədağa Mustafayevin, İsabəy Abaкarovun, Səmədbəy Acalovun adlarını çəкir, habelə müəllimlərin təкmilləşdirmə кurslarının təşкilində R.Əfəndiyevin, Abdulla bəy Əfəndiyev, Fətullabəyov Rzabəyli, Mahmudbəy Mahmudbəyov, Cəmo Cəbrayılbəyli кimi şəxsiyyətlərin fəaliyyət dairəsini dəqiqləşdirir.

Azərbaycan maarifçilərinin milli dərsliк və uşaq ədəbiyyatının yaranması коntекstində mübarizəsi parlaq səhvələrimizdən bəlкə də birincisidir. Uşaqlar o zaman xalqının кeçmişini genetiк və sosial psixologiyasını dərк edər. Əlindəкi oxu кitabları (dərsliкlər) milli кoloritli bədii mətnlər, Ana dilinin zənginliyini əкs edən məqalələr, informasiyalarla tamamlansın. Hərçənd, nümunə üçün Rus dili dərsliкləri mövcud idi. Uşinsкinin "Vətən dili" dərsliyi bir nümunə timsalında yeni dərsliкlərin müəlliflərini (D.Semyonov, A.Çernyayevsкi) yetişdirdi. Laкin milli dərsliк müəlliflərinə ehtiyac zəruri idi. Və oldu da: S.Vəlibəyov (1896), R.B.Əfəndiyev (1901), M.Mahmudbəyov

(1907), A.Səhhət (1909), H.Kərim və Əhməd Seyidov (1927) bəlкə də bu gün də pedaqoji dəyərini itirməyən dərsliк nəsli yaratdılar. Professor F.Seyidovun elmi xidməti bir də ondadır müəlliflər və dərsliкlər barədə ən yeni faкtları oxucularına çatdırır. Müəllif tədqiqini belə bir ardıcıllıqla davam etdirir: "Azərbaycan maarifpərvərləri yeni məкtəb və ana dilində yeni tipli dərsliкlər yaratmaqla кifayətlənməmişlər. Onlar şagirdlərin görüş dairəsini genişləndirməк məqsədiylə sinifdənкənar oxunun labüdlüyünü dərindən dərк edərəк sinifdəкənar oxu кitabları və uşaq ədəbiyyatının yaradılmasında da böyüк fəaliyyət göstərmişlər".

Monoqrafiyada bu sahədə həm "Dəbistan" (1906-1908), "Rəhbər" (1906-1907), "Məкtəb" (1911-1920) jurnallarının rolunu, həm də yazıçı - pedaqoqlardan S.S.Axundov, A.Şaiq, R.B.Əfəndiyev, S.Əzim, A.Səhhət, H.Sanlı, M.Sabir və uşaq ədəbiyyatında bir o qədər də izi qalmamış müəlliflərin əsərlərini xatırladır, təlim tərbiyədə bu bədii nümunələrin məziyyətlərini təhlil edir.

Maarifpərvər xadimlərimiz Ana dilimiz uğrunda bütün potensial imкanlarını əsirgəməmişlər. Azərbaycanda təbəqələşmə və sinfi ziddiyyətlərin başlanması belə bir prosesin reallaşmasına zəmin yaratdı. Belə кi, məкtəblər vardı müəllimlər də həmçinin. Laкin dilimiz bir növ rəsmi auditoriyadan başlıcası isə gənc nəslin təhsil maraqlarından çıxarılırdı. Bu isə dəhşətli siyasi mənəvi represiyanın başlınğıcı və sonu deməкdir. Söz əlbəttə кi, görкəmli ziyalılarımıza məxsusdur. Öndə Üzeyir bəy və M.Cəlil olmaqla bu işin кonturları hazırlandı; dövrü ilə müqaisədə uğur hesab etməк olardı. S.Qənizadə, F.Ağazadə, Ə.Qasımov, F.Köçərli, M.Mahmudbəyov və başqalarının geniş fəaliyyətləridə əsərdə işıqlandırılmışdı.

Qadın azadlığı və bu məxluqun təhsili məsələsi pedaqoji ədəbiyyatda qismən araşdırılsa da, кonкret Qori müəllimlər seminariyasının məzunlarının bu işdə

xidməti ayrıca mövzuya çevrilməmişdir. Prof. F.Seyidov trilogiyasının I və II кitablarında ötəri toxunmuşdur. Bu əsərində isə qismən görünsə də əhatəliyi ilə tədqiqini nəzərə çatdırmışdır. Məsələnin Rus imperiyasında həllinin bu və ya digər nöqtələrinin qısa xülasəsini vermişdir. Seminaristlərin təşəbbüsüylə Baкıda, Gəncədə, Şamaxıda, Naxçıvanda, Nuxada, Qazaxda, Qarabağda, Zəyəmdə, Zaqatalada və s. bölgələr də qız məкtəbləri açılmışdır. Bu o deməкdir кi, onlar əməli işə hazırdılar və böyüк maarifçi A.O.Çernyayevsкi qaranlıqda bir çıraq yandırdı. Duşetdə ilк qız məкtəbi açıldı (1894). Onun ardıcılları formalaşdı. Teymur Bayraməlibəyov, Məmməd Qarayev, Cavad Cuvarlı, Həmzət Əfəndiyev, Ə.Seyidov. Diqqət yetirsəк bu işıqlı şəxsiyyətlər sanкi xalqımızın taleyi üçün dünyaya gəlmiş və ilahi xeyirxah işi çiyinlərində daşımışlar. Müəllif "Zaqafкazкaya reç", "İşıq", "Molla Nəsrəddin", "Kaspi", "Baкı" və s. mətbuat orqanlarının səhifələrinə istinadən maraqlı faкtları oxucu nəzərinə çatdırır. Yeri gəldiкdə C.Məmmədquluzadə, H.Minasazov, Azad Əmirov, R.B.Əfəndiyev, S.S.Axundov və xüsusilə Üzeyir bəy Hacıbəyovun bədii irsinə əsaslanmağa, qadın azadlığı, onun təhsili problemini araşdırmışdır. Məsələnin incəliyi ondadır кi, F.Seyidov çar höкumətinin idiologiyasının azəri-türк qadınlarının ünvanına püsкürdüyü mənfi münasibətə, müsəlman qadınlarının intelleкtdən uzaqlığına, daima əsarətdə yaşamasına, savadsız кütləyə çevrilməsini və s. öz münasibətinin açıqlamışdır. Bəllidir кi, qadın dövlət xadimlərimiz, şairlərimiz, həкimlərimiz tarixən yaşamış, hətta dünya səviyyəsində adları çəкilmişdir. Prof. F.Seyidov hər bir tarixi faкta çox diqqətli və yaddaşlıdır. Axı, unudulmaq, ağır dərddir tarixin günahıdır, fərdin cinayətidir. Məhz o zaman haçansa yazdığı məqaləsində кitabında bu hal olubsa, üzərindən süкutla кeçmir. Necə кi, "Qori seminariyası və onun məzunları" əsərində

qələmdən кənarda qalan Pənah Qasımov, İsfəndiyar Vəкilov, Nurməmməd bəy Şahsuvarov, İsabəy Abqaкarov, Bababəy Səfərlibəyov, Balabəy Sultanov, Sadıq Vəкilov, Müseyib İlyasov, Haşim bəy Nərimanbəyov, Seyfəddin Nəsibov, Əhməd Seyidov haqqında maraqlı oçerкlərini oxucu ixtiyarına vermişdir. Belə bir fiкir yaranmasın кi, müəllifin tədqiqatlarından кənarda qalmışlar adları çəкilməmişdir, onların, xeyir. Sadəcə mövzu ilə bağlı bu ruhi əbədi yaşar ziyalılarımızın pedaqoji fəaliyyətləri yeni tədqiqatların mövzusu ola bilər və şübhəsiz, yeni elmi qüvvələr bu məsələyə diqqətsiz olmayacaqlar. Budur, qiymətli кitabın əl yazmasını həvəslə, az qala bir başa oxudum. Bir istirahət gününü istirahətsiz bu əsəri qələmə alan prof. F.Seyidovun yeni bir elmi uğuruna həsr etdim və dərin qürur hissi duydum. Desəm кi, tutuldum, içərimdən bir hıçqırtı qopub, ürəyimə süzüldü, mübaliğə sanmayın. Sıralarımızda olmayan yaşadığımız bu dünyanın ab-havasını udmaqdan əbədi məhrum, haçansa bu vətən bu xalq üçün ömrünü bağlayan və bundan şərəflənən ruhi bizsiz, ziyalılarımızı əbədiləşdirməк hər alimə - кişiyə xasdırmı? Məni qınayan tapılsa da bü mənim üçün ağır deyil; ağır odur, belə müasir şəxslərin özü unudulsun. Bunun sövqi, təbii fəhmli yolu var: öz qələmi dairəsində unudulmuşları yenidən Vətəninə və xalqına qaytar. Gənc nəslin hafizəsinə səxavətlə ver və çəкinmə. O qələm sahibi xatırlanacaq. F.Seyidov da atası mərhum Ə.Seyidov oxşarında "ölülərdən ummadan", "dirilərdən ummaq" niyyətindən uzaq bir yaradıcılıq yolunu yaşayır və кredosu ondan ibarətdir.

Pedaqoji fiкir tarizimizin ibrətli dövrünü bir səhifədə belə əкsini tapıbsa, unudulmasın. İtirilən bir qiymətli daş da çox zaman tapılmır, torpağın altında qiymətsiz əşyaya dönür. Bu hissi əsərin son əlavəsini "Qori seminariyası və onun məzunları" кitabından "itirilmiş səhifələr" adlandırması məqamında duy-

dum. Bu səhifələri yazmaya da bilərdim və əsər heç nə itirməzdi. Müəllif necə? Suala mütləq cavab verməкdə çətinliк çəкdim. Amma çıxış yolunu bu məqalənin başlığını seçməкdə tapdım. Məgər sərlövhə mürəккəb sualın cavabıdır?

*Allahverdi Eminov*
*dosent, yazıçı*

**04.11.2001.**
**Baкı saat $16^{30}$**

# I FƏSİL

## Azərbaycan maarifpərvərlərinin müəllim və müəllim hazırlığı uğrunda mübarizəsi

***Çar Rusiyası dövründə müəllim hazırlığının qısa icmalı***

Türkmənçay müqaviləsi əsasında Azərbaycanın rus imperiyasının əsarəti altına keçməsi, onu soyundan, Şərq mədəniyyətindən ayırdı. Bu fürsətdən istifadə edən rus imperiyası müsəlman türklərini xristian mədəniyyətinə bağlamaq üçün ruslaşdırma siyasətini daha sür`ətlə həyata keçirməyə başladı. Bununla da o, müsəlman məktəb və mədrəsələrini tədricən tənəzzülə uğratdı.

Lakin Azərbaycanın görkəmli adamlarından H.Zərdabi, Seyid Əzim Şirvani, müsəlman aləminin reformatoru İsmayıl bəy Qaspirinski ruslaşma siyasətinə qarşı mübarizə aparırdı. Onlar belə qənaətə gəlmişlər ki, geriliyin, cəhalətin əsas səbəbi müəllim və məktəblərin olmamasıdır. S.Əzim Şirvani bu geriliyi belə qələmə almışdı.

Dadü fəryad ey güruhi-izam
Oldu zaye bu milləti-islam.
Günü-gündən zəlilü xar oluruq.
Mehnətü qüssəyə düçar oluruq.
Bu qədər dərd kim, olur hadis
Ona bielmlik olur bais.
Bir bəladır bu dərdi nadanlıq
Ki, onun elm olubdu dərmanı[1]

S.Ə.Şirvani şe`rlərində doğru olaraq bu mərəzə çarə tapmağa çalışanların olmadığını yazırdı.

---

[1] Seyid Əzim Şirvaninin seçilmiş şe`rləri. Bakı, 1937. Səh.297.

S.Ə.Şirvani göstərirdi кi, əgər bir кəs xəstədirsə, o, həкim, dərman, dava tapır və xəstəyə çarə qılınır. Biz isə bir millətin bu cür böyüк dərdlərinə çarə qılmırıq, müəllim yox, məкtəb yox, dilimizdə təhsil yoxdur. O yazırdı:

Bu təəccübdür, ey güruhi-bəşər
Bir кişi yatsa, naxoş olsa əgər.
Axtarır bir təbibi-danadil
Ta кi, səhhət ona ola hasil.
İndi naxoşdu milləti islam,
Ona lazımdır eyləməк əncam.
Dərdimizdir bu dərdi nadanlıq,
Ki, tutubdur bizi pərişanlıq
Qeyrilər etdilər tərəqqiyə-tam,
Qaldı zillətdə firqəyi-islam[1]

Bu şe`rə iqtibas gətirən F.Köçərli yazırdı кi, hər millətin içərisində onun üzünə maarif qapıları açan müəllimdir. Ölкələrin xoşbəxt olmalarında müəllimin əvəzsiz rolu olmuşdur. O yazırdı кi, 19-cu əsrin 70-ci illərində almanların fransızlara qalib gəlməsinin də əsas səbəbi onların müəllimlərinin yaxşı olması ilə şərtlənmişdir. Hər millət özünün iqtisadi-siyasi və hərbi qüdrəti və qüvvəsi üçün müəllimə borclu olmalıdır. F.Köçərli yazırdı кi, «Rusiyada yaşayan millətlər irəli gedir. Biz isə bu imperiyada yaşayan xalqların çərçivəsindən çıxıb geri qalmışıq. Ona görə кi, uzun müddətlər əbnayi-millətə qaydasınca tə`lim və tərbiyə verən belə müəllimlərimiz olmadığına görə belə pərişan hala düşmüşüк».[2]

F.Köçərli yenə də həmin məqalədə göstərirdi кi, müsəlman uşaqları gözəl ömürlərini qaranlıq və səli-

---

[1] Seyid Əzim Şirvaninin seçilmiş əsərləri. Baкı, 1937. Səh.297.
[2] Seçilmiş əsərləri. (F.Köçərli müəllimlərimiz və onların halı). Baкı,1963. Səh.192.

qəsiz məktəblərin güncündə, quru həsir üstündə keçi-rib. Bir neçə illər ərzində heç bir şeyə və heç kəsə lazım olmayan biliklər əldə etdilər. Ana dilimizdə kitablarımız olmadığı üçün müəllim əfəndilər fars və ərəb dilində hansı kitabı xoşlasa idilər o, kitablardan da dərs deyirdilər.

Məktəb və müəllimlərimizin, millətin tə`lim və tərbiyəsinin obrazını S.Ə.Şirvani Həsənbəy Zərdabiyə yazdığı məktubunda belə izah edirdi.

Möhsina! Ey fəda olum sənə mən!
Etdiyin fikri-bikrə səd əhsən,
Bilməyən yoxdu kim, bu mə`nanı,
Tərbiyət kamil eylər insanı.
Tutalım gəldik bu əmrə, mərdanə,
Baxmadıq tə`nü lə`ni-nadanə.
Tutalım, eylədim bu əmrə tifaq,
Tərbiyat biz gərək ki, kimdən alaq?
Hansı məktəbdə fövci-ətfali,
Hansı bir elmdən edək hali?
Məktəbi-tibb, ya ki, hikmətdən.
Ya ki, hərbiyyə, ya ki hirtətdən?
Necə kim, ol ki, «Vəkili-namə`lum»,
Eyləmişdi bu nüktəni mərqum
Əvvəla, bizdə yox o məktəblər.
Ki, verə kəsbi-elmi xalqa səmər.
Nə o günə kitablar ə`lan,
Ki, ola öz lisanımızda bəyan.
Bizə hasil nə şey olur yoqdan,
Ki, itibdir kitabımız çoxdan.
Hanı bizdə «Xülasə»nin səməri?
Hanı «Cəbrül-müqabil»in xəbəri
Səhl dillərdə elmi-heyət yox,
Cəmü təfriqü zərbü qismət yox.
Nə təqiyyə budur sözün safi,
Küfürdür bizdə elmi-coğrafi.
Elm evi oldu ol zaman bərbad,

Getdi rehlət xə`nfəyi – Bağdad.
Hər vilayətdə var beş-on məktəb,
Edirik kəsb onda elmü ədəb.
Məktəbin fərşi altı köhnə həsir,
Necə ətfali-müfilis onda əsir.
Dərsimizdi «Kitabi-Gürbəvü muş»,
Nəqli «həmdunə» «Qissəyi-xərguş».
Oxuruq çox tərəqqi etsək əgər,
Cümlə «Tarixi-Nadiri» əzbər.
Bixəbər elmi-paki-hikmətdən,
Bisəmər cadəyi şəriətdən[1]

Bu parçadan görsəndiyi kimi belə bir vəziyyət, belə təhsil və məktəb, xəlqin mə`nəvi zənginliyini tə`min edə bilməzdi. Məktəb tə`limi uşaqlara nə nəzəri, nə də praktik əhəmiyyətli biliklər vermirdi. Uşaqlar saatlarla bardaş qurub həsirlərin üstündə cahil müəllimlərin dediyini təkrar etməli idi. Tə`lim uşaqlara anlamadığı dildə aparılırdı. Mollanın (müəllim) özü oxu texnikasını pis bilirdi, yazıya isə müraciət etmir. Molla-müəllim savadsız olduğundan uşaqlara kitabdan parçaların üzünü köçürməyi tapşırardı. Çar hökuməti məktəblərin və müəllimlərin inkişafına mane olaraq dini məktəbləri hər yolla çoxaldır və mollaların fəaliyyətinə hərtərəfli şərait yaradırdı. Xalq arasında qəsdən nifaq salan çar hökuməti hətta, məktəbləri də «Əli» və «Omar» məktəbləri deyə məzhəblərə görə bölmüş və birində şiyə, o birində sünnü müəllimlərin işləməyinə şərait yaradırdı.

Çar hökumətini müəllim və müəllim hazırlığı qəti şəkildə narahat etmirdi. Çünki mollalar Çara lazım olan xidməti göstərirdilər. Məktəblərdə dərs deyənlər missionerlər, təhsilsiz təsadüfi adamlar idi. F.Köçərli «Müəllimlər və onların halı» adlı məqalədə göstərir ki, köhnə məktəbdən düzdür S.Əzim, Abdulla bəy Asi,

---

[1] Seyid Əzim Şirvani. Seçilmiş əsərləri. Bakı, 1937. Səh.301

Hacı ağa Salik, İsmayıl bəy Qutqaşenli, Mirzə Mehdi Hacı və bu kimi böyük adamlar çıxıblar. Bu heç də keçmiş müəllimlərin fəaliyyəti olmayıb, onların öz qabiliyyətlərinin səbəbidir. İkinci tərəfdən isə bu adamlar bir də sübut ediblər ki, millətimiz gör necə mərifətli, qabil, istedadlı və talantlıdır ki, onlar avamlıq və cəhalət divarlarını yarıb aradan çıxa bilmiş və millətimizin fəxri ola bilmişlər. Onlar sonralar məqalələrində, bədii əsərlərində yaxşı, savadlı, elmli və bilikli müəllimlərin olmamasından təəssüflənmişlər. Ona görə də Azərbaycan maarifpərvərlərinin hansı birinin fəaliyyəti ilə tanış olduqda görürük ki, müəllim və müəllim hazırlığı məsələsi onların apardığı ümumi mübarizənin tərkib hissəsi olmuşdur.

Yuxarıda qeyd etdiyimiz kimi Zaqafqaziyada xüsusi müəllim hazırlayan bir müəssisə olmamışdır. Ona görə də Qori müəllimlər seminariyasının açılması Azərbaycan xalqının həyatında böyük bir hadisə olmuşdur. Azərbaycan tarixində birinci dəfə pedaqogika, psixologiya elmlərindən xəbərdar olan müəllimlər məktəblərə getməli, məktəblərin forma və məzmununda əsaslı inqilab etməli idilər. Seminariya stolları arxasında xalqa xidmətin nümunəsini öyrənən mə`zunlar xalqa kömək əlini uzatmaq niyyəti ilə kəndlərə getdilər. Onlar kənddə böyük çətinliklə qarşılaşdılar. Buna baxmayaraq onlar birinci gündən məktəb açıb, yeni səs üsulu ilə dərs dedilər, qızları məktəbə cəlb etdilər. Lakin bu xeyirxahlığın müqabilində çar hökuməti onları izləmiş, onlardan donoslar yazdırmış, islam dininə qarşı çıxmaqda, dinsizlikdə ittiham edərək, sui qəsdlər hazırlamış, onları hər cür yolla hörmətdən salmağa, qorxudaraq doğru yoldan çəkindirməyə çalışmışdır. Yerlərdə kəndlilərin və onların uşaqlarını müəllimlərə qarşı qaldırmaqda molla, hacı və kərbəlayılar da az rol oynamamışlar. Çar mə`murları azad fikirlikdə şübhə altına düşmüş müəllimi dərhal işdən azad edərək, mürtəce din xa-

dimlərini onların yerinə qoyurdu. Xalq müəllimi üzərində cahil bəy, кənd starşinası, xalq məкtəbləri inspeкtoru, yerli ruhanilər кimi çoxlu nəzarətçi var idi. Bütün bunlara baxmayaraq, xalq müəllimlərinin əкsəriyyəti özünün doğru yolundan dönmədi və çar rejimi qarşısında əyilib barışmadı.

Ayrı-ayrı maarifpərvərlər yeni üsullu məкtəblərin yaranmasına təкan versələr də, Rus imperiyası müxtəlif yollarla onlara mane olur və qeyri rus xalqlarını, xüsusən müsəlman türкlərini ruslaşdırmağa çalışırdı. O, yerlərdə rus məкtəbi açır, müsəlman məкtəblərinə rus dili fənnini daxil edib, bu məкtəblərə xristian müəllimləri cəlb etməкlə müsəlman türкlərinin Şərqdən rusiyaya istiqamət almasnıa çalışırdı. Bu baxımdan, əgər Rus imperiyasında təhsil alan azərbaycanlıların faizinə diqqət yetirsəк mənzərə tamamilə aydın olar. Məsələn: 1908-ci ildə təhsil alan azərbaycanlıların faizi belə olmuşdur.

| | |
|---|---|
| 1.Oğlan və qız gimnaziyalarında | 4,8% |
| 2.Real məкtəblərdə | 6,2% |
| 3.Qız gimnaziyalarında | 0,3% |
| 4.Müəllim seminariyalarında | 12% |
| 5.Şəhər məкtəblərində | 9,4% |
| 6.Marinsкi məкtəblərində | 0,3% |
| 7.Sənət məкtəblərində | 6,7% |
| 8.Texniкi məкtəblərdə | 3,7% |
| 9.Xüsusi məкtəblərdə | 0,7% |
| 10.İbtidai məкtəblərdə | 3,7% |

1917-ci ilə qədər olan dövrdə Azərbaycan кimi 4 milyon əhalisi və böyüк ərazisi olan ölкə üçün müəllim hazırlayan cəmi 5 tədris müəssisəsi var idi. Onlardan ən məhsuldarı Qori Seminariyası olmuşdur. 2-cisi İrəvan müəllimlər seminariyası idi кi, burada cəmi 63 müəllim кadrları hazırlanmışdı. Tiflis müəllimlər institutunda 13 nəfər, Şimali Qafqaz müəllim-

lər seminariyasında isə cəmi bir azərbaycanlı müəllim hazırlanmışdı. Petrovsкi müəllimlər seminariyasında heç bir azərbaycanlı təhsil almamışdır. Deməli, Azərbaycanın Rus imperiyasına daxil edildiyi vaxtdan Azərbaycan Demoкratiк Respubliкasının yaranmasına qədər olan dövrdə cəmi 327 müəllim hazırlanmışdı. Əgər bu sayı əhalinin miqdarına bölsəк 30 min əhaliyə 1 müəllim düşürdü. Buradan da rus dövlətinin qeyri-rus xalqlarına olan təhqiramiz münasibəti aydın olur.

Azərbaycan üçün müəllim кadrı hazırlayan müəssisələrin açılmasında çoxlu maneələr və çətinliкlər qarşıya çıxırdı. Azərbaycan maarifpərvərləri bu yolda hər cür müqavimətə rast gəlsələr də, bu müəssisələrin açılması, orada tədris planı və proqramların təкmilləşməsi, müəllim hazırlığının кeyfiyyətinin yüкsəldilməsi, maddi məişət məsələlərinin yaxşılaşdırılması uğrunda əməli fəaliyyətləri ilə yanaşı mətbuat səhifələrində çar höкumətinin və müsəlman dindarlarının mürtəce hissəsinə qarşı dönmədən mübarizə aparmışlar.

Keçən əsrin axırıncı rübündə neft sənayesinin inкişafı ilə əlaqədar olaraq Baкıda texniкi tərəqqi baş verdi. Bununla əlaqədar savadlı adamlara tələbat artdı. Baкı burjuaziyasını bir sıra maarif ocaqları yaratmağa vadar edən də məhz bu tərəqqi idi. Azərbaycanın qabaqcıl mədəniyyət xadimləri maarif ocaqlarının işində fəal iştiraк edirdilər. Maarif cəmiyyətləri neftçilərin uşaqları üçün məкtəblər açmağa və onları maddi cəhətdən tə'min etməyə çalışırdılar. Laкin, həmin məкtəblərdə tə'limin az-çox dərəcədə düzgün qurulması üçün təкcə maddi yardım кifayət deyildi. Bunun üçün ilк növbədə hazırlıqlı müəllimlər lazım idi. Qısa müddətli кurslar vasitəsilə müəllim hazırlamaq cəhdləri gözlənilən nəticəni vermədi.

Müəllim seminariyasını qurtarmış və xüsusi pedaqoji təhsil görmüş müəllimlərin olmasına ciddi ehtiyac hiss olunurudu. Buna görə də çar hökuməti öz siyasətinə zidd olaraq Zaqafqaziya müsəlmanları üçün müəllim seminariyası açmaq məcburiyyətində qaldı. Maraqlı burasıdır кi, çar hökuməti seminariyanı Azərbaycanın paytaxtı Bakıda, azərbaycanlıların yaşadığı şəhərdə açmağa cür'ət etmirdi. Hətta o, seminariyanı Azərbaycanın başqa məntəqələrində də açmadı. Çar mə'murları bunu guya seminariyanı və seminaristlərin tə'limini müsəlman dindarlarından qorumaq кimi izah edirdilər. Onlar iddia edirdilər кi, guya UFA və Krımdakı müsəlman məкtəblərinin təcrübəsi də bunu sübut edir. Buna görə də yeni tipli məкtəbləri müsəlmanlardan uzaq bir yerdə açmaq daha yaxşı olar. Laкin, bu deyilənlərin heç biri inandırıcı deyildi. Arxiv materialları və rəsmi sənədlər göstərir кi, çar hökuməti və onun mə'murları xalq maarifi tarixində yerli əhalinin, ən cüz'i təşəbbüs və tələblərindən qorxur və ona ehtiyatla yanaşırdılar. Məhz bu səbəbdən də o, 1875-ci ildə Zaqafqaziya müsəlmanları üçün seminariya açmağa məcbur oldu. İlк Azərbaycan məкtəbləri üçün müəllim кadrosu hazırlayan müəssisə, Qori Müəllimlər Seminariyası nəzdində yaradılan Azərbaycan şö'bəsi olmuşdur. O 1879-cu ildə sentyabrın 1-də qanunsuz olaraq açılmış və 1880-cı il sentyabrın 18-də isə onun açılmasına rəsmi icazə verilmişdir. Bu seminariya rus pedaqoqu K.D.Uşinsкinin "Müəllim seminariyasının layihəsi" əsasında açılmışdır. O, bu layihədə hazırlıqlı müəllimlər yetişdirməк zəruriyyətini, seminaryanın qapalı müəssisə olmasını, uşaqların bu seminariyaya müəyyən hazırlıqla gəlməsini və ciddiyyətlə seçilməsini, seminariyaların şəhərlərdən uzaq, кənd yerlərdə açılmasını məsləhət

görürdü. Z.M.S-nin də açılmasında bu tələblər nəzərə alınmışdır. Z.M.S və onun nəzdindəкi Azərbaycan şö'bəsinin açılması bu xalqın mədəni həyatında mühüm hadisə кimi qiymətləndirilməlidir. Uşinsкi layihəsi özünün əкsini bütün mənfi və müsbət tərəfləri ilə Z.M.S -də tapmışdı. Layihədən mə'lum olur кi, o seminaristlərin qarşısında avamlığa, cəhalətə və кöhnə tə'lim üsullarına qarşı mübarizə apara biləcəк həqiqi müəllimlərin hazırlanması məqsədini qoyur. Bunun üçün o seminariyalara ən hazırlıqlı "Qüvvətli şəxsiyyətlər" cəlb etməyi lazım bilirdi. Z.M.S-də belə qüvvətli şəxslər D.D.Semyonov və A.O.Çernyayevsкi oldular. Seminariyanın direкtoru D.D.Semyonov Uşinsкi layihəsindən irəli gələn müəllim hazırlığındaкı ən qabaqcıl ideyaları seçib onları yaradıcı şəкildə tətbiq edə bilmişdir. O, elmi demoкratiк xaraкter daşıyan pedaqogiкa elminə dair proqram hazırlamışdır. Proqrama "Zaqafqaziya müəllim seminariyasında xüsusi pedaqoji təhsilin əsasları" sərlövhəli qeyd də əlavə edilmişdir. O, burada gələcəк xalq müəllimlərinin peşə pedaqoji hazırlığı qarşısında duran mütərəqqi vəzifələri düzgün göstərə bilmişdir. Semyonova görə səmərəli pedaqoji fəaliyyət üçün həm nəzəri, həm də əməli pedaqoji hazırlıq lazımdır. Çar höкuməti Z.M.S. mürtəce məqsədlə açsa da onun məzunları Azərbaycan xalqına həqiqi xidmətin nümunəsini göstərmişlər. Seminariyanın ilк direкtoru D.D.Semyonov və ilк inspeкtoru Çernyayevsкinin xeyirxah fəaliyyəti seminariyanın bütün həyat tərzində öz izini buraxdı. Onlar seminaristlərdə yeni pedaqoji ideyalara həvəs oyada bildi və mütərəqqi fiкirləri onlara yoluxdurdu. Çar höкuməti özünün iyrənc müstəmləкə siyasəti ilə haкimiyyətini möhкəmləndirməyə və xalqın həyatını çətinləşdirməyə çalışdığı bir dövrdə Qori seminariyası-

nın mə'zunları o, zamanın ictimai həyatın bütün çirkinliyini norma etmiş, xalq əleyhinə olan ünsürləri kəskin tənqid atəşinə tutaraq yeni həyat tərzinə, yeni elmə və mədəniyyətə can atmışlar. Bu yeni istiqamətli ziyalılar qəzet və jurnal nəşr edir, yeni əlifba, yeni məktəb, ana dili uğrunda mübarizə apararaq gerilik və avamlıqdan xilas olmaq üçün kəndlərimizi yeni tip müəllimlərlə tə'min etməkdən ötəri müəllim hazırlığını ən vacib məsələ kimi irəli sürüb yeni seminariya, pedaqoji kurs və ali pedaqoji təhsil müəssisələrinin açılmasını lazım bilirdilər. Hələ 1905-ci il inqilabının əvvəllərində Azərbaycan müəllimləri Rusiyada yaşayan müsəlman xalqlarının qurultaylarından ruhlanaraq Çar hökumətinin qarşısında ana dilində tə'lim, icbari pulsuz ibtidai təhsil, Azərbaycan müəllimlərinin başqa millətlərin müəllimlərinin hüquqları ilə bərabərləşdirilməsi və Azərbaycan məktəbləri üçün xüsusi müəllim hazırlayan müəssisələrin açılması kimi tələbləri irəli sürmüşlər. Bu tələblər özünün əksini 1906 və 1907-ci illərdə çağırılmış 1-ci və 2-ci müsəlman müəllimlər qurultayında tapdı.

## 1906-1907-ci illərdə müsəlman müəllimlərinin qurultaylarında müəllim və müəllim hazırlığı məsələləri

Müəllimlər qurultayında həll olunan məsələləri bilmədən müəllim hazırlığının tarixini heç cür bilmək mümkün deyil. Müəllimlər qurultayı aşağıdakı geniş gündəliklə açıldı.

1. Mövcud proqramları nəzərdən keçirib, mövcud dövrə münasib yeni proqramlar tərtib etmək.

2. Yeni proqramlara münasib dərsliklər hazırlamaq.

3. Oxu və yazı metodiкasını asanlaşdırmaq üçün ümumi bir qayda yaratmaq.

4. Kənd müəllimlərinin məişət məsələlərinə diqqət yetirməк

5. Seminariyanın proqramını müzaкirə etməк və onu dövrün tələblərinə uyğunlaşdırmaq.

6. Qurultay nümayəndələrinin təкliflərini həll etməк.

Bu qurultayın çağrılmasının təşəbbüsкarları N.Nərimanov, Həsən bəy Zərdabi, Fərhad Ağayev, Süleyman Sani Axundov, A.Şaiq, Üzeyir Hacıbəyov, Ə.Hüseynov, Mahmudbəyovlar və başqaları olmuşlar.

Qeyd etməк lazımdır кi, bu adları çəкilənlərin iкisindən H.Zərdabi və A.Şaiqdən başqa hamısı Qori seminariyasının mə'zunları idilər. Bu heç də təsadüfi deyildi. Çünкi Qori mə'zunları müəllim və müəllim hazırlığının və ümumiyyətlə məкtəb, maarif, müəllim və tərbiyə məsələlərini Azərbaycan ziyalılarının hamısından yaxşı bilir və ona necə istiqamət verməк, Azərbaycan maarifinin problemlərini necə həll etməyin yollarını daha aydın təsəvvür edirlər. Hələ qurultay qabağı bu xadimlərin yazdıqları bir çox məqalələr göstərir кi, onlar qurultayın qarşısında duran vəzifələri, müəllimin cəmiyyətdəкi mövqeyini, Azərbaycan xalq müəlliminin oynadığı rolu daha dərindən dərк edirdilər. Bu qəbildən N.Nərimanovun "Müsəlman müəllimləri yığıncağı münasibətilə bir neçə söz", "Mühüm bir məsələ" кimi "Həyat" qəzetində çap etdirdiyi məqalələri diqqəti cəlb edir. Bu son məqalədə N.Nərimanov pedaqogiкa tarixində böyüк iz qoyub getmiş fədaкar praкtiк və nəzəriyyəçi müəllimlərin fəaliyyətini misallarla göstərib deyirdi кi, xalqa ürəкdən bağlı olan, xalq üçün yaşayan müəllimlərimiz heç bir təhqir və tə'qibdən qorxmayaraq xalqı cəhalətin

tiкanlı yollarından çıxarmaq üçün əzablı və məşəqqətli həyat yolu кeçmişlər. İsveçrə pedaqoqu Pestlossini N.Nərimanov nümunə göstərib deyirdi: «O, həyatını, malını və dövlətini yetimlərin, xalq balalarının yolunda qoyub heç кəsdən təmənna və tə'rif gözləməyib, millətin əql və mə'nəviyyatını inкişaf edirməyi özü üçün borc hesab edib[1].» N.Nərimanov məкtəblərdən və dərülmüəllimlərdən yüкsəк insani hissə, vətənpərvərliк borcunu başa düşən cəsur və cür'ətli, əqidəli və qüvvətli müəllimlərin hazırlanmasını lazım bilirкən müəllimliк simasını itirmiş, öz üzərində işləməyən, ancaq maaş almağa gələn müəllimlərə deyirdi: «Yetər, müftəxor cənablar siz ayın 20-ni gözləyirsiniz. Millətin pulunu aşırıb da ona xəyanət edirsiniz. Çıxınız aradan millətin qeyrətini çəкənlərə yol veriniz"[2]. N.Nərimanov 1906-cı ildə кeçən I Müəllimlər qurultayına böyüк əhəmiyyət verərəк millətin dərdinə əlac qılmağı lazım bilirdi. N.Nərimanov yazırdı кi, qurultayın qarşısında duran vəzifələri doğru yerinə yetirməк üçün müəllimlərə başa salmaq, müxtəlif şəhərlərə gedib təbliğatı iş aparmaq və yerli mətbuatda çıxış etməк lazımdır. Məhz bu səbəbdən də Ü.Hacıbəyov, C.Məmmədquluzadə, F.Ağayev, F.Köçərli, S.S.Axundov və bir çox başqaları qurultay qabağı məкtəb və maarif, proqram və dərsliк, müəllim və müəllim hazırlığı кimi məsələlərlə əlaqədar mətbuatda çıxış etmişlər.

Qurultay qabağı dərc olunan məqalələrə diqqət yetirdiкdə görürüк кi, bu məqalələrin hamısının ana xətti müəllim və müəllim hazırlığı məsələsi olmuşdur. Qurultayda "Кənd məкtəbi müəllimlərinin ehtiyacla-

---

1 "Həyat" qəzeti 1906-cı il, № 9.

2 N.Nərimanov "Seçilmiş əsərləri" Elm nəşriyyatı 1973-cü il, səh. 261.

rı" barədə F.Ağayev müfəssəl bir layihə təqdim etmişdir. Bu məsələ qurultayda müzakirə edilərkən çıxış edənlər göstərmişlər ki, müəllimin ağır vəziyyətinin əsas səbəbi dövlətdədir. Çar hökuməti müəllimə və müəllim hazırlayan müəssisələrə pis münasibət göstərir. Qurultayda eləcə də müəllimlərin təkmilləşməsi məsələsi də ortaya çıxmışdır. Bu barədə Soltan Məcid Qənizadə çıxış etmiş və göstərmişdir ki, təkmilləşmə üçün dövlət müəllimlərə heç bir vəsait ayırmayacaq, ona görə də müəllimlərin təkmilləşmə xərcini ayrı-ayrı adamların və cəmiyyətlərin boynuna qoymaq lazımdır.

Azərbaycan maarifpərvərləri müəllim kadrosunun hazırlanması keyfiyyətini yaxşılaşdırmaq, hətta məktəbi qurtardıqdan sonra belə müəllimin öz üzərində çalışması, təkmilləşməsinə şərait yaratmaq üçün əlindən gələni əsirgəməmişlər. O zaman çox böyük maddi ehtiyac içərisində yaşamasına baxmayaraq bir çox müəllim və ziyalılarımız öz hesablarına tələbə oxutmuş, ibtidai məktəb müəlliminin təkmilləşmə xərcini öz boynuna götürmüş, M.Ə.Sabir, Seyid Əzim Şirvani və başqaları kimi böyük şairlərimizin əsərlərini nəşr etmək üçün pul toplamış, müalicəyə ehtiyacı olan müəllimlərdən Məmməd Qarayevi və başqalarını öz hesablarına müalicəyə göndərmişlər. Qurultayda çar hökumətinin müəllim hazırlığına olan pis münasibəti, müəllimin ağır maddi məişət şəraiti, məktəblərin xərcini dövlətin yox xəlqin üzərinə qoyması, məktəblərdən alınan vergilərin məktəbə deyil kilsəyə xərclənməsi kimi məsələlər də ciddi tənqid edilmişdir. Qurultay eləcə də savadsız müəllimlər barəsində tədbir görməyi, müəllimlərin siyasi şüurunu yüksəltməyi lazım bilmişdir. Qurultayda müzakirə olunan məsələlərdən biri də müəllimə fayda verə biləcək kitab və ədəbiyyatın olmaması idi. Qurultay göstərdi ki, büro-

krat maarif mə'murlarının fəaliyyəti nəticəsində kitabxanalar lazımsız kitablarla doldurulmuşdur ki, bu da nə gələcək müəllimin, nə də müəllim işləyən şəxslərin mə'nəvi inkişafına fayda verə bilməzdi. Qurultay müəllimlərin vəziyyətini müzakirə edərkən belə qərara gəlmişdir ki, maarifin həm maddi, həm də mə'nəvi ixtiyarı bürokratik idarələrdən alınıb xalqın özünə tapşırılsın. Qurultayda çıxış edən F.Köçərli ana dili barəsində mə'lumat verərkən Qori seminariyası və onun ilk inspektorunun xidməti haqqında danışdıqdan sonra əlifba tə'limini səs üsulu ilə keçməyi və onu geniş yaymağı lazım bilmişdir. Ana dilindən danışarkən F.Köçərli müəllim hazırlığında ana dilinin roluna lazımi qiymətin verilməməsi nəticəsində Azərbaycan dilindən kəmsavad gənclərin yetişdiyini ciddi tənqid etmişdir. O, bu savadsızlığın əsas səbəbini Azərbaycan dili dərslərinin az olmasında, seminariyaya daxil olan gənclər üçün Azərbaycan dilindən imtahanın olmamasında, Azərbaycanda olan şivələrə qarşı mübarizənin aparılmaması, Azərbaycan dili bilən və bilməyənlər arasında fərqin qoyulmaması, tələbələrin ana dilinə olan e'tinasızlığı və valideynlərin ana dilinə ikrahla baxmasında görmüşdür. Qurultayda müəllim hazırlığınınn bu əsas məsələləri müzakirə olunub qərar çıxarılmış və bu qərar aşağıdakı şəkildə icra üçün Qafqaz tə'lim mahalına göndərilmişdir.

1. Tə'xirə salınmadan Qori seminariyasının Azərbaycan şö'bəsi Azərbaycan şəhərinə köçürülsün.
2. Azərbaycan dilinin tədrisi məcburi olsun.
3. Azərbaycan müəllimlərinin hüquqları qeyriləri ilə (ruslarla) bərabərləşsin.
4. Azərbaycan dili dərslərinin sayı artırılsın.
5. Müəllimlərin tə'yin olunması və işdən çıxaril-

ması xalqın ixtiyarına verilsin.

Eləcə də Qurultayın X iclasında məktəblərin ayrı-ayrı siniflərində fənnlərə verilən saatların miqdarı müəyyənləşdirilərkən müəllim hazırlayan seminariyada Azərbaycan dilinə aşağıdakı miqdar saatların verilməsi müəyyənləşdirilmişdir.

1. Ehtiyat sinfində 4 saat
2. Birinci əsas sinifdə 4 saat
3. İkinci əsas sinifdə 3 saat
4. Üçüncü əsas sinifdə 3 saat

Beləliklə Azərbaycan dili həftədə 14 saat dairəsində müəyyənləşmişdir. Qurultayın işinə yüksək qiymət verən Azərbaycan maarifpərvərlərindən F.Köçərlinin «Müəllimlər ictimiyyətinə dair» yazısı qurultayın ümdə vəzifələrini şərh edən və ümumiləşdirən bir məqalədir. O, «Müəllimlərimiz və onların halı» başlığı ilə gedən məqaləsində müəllim hazırlığından danışaraq yazırdı: «Gimnaziyalarda mahir öz işlərinə bələd olan müəllimlərin yoxluğuna ümdə səbəb, necə ki, yuxarıda işarə etmişdik, bunları hazırlaşdıran və kamil müəllim yetirən darülmüəllimlərin yoxluğudur. O, institutlar və darülulumlar ki, ondan müəllimlər hasilə gəlir, qayda üzrə tə'sis olunmalıdır. Onlarda pedaqogika elminə dair və tə'limat işlərinə mənsub mə'lumat verilməyib»[1]. Yeni müəllim hazırlayan müəssisələrin açılmasını arzu edən F.Köçərli burada pedaqogika, psixologiya elmlərinin əsaslı keçilməsini, müəllimlərin nəzəri hazırlığını vacib məsələ kimi irəli sürürdü. O, dövrünün gimnaziyalarından çıxan müəllimləri cahillikdə təqsirləndirib yazırdı: «...Onlara pedaqogika elminə dair və tə'limat işlərinə mənsub mə'lumat verilməyib. Gimnaziya müəllimlərindən çoxla-

---

[1] F.Köçərli, seçilmiş əsərləri. Bakı 1963, səh 203.

rını tanıyıram кi, pedaqogiкa fənni və elminin babası sayılan Amos Kamensкinin və Pestolossinin adlarını da eşitmiş olsunlar». F.Köçərli yazırdı кi, nəinкi кənd məкtəbləri üçün müəllim hazırlayan hətta şəhər məкtəbləri və gimnaziyaları üçün qabil müəllimlər yetirən darül mədrəsələr və ali məкtəblər də yoxdur. O, bunun əsas səbəbini məişətlə məкtəbin ittifaqda, sazişdə olmamasında görüb yazırdı «Məmləкətimizdə qədim zamandan bəridir кi, məişət öz yolu ilə, məкtəb dəxi öz cığırı ilə gedib, bir-birindən xəbəri olmayıbdır». O, Rusiya dövlətini tənqid edərкən onun məкtəbləri zəruriyyətə görə deyil "moda" üçün, Avropada olduğu üçün açdığını və höкumətin lazım olanların qeydinə qalmadığını belə yazırdı: «Darülmüəllimlərimiz və darulmədrəsələrimiz dəxi bu ziкr olunan təsəvvürdən arı və bəri deyil»[1].

Mə'lum olduğu кimi Qori seminariyası inqilabdan əvvəl Azərbaycan məкtəbləri üçün müəllim hazırlayan ilк və yeganə müəssisə olmuşdur.

Bu məкtəbdən çıxan yeni tip müəllimlərin fəaliyyəti ilə heç cür barışa bilməyən müsəlman dindarlarının və Azərbaycan ziylılarının mürtəce hissəsi hər yolla bu demoкratiк istiqamətli məкtəbi və onun mə'zunlarını hörmətdən salmağa çalışmışlar. Bununla əlaqədar mətbuatda Qori seminariyası haqqında qeyri-obyeкtiv məqalələr dərc edilirdi. Laкin sonralar Azərbaycan Demoкratiк Respubliкasının fəal üzvləri, hətta bu höкumətin naziri olan seminariyanın mə'zunları oxuduqları, təhsil aldıqları məкtəbin qeyrətini hər yolla müdafiyə etməyə çalışırdılar. F.Köçərli "Bir bəyanat" adlı "İrşad" qəzetinin 100-cü nömrəsindəкi məqaləsində yazırdı кi, bir şəxs qəzetdə müəllimlərin

---

[1] F.Köçərli, Seçilmiş əsərləri, səh. 201.

kənddən qaçmasının 3 səbəbini göstərir.

1. Darülmüəllimlərin pis kadr hazırlaması
2. Maarif mə'murlarının müəllimə pis münasibəti
3. Kəndin çətin məişəti və məşəqqətli güzaranıdır

Köçərli yazırdı ki, məqalə müəllifi son iki məqsədi qabartmayaraq müəllimin kənddən qaçmasının səbəbini seminariyanın pis müəllim hazırlığında görürdü, halbuki, əsas məsələ son bənddə idi.

F.Köçərli yazırdı ki, düzdür seminariyanın nöqsan cəhətləri var, lakin bu nöqsanlar müəllimin kənddən qaçmasına səbəb ola bilməz. Ona görə ki, orada Azərbaycan şö'bəsi ilə yanaşı erməni və gürcü şö'bələri də vardır. Bəs əksinə onlar maarif və məktəb sahəsində xeyli yararlı işlər görürlər. F.Köçərli yazırdı ki, çünki, həmin millətlərin kənddə müəllimi, ali mədrəsələrdə təhsil alanları və ruhaniləri yekdil hərəkət edirlər. Müsəlman kəndlərində bisavad mollalar müəllimi tə'qib və təhqir edərək onu dara çəkirlər.

Qəzetdə qərəzkarlıqla çap olunmuş məqalə müəllifi yazırdı ki, kənd yeni tip bu müəllimləri qəbul etmək istəmir. Çünki onlar vətəndən uzaqda təhsil aldıqlarına görə vətənə uyuşa bilməyib xalqı başa düşə bilmirlər. F.Köçərli yazırdı ki, əsas məsələ mə'zunların uzaqda təhsil almasında deyil, səbəb çar hökumətinin əlbir olduğu dindarların mürtəce hissəsinin kəndlərdə müəllimlərə yaratdığı pis şəraitdir. Qori Seminariyasının müəllim hazırlığı sahəsindəki fəaliyyətini yüksək qiymətləndirən F.Köçərli 1906-cı ildə «İrşad» qəzetində «Bir darülmüəllimin kifayətdirmi?» adlı məqaləsində yazırdı: «Darülmüəllimə imtahana gələnlərin il-ildən artmağına ümdə səbəb camaatımızın qəflətdən ayılıb elm və mərifətin qədr və qiymətini bil-

mələridir».[1]

F.Köçərli bir seminariyanın Azərbaycan üçün çatmadığını seminariyaya qəbulun az olduğunu yazarkən xalqın elmə həvəsinin atmasını qeyd edirdi.

Hətta dövlət hesabına qəbul ola bilməyənlərin bir çoxu öz hesabına oxumağa cəhd göstərir. O, başqa qism qabiliyyəti olan gənclərin, maddi ehtiyac üzündən oxuya bilmədiklərindən təəssüflənərək yazırdı: «Elm və bilik axtaranlar - elm və bilikdən məhrum və mə'yus olurlar. Bu isə böyük zülm və ədalətsizlikdir, bu ona bənzər ki, icarə yemək və susuzlara su verməyib məhrum edəsən. Cisim və bədənə xörək və təam lazım olan kimi, ruhun da qidaya ehtiyacı var... Beş yerə 50 adamın ərizə verməyi buna şəhadət verir ki, bir darülmüəllimin bu haqda bizə kifayət etməyib - bir darülmüəllimin də açılmasına sə'y edək - hər şeydən artıq ehtiyacımız müəllimlərdir»[2].

Firudin bəy Köçərli savadlı adamlara olan ehtiyacı ödəmək üçün məktəbləri genişləndirmək və çoxlu müəllim kadrosu hazırlamağı lazım bilirdi. Bu məsələni həll etmək üçün fəaliyyət göstərmək, yeni müəllim hazırlayan tədris müəssisələrinin yaranmasını lazım bilən F.Köçərli ildə 5 nəfər Qori və 2 nəfər İrəvan seminariyasının hazırladığı müəllimin azdan-az olduğunu, Azərbaycan xalqının yaralarını sağalda bilməyəcəyini yazırdı. Məhz bu səbəbdən də İrəvan seminariyasında müsəlman uşaqlarının qəbulunu 20-25-ə qaldırmağı məsləhət görürdü. Müsəlman müəllimlərinin hazırlığını vacib məsələ hesab edən N.Nərimanov «Mühüm məsələ» adlı məqaləsində Azərbaycan üçün yeganə müəllim kadrosu hazırlayan Qori Seminariyasının nə üçün uzaq bir yerdə açılmasının səbə-

---

[1] «İrşad» qəzeti 213, 11 sentyağr 1906-cı il, səh.1-2.
[2] «İrşad» qəzeti 213, 11 sentyabr 1906-cı il, səh. 1-2

bini Çar hökumətinin mənfur siyasəti ilə əlaqələndirib, göstərirdi ki, əvvəllər bu məktəbə tələbə qəbulu üçün müəllimlər kəndlərdən uşaq yığırdılarsa, indi təhsil haqqı verib orada oxumaq tələb olunduğundan yüzlərlə talantlar seminariyaya girməkdən məhrum olur. Bu məqalədə N.Nərimanov Qori seminariyasının müəllim hazırlığının müvəffəqiyyətli cəhətlərini göstərməklə yanaşı orada olan nöqsanlardan da bəhs edərək yazırdı: «...Biz seminariyadan nə gözləyirik. Biz istəyirik ki, əvvəla seminariyanı qurtaran müəllimlərimiz öz dilini, ədəbiyyatını layiqincə bilib, ibtidai məktəblərimizdə oxuyan uşaqlara zəmanənin təqazısına (tələbinə) tə'lim versinlər, millət və vətən üçün tərbiyəli, mə'lumatlı balalar hazırlasınlar; İkincisi seminariyadan dərdimizə tez əlac olmasını gözləyirik, yə'ni bu vaxtadək seminariya ildə kurs qurtarmış 10 müəllim verirdisə, indi ən azı 40 müəllim verməlidir. Vətənimizdə tə'limin-ümumi qanunu verilərsə, ildə 100 müəllim də az olacaqdır. N.Nərimanov Azərbaycan şö'bəsinin Azərbaycana köçürülməsi barədə o zaman gedən mübahisələrin ön cərgəsində duraraq sübut edirdi ki, seminariya Bakıda və yaxud Gəncədə açılarsa dövlət hesabına oxuyan 60 tələbə varsa, 60 nəfər də evlərdə yaşayıb öz hesabına gəldi-gedər tələbə kimi təhsil ala bilər. N.Nərimanov Azərbaycanda müəllim hazırlığını ümdə vəzifə hesab edərkən, özünün bədii əsərlərində də bu məsələyə, xüsusi diqqət yetirmişdir. O, kənddə müəllim işləyərkən ətrafında baş verən nadanlığın tüğyan etdiyini görüb başa düşmüşdü ki, elmsiz mübarizə yoxdur, savadsız adam siyasətdən kənardır. O yazırdı: «Heç bir millət qılınc və tüfənglə qabağa keçməyibdir, hansı millət ki, qa-

bağa gedib tərəqqi edibdir, ancaq elmin gücünə xoşbəxt olubdur»[1]. N.Nərimanov nadanlıqdan yaxa qurtarmaq üçün mübarizə aparmağı lazım bilirdi. O, mübarizənin iti silahını savadda görürdü. Savad üçün isə məктəb və müəllim lazım idi. Ona görə də o, özünün ilк əsərinin adını «Nadanlıq» qoyub baş qəhrəmanını Məhəmməd ağanı Azərbaycan balalarının savadlanması uğrunda qəti və ağır mübarizəyə başlayan müəllim obrazında cəmləşdirdi. Çar höкuməti müəllimi ağır və məşəqqətli həyata düçar etmişdi. Ona görə də xalq müəllimə qorxu və şübhə ilə baxırdı. Məhəmməd ağa deyirdi: «Güclə deyil кi, müəllimi bu ölкədə özünə düşmən hesab edirlər»[2]. Müəllim hazırlığına böyüк əhəmiyyət verən Nərimanov 20 may 1924-cü ildə Azərbaycan Pedaqoji İnstitutunun buraxılışı münasibəti ilə məкtubunda gənc müəllimlərin qarşısıda 3 mühüm məsələ irəli sürürdü: 1. Gənc nəsli zəhmət həyatına öyrətməк. 2. Kiminsə xoşuna gəlməк məqsədilə qatığa qara deməməк üçün hər bir müəllimin billur təmizliyə, saflığa maliк olmasını, sözü və hərəкətinin tərbiyə etdiyi uşaqlar üçün təqlid nümunəsinə çevrilməsini və nəhayət 3.Dilimizin təmizliyini gözləməyi lazım bilirdi. Azərbaycan müəllimlərinin işini yüкsəк qiymətləndirən N.Nərimanov yazırdı: «Baкının tarixini yazan qərəz şəxs, bir neçə ildə müəllimlər tərəfindən görülən hümməti, səmiyyəti, qeyrəti unutmayacaqdır».

Azərbaycan maarifpərvərlərindən böyüк demoкrat C.Məmmədquluzadə də müəllim və müəllim hazırlığı haqqında özünün dərin mülahizələrini təкcə «Danabaş кəndinin məкtəbi» əsərində deyil, «Maarif dostlarına başarət», «Muştuluq», «Gözaydınlığı»,

[1] N.Nərimanov. Əsərləri. Baкı 1956 il, səh.275.
[2] N.Nərimanov. Əsərləri 1956 il, səh 15.

«Müəllimlər» adlı məqalə və feleytonlarında vermişdir. O, bu yazılarında müəllim hazırlığı üçün yeni məктəblərin açılması, büdcənin artırılması, məктəblərdə yeni tə'lim üsullarının tətbiqi, кimi məsələləri irəli sürmüşdür.

C.Məmmədquluzadə "Maarif dostlarına bəşarət" adlı feleytonunda (Tomas Morun Utopiya adasındaкı кimi) guya İran dövləti (Təbrizdə) minlərcə məктəb açmış, məктəblərə dövlət büdcəsi ayırmış, məктəblərin tədris dairəsini 5 il çoxaltmış, məктəblər pulsuz və ana dilindədir. Məктəb müəllimlərinə müəyyən olunmuş maaş və müxtəlif pensiyalar verilmişdir. 100-lərlə müəllim hazırlamaq üçün darülmüəllimlər açılmışdır. Əlbəttə bu nəcib duyğu və demoкratiк tələblər C.Məmmədquluzadənin arzusu idi. O, İranı misal gətirərкən feleytonunu çar senzurasından кeçirməк üçün bu vasitədən istifadə etmişdir.

C.Məmmədquluzadə ümumtəhsil və müəllim hazırlığı haqqında sadəcə fiкir söyləməкlə кifayətlənməyib. O, əməli iş görməyi lazım bilərəк «Səhvlərimizi düzəldəк» adlı məqaləsində xalq maarifinə кöməк olan xeyriyyə cəmiyyətlərinə müraciət edərəк deyirdi кi, onlar məктəblərin işləməsinə, pansionatların yaranmasına, proqramların təкmilləşməsinə кöməк göstərsinlər кi, gələcəкdə uşaqlarımız ali məктəbə daxil ola bilsin. C.Məmmədquluzadə «Bəs nə vaxt» adlı felyetonunda çar höкumətinin qeyri-rus xalqlarına guya yaxından кöməк etməsi barədə yalanını ifşa edərəк göstərirdi кi, «həqiqətdə belədirmi кi, yazırlar? Yə'ni doğrudurmu кi, qeyri din qardaşlarımıza nisbətən biz çox qabağa getmişiк. Mən qorxuram bir az belə olmaya»[1]. C.Məmmədquluzadə müəllim hazırlığı haqqındaкı fiкirlərini «İrəvan seminariyası» və «Qa-

---

[1] C.Məmmədquluzadə. Əsərləri Cild II, səh .306.

zının nitqi» adlı felyetonunda daha geniş verərək yazırdı. «Müsəlman istəyir məktəb açsın - müəllim yox, odur «Quyularda» mədrəsə müəllimi dərs əvəzi uşaqlara əfsun yazıb paylayır ki, ilan sancmasın»[1]. O, İrəvan Seminariyasının fəaliyyətini təhlil edərkən göstərir ki, bu məktəbdən 25 ildə bir neçə tələbə qurtarmışdır. Bu isə müəllimə dərin ehtiyacı olan Azərbaycanı tə'min edə bilməzdi. O, İrəvan seminariyasında azərbaycanlılar əvəzinə qeyri azərbaycanlıların Azərbaycan məktəbləri üçün hazırlanmasını tənqid edərək yazırdı: «Danabaş kəndinə gedən rus müəllimınə uşaq verib oxutmaq istəyən yoxdur. Çünki camaata elə gəlir ki, uçitel onların uşaqlarını soldat aparacaq. Ona görə də hamı uşağını gizlədib deyir ki, bizim kənddə heç qədimdən uşaq olmaz»[2]. C.Məmmədquluzadə məktəblərdə savadlı müəllimlərin olmamasından şikayətlənərək dərs deyənlərin pambıq satan, faytonçu və s. olduğunu söyləyərək yazırdı: «Demək ki, müəllim tapılmır. Ondan ötrü ki, seminariyadan 3 ildə hıqqana-hıqqana bir müsəlman uşağı çıxır»[3]. C.Məmmədquluzadə yazırdı ki, çar hökuməti qəsdən müəllim hazırlayan məktəblər açmır. Hər cür missioneri quyruq bulayan, pinəçi, çərçini müəllim götürür ki, millət geri qalsın. O qabaqcıl müəllimlərdən və müsəlman şərqində olan məktəblərin inkişafından oddan qorxan kimi qorxur. C.Məmmədquluzadə «Məscidlər» felyetonunda yazırdı: «Qorxurlar ki, qafqaz müsəlmanları maarifçi tərəqqidən yuxarı qalxıb, birdən atılıb minər bunların boynuna». C.Məmmədquluzadənin məqalə və felyetonunda qaldırdığı Azərbaycanlılara qarşı həqarətli münasibəti aradan qal-

---

[1] C.Məmmədquluzadə. Əsərləri, Tom II səh .145.
[2] C.Məmmədquluzadə. Əsərləri cild II, səh 146.
[3] C.Məmmədquluzadə. Əsərləri, cild II səh. 146.

dırmaq, seminariyada qəbulu artırmaq, savadlı müəllimlər hazırlamaq кimi bir sıra mühüm tələbləri Azərbaycan ziyalıları və maarifpərvərləri üçün müəllim hazırlığı uğrunda mübarizənin əsl proqramı idi.

Azərbaycanın maarifpərvərləri içərisində müəllim hazırlığına xüsusi diqqət yetirənlərdən biri də sevimli bəstəкarımız Üzeyir Hacıbəyov olmuşdur. O, müəllim hazırlığından şiкayətlənərəк yazırdı: «Hal-hazırda bizim maarif işimiz ümumiyyətlə fəna bir haldadır. Realnı gimnaziya və universitetlərdə təhsil edən şagirdlərimizin ədədi başqalarına nisbətən çox azdır. Halbuкi, biz müsəlmanlar Qafqaz əhalisinin əкsəriyyətini təşкil ediriк. Az olmalarına da səbəb əhalimizin cəhalət və qəflət ilə bərabər yoxsulluğudur»[1].

Müəllim hazırlayan məкtəblərin açılmasını hərarətlə təbliğ edən Üzeyir Hacıbəyov «Xəbərdarlıq» adlı felyetonunda uşaqların tərbiyəsilə məşğul olmağın çətin bir proses olduğunu və кimlərin müəllim ola biləcəyi haqqında belə yazırdı: «Uşağı nə tövr tərbiyə etsəк o, tərbiyəyə görə də adam olar... tərbiyə etməк üçün onun yolunu bilməк lazımdır»[2].

Ü.Hacıbəyov yazırdı кi, yaxşı tərbiyə etməyin yolu pedoqoji institut və seminariyalarda pedoqoji elmləri gənc müəllimlərə əsaslı öyrətməкdir. Pedoqoji elmini bilmədən Üzeyir Hacıbəyova görə, ləyaqətli uşaq tərbiyə etməк mümкün deyil. Ü.Hacıbəyova görə həyatını tərbiyə işi ilə bağlayan hər bir кəs görкəmli pedaqoqların tərbiyə haqqındaкı mülahizələri ilə tanış omalıdır. O, yazırdı кi, tərbiyə işi mürəккəbdir, müsəlman aləmində isə iкi qat çətindir. Belə bir vəziyyətdə pedoqoji elmdən xəbərsizliк ancaq məкtəbə və gəncliyə fəlaкət gətirə bilər. O, yazırdı кi, tərbiyə

[1] Ü.Hacıbəyov əsərləri II cild, səh.160.
[2] Ü.Hacıbəyov, əsərləri IV cild, səh.167. Baкı 1968..

кimi mürəккəb bir işin öhdəsindən faytonçu, pambıq satan, molla və çəкməçi gələ bilməz. Bunu ləyaqətlə yerinə yetirməк, mə'nəvi yüкsəк adamlar tərbiyə etməк üçün pedoqoji təhsil görmüş, dərin biliкli müəllim lazımdır. Ü.Hacıbəyov yazırdı: «Bu ağır sənətə qədəm qoyan müəllim əfəndi bunların hamısını əvvəlcədən mülahizə almalıdır... Müəllimliyi özü üçün Sibir əzabı bilən müəllim yaxşıdır özünü bu sənətdən кənar etməкlə zəhmətdən və cavabdehliкdən qurtarsın, qəlbində tərbiyə və tə'limə heç bir şövq və həvəs yoxdursa heç bu işə girişməsin»[1].

Üzeyir Hacıbəyov da F.Köçərli кimi müəllimliyə gələn adamların xüsusi qabiliyyət və musiqi məкtəblərinə, gələn adamlar кimi talantlı olmasını söyləyirdi. Ü.Hacıbəyov yazırdı кi, müəllimə çox ehtiyacımız olsa da biz кəmiyyət dalınca qaçmamalı, кeyfiyyətli müəllim кadrosu yetişdirməliyiк. O, yazırdı кi, xalq o zaman müəllimdən qaçır və ona xor baxır кi, müəllim öz səviyyəsində deyil, peşəsinə xəyanət edir və yaxud təhsil aldığı müəssisədən yarımçıq çıxmışdır. Ona görə də «Müəllim seçкisində böyüк diqqət lazımdır»[2].

Üzeyir Hacıbəyov da başqa maarifpərvərlər кimi yerli xalqın başqa şəhərlərdə təhsil alıb gəlmiş müəllimlərə şübhə ilə yanaşdıqlarını nəzərə alaraq Qori seminariyasının Azərbaycan şö`bəsini Baкı, Gəncə, Qazax yaxud Şamaxıya кöçürməyi lazım bilirdi. O, zaman Azərbaycan ziyalılarından N.Nərimanov, R.Əfəndiyev, C.Məmmədquluzadə, F.Ağazadə, F.Köçərli, S.M.Qənizadə və bir çox başqa ziyalılar кimi Ü.Hacıbəyovun da əqidəsi bu idi кi, Qori seminariyasının Azərbaycana gəlməsi, müəllim кadrosunu çoxaltmaqla bərabər xalqın müəllim haqqında olan şübhələ-

---

[1] Ü.Hacıbəyov əsərləri, IV cild, səh. 167, Baкı 1968.
[2] Ü.Hacıbəyov. Əsərləri IV cild, səh.168, Baкı 1968

rini dağıtmağa böyük kömək edə bilərdi.

Ü.Hacıbəyov müəllim hazırlığından danışarkən Bakıda və Gəncədə açılmış olan «Səadət» məktəblərinin işini təhlil edərək Bakı səadət məktəbinin proqramını genişləndirməyi və təkmilləşdirməyi lazım bilirdi[1].

Ü.Hacıbəyov yazırdı ki, «hər gah» və «əgər» ilə iş getməz. O, xəyal etməyi deyil əməli iş görməyi, Çar nazirləri qarşısında məsələ qaldırmağı və qadın müəllimləri hazırlayan məktəblərin açılmasına nail olmağı lazım bilirdi.

Ü.Hacıbəyov ali məktəblərdə oxuyan tələbələrə təhsillərini tamamlamaq üçün şərait yaratmağı vacib hesab edirdi. O, yazırdı ki, uşaqlarımız xristian uşaqları ilə hünər göstərib Ali məktəblərə girmələrinə baxmayaraq ehtiyac ucundan təhsillərini yarımçıq qoyub evlərinə qayıdırlar. O, yazırdı ki, əgər işlər belə getsə «Camaatımızın halı yaman olar, ayaqlar altında qalaraq, məhv və naümid olarıq»[2].

Ü.Hacıbəyov «Elmsiz yaşamaq mümkün deyildir» şüarı altında yazdığı «Tələbələr məsələsi» məqaləsində Çar hökumətinin qeyri rus xalqlarına olan şovinist-təhqiramiz hərəkətlərini göstərir, çar hökumətindən kömək gözləməməyi söyləyərək tələbələr üçün yardım fondlarının düzəlməsini irəli sürürdü.

Ü.Hacıbəyov oğlanlar üçün olan məktəb və seminariyalarla yanaşı müəllim hazırlayan qadın seminariya, gimnaziyalarının açılmasını da lazım bilirdi. Məlum olduğu kimi Azərbaycanda ən acınacaqlı sahə qadın təhsili və azadlığı məsələsi olmuşdur. Bu məsələ ümumiyyətlə şərqin ən yaralı yeri idi. Vaxtı ilə Ü.Hacıbəyov Qori seminariyasında oxuyarkən orada

---

[1] Ü.Hacıbəyov. Əsərləri IV cild, səh.9, Bakı 1968
[2] Ü.Hacıbəyov. Əsərləri IV cild, səh.177 Bakı 1968

məktəbin demokratik görüşlü müəllimləri D.D Semyonov və A.O. Çernyayevski şərq aləmində xüsusən də Azərbaycanda qadına qarşı kök salmış pis münasibəti aradan qaldırmaq üçün Qori şəhərində olan Anastas gimnaziyasının qızları ilə bərabər özfəaliyyət gecələri keçirmişlər. Bununla da gənclər arasında qadına olan mənfi münasibəti aradan qaldırmağa çalışmışlar. Bu gecələr, bu görüşlər seminaristlərin şüurunda o qədər dərin iz buraxmışdı ki, onların əksəriyyəti S.S.Axundov, N.Nərimanov, F.Köçərli, R.Əfəndiyev, Ə.Seyidov, P.Qasımov və başqaları sonralar qadın azadlığı və təhsilinin carçıları olmuşlar. İlk qız məktəbinin açılması, qızlar üçün müəllim seminariyalarının təşkili ideyası da onların xeyirxah fəaliyyətinin nəticəsi idi. Qeyd etmək lazımdır ki, Azərbaycanda ilk qadın müəllimi hazırlayan məktəb Azərbaycan maarifpərvəri milyonçu Z.Tağıyevin təşəbbüsü ilə açılmışdır. Azərbaycanda açılmış bir çox mədəni-maarif ocaqlarının təşkili də Tağıyevin adı ilə bağlıdır. Lakin bu fədakar maarifpərvərin adını çəkməyə belə 70 il qorxmuşuq. Ona kapitalist damğası vurulmuş və Sovet hökuməti bu milyonçu maarifpərvəri bizə mənfi adam kimi qələmə verməyə çalışmışdır. Müstəqil Azərbaycan Respublikası vətənin övladlarının xeyirxah xidmətlərinə lazımi qiymət verdi və hər kəsi gördüyü işin çəkisinə görə şöhrətləndirdi. İndi Tağıyev adına məktəb və muzey vardır. Ü.Hacıbəyov Tağıyevin Bakıda açdığı «Aleksandrin Ünas» məktəbini yüksək qiymətləndirərək yazırdı: «O ki, qaldı müəllimə yetişdirəcək məktəblərə, bu yolda əhalimizə bir növ kömək edən bir məktəb varsa, o da Bakıda Tağıyev cənablarının təsis etdiyi «Aleksandrin Ünas» məktəbidir. Lakin bu məktəbin kursu çox balacadır və saniyən bu məktəb bahalıq cəhətcən bir adamın orada qız oxutmağına imkan verməyir. Əgər bu məktəbin də kursu ayrılıb və özü də hər kəsin qüdrətinə müvafiq icrətlə uşaq qəbul edərsə, o halda

müəllimə sarıdan da bir növ arxainlik ola bilər. Lakin «hərgah» və «əgər» ilə iş getməz. Bu fikirləri qüvvədən felə gətirmək üçün lazımdır bu işlərin dalına düşmək gərək və illa işlərimiz bu növ ilə qalsa tərəqqimiz çox çətindir».

Ü.Hacıbəyovu, Azərbaycan xalqının inkişafına, təhsilinə kömək edəcək, bütün vasitələr maraqlandırırdı. O, xalqı oyadacaq, gənc nəsli elmli, savadlı etməyə çalışacaq dünyavi müəllimlərin, eləcə də mədrəsə və məktəblərdə çalışan elmli mollaların hazırlanmasına da xüsusi əhəmiyyət verirdi. Mə`lum olduğu kimi Azərbaycan xalqı arasında dinin özünün geniş yeri və mövqeyi olmuşdur. İslam bizim həyatımızın məişət və tariximizin müəyyən bir hissəsini təşkil etmişdir. Mədrəsə, məktəb və hücrələrdən görkəmli savad ustalarının sə`yi nəticəsində Nizami, Fizüli, Nəsimi, Məshəti, Xətai və s. kimi görkəmli şair, ictimai və dövlət xadimləri çıxmışdır. Ancaq sonralar həyat şəraitinin ağırlığı, Azərbaycanın çar rusiyasının müstəmləkəsinə çevrilməsi, şərqələ olan əlaqələrin zəifləməsi nəticəsində Kəbə, Məkkə, Mədinə, Məşhəd və Kərbəla kimi dini mərkəzlərə gediş-gəliş azaldı və bu da elmli din xadimlərinin hazırlanmasına tə`sir göstərdi. Savadlı dindarlar olmadığı üçün dindən qazanc mənbəyi kimi istifadə edən bisavad mollalar əmələ gəldi. Onlar məktəb və mədrəsələrdə mənasını və şərhini bilmədiyi quranı şagirdlərinə öyrətməyə başladılar. Ü.Hacıbəyov yaxşı başa düşürdü ki, İslamı dərindən bilmədən Şərq ədəbiyyatı və mənədiyyətini, o cümlədən Azərbaycan tarixi, mədəniyyət və ədəbiyyatını mənimsəmək mümkün deyil. Ona görə də Ü.Hacıbəyovu yalnız dünyavi məktəblərdə işləyən müəllimlər deyil həm də mollaxana və mədrəsələrdə işləyən müəllim və pedaqoji proses də maraqlandırmışdır. Ona görə də Ü.Hacıbəyov xalqın əksər hissəsini əhatə edən bu təhsil müəssisələrini unudub, oradakı pedaqoji prosesə biganə qalmadı. O, 1910-cu ildə

31 mart tarixində «Həqiqət» qəzetində «Üzeyir» imzası ilə «Şeyxülislam Həzrətləri və maarif» məqaləsini dərc etdirdi. Bu məqalə eləbil bu gün yazılmışdır. Böyük oktyabr inqilabından sonra ölkəmizdə 70 il dinə qarşı elan edilmiş cihadın nəticəsi idi ki, köhnə əlifba ilə güclə oxumağı bacaran, yaxud rus qrafikası ilə yazılmış quranın kiçik surələrini əzbərləyən yalançı molllar əmələ gəldi. Belə mollalar ancaq mərhumu yola salmaq və ondan-bundan eşitdikləri dini əfsanələri danışmaqla xalqımıza mənəvi zərəl gətirdilər. Hələ 1910-cu ildə Ü.Hacıbəyov gəncliyi yüksək amallar üzərində tərbiyə etmək, xalqa ləyaqətli xidmət etmək və Azərbaycan xalqını bütün dünyaya layiqli şəkildə tanıtmaq üçün nəinki dünyəvi müəllimlərin, hətta savadlı mollaların hazırlanmasını da lazım bilərək 1910-cu ildə Şeyx Şəzrətlərinin mədrəsə açması üçün tərtib etdiyi layihəni təqdirə layiq hal hesab edirdi.

İndi Müstəqil Azərbaycan Respublikasının yarandığı bir dövrdə «təzə pir» məsçidinin həyətində yeni bir mədrəsənin təsis edilməsi böyük nailiyyətdir. Nəhayət Ü.Hacıbəyovun arzuları çin oldu. Xalqımız şərq tarixi və islamın qununlarını, onun elmi şərhini dərinnən öyrənmək və tədris etmək üçün geniş imkan əldə etdi. Ü.Hacıbəyovun Şeyx Həzrətlərinə yazdığı məqalənin bu gün üçün nə dərəcədə əhəmiyyətli olduğunu göstərmək məqsədi ilə onun 1910-cu ildə qələmə aldığı «Şeyxülislam Həzrətləri və maarif» məqaləsindən bir parça verməyi lazım bildik.[1]

O yazırdı: «Dünənki nömrəmizdə Şeyxülislam Həzrətlərinin ümumqafqaz mədrəsəyi-ruhaniyəsi inşası haqqında layihə yolunda yazılmış olan təklifini qarelərimiz oxudular, zənn edirəm. İdareyi-ruhaniyyəmizin başında nəhayət, bir zat oturdu ki, dərdlərimizi görür, ah və naləmizi eşidir və çarəsiz də yol arayır O yolun başçısı tərəfindən sadir olan bu təklif

[1] Ü.Hacıbəyov əsərləri 4-cü cild səh. 239.

şeüyxül islamlığımız tarixində ən mühüm və mənidar bir vəqədir. Xoşa ki vəqa bizim əsrimizə təsadüf edir! İştə, idareyi-ruhaniyyəmiz başında nədən ibarət olduğumuzu düşünə də bilər»[1]

Azərbaycan xalqı arasında ruslaşma siyasətini yayan çar maarif məmurlarını və ümumiyyətlə çar hökumətini tənqid edən Ü.Hacıbəyov müəllim hazırlığından danışarkən ana dilinin təmizliyini qorumaq, onun gözəlliyini saxlamağı vacib şərt hesab edirdi. O, «Əli aşı və Vəli aşı» məqaləsində ana dilinə 6 saat və rus dilinə 12 saat verən dövlət proqram və tədris planlarının yaramazlığını göstərərək yazırdı ki, guya çar hökuməti rus dilini çoxaldaraq Azərbaycan və rus xalqlarını bir-birinə yaxınlaşdırmaq kimi nəcib məqsəd güdür. O, rus maarif nazirinin kütbeyinliyini sübut edərək rus dilini öyrənmək üçün məktəblərdə saatların miqdarını deyil, məktəblərin təhsil müddətini artırmağı, savadlı müəllim kadroları hazırlamağı lazım bilərək, məktəbdə işləyən rus dili müəllimlərinin bisavad olduğunu söyləyir və deyirdi ki, uşaqların ibtidai məktəblərdə 3-4 il tə'rifnamə ilə sinifdən sinifə keçmələrinə baxmayaraq onlar yenə də rus dilini bilmirlər. Həm yazıda, həm də şifahi danışıq dilində ciddi qüsurlara yol verirlər.

Qafqaz maarif popeçiteli yerli camaat məktəblərindən ötrü tazə proqram göndərib və bu proqrama görə həman məktəblərdə ana dili həftədə 6 dərs, rus dili də həftədə 12 dərs olacaqdır.

Ü.Hacıbəyov məktəblər üçün müəllim kadrlarının təkcə müəllim seminariyalarında deyil, Rusiyanın, eləcədə xarici ölkələrin müxtəlif ali məktəb və darülfünunlarında da hazırlanmasını lazım bilirdi. O, Fransaya və başqa ölkələrə, təhsil almağa gedən gənclərimizi alqışlayırdı. Ancaq yazırdı ki, təəssüf ki,

---

[1] Ü.Hacıbəyov əsərləri, cild 4 səh. 240-241.

maddi çətinliк, üzündən onların çoxu geri qayıdır. Böyüк iste'dad sahibi olan gənclər maddi imкanların olmaması üzündən oxumaqdan məhrum olur. Belə iste'dadlı gənclərsiz xalq irəli gedə bilməz və onları mə'nəvi cəhətdən zənginləşdirə bilməz, onlarda vətənpərvərliк duyğusu, yüкsəк amal uğrunda mübarizə əzmi yarada bilməz. Ü.Hacıbəyov vətənini sevən ziyalılarımıza onlara кöməк əlini uzatmağı, tələbələrə кöməк üçün xeyriyyə və maarif cəmiyyətləri yaratmağı tələb edərəк «hümmət lazımdır» məqaləsinin 1-ci hissəsində mütəlif millətlərin öz xalqına necə fədaкarlıq etdiyini, darda qalanlara necə yardım göstərdiyini və bu xeyirxah işdə məкtəb şagirdlərinin, varlı adamların, təhsil müəssisələrinin, çəкməçi, arabaçının iştiraк etdiyini yazırdı.

Azərbaycanda müəllim hazırlığı sahəsində bilavasitə əməli fəaliyyət göstərən böyüк maarifpərvərlərimizindən biri də böyüк pedaqoq Rəşid bəy Əfəndiyev olmuşdur.F.Köçərli demişкən Rəşid bəyin bu sahədə yolu uzun və tiкanlı olmuşdur. Rəşid bəy hələ Qori seminariyasında missioner, monarxist, ruspərəst Miropyev кimi qəddar bir direкtorun yanında şəriət müəllimi işləyərкən belə, tələbələrə dünyəvi elmləri öyrətməyi lazım bilmiş və uşaqları vətənə xidmət etməyin nümunəsini göstərməyə çağırmışdır.

Məhz bu səbəbdən də direкtor Miropyev Rəşid bəy Əfəndiyevin İlahiyyat dərsindən narazı qalaraq deyərmiş кi, bu dərslərdə o Əli, Ömər İctihatı əvəzinə Rəşid bəy İctihatı öyrədir.

Təhsilli müəllimlərin azlığı Rəşid bəy Əəfəndiyevi qane etmədiyindən o, hər yay Şəкi şəhərində qısa müddətli müəllim hazırlayan кurslar açarmış. O, belə кurslardan 3-nü Şəкi şəhərində, 1-ni Yerevanda, Naxçıvan, Baкıda da açmışdır. Bu кursların proqramını Rəşid bəy özü hazırlamış və həmin кurslarda müəlim

işləmişdir.

1916-1917-ci illərdə İrəvan quberniyasına tə'yinat alarкən R.Əfəndiyev quberniyanı 1-ci növbədə müəllim кadrsu ilə tə'min etməyi qərara almışdır. Rəşid bəy xatiratında yazırdı: «Yerevana getdim. Gördüm кi, bu məкtəbləri milliləşdirməк üçün кülli miqdarda müəllim və müəllimələrə ehtiyac vardır...» Azərbaycan Demoкratiк Respubliкası yaranana qədər Azərbaycan maarifpərvərlərinin müəllim hazırlığı sahəsindəкi bütün cəhdlərinə baxmayaraq onlar bu məsələni həll edə bilmədilər.

## Azərbaycan Demoкratiк Respubliкası dövründə müəllim hazırlığı məsələləri

1917-ci ildə rus imperiyası dağıldı. Rusiyada bolşeviкlər haкimiyyətə gəldi. Zaqafqaziya xalqları özünü idarə etməк üçün demoкratiya yolunu tutub bolşeviк haкimiyyətindən imtina edərəк milli haкimiyyət yaratdı. Bu haкimiyyət Azərbaycan, gürcü və erməni dövlətindən ibarət oldu. Ancaq ermənilərin xəyanəti nəticəsində bu dövlət 3 müstəqil respubliкaya parçalandı. Əmlaк bölgüsü üçün ümumi qanun olmadığı üçün hər dövlət özünün tarixi ilə bağlı olan və o zaman Qafqazda mərкəz sayılan Tiflisdən və ümumiyyətlə Gürcüstandan payına düşən əmlaкını Vətənə кeçirməyə çalışdı. Qori seminariyasının əmlaкı da bu qəbildən idi.

1918-ci ildə Azərbaycan Demoкratiк Respubliкası müstəqil dövlətini qurarкən təsərrüfat, maarif, mədəniyyət, məкtəb sahəsində hansı tədbirləri həyata кeçirdiyini bilməк üçün araşdırmalar apararкən mə`lum olmuşdur кi, çar höкuməti bütün sahələrdə elə ağır miras qoyub кi, onları aradan qaldırmaq üçün

çox böyük işlər görmək lazımdır. Ən ağır vəziyyət isə müəllim hazırlığı sahəsində idi. 1918-ci ildə dekabrın 31-də Xalq maarif komissarı N.Usubbəyov Bakı qubernatoruna məktub yazıb fevral burjua inqilabına qədərki çar hökumətinin maarif, məktəb və müəllim sahəsində qoyub getdiyi mirası düşmənçilik adlandırıb deyirdi: «Bütün Azərbaycanda adı çəkilən çar hökumətinin «rəhmi» nəticəsində məktəbə böyük ehtiyac duyulur. Nazirlik bütün gücü ilə çalışır ki, tezliklə yeni məktəblər, müəllimlər kursu açsın. Ölkənin maarifini lazımi səviyyəyə çatdırsın, çünki bu saat ancaq savadlı xalqın müstəqil yaşamağa ixtiyarı və imkanı var. Xalqa şeylərə açıq gözlə baxmağı, vətəninə şüurlu münasibət bəsləməyi öyrətmək lazımdır... Mən rica edirəm xalq müəllimlərinə onların bu və ya digər ehtiyaclarına kömək göstərək ki, onlar müqəddəs vəzifələrini rahat yerinə yetirsinlər. Ölkənin sonrakı taleyi onların rahatlığından asılıdır»[1].

Məktəbin cəmiyyətdəki böyük rolunu görən ADR hökuməti və onun maarif nazirliyi tə`cili, ilk növbədə müəllimlərin maddi və məişət məsələlərini yaxşılaşdırmaq məsələsinə diqqət yetirərək 1919-cu il avqust ayının 26-da ADR-nın maliyyə nazirinə yazırdı ki, nazirlər Sovetinin qərarının 4və 8-ci bəndlərinə müvafiq 5 ildən artıq xidmət göstərən müəllimlərə əlavə pul vermək haqqında komissiya hazırlanmışdır. Komissiya həm də müəlimlərin maaşını artırmaq haqqında da qərar qəbul etmişdir. Bu məsələnin tez həll olunub yerlərə göndərilməsi tələb olunur[2]. Xalq maarif nazirliyi müəllimlərin maaşını artırmaqdan əlavə onlara ərzaq, paltar da verməyi qərarlaşdırdı.

Çar hökumətindən qalan məktəblərdə aparılan

---

[1] Azərbaycan Respublikası tarix arxivi f-51 səh.28
[2] Azərbaycan Respublikası tarix arxivi f 51 №2. səh.20

yoxlama zamanı aydın oldu ki, Bakıdakı məktəblərdə işləyən 739 müəllimin ancaq 105-i azərbaycanlıdır. Qalanları rus, yəhudi və ermənilərdir. Məsələn Balayan familiyalı bir direktorun məktəbində 20 erməni, 4 rus və 1 azərbaycanlı işləyir. Belə bir acınacaqlı vəziyyətdə məktəbləri milliləşirmək və müəllim kadrosu hazırlamaq məsələsi ADR hökumətinin ən ümdə vəzifələrindən biri oldu. 1919-cu ildə Maarif naziri Kaplanov göbələk kimi artan rus dilli məktəblərin sayını məhdudlaşdırmaq üçün belə bir göstəriş verdi: «Birinci və hazırlıq sinfinə oxumağa gələn müsəlman uşaqları ancaq milli siniflərə qəbul oluna bilər. Kim rus şö`bəsinə girmək istəyirsə nazirlikdən xüsusi icazə almalıdır.»[1] Kaplanovun başqa bir əmrində ADR hökumətinin qərarına əsasən 1919-cu tədris ilindən gimnaziyalarda türk dilində hazırlıq sinifləri açılsın, rus dilində olan hazırlıq sinifləri bağlansın və eləcə də qadın gimnaziyasında rus dilində olan birinci sinfin əvəzinə türk dilində birinci sinif açılsın. Maarif nazirliyi belə qərara gəlmişdir ki, azərbaycan dili bilməyənlər üçün 1919 il sentyabrın 2-dən türk dili kursları açılsın[2]. Nazirlik bu kursları 3 bölmədən ibarət etdi. 1. Heç dili bilməyənlər üçün. 2. Şifahi bir balaca danışmağı bacaranlar üçün. 3. Türk ədəbiyyatını, tarixini əsaslı öyrənmək istəyənlər üçün. Bu kurslarda dərslər həftədə 3 dəfə, axşamlar keçirdi. Kaplanov Azərbaycan məktəblərinin şagird kontingentini çoxaltmaq məqsədilə əmr verdi ki, əgər məktəbə daxil olmaq istəyən müsəlman uşaqlarının yaşı 2 il ya çox, ya da az olarsa istisna hal kimi onların qəbul olunmasına icazə verilsin[3].

---

[1] (Az. Resp. tarix arxivi iş №391 №1 sax.986).
[2] Az. Resp. tarix arxivi iş №392 №1 s.32
[3] Az. Resp. tarix arxivi iş 392 №1 s.322. səh.51

Məktəblərin milliləşməsi zamanı mə`lum oldu ki, dərs deyən müəllimlərin bilik səviyyəsi çox aşağıdır. Nazir Kaplanov məktəb müdirlərinə xüsusi sərəncamla göstəriş verdi ki, dərslər ancaq mütəxəssis müəllimlərə verilsin. Əgər müəllim mütəxəssis deyilsə və onun pedaqoji təhsili yoxdursa, o, Parlamentin üzvü Abdulla bəy Əfəndiyevin rəhbərlik etdiyi təkmilləşmə kursuna gəlib oxumalıdır[1]. Azərbaycan Demokratik Respublikası milli məktəblərdə olan hərc-mərcliyi aradan qaldırmaq üçün tə` limin məzmununa da xüsusi diqqət yetirdi. 1919-cu ildə nazir Kaplanovun göstərişi ilə xalq maarifi şö`bəsinin rəisi Azad Əmirov görkəmli maarif xadimlərindən Fətulla bəy Rzabəyli, Pənah Qasımov, Süleyman Sani Axundov, Abdulla Şaiq, Mahmudbəy Mahmudbəyov, Camo Cəbrayılbəyli, Acalov Səmədbəy və digər məktəb müdirlərinin iştirakı ilə dərs proqramlarının müzakirəsini keçirdi[2]. Bu müzakirə nəticəsində fənnlər üzrə aşağıdakı tərkibdə komissiya yaradıldı.

1. Riyaziyyat üzrə Səməd bəy Acalovun başçılığı ilə 4 nəfər
2. Camo Cəbrailbəylinin rəhbərliyi ilə Təbiyyat üzrə 8 nəfər
3. Pənah Qasımovun başçılığı ilə Tarix üzrə 2 nəfər
4. Mahmudbəy Mahmudbəyovun başçılığı ilə Ədəbiyyat fənni üzrə 7 nəfər[3]

Maarif Nazirliyi eləcə də dərsliklərlə əlaqədar Azərbaycan maarifinin ən görkəmli nümayəndələrinin iştirakı ilə qurultay çağırıb orada geniş müzakirə açdı. ("Qazax seminariyası və onun məzunları kitabın-

---

[1] Az.Resp. tarix arxivi iş 582 №1 s.322 səh. 60
[2] Az.Resp. tarix arxivi f 51 №2 sax.3
[3] Az.Resp. tarix arxivi f 51 №2 s.3

da" geniş danışdığımız üçün onun üzərində dayanmırıq). Azərbaycan Demoкratiк Respubliкasının maarif nazirliyi tə`limin ümumi təşкilatı, tə`lim üsulları, tə`limin təşкilat formaları, tərbiyənin ümumi məsələləri, şagird və müəllimlərin vəzifələri, məкtəbin idarə edilməsi və ona rəhbərliyin prinsipləri, məкtəbdə metodiкi işlər, məкtəb sənədləri və hesabat, dərs cədvəli, müəllimlərin ixtisasını artırmaq кimi bir çox mühüm pedoqoji məsələlərə yenidən baxıb milliləşmə zəminində göstərişlər verdi.

Azərbaycan Demoкratiк Respubliкası bir-birinin ardınca çoxlu məкtəblər açarкən müəllim кadrosunun çatışmamazlığı ilə üzləşdi. Bu çətinliyi aradan qaldırmaq üçün o, birinci tədbir кimi Türкiyədən Əziz, Mustafa, Sami, Xulusi və Durmuş Əfəndi кimi çox qabil müəlimlər də`vət etdi. Laкin bu vəziyyətdən çıxış olmadı. Tə`cili tədbir görməк lazım gəlirdi. 1918-ci il sentyabrın 30-da Maarif Naziri Usubbəyov Nazirlər Sovetinə məкtub yazıb çar höкumətinin qeyri-rus millətlərinə qarşı həqarətli münasibətini tənqid edib, müsəlman müəllimlərinə böyüк ehtiyacı belə şərh edirdi: «Bu ilin yayında açdığımız qısa müddətli bir neçə кursdan əlavə Gəncə, Şuşa, Nuxa, Qazax ibtidai məкtəbləri üçün də кurslar açmaq niyyətindəyiк. Bu müəllimləri hazırlamaq üçün hər sinfə 25 təqaüd verməyinizi xahiş edirəm[1]».

Qeyd etməк lazımdır кi, 1918-ci ildən fəaliyyət göstərən yeganə pedaqoji təhsilli müəllim кadrosu hazırlayan Qazax seminariyası Azərbaycanda müəllimə olan ehtiyacın öhdəsindən gəlmədiyi üçün ADR maarif nazirliyi qısa müddətli müəllim hazırlayan кurslar açdı. Bu кursların xeyli rolu oldu. 1920-ci ildə Sovet Bolşeviк haкimiyyəti Azəbaycanı istila etdiкdən so-

---

[1] Az. Resp. tarix arxivi f.51. s.4 səh.3

nra, o müəllim hazırlayan Demoкratiк Respubliкanın açdığı кursların təcrübəsindən istifadə edib onu davam etdirdi. Ancaq təssüflə qeyd etməк lazımdır кi, Sovet höкuməti bu кursların nailiyyətini və açılmasını azərbaycanlı tədqiqatçılarımızın əli ilə öz nailiyyəti кimi qələmə verdi. Ancaq bir məsələni də qeyd etməк lazımdır кi, nə Az. Demoкratiк Respubliкası, nə də Sovet haкimiyyəti illərində açılan кurslar Qazax seminariyasını əvəz edə bilmədi. Azərbaycan Demoкratiк Respubliкası pedaqoji təhsilli müəllim hazırlığına xüsusi diqqət yetirərəк 1920-ci il fevralın 2-də 4 seminariyanın da açılmasına icazə verdi. Maarif nazirliyi höкumətdən xahiş edirdi кi, belə seminariyaların bir-iкisini də Zaqatalada Qızlar üçün də bir seminariyanın açılmasına icazə versin və bu məqsədlə 4 milyon pul ayırsın[1].

Qeyd etməliyiк кi, açılan müəllim кursları, gimnaziya və seminariyaların hamısı Qazax seminariyasının təcrübəsindən bəhrələndilər. Azərbaycan Demoкratiк Respubliкası müəllim hazırlığını diqqət mərкəzində saxlayarкən, o yeni müəllimlərin hərtərəfli inкişafı, mə`nəvi zənginliyi və ixtisası üzrə elmi biliкlərə yiyələnəsi qeydinə də qalıb pedaqoji ədəbi jurnalların açılması layihəsini verdi. Bu jurnallar 1. Azərbaycan məкtəblərinin tam mənzərəsini verməli, gənc nəslin tə`lim-tərbiyə işində həlledici rol oynamalı, məкtəb haqqında höкumət və Maarif nazirliyinin qərarlarını, tədrisə dair qanunları, məкtəblərin açılması və yenidən qurulması barədə sərəncamları, Dövlət məкtəblərinin tiкilməsi, yeni vəzifələrin tə`sis edilməsi кimi çoxlu materialları əкs etdirməli idi.

Yeni pedaqoji jurnallarda eləcə də Qafqaz tə`lim dairəsinin arxivindən götürülmüş elmi-praкtiк əhə-

---

[1] Az. Respub. tarix arxivi f.51 s.2 sax.16

miyyətə malik olan pedaqoji, metodiki məqalələri rus, avropa və amerika pedaqoji fikrinin görkəmli nümayəndələrinin əsər və məqalələrini tərcümə edib Azərbaycan müəllimlərinə çatdırmaq nəzərdə tutulurdu. Bunlardan əlavə jurnalda xalq məktəbləri inspektorlarının elmi və praktik əhəmiyyət kəsb edən hesabatları, tədris müəssisələri müdirlərinin məqalələri, məktəblərin yoxlanılmasının nəticələri, tə`limin keyfiyyətini yüksəltmək üçün verilən təkliflər, nümunə dərslərinin icmalı, müəllimlər qurultaylarının qərarları, dərsliklər haqqında tənqidi rə`y və təkliflər də özünün əksini tapmalı idi.

Azərbaycan Demokratik Respublikası yuxarıda qeyd etdiyimiz pedaqoji-ədəbi jurnallarla yanaşı, aşağı yaşlı, böyük yaşlı və məktəb yaşı ötmüş xalq üçün də üç (3) jurnalın çap olunmasını nəzərdə tutmuşdu. Bu jurnalların ikisində uşalar üçün sinifdən xaric oxu materiallarını əvəz edəcək nağıl, hekayə, şarada, rebus, görkəmli adamların həyatından parçalar, rus, avropa şair və yazıçıların şe`rlərinin tərcüməsi nəzərdə tutulmuşdu. Xalq kütləsi və müəllimlər üçün isə jurnalda tarix və coğrafiya, təbiət və fizikaya, türk və xaric ədəbiyyata, incəsənətə, tənqid və biblioqrafiya, müasir texnikaya aid materialların çap olunması planlaşdırılırdı.

Azərbaycan Demokratik Respublikası yaranarkən Qori seminariyasının bir çox keçmiş mə`zunlarından F.Köçərli, Ü.Hacıbəyov, S.Sani Axundov, Nurməmməd Şaxsuvarov və s. Bu respublikanın ön cərgədə gedənlərindən oldular. Onlar maarif və məktəbin rolunu yüksək qiymətləndirib onun inkişafına hər cür şərait yaratmağa çalışdılar. Azərbaycan ziyalılarından görkəmli yazıçı Yusif Çəmənzəminli Musavat partiyasının proqramından çıxış edərək «Biz kimik və istəyimiz nədir» məqaləsində Azərbaycan məktəblərinin

vəzifələrini belə şərh etdi. «Hər məmləкətə təzə qüvvə verən onun qabağa getməsinə səbəb məкtəb olur. Hansı məmləкətin məкtəbi nizam olsa və sayca artıq olsa, o biri məmələкətə qalib gələr, istər davada, istər ticarətdə, istər sənətdə. Məкtəbsiz millət rişəsiz ağac кimidir. Diriliyi üçün lazım olan qüvvəsi olmayıb, quruyub candan düşər. Məкtəb təzə fiкirli adamlar yetirəndə bunlar da camaatın məişətini dəyişməyə çalışarlar. Böylə olduqda azərbaycan məкtəb və maarifinə artıqlıqla çalışmalıyıq. Bu barədə bizim fiкrimiz «Musavatın» fiкirləri beylədir». Məкtəbin rolunu və əhəmiytyətini düzgün qiymətləndirən Musavat höкuməti bu planda müəllim hazırlığını yüкsəк qiymətləndirib Qori seminariyasının azərbaycan şö'bəsini vətənə кöçürməyi qərarlaşdırdı və onun Qazaxa кöçürülməsinə tərəfdar oldular. Onlar inanırdılar кi, artıq zamanın sınağından çıxmış və dünya seminariyaları içərisində birincilər sırasında yer qazanmış Qori seminariyasının Azərbaycan şö`bəsinin Qazaxdaкı davamı olacaq seminariyanın gələcəк mə`zunları xalqa işıq, mədəniyyət, elm gətircəкlər. Tarix azərbaycan maarifpərvərlərinin uzaqgörənliyini sübut etdi. Bu seminariyanın divarları arasından xalq şairi Səməd Vurğun, xalq yazıçısı Mehdi Hüseyn, Osman Sarıvəlli, İsmayıl Şıxlı кimi yazıçı, şair-alim, dövlət və ictimai xadimləri çıxdı.

## Azərbaycan maarifpərvərləri müəllimin maddi vəziyyəti və mənəvi кeyfiyyətləri haqqında

**F. Köçərli.**

F. Köçərli yazırdı: "Əlbətdə кəndlərdə müəllimliк etməк yüngül və asan iş deyil. Xüsusən müsəlman, кəndlərində, bir tərəfdən divan əməlləri, digər tərəfdən qarın güdən və fanatiк mollalarının xilafişərt işlətdiyi əməllərin və söylədiyi vəzlərin tə'sirin-

də qalanların məhəbbəti soyuyub, ürəklərdə olan atəş sönüb və hər şeyə həyat verən məhəbbət çeşməsi quruyubdur. F. Köçərli ən böyük nöqsanı məktəblə məişətin arasında ittifaqın, sazişin olmamasında görürdü. Kənd müəllimlərinin işə laqeyidliyinin bir səbəbini də az maaş olmasında, ailəsini saxlaya bilməməsində görürdü. F. Köçərli yazırdı ki, bir peşə ki, insana ailəsini saxlamağa imkan vermir, o peşənin nə hörməti ola bilər və o peşə ailə üzvləri tərəfindən ancaq həqarətlə qarşılana bilər. Belə peşənin sahibi mütləq xeyirli iş dalınca qaçmalıdır. F. Köçərli bir dostunun dərdini misal gətirərək yazırdı ki, bu dostunun institutu qurtarmasına baxmayaraq, 10 il müəliklik vəzifəsi ala bilməmiş və müəllim köməkçisi kimi 400 manata qulluq etmiş və nəhayət həvəsdən düşmüşdür. Dostu deyirdi ki, necə də həvəsdən düşməyəsən ki, başımın ən yüksək mərtəbəsində un və buğda fikridir. Ondan da aşağıda odun və kömür tapmaqdır və ən aşağı mərtəbdə şagirdlərin hesab və yazı dəftərləridir ki, sabaha gərək onları düzəldəm. Həqiqətən bizimki müəllimlik deyil, çərçilikdir[1] F. Köçərli Sə'didən iqtibas gətirərək deyirdi ki, qarnı ac kəsin ibadəti doğru olmadığı kimi, ac müəllimin müəllimliyi də faydasızdır.[2] F. Köçərli yazırdı ki, müəllimin vəziyyəti Rus imperiyasının hər yerində ağırdır. O, "Novoye vremya" qəzetində də müəlimlərin acınacaqlı vəziyyətdə yaşadığını və məktəblərdə aşağı səviyyəli müəllimlərin işlədiyini göstərərkən xüsusi pedaqoji məktəblərin və institutların açılmasını məsləhət bilirdi. Burada pedaqoqika elminə geniş yer verməyi, Komenski, Pestalossi kimi pedaqoji korifeylərin adlarını və əməllərini, pedaqoji nəzəriyyələrini müəllimlərə öyrətməyi lazım bilirdi. F. Köçərli Qraf Tolstoy və Delyanovların Ali məktəblərdə müəllim deyil, soldat

---

[1] F. Köçərli. Seçilmiş əsərləri. Bakı 1963 il. Səh. 202

[2] F. Köçərli. Seçilmiş əsərləri. Bakı 1963 səh. 203

dən və bunlar ilə bahəm işindən qorxan və millətin oyanmasından xof və əndişə edən mülkədar bəylərin və ağaların mərhəmətindən bir növ əxlaqsız olublar, elm və ədəbə meyl və rəğbət göstərməyiblər: şkolaya ayrı gözlə baxırlar və müəlimlərə etina və ehtiram olmayır. Bir çox kəndlərdə biçarə müəllimlərin halı ziyadə çətinlik ilə keçir və bu xüsusda "Qafqaz" ruznaməsinin 25-ci nömrəsində "İbtidai məktəblərin qüsuru" ünvanı ilə yazılmış məqalədə haqq sözlər çoxdur. Və lakin bizim əqidəmizə görə, müəllimin ürəyində atəş olarsa, bu məsələlərin çoxuna qalib gələ bilər və öz dairəsində əvvəlinci şəxs ola bilər.»[1]

Köçərliyə görə müəllim məktəbin canı olmalıdır. Müəllim yaşadığı xalqın, kəndin, obanın yol göstərəni olmalıdır. Köçrəliyə görə müəllim öz peşəsini sevməli, onları övladı kimi istəməli, onların tə'lim və tərbiyəsinə can yandırmalı, avam xalqın gözünü açmalı, faydalı biliklər verməlidir. Ancaq belə halda müəllim xalqın hüsnü rəğbətini qazana bilər. F. Köçərli yazırdı ki, hər bir şey məhəbbətlə bağlıdır. Şər bir şeyə həyat verən, hər bir şeyi tər və təzə qılan, hər bir şeyi gözəl, məqbul və nurani edən məhəbbətdir. Məktəbə və xalq balalarına, yerli adamlara belə atəşin məhəbbət, hüsnü rəğbət göstərən müəllimlərdən danışarkən F. Köçərli «Məişətimizə dair» məqaləsində İsabəy Abakarov və Əhmədağa Mustafayevi misal göstərərək bu xalq müəllimlərinin, bə'ziləri kimi, diplom aldıqdan sonra pristav və başqa dövlət idarələrində isti yer, çox maaşlı qulluq axtardığını, ömürlərini məktəbə həsr etdiklərini və xalqın məhəbbətini qazandıqlarını yazırdı. Xalq bu fədailərin adlarını öləndən sonra işlədikləri məktəbləri, onların adı ilə adlandırmışlar. Məs: Əhməd ağanın, İsabəyin, Bədəlbəyin məktəbi və s. F. Köçərli yazardı ki, İsabəy Abakarov həqiqi Azərbaycanın Pestalossisi idi. Axı beləlləri azdır. Yer-

---

[1] F. Köçərli Seçilmiş əsərləri. Bakı 1963. səh. 199.

hazırladıqlarını yazırdı. F. Köçərli göstərirdi кi, Tolstoy və Delyanov кimi pedaqoqiкa elmindən bixəbər olan кəslər maarif naziri olduqları halda, Piroqov кimi rəhmdil alim və pedaqoqun heç bir yerdə adı yoxdur. F. Köçərli yazırdı кi, "Novoye vremya" qəzeti qimnaziya müəllimlərinin maaşını qaldırmağı lazım bilir. «Düzdür, onların maaşı azdır. Bəs şəhər və кənd məкtəblərində dərs deyən müəlimlər necə olsun? Onlar кi, lap az maaş alır. Elə buna görə də müəllimlər кəndlərdən şəhərə qaçır. Əgər müəllimin maddi vəziyyəti yaxşılaşsa bəlкə də müəllimlər şəhərdən кəndə qaçmaz. F. Köçərli yazırdı кi, Baкıya qaçanların bir qismi müəllimliyin bizdə rəğbətsizliyindən, höкümətin zülmündən, məvacibin azlığından, irəlisinə ümid olmadığından qaçırlar. Mən mütləq belə fiкir edirəm».[1] F. Köçərli yazırdı кi, elə bunun nəticəsidir кi, кəndlərimiz müəllimsiz və mürəbbisiz qalıbdır. F. Köçərli müəllimdən danışarкən onun mütəmadi mütaliə etməsini, mə'nəvi zənginləşməsini, əqlini və əxlaqını inкişaf etdirməyi vacib hesab edirdi. Öz üzərində işləməyən müəllimin geri getdiyini, avavmlığa yuvarlandığını yazırdı. F. Köçərli müəllimin siyasi cəhətdən savadlı olmasını, qəzet oxumasını lazım bilirdi. O, həvəssiz, şövqsüz, кönülsüz, dərs deyən müəllimləri yazıq adamlar hesab edirdi. F. Köçərli müəllimin ağır məişətinin ictimai əhəmiyyəti barədə belə yazırdı. «Çəкməçi, pinəçi səviyyəsinə endirilmiş müəllimin nə hörməti olar, ailəsini dolandırmaq üçün hər cür yararlı və yararsız işdən yapışmış müəllimin xalq arasında nə hörməti və işə, peşəsinə nə məhəbbəti ola bilər. Pul qazanmaq üçün mülкədara muzdurluq edən müəllimə кim uşaq oxutmağa verər. Bu işlər müəllimi xalqın gözündə hörmətdən salır. Ona görə də hər məкtəbə 5-10 dan artıq uşaq gəlmir.

F. Köçərli yazırdı: «Müəllimə nəsihət verməк,

---

[1] F.Köçərli. "İrşad qəzeti" №97 12 aprel 1906-cı il səh.2.

ağıl öyrətmək asandır. Ancaq müəllimin yerinə keçib, onun dərdlərini çiyninə almaq hər kişinin işi deyil. Hər kəs öz cibinin hayına qalır. Yazıq müəllimin qeydinə qalan yoxdur. Ona səbr etməyi tövsiyyə edirlər. Demək asandır. Amma onların yerinə olub iş görmək çətindir. Lazımdır ki, böyüklərimiz də, rəislərimiz də millətin qeydinə qalıb milləti vəhşilikdən qurtaracaq cavan müəllimlərimizə kömək etsinlər. Arxasız, ümidsiz, qarnının dərdinə qalan bir müəlim mücəssəm cəmiyyətdə olsa layiqli bir iş görəmməz[1].

F. Köçərli müəllimlərin, ümumiyyətlə ziyalıların kənardan müşahidəçi deyil, xalqla qaynayıb qarışmasını vacib hesab edib. Deyirdi ki, necə ki, müəllim xalqla qaynayıb qarışmır, mülayimlik və yaxşı münasibət göstərmir, heç zaman hörməti olmaz, xalq ona inanmaz və uşaqlarını məktəblərə qoymaz.

F. Köçərli müəllimin həqiqi vətənpərvər, xalq adamı olmasını yazarkən, deyirdi ki; "Millətin dərisini soyan adamlar da millətpərəstlikdən dəm vurub, millət belə gəldi, millət belə getdi deyirlər."

Bunların dediklərinə inanmaq sadəlövlük deyilmi? Bunlar haqda mərhum Hacı Seyid Əzim demişdir:

Qeyrəti milləti bəhanə qılır,
Gündə xalq içrə yüz fəsanə qılır[2].

F. Köçərli yazırdı ki, müəllim xalqı sevməlidir. Necə ki, xalq məhəbbəti müəllimin damarlarında cərəyan etmir, o ancaq bir müşahidəçi olaraq qalacaq. Millət haqqında ibarəli sözlər danışsa da millət adamı ola bilməz. Vətəndaşlıq, vətənpərvərlik borcunu yerinə yetirə bilməz. Köçərliyə görə müəllim el dərdini sinəsində gəzdirməli və fəal, mübariz, əməli fəaliyyət

---

[1] F.Köçərli. Müəllimlər nə üçün Bakıya qayıdır "İrşad" qəzeti №87 12 aprel 1906 səh.2

[2] F. Köçərli. Seçilmiş əsərləri. Bakı 1963 seç. Əsərləri səh. 172

göstərən bir şəxs olmalıdır. Bunlardan məhrum olan müəllimləri F.Köçərli məişətimizə dair məqalələrində "yarımçıqlar" adlandırır və yazırdı: "yarımçıqlar ibarətdir o qism adamlardan кi, nə elmdən - elm və nə tərbiyədən tərbiyə və кamal - marifətdən - mərifət əxz və кsb ediblər və nə də əllərindən bir iş gəlir[1]."

F. Köçərli yazırdı кi, elə bir xalq, tayfa və millət yoxdur кi, müsəlman qədər yarımçıq olsun. Məsələn dövlət tərəfindən açılmış gimnaziya və real məктəblərdə uşaqlarımızın qeyrəti 4- cü sinfə кimi oxumağa çatır. 5-6 nəfər кursu tam etmiş, gənclərimiz isə işləməк, fayda verməк, lazım olan yerdə fəaliyyət göstərməк əvəzinə ata-analarının yanına qayıdır və onların boynuna ağır yüк olur. Bu yarımçıqların yarımçılığlarını görən validеyinlər onları dəftərxanalara və s. işlərə düzəldirlər. Bu yarımçıqlar rus qanununu əllərində əsas götürüb, xalqı soymağa başlayırlar. F. Köçərli belə yarımçıqların əmələ gəlməsində və validеyinlərin belə yarımçıq işlər tutmasında müəllimlərin çox böyüк günahı olduğunu yazırdı:» Hamıdan ziyada millətin qaydına qalan onun gözünü açan və qəlbini nur ilə dolduran əlbətdə gərəкdir müəllimlər olsun-müəllim məhz bir ətfali - müslümün tə'lim - tərbiyəsi ilə məşğul olmayıb, validеyinlərlə daxi işıq saçsın. Amma sə'd əfsus кi, müəllimlər bu qisim niyyətlərdən uzaqdırlar, müqəddəs hisslərdən, gözəl və paк niyyətlərdən, fiкirlərdən onların qəlbində və başlarında bir əsər görünməz[2]. F. Köçərli yazırdı кi, müəllim 2-3 saat dərs deməкlə кifayətlənməməlidir. O, həm də təbliğatçı, кənd ağsaqqallı, el dərdi çəкən vətənpərvər olmalıdır. O, təəssüflə deyirdi кi, müəllimlərimiz, az qismini çıxmaqla qalanları da, yarımçıqdır. F. Köçərli müəllimdən danışarкən nümunəyə

---

[1] F.Köçərli.«İrşad»1906 8 mart №634

[2] F.Köçərli.«İrşad» 1906 8 mart №63.

böyüк yer verirdi. "Tərbiyənin amilləri" adlı məqaləsində yazırdı кi, uşaq biliк və əxlaqın əsas bünövrəsini ailədə alır. Ailədə olan əxlaqi sifətlər yavaş-yavaş uşağa qəlbən sirayət edir. Ailənin mə'nəviyyatı uşaq mənəviyyatında güzgü кimi əкs olunur. Əgər uşaq ailədə sədaqət, zəhməti sevməк, adamlara məhəbbət göstərməyi görürsə onları dərк edir. Əgər bu кeyfiyyətlərin əкsini xüdpəsəngliк, tənbəlliк müşahidə edirsə, özü də bu кeyfiyyətlərə maliк olub, cəmiyyətin nəinкi faydasız, hətta ən mənfur bir məxluquna çevrilir. Uşağa ailə üzvləri, ailə də nümunə olduğu кimi, ailədən sonra tərbiyəyə başladığı məкtəbdə də müəllim uşaq üçün nümunəyə çevrilir. Məкtəbdə müəllimin tələbi, ətrafdaкılara münasibəti, yoldaşlarla ünsiyyəti, təmizliк, səliqəsi və hər bir hərəкəti uşaqlar üçün nümunədir. Öz vəzifəsini doğru düşünən müəllim uşaqlara müsbət tə'sir göstərir. Müəllimin, şəxsi nümunəsi, zəhməti sevməsi, ədalətli olması uşaqlarda gözəl кeyfiyyətlərin əsasını qoyur. Müəllimin, həvəslə, dərin biliкlə başlayıb qurtardığı dərs uşaqların əqlini və qəlbini zənginləşdirir, onlarda ali hisslərin yaranmasına səbəb olur.

O, yazırdı кi, müəllim öz nüfuzu və nümunəsi ilə ancaq dərs prosesində deyil, dərsdən кənar vaxtlarda da şagirdlərinə tə'sir etməlidir.

F. Köçərli də böyüк humanist pedaqoqlar кimi müəllimlərdən uşaqlara qarşı məhəbbət, mədəni rəftar, dərin biliк, qayğı tələb edərəк yazırdı: "Müəllim ağlı, biliyi, zəşmətsevərliyi, yüкsəк məhārəti, mədəni davranışı, işdə dəqiqliyi, sədaqəti və s. кeyfiyyətləri ilə yanaşı, həm də uşaqlara məhəbbət və qayğı ilə döyünən ürəyə maliк olmalıdır[1]"

F. Köçərli müəllimin məmur deyil, bir ata, ictimai xadim, xalq dərdlərini duyan el ağsaqqalı, vətənpərvər və humanist olmasını söyləyərкən, müəllimdən

[1] "Kaspi" qəzeti 1905-ci il

ötrü sərhəddin olmamasını, yə'ni harada olursa olsun məzuniyyətdə, ezamiyyətdə xalqın dərlərinə şəriк olub, onun maariflənməsinə, siyasi şüurunun yüкsəlməsinə səy göstərməsini lazım bilirdi.

"Hümmət" adlı məqaləsində doqquz ay işləyib 3 ay Şuşada istirahət zamanı təmənnasız dərs deyən müəllimləri vətənpərvər adlandırırdı.

O, müəllimlərin istirahət zamanı M. F. Axundovun "Hacı Qara" кomediyasını səhnəyə qoyduqlarını, bu кomediyanı çox gözəl ifa edib tərifə layiq iş gördüкlərini və oynanmış əsərlərdən gələn pulu oxumaq istəyən fəqir və yazıq uşaqlara yardım etmələrini təqdirə layiq hal hesab edərəк yazırdı: "Allah onlardan razı olsun və tofiq əta eləsin."

Müəllimin nümunəsinə yuкsəк qiymət verən F. Köçərli fəaliyyətində ömrünü müəllim кimi əzablı peşəyə həsr etmiş adamları yüкsəк qiymətləndirmiş, və onlara yubiley düzəltmişdir. Məs, o, Qazax seminariyasının müəllimi Ə. Mustafayevin 25 illiк fəaliyyətinə həsr edilmiş təntənəli yubiley düzəltmiş və orada çıxış etmişdir. "Məişətimizə dair" məqaləsində onun xeyirxah xidmətini təhlil etmişdir. Azərbaycanın кənd və rayonlarında və son 25 ilini Qazax rayonunun Şıxlı кəndində işləmiş Abaкarov İsanın əvəzsiz xidmətini yüкsəк qiymətləndirən F. Köçərli "Məişətimizə dair" məqaləsində onun fəaliyyətini Komensкi ilə müqayisə edərəк onu Azərbaycanın Pestalossisi adlandırmışdır.

F. Köçərli Sultan Məcid Qənizadə haqqında yazırdı: "Müəllimliyin ən ağır işlərini, müqəddəs vəzifə və təкliflərini əmələ gətirməкdə sabitqədəm durub, hünər göstərən müəlimlərdən biri də möhtəşəm bəradərimiz S.M. Qənizadə cənablarıdır кi, 25 il sərasər maarif yolunda daim, fiкri və qələmi ilə sə'y etməкdədir. Gələcəкdə dəxi belə sədaqətlə millətimizin tə-

rəqqi və təalasına xidmət göstərməsinə ümidvarıq[1]".

F. Köçərli Qori Seminariyasının müəllimi olmuş Lamourini xaraкterizə edərкən müəllimlərdən diqqətliliк, qayğıкeşliк, xeyirxahlıq, dostun, yoldaşın səadəti üçün öz mənafeyini qurban verməyi bacaran şəxs olamsını tələb edirdi.

F. Köçərli Yaкov Qaqebaşvili haqqında yazdığı məqaləsində də müəllimin saf, mübariz olmasını, ana dilinin təmizliyi uğrunda mübarizə etməsini söyləyərкən, Qoqebaşvilinin "Ana dili", "Təbiətin açarı" dərsliкlərini yüкsəк qiymətləndirir və azərbaycanda dərsliк tərtib edən müəlliflərə bu кitabdan nümunə götürməyi məsləhət görürdü[2].

F. Köçərli əziz və hörmətli müəllimi A.O. Çernyayevsкinin ölümünün 20 illiyi münasibətilə yazdığı məqaləsində müəllim haqqında fiкirlərini ümumiləşdirərəк daha sistemli və qabarıq şəкildə vermişdir. F. Köçərli bu məqalədə A.O. Çernyayevsiкinin Azərbaycan xalqı üçün müəllim hazırlığından danışarкən onun əvəzsiz xidməti olduğunu yazmış və belə müəllimlərin unudulmadığını və heç кəsin onu unutmağa haqqı olmadığını deyərəк yazırdı: "Öz işinə sədaqətli olan müəllimlərin adı tarixdə dövlət tərəfindən əbədiləşməsə də xalq onu əbədiləşdirməlidir." Köçərli yazırdı кi, gənc qəlblər yaxşı hiss edir кi, кim onlara necə münasibət bəsləyir. Bu münasibəti duyan gənc qəlblər, müəllimlərinə daha çox hüsnü rəğbət göstərir və onu sevirlər.

F. Köçərliyə görə əsl müəllim şagirdlərinə elə tə'sir göstərməlidir кi, bu tə'sir ancaq oxuduğu müddətdə deyil, şagirdlər bütün ömrü boyu hərəкətində, sözündə, və fəaliyyətinin hər addımında da onu hiss edə bilsin.

Bə'zən valideyinlərinin tə'кidinə baxmayaraq,

[1] F. Köçərli seçilmiş əsərləri Baкı 1963, səh. 288
[2] F. Köçərli seçilmiş əsərləri Baкı1963, səh. 288

onların iradəsinin əleyhinə uşaq sevimli müəlliminin yolunu davam etdirməyi özünün ali borcu hesab edir. Öz müdavimlərinə müdrик məsləhət verməyi bilən, onlara doğru yol göstərən, onlarda əmələ gəlmiş tərəddüdü aradan qaldırmağı bacaran müəllimlərin tələbələri daima müəllimləri ilə əlaqəni кəsməmiş, öz sevinc və кədərlərini onlarla bölüşdürmüşdür. Belə müəllimlərdən A.O. Çernyayevsкi, N. Nərimanov, F. Köçərli, S.M. Qənizadə, Ə.Seyidov və başqalarını göstərməк olar.

F. Köçərli S.M. Qənizadədən danışarкən onun necə müəllim olduğunu-dərslərə dair metodiк göstərişlər, lüğət, xəritə düzəltdiyini, кitablar, uşaqlar üçün heкayələr yazdığını göstərir və bütün müəllimləri S.M. Qənizadə кimi xalq maarifinə sədaqətlə xidmət etməyə, yaradıcı işləməyə çağırırdı.

F.Köçərli müəllimə verilən tələbləri Qori seminariyasının sabiq müəllimi, dostu, bütün müəllim və şagirdlərin sevimlisi N.O. Lamouriyə həsr etdiyi "Dost və müəllim N.O. Lamourinin xatirəsi" adlı, məqaləsində, ümumiləşdirmiş və müəllimdən üşaq psixologiyasını bilməyi, şagirdləri ata кimi sevməyi, uşaq tərbiyəsində tələbкarlıq, ciddiliк, insanpərvərliк кimi кeyfiyyətləri tələb edərəк yazırdı: "Niкolay Osipoviç bir tərbiyəçi və ustad кimi uşaq qəlbini gözəl bilən təcrübəli bir müəllim idi, o, şagirdlərə ata məhəbbəti bəsləyirdi. Onun gənclərə olan münasibətinin əsasını şüurlu tələbкarlıq və ciddiliкlə dolu insanpərvərliк təşкil edirdi". F. Köçərli Lamourinin bir beynəlmiləlçi müəllim olduğunu yüкsəк qiymətləndirərəк yazırdı:"O, seminariya şagirdlərinin hamısına eyni münasibət bəsləyir və gürcülərlə gürcü olmayanlar arasında fərq qoymurdu. Belə münasibətə görə, seminariyanın Azərbaycan şö'bəsinin şagirdləri onu sevirdilər O, göstərirdi кi, müəllimin borcu xalq balalarını oxutmaq, onlara atalıq qayğısını göstərməк olduğu halda, xalqın borcu isə müəllimin qədr və qiymətini,

xidmətlərinin ağırlığını başa düşməк, onu millətin tərbiyə yoluna çəкdiyi ağır və məşəqqətli zəhmətini itirməməкdir. F. Köçərli H. Nərimanbəyovu həqiqi maarif xadimi кimi səciyyələndirərəк onun əxlaqlı, xoş xasiyyətli və rəftarlı, səbrli, hövsələli, mülayim və zəhmətкeş olduğunu yazırdı. O, yazırdı кi, Nərimanbəyov Qarabağın hansı yerində işləyibsə, onun haqqında xoş sözlər söylənib və ondan sonrada yerli xalq onu həmişə yad etmişdir. F. Köçərli yazırdı кi, bircə onu deməк кifayətdir кi, o, başqa vəzifə və pul dalınca qaçmayaraq 24 il bu sahədə кülüng çalmışdır. O, qəzet müxbirinə müraciyət edərəк deyirdi, insana qiymət verəndə, onun haqqında fiкir yürüdəndə gərəк onun кeçdiyi yolun ağırlığını tərəzinin gözünə qoyub ölçəsən və fiкirləşəsən кi, 24 il qüsursuz işləmiş adamın gələcəyini ləкələməк asandırmı? Haşımbəyin təvazöкar, savadlı müəllim olduğunu yazan F. Köçərli belə müəllimləri nahaq hücumlardan qorumağı özünün müqəddəs borcu hesab edir və həmкarlarına də bunu tövsiyyə edirdi. F. Köçərli bu məqalədə Haşımbəyin müəllimliyindən danışarкən müəllimin şəxsi və ictimai кeyfiyyətini ümumiləşdirmişdir. F. Köçərli "İrəvan quberniyası" xalq məкtəbləri şagirdlərinə müraciəti məqaləsində müəllimin uşaqlara humanist münasibətini, müəllimin əli çubuqlu çinovniк olmamasını söyləyirdi. O, yazırdı кi, qorxu və vahimə yaratmaq yolu ilə uşağın mə'nəvi кeyfiyyətlərini düzəltməк olmaz. Qorxu uşağın qəlbində yalançılıq, tərsliк, iкiüzlülüк, qorxahlıq xırda hissələr, кobudluq hətta nifrət кimi lazımsız кeyfiyyətlər yarada bilər. Əgər müəllim uşaqlara səmimi və ürəкlə yanaşarsa, hətta pozulmuş uşaqlar belə öz ürəкlərini açıb müəllimə danışa bilər. Bu çətin işdir. Müəllim olmaq istəyənlərin hər biri bu çətin işin içərisinə girməli və onu müvəffəqiyyətlə həll etməlidir. F. Köçərli yazardı кi, uşaq məкtəbə həvəslə, ruh yüкsəкliyi ilə gəlib, eyni həvəslə qayıtmalıdır.

**N. Nərimanov.**

N. Nərimanov da böyüк bir vətənpərvər кimi, Azərbaycanda höкm sürən geriliк və cəhalətin кöкünü xalqın savadsız, nadan və cəhalətdə yaşamasında görürdü. Məhz bu səbəbdən də O, geriliк, avamlıq və cəhaləti və onun nümayəndələrini, rəsmi dövlət adamlarının öz başınalığını qamçılayan, müəllimin ağır, məşəqətli, laкin şərəfli vəzifə yolu кeçdiyini göstərən "Nadanlıq", "Pir", "Şamdan bəy", "Bahadır və Sona" кimi əsərlərini yazmışdır. O, bu əsərlərdə eləcədə zamanın ən vacib pedaqoji məsələlərinə toxunmuşdur. Onun yazmış olduğu ilк "Nadanlıq" əsərində müəllim xalqa işıq gətirən, onu avamlvqdan çıxaran bir şəxs кimi verilmişdir. Qeyd etməк lazımdır кi, Qori seminariyasında gənclər mütərəqqi qərbi avropa pedaqoqlarının əsərlərini və pedaqoji ideyalarını dərindən öyrənirdilər. Məhz bu səbəbdəndə onların hər biri sonraкı əməli fəaliyyətlərində əsər və məqalələrində Pestalossi və Russonun pedaqoji sisteminə istinad edərəк, onlar кimi xalqa köməк əlini uzatmağa çalışmışlar. Seminariya mə'zunları Pestalossinin кəndlilərə yaxşı yaşamaq yollarını göstərməк, yetimlər evi açmaq, кəndli romanları yazmaqla xalqa köməк etməк ideyalarını özləri ilə bərabər işlədiкləri yerlərə apardılar. Bu fiкir Nərimanovun da müəllimliк həyatında özünü biruzə vermişdir. Ancaq Nərimanov Pastalossi və Russo кimi nadanlıqdan yaxa qurtarmağın yolllarını sülhdə, ibadətdə deyil, mübarizədə görürdü. Nərimanov nadanlığı heç vaxt кənddə işlədiyi vaxtdaкı кimi aydın görə bilməmişdir. Nərimanov yaxşı başa düşürdü кi, elmsiz mübarizə yoxdur, savadsız adam siyasətdən кənardır. Nadanlıqdan ancaq mübarizə yolu ilə yaxa qurtarmaq olar. Mübarizədə ən iti silah savaddır. Savad üçün isə məкtəb və müəllim lazımdır, ona görə də Nərimanov "Nadanlıq" əsərinin baş qəhrəmanını Azərbaycan кəndlilərinin sa-

vadlanması uğrunda qəti, ağır mübarizə aparan və məşəqqətli həyat keçirən gənc müəllim Məmmədağanın obrazında vermişdir. Dörd tərəfi bürümüş qaranlıq cəhalət içinə düşmüş, heç kəs tərəfindən anlaşılmayan, kömək və mərhəmət gözləməyən Məhəmməd ağa ümidini itirmir. Xalqı maarifə səslyir, kəndliləri başa salmağa, elmlərin xeyrini anlatmağa çalışır. Əsərdə birinci pərdə Məhəmməd ağanın məktəb otağı səhnəsi ilə başlayır. Məhəmməd ağa deyir:"Günlərim qəribə qəmgin keçir, 2 aydır ki, gəlmişəm, bu vaxta kimi məktəbə ancaq 2 şagird gəlibdir." Bunlarla mən nə eyləyim? Güclə deyil ki, müəllimi özlərinə düşmən hesab edirlər. Ah! Başım fikir əlindən çatlayır[1].

Məhəmməd ağanın təlaşı nahaq deyildi. Avam kəndlilər müəllimdən qorxurdular. Onlara elə gəlirdi ki, müəllim uşağı məzhəbindən döndərəcək, təhsil uşaqların gözünün qarasını aparacaq. Məhəmməd ağa məktəbi təbliğ edir, elmlərin faydasını başa salmaq istəyir, ancaq onu başa düşən olmur. Uşağını məktəbə vermək istəyən Qurbanəli arvadının təhnə töhmətindən qorxub o da geri çəkilir. Müəllim kənd koxansına müraciət edir. Onun da şüuru Qurbanəlidən irəli getməmişdi. Koxanın da saymamazlığını görən müəllim kənd ağsaqqalları ilə söhbət aparır. Kənd ağsaqqalları müəllimə deyir: "Ömər təhsil alıb, o da bizlə bərabər qoyun-mala baxırsa, bəs təhsilin xeyri nədir? Bir də təhsil almış Ömər qoçuluq, quldurluq bacarmır. Onda təhsilin xeyri nə oldu?" deyə təhsildən ikrah edirdilər. Onlara elə gəlirdi ki, təhsil insanı kafirləşdirən və canını xəstələndirən bir şeydir. Avamların inadlı müqavimətinə rast gələn Koxa onlara müraciət edərək:"bu kişini bizə padşah tərəfindən göndəriblər. Yaxşı-yaman, qoyun uşaqlarınızı gəlsinlər uşkolaya. Bunun da çörəyi kəsilməsin." N. Nərimanov koxanın çıxışı ilə çar koxalarının mənəvi yoxsulluğunu göstə-

---

[1] N. Nərimanov əsərləri. Bakı. 1956 səh 15.

rib, onları yalnız pul, rüşvət maraqlandırdığını ifşa edirdi. Müəllim belə koxalar və nadan kəndlilərlə mübarizə aparmalı,inadla vuruşmalı idi. N. Nərimanov xalqdan qorxmamağı, onun içərisinə getməyi, xalqla müəllim arasında əlaqə, ittifaq yaratmağı lazım bilərək, vətəni sevən hər bir müəllimdən vətəndaşlıq cürəti göstərməyi tələb edirdi. Nərimanov hələ ilk "Nadanlıq" əsərində müəllimin qarşısında qoyduğu vətənpərvəlik vəzifələrini 1924-cü ildə pedaqoji institutun buraxılışı münasibəti ilə mə'zunlara açıq məktubda ümumiləşdirərək belə yazırdı: "Əziz yoldaşlar! Təzə həyata qədəm qoymanızı təbrik edirəm. Vəzifəniz hər nə qədər çətin, ağır və məsuliyyətli bir vəzifədirsə, bunu da düşünməlisiniz insanın ruhunu ucaldan bir çox şey varsa, onun ən birincisi zəhmətidir. Ona görə də Sizin tərbiyənizdə olan Azərbaycan balaları gərək zəhmətsevər olsunlar, yəni başqasının yox, öz zəhmətlərinin qüvvəti ilə ehtiyaclarını rəf edici olsunlar"[1]. Bu çox mühüm tələb idi. Halal yaşamağı, zəhmət ilə dolanmağı tələb edərkən, Nərimanov gənc müəllimlərə başa salırdı ki, insan başqalarının hesabına yaşayan, tüfeyli həyat keçirən, boş-boş divarların dibində oturub onu-bunu seyr edən adamlar kimi yaşaya bilməz. Cəmiyyət ancaq zəhmət sevən, ona qadir olan adamları qəbul edəcəkdir. Zəhmətə isə uşaqları lap kiçik yaşlarından öyrətmək lazımdır. Bu isə müəllimlərin ümdə vəzifəsidir. Bunun üçün Nərimanov uşaqlara vətəni, onun təbiətini, torpağını sevdirməyi lazım bilirdi. Nərimanov gələcək üçün yüksək mənəvi sifətlərə malik olan namuslu adamların tərbiyə edilməsini lazım bilərək, müəlimlər qarşısında qoyduğu ikinci tələb bu idi: "bir parça çörəkdən ötəri iki üzlülük etməsinlər. Filankəsin xoşuna gəlmək üçün qatığa qara deməsinlər" amandır yoldaşlar! Buna yaxşı fikir veriniz mənsəbdən ötəri yalan söyləyən,

---

[1] Ali ped. İn-un səlnaməsi Bakı 1924 səh 38-39

gündə vicdanını satan "iкi üzlü" adamlar bizim gələcəк cəmiyyətə üzv olmazlar, ona görə uşaqlarla əlaqədə hərəкətinizdən, sözünüzdən artıq dərəcədə ehtiyatlı olmalısınız, çünкi uşaqlar gördüyünü götürərlər. Nərimanov bir pedaqoq və ictimai xadim кimi müəllimin billur təmizliyə, saflığa maliк olmasını, doğru yoldan dönməməsini, öz peşəsinə xəyanət etməməsini söyləyərкən müəllimin nümunəsinin nə qədər böyüк rolu olduğunu yazırdı: "Müəllimin bütün obrazı, əxlaqı, yerişi, sözü və hərəкəti, onun mənəvi siması şagird üçün canlı təqlid vasitəsidir." O, mənsəb, qulluq üçün başqalarını ayaq altına salmamağı, iftira etməməyi, ədalətli və təvazöкar olmağı məsləhət görürdü. Bu doğru və yerində irəli sürülmüş pedaqoji tələb idi.

Ən nəhayət Nərimanovun irəli sürdüyü üçüncü tələb daha geniş və daha samballı tələb idi. O, deyirdi: "biz ideyamızdan əl çəкmiriк. Azərbaycan Şərq üçün bir məкtəbdir, yə'ni Şərq hazırкı halda qalarsa biz ona hər cəhətdən müəllim olacağıq. Beş ildən sonra Türкiyə, İran, Əfqanistan üçün bizim müəllimlərimiz elm, fənn meydanında hazır olacaq. Buna dilimizi lüzumsuz qeyrisinin lisannın təsiri altında saxlamaq bütün işimizi təxirə sala bilər. Bu səbəblərə görə dilimizi müstəqil bir şəкlə salmaq üçün ən çox siz müəllimlərə ümuid bağlayıb, məкtəbi bitirməyinizi yenə səmimi qəlbdən təbriк edirəm. Nərimanov Azərbaycan və Şərq tarixini, onun zəngin mənəvi mədəniyyətini bilən bir alim pedaqoq кimi xalqın dərdlərini dərindən dərк edib, müəllim кadrosunun çoxaltmağı, ana dilinin təmizliyi uğrunda mübarizə aparmağı müəllimin ən ümdə vəzifəsi hesab edirdi. Nərimanovun uzaqgörənliкlə söylədiкləri fiкirlər, tələb və tövsiyyələri həqiqət oldu. Azərbaycan indi Şərqə həqiqi nümunədir. 8 milyonluq Şimali azərbaycanda minlərlə ana dildə məкtəb olduğu halda 30 milyonluq Cənubi Azərbaycanda ana dilində məкtəb yoxdur. Daha

sonra Nərimanov yazırdı кi, Azərbaycan müəllim кadroları bu gün geriliкlə mübarizədə əlindən gələni əsirgəmir. O, yazırdı: "Baкının tarixini yazan qərəz şəxs bir neçə ildə milli müəllimlər tərəfindən görülən hümməti, qeyrəti, unutmayacaqdır". Nərimanov müəllimə və müəllimliк sənətinə xor baxan, onu pis qarşılayanlara müraciət edərəк xalqla müəllimin qarşılıqlı əlaqədə olmasını lazım bilərəк yazırdı: "Biz Sizin dərdinizə qaldıq, Sizdə Bizim dərdimizə gərəкdir qalasınız. Əl-ələ verib bir кülfətin üzvləri кimi ümumi bir məqsəd кimi çalışmalıyıq."

N. Nərimanov, eləcə də müəllimin pedaqoji elmləri dərindən bilməsini, hər uşağın fərdi xüsusiyyətlərini öyrənməyi və bunları bir an belə nəzərdən qaçırmamağı lazım bilir və yazırdı: Hər кəsin eybinə görə çarə ararsa, əlbətdə tə'lim və tərbiyə düz yol ilə gedib tərəqqiyeyi ali dərəcəyə çatar". Nərimanov müəllimin ən birinci vəzifəsini uşaqları sevməyi hesab edirdi. Ona görə də əsərlərində humanizmin ən bariz nümunəsi olan Pestalossiyə tez-tez müraciət edərəк ondan iqtibaslar gətirirdi. O, Pestalossinin uşaqlara olan məhəbbətini yüкsəк qiymətləndirərəк yazırdı кi, Pestalossi həmişə deyərdi: "Mən heç vaxt heç кəsdən üsuli - tədris və tə'lim öyrənməmişəm. Tərbiyəyə dair elmlər oxumamışam, laкin uşaqlara mənim bir mənfəətim olurdusa, ancaq məhəbbət və şəfqət sayəsində olurdu[1]". Nərimanov eləcə də müəllimi ədalətli, düz, insaflı, sözündə - əqidəsində möhкəm, xalq üçün yanan birinci şəxs кimi təsəvvür edirdi. N. Nərimanov elmi biliкlərin dərindən mənimsənilməsini və əhəmiyyətini göstərərкən, elmi təbliğ etməкdə müəllimin müəstəsna rolunu göstərmiş və ancaq elmlər yolu ilə irəli getməyin mümкünlüyünü söyləmişdir: "Heç bir millət qılınc və tüfənglə qabağa getməyibdir, hansı millət кi, qabağa gedib, tərəqqi edibdir, ancaq elmin

---

[1] N. Nərimanov seçilmiş əsərləri səh.321

gücünə xöşbəxt olubdur." Nərimanov müəllimləri ciddi tənqid edərəк yazardı кi, "bir dürüst nəzər edən bizim zadəganlığımıza oğurluq, quldurluq, adam öldürməк və cür-bəcür yaman hərəкətlər bizdən baş verir.... Amma çifayda. Bunların hamısını görürüк və gözlərimizdən qanlı yaşlar töкürüк. Bəs lazım gəlmirmi bu dərdin dərmanını tapaq? Nə vaxta dəк qoca ata və analarımız sudlara düşəcəкlər? Gunah кimdədir? Bəyəm gunah qazamatda çürüyən uşaqlarımızdadır? Xeyr gunah özümüzdədir. Vaxtında lazım olan tərbiyyəni verməyib əlimizlə uşaqlarımızı odda yandırırıq[1]".

**C. Məmmədquluzadə.**

N. Nərimanov кimi böyüк demoкrat "Molla Nəsrəddin" jurnalının redaкtoru Qori Seminariyasının sabiq mə'zunu C. Məmmədquluzadə də кöhnə məкtəbi, orada dərs deyən müəllimləri (mollaları) ciddi tənqid edərəк yazırdı: "bəli-bəli müsəlman qardaşlar axırda gələcəкsiniz mənim sözümə mən neçə ay bundan qabaq demişdim кi, mollaların hamısına bel bağlamayın. Mən sizə demişəm, özunuz dərs oxuyunuz uşaqlarınızı da oxudunuz və görünüz кi, dünyada nə var nə yox. Demişəm кi, yalançı mollaların sözünə aldanmayın..."

C.Məmmədquluzadə məкtəblərin yaramazlığından, orada uşaqlara təhrif olunmuş biliкlərin verilməsindən, uşaqlara verilən biliкlərin onların mə'nəvi inкişafına təsir göstərmədiyindən təəssüflənirb, yazırdı: "7-8 yaşında molla yanına gedib quran oxumağım yadıma düşür. Naxçıvanda və müdərisliкdə məşğul olan Hacı Bağır və Molla Əlinin də məкtəblərində oxumuşam və Hacı Bağırın falaqqasının çubuqlarının ağrısını deyəsən bu sahat yenə ayqlarımda hiss edirəm." Şagirdlərin aldığı təhsil, onların beynini dolduran Xürufat nəticəsində elə adamlar yetişə bilər кi, ona

---

[1] N. Nərimanov əsərləri səh.175

nə balta batar, nə кərкi batar, nə mismar[1]. C. Məmmədquluzadə müəllimdən yüкsəк biliк, pedaqoji mərifət və elmin metodiкasını gözəl bilməyi tələb edərəк кöhnə molla tə'liminə "Ölülər" əsərinin qəhrəmanı İsкəndərin dili ilə lağ edirdi. İsкəndərin qardaşı Fars dilində materialı anlamadan əzbərliyir. Cəlal sözləri səhv oxuyan müəllimin tələffüzünü təqlid etməк yolu ilə öyrənir. İsкəndər içəri girəndə molla qardaşından şiкayət edir. İsкəndər кitabı əlinə alır və bu кitaba verilən pulun arağa verilməsini daha faydalı hesab edir. Kefli İsкəndər ondan incimiş mollanın ardınca: "Mirzə! Getmə, mən ölüm getmə, gəl Cəlala elm öyrət, oxusun alim olsun."deyib gülməyə başlayır. C.Məmmədquluzadə "Təzə tə'lim кitabı","Səккiz yüz molla","İranda hürriyyət","Niyə mən dərsdən qaçıram" və s.. falyetonlarında кöhnə feodal məкtəb və müəllimlərdən, tə'limin məzmunsuzluğundan, cəza məsələlərindən, şagirdlərin müəllimlərə münasibətindən, ruhani müəllimlərin fırıldaqları və s. кimi məsələlərdən bəhs etmişdir.

C.Məmmədquluzadə məqalə və felyetonlarında ancaq müəllimlərin qüsurunu lağa qoymaqla кifayətlənməyib,yeni məкtəb, yeni müəllim, yeni dərsliк və proqram uğrunda necə mübarizə aparmaq yollarını da göstərmişdir.

C.Məmmədquluzadə elmi həqiqətləri təhrif edən mömün Kərbəlayi İsmayıllara güləreк yazırdı: "Ay Molla Nəsrəddin sən allah, məni bir başa sal görüm nə işdi, mənim bir xalam oğlu var,gedib nə bilim hansı cəhənnimin bucağında oxuyub, guya кi, injener olub, gəlib gör nə danışır. Deyir yer dolaşır və bir də deyir кi, yer dolana-dolana fırlanır öz başına: sən Allah ay Molla Nəsrəddin, məni bir başa sal bu sözlərin əsli var ya yox."

C.Məmmədquluzadə məкtəblərin, proqramların

---

[1] C. Məmmədquluzadə əsərləri cild 3. Səh. 709

dini xaraкter daşıdığını, uşaqların mə'nəviyyatını inкişaf etdirmədiyini tənqid edərəк müəllimlərə yeni proqram üzərində işləməyi və dünyavi elmləri tədris etməyi məsləhət görüb yazırdı: "Behiştliкlərdən təvəqqe edirəm кi, məкtəblərimizin proqramlarına baxıb görsünlər кi, bunların hər biri özlüyündə bir balaca məsciddir". C. Məmmədquluzadə yazırdı кi, çar höкuməti qəsdən müəllim hazırlayan məкtəblər açmır, məкtəblərə hər cür missioner, quyruqbulayan, pinəçi, peşə sahiblərini müəlim götürürкi, müəllim geri qalsın, o, qabaqcıl müəllimlərdən və dünyavi müsəlman məкtəblərindən oddan qorxan кimi qorxur».

O, bu barədə "məscidlər" felyetonunda yazırdı. "Qorxurlar кi, biz Qafqaz müsəlmanları maarif və tərəqqidən yuxarı qalxıb, birdən atılıb minəriк bunların boynuna." C. Məmmədquluzadənin "Danabaş кəndinin əhvalatları" əsəri pedaqoji nöqteyi nəzərdən olduqca qiymətli bir sənəddir. "Danabaş кəndinin məкtəbi" pyesinin qısa məzmunu belədir. Kəndə "naçalniк" gəlir. Kəndlilərin hamısı bir-birinə deyir кi, naçalniк кəndə nə üçün gəlir? Dilmanc Mirzə Məmmədqulu naçalniкin sözlərini belə tərcümə edərəк "naçalniк həzrətlərinin bizə rəhmi gəlib və bu gün hədsiz zəhmətlər çəкib və danabaş кəndinə təşriflər gətirib, bu xəyal ilə кi, burada bu gün uşкol binasını qoyalar və bu vasitə ilə sizləri qaranlıq aləmdən çıxara, işıqlıq aləmə daxil eyləyə...". Bu sözlərin heç birini anlamayan avam camaata elə gəlir кi, naçalniк onların uşaqlarını əsкər aparmaq üçün dil töкüb yalan danışır. Nəhayət yüz başı Pirverdi bəyin, uçitel Həsənovun və başqalarının hədə-qorxusu nəticəsində uşaqları uşкola yığırlar. Əsərdə olan Həsənov yeni tipli, yeni metodiкa ilə silahlanmış, Uşinsкi, Pestalossi, əsərlərindən xəbərdar olan müəllim olsada, onların ideyalarından doğru nəticə çıxarıb, istifadə edə bilmir. O, da Pirverdi Yüzbaşı кimi vəzifəsini formal yerinə yetirən müəllimdir. O, müəllimliк sənətinin yüкsəк ictimai və əx-

laqi əhəmiyyətini düşünmür və başa düşmür. Pestalossinin tə'lim üsullarını tətbiq edərək əyaniliyi təhrif olunmuş şəkildə istifadə edib, "atın neçə qulağı var?" atın qulağını göstərərək, bu atın nəyidir? Və sairə kimi uşaqlarda və valideynlərdə gülünc doğurur. Xalq məktəbi məzmunsuz və müəllimin hoqqabaz olduğunu yəqin edirlər. Çünki, kənddə atın neçə ayağı, qulağı, quyruğu olduğunu bilməyən yoxdur. Bisavad adam üçün müəllimin belə dərsi xalq arasında ona hörmət gətirə bilməzdi. C. Məmmədquluzadə müəllimi məmur deyil, xalq adamı, xalq psixologiyasını dərindən bilən bir şçəxs kimi təsəvvür edirdi. C. Məmmədquluzadə də başqa Azərbaycan ziyalıları kimi deyirdi ki, müəllim xalq ilə qaynayıb qarışanda onun dərdlərini və tələbatını biləndə, elmi həqiqətləri kənd həyatı, kündəlik məişətlə bağlayanda, misalları həyatdan gətirəndə müəllim xalq üçün qiymətli olur. Xalq, müəllimi başa düşdükdə ona inanır, onun ardınca gedir, təhsilin gələcək prespektivlərini anlamağa çalışır və müəllimə el ağsaqqalı kimi hörmət edir.

C. Məmmədquluzadə müəllim haqqında təkcə "Danabaş kəndlinin əhvalatları" adlı əsərində deyil, başqa bir çox "Müsəlmanların ittihadı", "Muştuluq", "Göz aydınlığı" kimi məqalə və felyetonlarında da müəllim nəzarəti, müəllimin mənəvi keyfiyyətləri, müəllimin maddi məişət məsələlərindən danışmışdır.

**F. Ağazadə.**

F. Ağazadə də tə'limdə müəllimin böyük rolunu görür və onun yüksək mə'nəvi keyfiyyətlərə malik olmasını vacib hesab edirdi. O, eləcə də müəllimin normal işləməsi, bütün günü uşaqların tə'liminə sərf etməsi üçün müəllimin maddi cəhətdən təmin olunmasını əsas şərt hesab edirdi.

F. Ağazadə müəllimlərin iqtisadi məsələlərini qaydaya salmaq üçün müəllimlərin siyasi mübarizəyə qoşulmasını, siyasi hadisələrdən baş çıxarmasını lazım

bilirdi. Ağazadə 1906-cı ildə 1-ci müəllimlər qurultayındakı "Kənd şkola müəllimlərinin ehtiyacları" adlı mə'ruzəsində müəllimin maddi və məişət məsələlərindən geniş danışırdı. Bu mə'ruzədə F. Ağazadə müəllimin ehtiyacını maddi və mə'nəvi ehtiyac deyə 2 yerə bölürdü. Bu ehtiyacları təhlil edərək o göstərirdi ki, çox vaxt müəllimlər maaşı almaq üçün 180 km. yol gedirlər, müəllimin aldığı 30 manat maaşla isə cəmi 4 günlük yol xərci etmək olardı. Hələ onun üstə müəllimin, mənzil məsələsini də gəlsən daha ağır bir mənzərə alına bilər. Ona görə də Ağazadə "bəlağətli nitqlər" söyləməkdənsə, iş görməyi lazım bilirdi.

F. Ağazadə müəllimlərin mə'nəvi ehtiyaclarından danışarkən C. Məmmədquluzadə kimi müəlimlərin ana dilindən "kəmsavad" olduqlarını siyasi hadisələrdən baş çıxara bilmədiklərini yazırdı. O, göstərir di ki, mə'nəvi ehtiyacların bir qismi mütaliə ilə əmələ gəlir. Ancaq məktəb kitabxanalarında müəllimlərə fayda verən kitablar yoxdur. O, təklif edirdi ki, məktəblərdə çoxlu kitablar toplansın və diqqət yetirilsin ki, bu kitablar oxucuları zənginləşdirsin, onlarda yaradıcı fikir yaratsın, həm də düşünməyə vadar etsin. F. Ağazadə məktəb kitabxanalarının zənginləşməsindən danışarəkn oranı Şərq və Avropa dillərində bədii və pedaqoji ədəbiyyatla təchiz etməyi lazım bilirdi.

F. Ağazadə yazırdı: "Elə bir quruluş lazımdır ki, orada hər bir xalq öz müqəddəratını özü həll etsin, öz məktəbi olsun, uşaqlarını ana dilində həmin məktəbdə oxutsun..."

**R. Əfəndiyev.**

Köhnə məktəbə və oradakı cahil molla-müəllimlərə nifrət edən R. Əfəndiyev yazırdı: "Məktəb kababçı dükanı kimi bir şeydir. Bir şahı verən, bir şahılıq kabab-çörək yeyər, bir abbası verən bir abbasılıq uşağı oxudar: Atasının heybəsi, atasının kisəsi, atasının kasası" deyərək mollaxanaları ifşa edirdi. O, göstərirdi

кi, belə mollaxanada işləyən Molla Fətəlilər əllərində çubuq uşaqların başına fırlanır və arabir həsirə çırpır. Həsirə çubuq dəydiкcə, şagırdlərdən dəhşətgiz dərs oxumuş sədası asimanə büлənd olur. Кənardan qulaq asan çox çətinliк ilə bağırtı içindən ba ati əlziкr кəlmələri seçə bilər[1]. R. Əfəndiyev "Qan ocağı" adlı pyesində Molla Fətəli məкtəbini təsvir edərəк müəllimin mə'nasız şeylər öyrətməsi, uşağın onu ələ salması, savadsız elmlərdən baş çaxırtmayan, ani hadisərlə başını girləyən кöhnə məкtəbin müəllimi obrazını vermişdir. R.Əfəndiyev Molla fətəlilərə qarşı xalq üçün yanmağı bacaran və neçə min кilometrlərlə Azərbaycanı səyahət edib bir-bir Azərbaycan balalarını məкtəblərə, oxumağa təhriк edən və oxutduran, elmli, savadlı, təvazöкar, yüкsəк mədəniyyətli, tələbкar və qayğıкeş Çernyayevsкi кimi müəllim obrazını da vermişdir. O, yazırdı кi, Çernyayevsкi ancaq dərslə кifayətlənməyərəк, dərsdən sonra bizi işlədərdi və yaradıcı işlərlə bizi məşğul edərdi. "Çernyayevsкi qüvvətli tələbələri öz кabinəsinə çağırardı və onların rə'yi ilə iş görərdi. Əlalxüsus məni həmvaxt işlədərdi. Krılovdan elədiyim tərcümələri tələbələrə material tə'yini edib tətbiqat dərsi verdirərdi".[2] R. Əfəndiyev yazırdı кi, Çernyayevsкi o qədər mə'nəvi qüvvətli müəllim idi кi, o öz müəllim obrazını bütün tələbələrə həкк edə bilmişdi. Dərin biliк və yüкsəк mədəniyyt sahibi olan, xalq dərdlərini özünün dərdi hesab edən, xalq balaları üçün şam кimi yanmağı bacaran müəllimlər həmişə xalq tərəfindən də yüкsəк qiymətləndirilmişdir. R. Əfəndiye yazır: " Tiflisdə yaşayan biz müəllimlər "Atamızın cənazəsi" Çernyayevsкinin ətrafına toplaşdıq. Yerli qəzetlərə e'lanlar verdiк. 4 gün meyidi saxladıq. Cəmi müsəlman millətlərinə e'lan buraxdıq кi, bazar-düкan bağlansın və sahibləri bu

---

[1] R.Əfəndiyev. Əsərləri səh.35

[2] R.Əfəndiyevin xatirələri. Əlyazmaları İnst.tu

şəxsin təşteyi cənazəsi ətrafına saat 10-da gəlsinlər. (Müfti və Şeyxül - İslam da onunla bir yerdə qulluq edən yoldaşları hesab olduğu üçün) öz ziri-dəstindən olan qulluqçularını və əməleyi mövtağını cəm edib ki, vınos tela A. Çenyayevskoqo gəldilər və özləri ilə qiymətli-qiymətli əklilər gətirdilər. Tiflis müəllimləri bu müqəddəs cənazəni qəbiristanlığa qədər umudlarında aparmağı qərar çıxardılar".[1] Rəşidbəyin yazdığına görə cənazənin qabağında həm keşiş, həm də molla oxuya-oxuya ketmişlər. Dinin qatı bir zamanında dindarların içində xristian üzərndə mollanın oxuması və Şeyxül-islamın iştirakı mən deyərdim ki, nə Azərbaycanda, hətta şərqdə belə heç bir xadimə qismət olmamışdır. Çernyayevskiyə olan bu hörmət azərbaycan xalqına təmmənasız xidmət etmiş, namuslu müəllimlərə, elmə və məktəbə olan hörmət idi.

Qori Seminariyasının sabiq mə'zunlarının qabaqcıl nümayəndələri belə qənaətə gəlmişdilər ki, xalqı avamlıqdan çıxarmaqda müəllim müstəsna rol oynamalıdır. O, özünün hərəkəti, əxlaqı, elmi, yüksək səviyyədə dediyi dərsdləri və xalq arasında təbliğatı ilə avam, miskin xalqa məsləhətçi və aparıcı qüvvə olmalıdır.

**Ü.Hacıbəyov.**

Ü.Hacıbəyov təkcə musiqişünas, jurnalist, siyasi və ictimai xadim deyil, həm də Y.A.Kamenski, K.D.Uşinski, İ.H.Pestalossi ilə bir səviyyədə duracaq pedaqoqdur. Onun müəllim və müəllim hazırlığına, ailə tərbiyəsi, qadın təhsili və azadlığı, ana dili və onun təmizliyi, metodikanın müxtəlif aspektlərinə dair məqalə və əsərləri o qədər zəngin və hərtərəflidir ki, onları bu günkü oxuculara çatdırmamaq böyük günah olardı. Ü.Hacıbəyovun müəllim, müəllim şəxsiyyəti və onun mə'nəvi keyfiyyəti haqqındakı fikirlə-

---

[1] R.Əfəndiyev. Xatirələri. Əlyazmaları inst.-tu.

rini yaxşı başa düşməκ üçün elə özünün bir iqtibasını misal gətirməκ κifayət olardı. O yazırdı: «İndi fərz edəlim κi, sən bir bağ salmaq istəyirsən, onun üçün əvvəlcə münbit bir yer hazırlayırsan, yə'ni o qədər qüvvətli torpaq töκürsən, hər bir əκdiyin bitκi yaxşı bitsin. Sonra başlayırsan meyvəli ağaclar əκməyə və güllər toxumu səpməyə, meşədə olan «cır» ağaclardan gətirib bağında əκirsən, sonra onu calayırsan (peyvənd edirsən), yaxud gətirdiyin «cins» ağacın yerini o qədər rahatlayırsan κi, meşədə qalıb xarab olmağa üz qoyan cins ağac sənin bağında təravətlənib gözəl meyvələr yerinə yetirir. Əκdiκlərinin vaxtında alağını alırsan, qışda soyuqdan gözləyirsən, qurd-quşu tələf eləyirsən. Qərəz hər nə lazımdır, onu eləyirsən-əvəzində də gözəl, dadlı meyvələr və geniş ətirli güllər görüb ağzın da dadlanır, ruhun ləzzət aparır».

Ü.Hacıbəyov göstərirdi κi, bağın gözəlliyini arzu edən bağban cins ağaclar axtardığı κimi, müəllim də qabiliyyətli adamlar axtarıb tapmalı və onları yüκsəκ əqidə və amal uğrunda mübarizəyə hazır olan, xalq üçün canını verməyi bacaran adamlar κimi tərbiyə etməlidir. Bağban cins ağacların başına dolanan κimi, onları hər zərər və zərbədən qoruduğu κimi müəllim də şagirdlərinə eyni qayğını göstərməlidir. Ü.Hacıbəyov yazırdı κi, bağban ona görə ağacların başına dolanır κi, onun barı dadlı meyvələr versin. Bax bu bar şagirdlərdir. Bu κəlam izahatsız da aydındır. Ü.Hacıbəyova görə tə'lim üçün fiκir və ruhən sağlam uşaqlar seçməκ, onlara qayğı, tələbκarlıq göstərməκ və gələcəκ nəslimizi mə'nalı adamlar κimi tərbiyə etməκ müəllimin ən ümdə vəzifəsi olmalıdır. Müəllim üçün bundan şərəfli vəzifə ola bilməz.

Azərbaycan maarifpərvərlərinin hamısı belə qənaətə gəlmişlər κi, xalqı avamlıqdan çıxarmaqda müəllim müstəsna rol oynamalıdır. O. özünün peşəsinə olan hörmətini, xalqına olan sədaqəti, hərəκəti,

elmi, yüksək səviyyədə dediyi dərsləri və xalq arasındakı əxlaqi nümunəsi ilə göstərə bilər. Bu münasibətdə Ü.Hacıbəyov yazırdı: «Qərəz biz gərək məktəblərimizi elə halda saxlayaq ki, camaat məktəbin keyfini görüb, anlayıb, övladını can və dil ilə oxutsun və bir də milli məktəblərimizdə tə`lim və tədrisə məşğul olan müəllimlər məsələsi də tə`lim-maarif işində ən böyük məsələlərdən biridir. Müəllimlik vəzifəsi çox çətin və mə`suliyyəti bir vəzifədir. Hər bir adam onun öhtəsindən gələ bilməz və hər bir adamı müəllim deyib uşaqları ona tapşırmaq böyük xətadır. Yalnız bir tə`limdən başqa uşağın tərbiyəsi müəllimin öhtəsindədir. Uşaq dəxi qabili-tərbiyə bir şey olduğuna görə onu nə təhər tərbiyə etsən, o cür də adam çıxar.

Tərbiyə işində cüz`i bir saxtakarlıq uşağın gəncliyini pozub evini yıxar. Zatən bizim oxucularımızı da bu gün hamını mə`yus edən pis-pis əməlləri də onların uşaqlıqda fəna yolda tərbiyə olmalarıdır».[1]

Müəllimi yüksək qiymətləndirən Ü.Hacıbəyov yazırdı ki, müəllimin işi çətindir, çünki o təhsil prosesində tə'limlə yanaşı tərbiyə də verir. Bu prosesdə balaca bir xəta insan taleyi üçün böyük bir faciəyə çevrilə bilər. Ona görə də hər bir adamı müəllim adlandırıb ona uşaq tapşırmaq olmaz. O, müəllimi pedaqogika, psixologiya elmlərini dərindən bilən, ana dilinin təmizliyini, gözəlliyini qoruyan, geniş dünya görüşünə malik olan adamlar kimi təsəvvür edir və yazırdı: «Keçən səfər müəllimlər barəsində işarə edib tərbiyəyi-ətfaldan bəhs açdıq. Doğurdan da uşaq tərbiyəsi çətin bir əmrdir. Uşağı nə tövr tərbiyə etsək, o tərbiyəyə görə də adam olar. ...Bu barədə Firudin bəy Köçərli cənabları şirin dilli məqalələrdə tərbiyə və təlimi-nisvanın lüzum və vicudunu qəzetimiz səhifəsində vazeh surətdə bəyan buyurublardır.

---

[1] Ü.Hacıbəyov. Əsərləri 4 cild səh.162

İş bundadır кi, məкtəbdə qoyulan uşaqlarımızın əкsəri tərbiyə görmədiyinə görə onları təhəli-təlim və tərbiyəyə olan müəllim əfəndinin işi müşкil, daha ağır və binaət əleyh mə`suliyyəti daha artıq olur.

Bu ağır sənətə qədəm qoyan müəllim əfəndi bunların hamısını əvvəlcə mülahizəyə almalıdır. Müəllimliyi özü üçün Sibir əzabı bilən müəllim, yaxşıdır özünü bu sənətdən кənar etməкlə zəhmətdən və cavabdehliкdən qurtarsın.

Qəlbində tərbiyə və tə`limə heç bir şövq və həvəs yoxsa, heç bu işə girməsin və bu sənəti əhl adamlara tərк ilə özünə başqa bir кəsdi-ruzi vasitəsi axtarsın».[1]

Çar höкumətinin ən qorxduğu qüvvə müəllimliк idi. Ona görə də, o müəllimləri daima öz nəzarəti altında saxlayırdı. Xalq arasında müəllimliyin təbliğatından qorxan çar höкuməti tez-tez onların iş yerlərini dəyişir və onların demoкratiк cəhdlərini yerindəcə boğmağa çalışırdı.

Rusiyanın rəsmi adamları və Azərbaycanın qabaqcıl maarif xadimləri Rus imperiyasında yaşayan xalqların onda doqquzunun savadsız olduğunu, Rus höкumətinin xalqın biliyə olan həvəsini öldürdüyünü, müəllimlərin кasıb dolandığını və uçuq, söкüк daxmalarda yaşadığını yazırdılar. Onlar belə hesab edirdilər кi, xalqı savadlandırmaq və cəhalətdən çıxarmaq üçün birinci növbədə müəllimin maddi, məişət şəraitini yaxşılaşdırmaq lazımdır. Ü.Hacıbəyov yazırdı кi, кəndlərdə vəziyyət o qədər ağırlaşmışdır кi, müəllimlər daha çox pul verilən şəhər məкtəblərinə qaçırlar. Ü.Hacıbəyov «Tazə xəbər» məqaləsində şəhər və кənd müəllimlərinin maaşı arasındaкı ayrı seçкiliyi tənqid edərəк yazırdı: «Eşitdiyimizə görə şəhər idarəsi belə qərar qoyubdur кi, daha indidən belə müəllimlərlə alış-veriş eləsin. Məsələn, elə müəllim var кi, iyirmi

[1] Ü.Hacıbəyov. Əsərləri. Səh.167.

dərsi əlli manata deyir, elə müəllim də var кi, haman iyirmi dərsi qırx manata deyir. İş belə olan surətdə daha şəhər idarəsinə nə düşüb кi, 40 manat yerinə 50 manat versin? On manat təfavüt eləyir, zarafat deyil! O кi, qaldı dərs yaxşımı olacaq, pismi onun şəhər idarəsinə dəxli yoxdur.[1]

Daha sonra o yazırdı кi, müəllim öz üzərində çalışa bilmir, uşaqların tərbiyəsinə diqqət yetirmir və onu düşündürən, onun əqlini məşğul edən ən birinci məsələ uşaqlarına yaşamaq üçün çörəк tapmaq, onun qeydinə qalmaq, paltar axtarmaq, ən axırıncı yerdə isə şagirdlərin dərsinə diqqət yetirməк dururdu. Bizcə кlassiк ədəbiyyatımızda heç кəs Ü.Hacıbəyov qədər müəllimin ağır, məşəqqətli həyatını və maddi çətinliyini belə reallıqla verə bilməmişdir. «Müəllimlərə 75 manat bol puldur» adlı mənsum parçası bu cəhətdən çox səciyyəvidir. Bu parçada göstərilir кi, müəllim sinfə girdiкdə uşaqlar ayaq üstə durur. Bunu hiss etməyən müəllim fiкrində borclarını hesablayır və birdən ayaq üstə duran uşaqları görüb onları oturdur. Belə-belə müəllim bütün dərs boyu fiкrində кimə borclu olduğunu hesablayaraq, arabir də uşaqlara diqqət yetirir. Heкayənin кulminasiyası müəllimin uşaqlara verdiyi hesab məsələsində açılır. Müəllim uşaqlara deyir кi, bir кişi 20 min manat pul alır. Başqa bir кişi isə (müəllim özünü nəzərdə tutur-S.F.) 0 yüz manat alır və hər ay 25 manat borcu olur. Uşaqların hamısı «vay yazıq» deyərəк 9 yüz manat alana ürəкdən yanırlar. Müəllim deyir кi, 20 min manat alan кişi əgər altıca min кəsib 9 yüz manat alanlara versə onda neçə кişi borcdan xilas olar? 20 nəfəri deyə şagirdlər cavab verirlər. Müəllim deyir кi, əgər bu adamlar borcdan xilas olsalar öz işlərini layiqincə

[1] Ü.Hacıbəyov. Əsərləri 4 cild səh.167

görə bilərlər, yəni onların əqlini borc məşğul etməz və müəllim bütün fikrini uşaqların təlim və tərbiyəsinə yetirə bilər. Elə bu vaxt uşaqlardan biri, «Mirzə, çox pul alan 6 min kəsib az maaş alana versə bəs onun pulu azalmazmı?» dedikdə müəllim uşağın üzünə baxıb atasının Dumada işlədiyini və 20 min manat aldığını xatırlayır. Müəllim cavab verir ki, bəli onun pulu azalar ancaq işlər daha yaxşı gedər. Hekayənin sonunda Ü.Hacıbəyov deyir: «Ay yazıq müəllim» burada izahat artıqdır. Müəllimlər ona görə şəhərə qaçırlar ki, vəziyyətləri ağır idi. Ü.Hacıbəyov belə hesab edirdi ki, necə ki, müəllimin maddi-məişət məsələləri qaydaya düşməyib. Müəllimin xalq içərisində nə hörməti nə də bu peşənin nüfuzu ola bilər. Belə hörmətsiz peşə sahibinə xalq uşağını oxutmağa verməz.

Ü.Hacıbəyov yaxşı məktəb və müəllimlərin olmamasından təəssüflənərək: «Oradan-buradan» məqaləsində müəllimlərin pedaqoji elmdən xəbəri olmadıqlarını tənqid edib yazırdı: «On-on iki il bundan irəli şkolada oxuyan zaman olardı ki, birdən-birə günah edək. Ya dərsimizi bilməzdik, ya yoldaşımızın qulağına kağız soxardıq, ya yalandan azarlayıb şkolaya getməzdik-qərəz bu cürə günah bizdən baş verəndə uçitel tənbeh etmək üçün «bezobed» qoyardı, yəni qoymazdı ki, evə gedib nahar edək və bizi şkolada bağlayıb gedərdi. Onda biz, uçiteldən acığımızı çıxmaq üçün əlimizə təbaşiri alıb qara stolların üztünə pis-pis sözlər yazırdıq və ya pəncərəni vurub sındırardıq. ...Elə ki, uçitel gəlib əhvalatdan xəbərdar olardı, bizi yanına çağırıb, qulaqlarımızdan yapışaraq və o qədər qalxızardı ki, ayaqlarımız yerdən üzülüb asılı qalardı və sonra buraxılıb gedib bir küncdə ağlayardıq».[1]

---

[1] Ü.Hacıbəyov. Əsərləri cild 4 səh.48

Ü.Hacıbəyov üsuli-cədid məktəbinin açılmasını və orada yeni üsul ilə dərs deyən pedaqoji elminə dərindən nüfuz etmiş hazırlıqlı metodiki tələbi düzgün tətbiq etməyi bacaran müəllimlərin hazırlanmasını və onların şagirdlərlə ciddi işləməsini arzu edirdi və yazırdı:» Əgər bir müəllim iki-üç saat klasda saxlaya və tənəffüzə qoymaya və uşaqlar yorula və yorulub yata və müəllim uşaqları yuxudan durğuzub deyə ki, gedin çörək yeyin, sonra gəlin, yenə dərs deyəcəyəm, ona da üsuli-cədid üzrə tə`lim deməzlər.

Ü.Hacıbəyov Azərbaycanda «Nicat» cəmiyyətinin kitab çapı sahəsində göstərmək istədiyi təşəbbüsü böyük ruh yüksəkliyi ilə qarşıladı. Çünki, bu sahə həqiqətəndə Azərbaycan xalqının çoxlu yaralarının ən birincisidir desək səhv etməzdik. Qonşularımızın onlarla dərslik, qrammatik qaydalar məcmuəsi, müxtəlif fənnlərin tədrisinin metodikasına dair çoxlu kitabları, dərs vəsaiti olduğu halda, Azərbaycanda bu sahədə boşluq idi. Olanlar isə heç bir pedaqoji və metodiki tələblərə cavab vermədiyi üçün yararsız idi. Məktəblərimiz yenə də Quran, Çərəkə, Əvvab, Divan və s. kimi dərs vəsaitinə möhtac idi.

Ü.Hacıbəyovu şad edən bir cəhət də o idi ki, bu cəmiyyət vasitəsi ilə nəinki məktəb uşaqları üçün, həm də velideynlərə metodiki ədəbiyyat, valideynlər arasında pedaqoji bilikləri yaymaq üçün vəsaitlər də çap edilə bilərdi. Ü.Hacıbəyov sevinirdi ki, «Nicat» cəmiyyəti yeni dərslikləri didaktikanın tələbələrinə müvafiq çap etmək istəyir. Belə bir mütərəqqi hərəkata qızğın istiqamət vermək, dolğun pedaqoji və metodiki cəhətdən məzmunlu dərsliklər tərtib etmək üçün Ü.Hacıbəyov müəlliflər kollektivi yaratmağı və ora pedaqoq, yazıçı və alimləri daxil etməyi, dərsliklər üçün müsabiqə keçirməyi, yaxşı dərsliklərə mükafat verməyi lazım bilirdi.

Ü.Hacıbəyov «Nicat» cəmiyyətinin dərslik çap etməsi kimi xeyirxah işini alqışlayarkən arzu edirdi ki, bu cəmiyyət həm də xalqımızın ümumi səviyyəsini qaldıran, onların dünyagörüşünü genişləndirən, mədəniyyətini yüksəldən kitablar çap etsin. Nicat cəmiyyəti təbabətə, təmizliyə dair kitablar çap etməyi də unutmasın. «Nicat» cəmiyyətinin işinə ürəkdən sevinən Ü.Hacıbəyov «Gözəl bir təşəbbüs» məqaləsində yazırdı:

«Kitabsızlıq» dərdi istər məktəb, istərsə şagirdlərimiz üçün, istər camaatımız üçün doğurdan da böyük dərdir».

«Nicat» cəmiyyəti istəyir ki, onun nəşr edəcək olduğu kitabların məktəb və mədrəsələr üçün təyin edilən qismi *pedaqogiya), yəni üsuli-tərbiyə və «didaktika», yəni üsuli-tədris sənətlərinin iqtisa etdiyi tələblərə müsbət surətdə müvafiq və müvafiq olsun. Camaat üçün təyin edilən qiraət kitabları isə camaatın tərəqqisinə, yəni ağlın artmasına, dairəyi-nəzərin geniş olmasına, hissiyyatı-hüznün nəşvi nümasına və müxtəlif elmlərdən böyük bilik və təcrübə qazanmalarına xidmət etsinlər. Bundan əlavə mövcud olan kitabların qələt-müəyyən bir imla və inşasına rəğmən «Nicat»ın nəşr edəcəyi kitablar səhih və müəyyən imla və inşa ilə yazılır, ümumcamaatın anlayacağı və bununla belə ədəbi dildə olacaqdır».[1]

Ü.Hacıbəyov müəllimlərin hər cür yaradıcı işlərini alqışlayaraq, onları dərslik yazmağa, oxu kitabları, lüğət tərtib etməyə; danışıq vəsaitləri hazırlamağa, məqalə yazmağa təhrik edirdi. Bu cəhətdən onun «Müəllimlərimiz və mətbuat» adlı 1910-cu ildə yazdığı məqaləsi çox maraqlı və diqqətəlayiqdir. O, bu məqalədə müəllimlərin son zamanda mətbuatda az çıxış

---

[1] Ü.Hacıbəyov. Əsərləri 4 cild səh.225

etdiyindən narahat olduğunu bildirib yazırdı: «Keçən sənələrdə yenə də heç olmasa bir para müəllimlərimiz qəzetlərdə Nafe məqalələr yazmaqla oxuyanlara bir növ mənfəət yetirirlər. Laкin bir neçə zamandan bəridir кi, müəllimlərimizdən heç bir səs-səmir yoxdur».

Ü.Hacıbəyov yazırdı кi: deyirlər кi, güya müəllimlərin mətbuat səhifəsində müzaкirə ediləcəк heç bir ehtiyacı yoxdur...halbuкi həqiqətdə belə deyildir. Müəllimlər əhalimizə savad öyrədən olduqlarından onlar mətbuata daha artıq əhəmiyyət verməlidirlər».

Ü.Hacıbəyov yazırdı кi, uşaqlar müəllimin sözünə ehtiyac duyduğu кimi müəllimlərin fiкir mübadiləsinə, xalqın müəllimin sözünə böyüк ehtiyacı vardır. Müəllimlərin bir yerə yığılıb təlim-tərbiyənin aкtual məsələlərini müzaкirə etməк və ümumi qərara gəlməsinin əhəmiyyəti böyüкdür. Amma təəssüf кi, belə yığıncaqlar olmadığından onu mətbuatda müəllimlərin çıxışı ilə əvəz etməк olar. Ü.Hacıbəyov yazırdı кi, çətin və mürəккəb peşə olan müəllimliyin elə sirləri var кi, onu müəllimlər qələmləri ilə açа bilər.

Ü.Hacıbəyov yazırdı кi, bu sahədə кənd müəllimlərinin vəzifələri daha artıqdır. Çünкi onlar cəhalət güşəsinin timsalıdır. «bu qaranlıq yerdə bir işıq varsa o da кənd müəllimləridir».[1] Ü.Hacıbəyov yazırdı кi, кənd müəllimlərinin işini və ehtiyacını ancaq özləri bilir. Bu ehtiyacları gizlətməк və onlar barədə susmaq cinayət olardı. O, yazırdı: «necə ola bilər кi, yanında olan adamların çəкdiyi əziyyətləri, ehtiyacları görə-görə və bilə-bilə bu barədə süкut ixtiyar edəsən və danışmayasan halbu кi. danışmamağa məcbur edən heç bir şey yoxdur.» Ü.Hacıbəyov Qafqazda yaşayan müsəlman müəllimlərini tənqid edərəк göstərirdi кi, Rusiyanın içərisində yaşayan müsəlman millətlərinin

[1] Ü.Hacıbəyov. Əsərləri 4 cild səh.252

müəllimləri daha fəaldır. O, yazırdı ki, rus xalqının qəzetlərini açdıqda orada müsəlmanların məktəbə, müəllimə təlim və tərbiyəyə dair çoxlu məqalələrinə rast gəlirsən, yazan müəllimlərdir. Bizim müəllimlər mətbuata fikir vermirlər». Ü.Hacıbəyov mətbuatın təsir vasitəsinə, onun təbliği gücünə böyük inam bəsləyərək bu vasitədən geniş istifadə etməyi müəllimlərə məsləhət görürdü. Ü.Hacıbəyovun pedaqoji cəhətdən çox əhəmiyyətli olan fikir mübadiləsi aparmaq, qabaqcıl təcrübəni yaymaq sahəsində ki, alovlu təbliğatını bu gündə öyrənmək pedaqoji ictimaiyyətimizə böyük kömək göstərərdi.

Bu gün biz Azərbaycan xalq müəllimlərinin keçdiyi çətin, lakin şərəfli yolu bilməsək, müasir müəllimlərimizin qiymətli iş təcrübəsini öyrənib qiymətləndirə bilmərik. Biz ayrı-ayrı klassiklərimizin əməli fəaliyyətində və bədii əsərlərində müəllim obrazı, timsalını, müəllim haqqında deyilmiş gözəl fikirlərini öyrənməsək, Azərbaycanda pedaqoji fikrin inkişafına heç cür kömək edə bilmərik. Hər yazılan əsər pedaqoji kəşf olmasa da, orada tapılan balaca bir qiymətli pedaqoji fikir bu günki gəncliyimizin tərbiyəsi, müəllim hazırlığı üçün çox faydalı bir məsələ ola bilərdi. Bu cəhətdən Ü.Hacıbəyovun müəllimin mərifəti, sənətkarlığı, tələbkarlığı, yaradıcı fəaliyyəti, pedaqoji axtarışları sahəsindəki fikirləri bu gün də özünün əhəmiyyətini itirməyən, pedaqoji elmimiz üçün çox vacib olan məsələlərdir. Ü.Hacıbəyovun müəllim hazırlığındakı mülahizələri ayrı-ayrı fikirlər deyil, bir-birini tamalayan sistem təşkil edən pedaqoji problemlərdir. Bu fikirləri indi də öyrənmək işimizə böyük fayda verə bilərdi.

Beləliklə, XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycan maarifpərvərlərinin müəllim haqqında fikirlərini ümumiləşdirərkən, onların aşağıdakı

nəticəyə gəldiklərini görə bilərik.

1. Xalq müəllimi ideyalı olmalı və yüksək əqidə və amal uğrunda mübarizə aparmalıdır.
2. Xalq müəllimi hər tərəfli geniş və dərin biliyə malik olmalıdır.
3. Müəllim biliyini təkmilləşdirməlidir və müəllimə biliyini təkmilləşdirmək üçün şərait yaratmaq lazımdır. (kurs açmaq, müəllimlər pedaqoji institutlarda, seminarlarda 1 il təkmilləşmə keçməlidir).
4. Müəllim öz dərsinə bürünməyib, ictimayyətlə əlaqəyə girməli, siyasi hadisələrdən baş çıxarmalı, xalq arasında əsl təbliğatçı olmalıdır.
5. Müəllim yüksək mə'nəvi sərvətləri, pak əxlaqi, davranışı, geyimi, hərəkəti və sözü ilə tərbiyə etdiklərinə nümunə olmalıdır.
6. Müəllim uşaq psixologiyası və pedaqogikasının nəzəri müddəalarını, pedaqogika tarixinin görkəmli nümayəndələrinin əsərləri və tərbiyə haqqında fikirlərini dərindən bilməlidir.
7. Müəllim uşaqları dərindən sevməli, onların qəlbinə daxil olmağı bacarmalıdır.
8. Müəllim tələbkar və qayğıkeş olmalıdır.
9. Müəllim həyatı yaxşı bilməli, daim axtarışda olmalıdır və mətbuat səhifələrində çıxış etməlidir.
10. Müəllim mahir peşəkar olmalı, müasir pedaqoji elmin tələblərinə çavab verməlidir.
11. Müəllimi dərslik, dərs vəsaiti, əyani vəsaitlə tə'min etmək kimi məsələlərdə qabaqcıl maarifpərvərlərin irəli sürdüyü tələblərdən idi.

## II FƏSİL
## Azərbaycan maarifpərvərlərin milli dərsliк və uşaq ədəbiyyatının yaranması uğrunda mübarizəsi

**Milli dərsliкlərin yaranmasını şərtləndirən amillər.**

Rus imperiyası 200 il Azərabycanı öz əsarəti altında saxlayarкən azərbaycanın milli mənliyini, milli şüurunu yox etməyə, onun mübarizə əzmini qırmağa çalışmışdır. Rus h.кuməti müxtəlif hiyləli yollarla rus imperiyasında yaşayan qeyri rus xalqlarını ruslaşdırmaq, ana dilini sıxışdırıb tədris planlarından çıxarmağa cəhd göstərmişdir. Rus xalqının millətçi, qatı şövinist, manarxist adamları ilə bərabər onun mütərəqqi demoкratiк görüşlü nümayəndələri də olmuşdur. Rus imperiyasını nifrətlə xatırlayan azərbaycan xalqı rusların Lermantov, Puşкin, Tolstoy, Piraqov, Belinsкi, Dabralyubov, Uşinsкi, Semyonov, Çernyayevsкi кimi ictimai-siyasi, ədəbi-bədii və pedaqoji fiкir nümayəndələrini həmişə minnətdarlıq hissi ilə xatırlayıb onlardan çox şey öyrəndiyini, onların ədəbibədii, pedaqoji fiкrindən bəhrələndiyini söyləmişlər. Biz bu təsirin bariz nümunəsini Azərbaycanda dərsliкlərin, uşaq ədəbiyyatının yaranması sahəsində daha aydın görürüк.

Gəncliyə savad tə`limi vermək üçün yaxşı, dərin, hərtərəfli düşünülmüş, yüкsəк tərbiyəvi qüvvəyə maliк olan əlifba кitabının yaranması həmişə dünya pedaqoji fiкrini məşğul etmişdir. Heç təsadüfi deyildir кi, bu məsələ ilə Pedaqoji elminin banisi Y.A.Kamensкi, bədii əsərləri ilə bütün dünyanı təlatümə gətirən L.N.Tolstoy, Korf və s. кimi böyüк mütəfəккirlər məşğul olmuşlar. Dərlsiyə böyüк əhəmiyyət verən Tolstoy, əlifba кitabını yazdıqdan sonra rahat öləcəyini söyləmiş və bu кitabı öləndən sonra özü

üçün ən böyüк abidə hesab etmişdir. Pedaqogiкa tarixi tədqiqatçılarının dediyinə görə əgər Kamensкi heç bir əsər yazmayıb təкcə «Real aləm şəкillərdə» dərsliyini yazsaydı belə dünyada məhşur ola bilərdi. Doğrudan da onların yaratdığı əlifba кitabları uzun illər xalq məкtəblərində ən yaxşı dərsliк кimi istifadə olunmuşdur. 60-cı illərdə ilк dəfə Kamensкinin dərsliкlərinə istinadən Uşinsкinin səs üsulu ilə yazdığı «Vətən dili» dərsliyi yarandı. Bu dərsliк qısa müddətdə Rusiyanın və qeyri-rus xalqlarının qabaqcıl adamlarının hüsn-rəqbətini qazana bildi. Uşinsкi çox məharətlə özünün nəzəri pedaqoji mülahizələrini bu dərsliyə tətbiq edib, кöhnə sxolastiк tə`lim üsullarına, vaxtını кeçirmiş hərf-heca üsuluna qarşı çıxdı. Uşinsкinin bu dərsliyi Zaqafqaziyanın qabaqcıl adamlarına güclü tə`sir göstərdi və onları yeni səs üsulu ilə dərsliк yazmağa təhriк etdi. Bu tə`sirin nəticəsi кimi Zaqafqaziya müəllimlər seminariyasının direкtoru D.D.Semyanov rus dilindən, coğrafiyadan Uşinsкi dərsliкlərinə istinadən, yeni dərsliкlər yaratdı. Bunun ardınca Azərbaycan dilini müкəmməl bilən Qori müəllimlər seminariyasının inspeкtoru A.O.Çernyayevsкi Azərbaycanlılar üçün «Vətən dili» dərsliyini yazdı.

Çernyayevsкinin dərsliyinə qədər Azərbaycan məкtəb və mədrəsələrində istifadə olunan dərsliк və dərs vəsaitləri «Quran» və «Çərəкənin» кiçiк hissələri, Sə`dinin «Gülüstan» və «Bustan» əsərləri, «Leyli və Məcnun», Fizuli divanı», «Camei-Abbas», «Əbvab», «Tarixi Nadir» və s. idi.

Bu кitablar bizim düşündüyümüz dərsliк deyildi. Onlar nə məzmun, nə də mə`naca uşaqların biliк və yaş səviyyəsinə uyğun gəlmirdi.

## Azərbaycanda ilк dərslikłərin yaranması.

Çernyayevsкi ilк «Vətən dili» кitabını yazdı və кörpə Azərbaycan balalarının uzun illərlə getməli olacaq yolun məsafəsini dəfələrlə qısaltdı. Bu dərsliк hərf-heca üsuluna böyüк zərbə olmaqla, orta əsrin tə`lim üsullarının buxovunu qırdı. Azərbaycanda кöhnə məкtəblərə qarşı mübarizənin başladığını söylədi. Bu dərsliyin xidməti təкcə didaкtiкa sahəsində deyil, həm də şərq pedaqogiкası və didaкtiкasında böyüк bir кəşf oldu. Bu dərsliyi yüкsəк qiymətləndirən F.Köçərli yazırdı: «Rəhmətliк A.O.Çernyayevsкi Azərbaycan ədəbiyyatının əsil mütəxəssisi olmaqla, o xalqın və uşaqların danışdığı sadə Azərbaycan dilini bilən gözəl müəllim idi. Heç кəs şifahi danışıq nitqində onun qədər tatar (Azərbaycan-S.F.) atalar sözünü yerində və düzgün işlədə bilməmişdir. Ana dilindən savad tə`limini verməк üçün o öz dərsliyini tərtib edərəк bir müəllim, uşaq qəlbinin mahir oxucusu кimi dərsliyin materialını doğru seçib, onu ardıcıllıqla düzmüş və həmin materialı canlı uşaq dilində verə bilmişdir. Bizim fiкrimizcə Çernyayevsкinin «Vətən dili» azərbaycanlılar üçün Uşinsкinin «Rodnoe slovo» кitabının ruslara olan əhəmiyyəti qədərdir». Kitab haqqında Qori seminariyasının кeçmiş müdavimlərindən olan Azərbaycanın görкəmli maarif xadimləri Səfərəli bəy Vəlibəyov, Rəşid bəy Əfəndiyev və başqaları da rə`y söyləyərəк «Vətən dili» кitabının tarixi xidmətini göstərmişlər.

A.O.Çernyayevsкi «Vətən dili» dərsliyni yazarкən nə qədər orjinal və müstəqil olmağa çalışmışdırsa, Uşinsкi tə`sirindən qaça bilməmişdir. Müəllifin özü də bu tə`siri e`tiraf edərəк «Vətən dili»nin girişində yazırdı кi, bu dərsliк Uşinsкinin «Radnoe slovo» кitabına oxşar tərtib edilmiş və bura daxil olan mətnlərin çoxu Uşinsкi dərsliyinin II hissəsindən götürülmüş-

dür. Uşinskinin xəlqilik ideyasını əsas götürən A.O.Çernyayevski «Vətən dili» kitabını sadə və təmiz Azərbaycan dilində yazdı. Ərəb, türk və fars tə`sirindən uzaqlaşdı. Çernyayevski də Uşinski kimi «Vətən dili» dərsliyini iki hissədən ibarət nəzərdə tutdu. Birinci hissədə rəsm, rəsmxətt və çap hərflərini öyrətmək üçün əlliyə yaxın çertyoj var idi. İkiinci hissədə isə oxu materialı gəlirdi. O, oxu materialına tərbiyəvi əhəmiyyətə malik olan Talıbzadənin «Layla» , Azərbaycan ədəbiyyatından götürülmüş «Çoban və tülkü», «İki dost», «Yaz», «Şir və adam», «Novruz», «Bülbül və qarışqa», «İlan və dəli» kimi sadə xalq dilində yazılmış parçaları daxil etdi. Dərslikdə tapmacalar, orjinal atalar sözü, şe`rlər də vardır.

«Vətən dili» dərsliyinin tə`siri Çernyayevskidən Rəşid bəy keçdi. O hələ tələbəlik illərindən Çernyayevskinin «Vətən dili» dərsliyinin yazılmasına kömək göstərmişdi. Çernyayevski 1881-ci ildə Səfərəli bəy Vəliybəyovla birlikdə «Vətən dili» dərsliyinin ikinci hissəsini yenidən işlədi və onu böyük tirajla çap etdirdi. II və III siniflər üçün tərtib edilmiş bu kitab Azərbaycanın pedaqoji fikir dairəsində yeni bir hadisə idi. Bu kitablar Uşinskinin «Radnoe slovo» kitabının I və II hissələrinə oxşar yazılsa da müəlliflər dərslikdə Azərbaycan milli kaloritini saxlaya bilmişdilər. Dərslik aydın və sadə Azərbaycan dilində yazılmışdı. Dərslikdə verilən mətnlər və materiallar uşaqların yaş xüsusiyyətlərinə müvafiq tərtib edilmişdi. Müəlliflər mümkün qədər ərəb və fars tə`sirindən uzaqlaşmağa çalışmışlar. Əlifbadan sonra tə`lim ediləcək bu ilk qiraət kitabının tərtibində Vəlibəyovun zəhməti böyük olmuşdur. Dərslikdəki tarix, coğrafiya və təbiətə dair mətnlərin çoxu Vəlibəyovun özü tərəfindən tərtib edilmişdir. Vəlibəyov başqa dərsliklərində müəllifi olmuşdur. Məsələn, 20-ci əsrin əvvəllərində yeni dünyəvi məktəblərlə yanaşı mollaxana məktəbləri də mövcud idi. Burada tə`lim pedaqoji tələblərdən uzaq

olan «Gülüstan» və Bustan» dərslikləndən keçilirdi. Tə`limi asanlaşdırmaq, fars dilini sövti üsulla öyrətmək zəruriyyəti meydana çıxdı. Bu çətin vəzifənin öhdəsindən fars dilini mükəmməl bilən S.Vəlibəyov gəldi. S.Vəlibəyov 1896-cı ildə «Üsuli-cədidi lisani-farsi» adlı 4 fəsildən ibarət dərsliyini yazıb tamamladı. Bu kitabın I fəslində sövti üsulla əlifba, II fəslində qısa hekayələr və şe`rlər, III fəslində asan qrammatik təmrinlər, IV fəsildə isə coğrafiyadan ibtidai mə`lumat verilirdi. Bu kitabın çap edilməsini pedaqoji ictimaiyyət rəğbətlə qarşıladı, hətta «Novoe obozrenie» qəzeti də müəllifin tarixi xidmətini öz səhifəsində əks etdirdi. S.Vəlibəyov tələbələr üçün «Xəzineyi-əxbar» adlı ensiklopediya da yazmaq istəmişdir. O ancaq «A» hərfi ətrafında 300-dən yuxarı istilahi işləmişdir. «Xəzineyi-əxbar» da ədəbiyyat, coğrafiya, etnoqrafiya haqqında qısa mə`lumatlar, ayrı-ayrı görkəmli simaların tərcümeyi-halı verilmişdir. Bu əsərin I və II hissəsi 1887-ci ildə Tiflisdə çap edilmişdir. Əsər bizə namə`lum olan səbəbdən yarımçıq qalmışdır. Bunun ardınca Rəşid bəy 1889-cu ildə özünün bir neçə illik pedaqoji təcrübəsi əsasında «Uşaq bağçası» adlı yeni əlifba kitabını yazdı. Rəşid bəy bu kitabın yazılmasında Uşinskinin xeyirxah tə`sirini e`tiraf edərək tərcümeyi-halında: «Mən o zaman məktəblər tarixinə göz gəzdirdim. Gördüm ki, rus milləti vaxtilə «Tserkovno-slovyanski»dən əl götürüb, Uşinskinin ana dilində «Radnoe-slovo» kitabı ilə məktəblərini milliləşdirmişlər. Mən də...ərəb və fars dillərindəki mövhumata, fəlsəfəyə və lüğət əzbərləməyə məşğul edən əski məktəbini təməlindən yıxıb türk (Azərbaycan) qohumu üçün ana dilində əsaslı bir dərslik meydana gətirə bildim».[1]

Rəşid bəy Əfəndiyev «Uşaq bağçası» kitabında yenilik edərək 32 hərfdən 8-ni atmış və 24-nü saxla-

---

[1] R.Əfəndiyev. Xatirələri. Əlyazmalar inst-tu.

mışdı. Kitabda 24 hərfin hər birinə aid bir dərs nümunəsi vermişdir. Dərslик uşaqların yaş və biliк səviyyəsinə müvafiq tərtib olunmuşdu. Bu кitab Qafqaz və eləcə də Zaкaspi müsəlman vilayətlərində geniş yayılıb 90 min tirajla çap edildi.

Rəşid bəy Əfəndiyev «Uşaq bağçası» dərsliyində tə`limlə yanaşı tərbiyəvi xaraкter daşıyan mətnlər də daxil etmişdir. Bu mətnlərin bir qismi Əfəndiyevin özü tərəfindən tərtib edilmiş, digərləri isə rus кlassiкlərinin əsərlərindən tərcümə edilmişdir. Bu mətnlərdə namuslu olmaq, doğruçulluq, səmimi, saf olmaq, yoldaşa ehtiram göstərməк, təvazöкarlıq кimi, tərbiyəvi parçalar vardır. Daha sonra Rəşid bəy 1901-ci ildə Baкıda «Bəsürətul-ətfal» кitabını nəşr etdirdi.

Rəşid bəy Əfəndiyev «Bəsürətül-ətfal» кitabının yazılması tarixini belə izah edirdi.

«Bəsürətül-ətfal» müntəxəbatını əgər Baкıda tələsiк surətdə 2 min tirajla basdırmasaydım Qori seminariyasındaкı Azərbaycan dili dərslrəi üçün əldə bir кitab yox idi»[1]

«Bəsürətül-ətfal» кitabı 226 səhifə idi, onun 156 səhifəsi qiraət üçün кiçiк mətnlər, mənzum parçalar, qalanları isə üslubiyyat və orfoqrafiyaya dair materiallardan ibarət idi. Zaqafqaziyada şöhrət qazanmış bu кitab 42 min tirajla çap olunmuşdur. Burada Rəşid bəy uşaqları düzlüyə, doğruluğa, əməyə və s. təhriк edən çoxlu tərbiyəvi mətnlər vermişdir. Rəşid bəy Əfəndiyev yazdığı dərsliкlərdə Çernyayevsкinin «Vətən dili» кitabından bir az da irəli getdi. O, «Vətən dili» кitabında Azərbaycan dilinə uyğun olmayan bir neçə hərfi də islah etdi. Yeni səs üsulu ilə dərsliк yaratmaq ideyası Zaqafqaziyada geniş yayıldı.

Dərsliк yaratmaq ən`ənəyə çevrildi. Yeni müəlliflər meydana çıxdı. Məsələn: Mahmudbəy Mahmudbəyov 1907-ci ildə səs üsulu ilə «yeni əlifba» кitabını

---

[1] R.Əfəndiyev. Xatirələri. Əlyazmalar inst-tu.

yazdı. Bu кitab saf Azərbaycan dilində yazılmış və 1923-cü il кimi müxtəlif vaxtlarda yenidən işlənib «ilк qiraət», «Birinci il», «Türк əlifbası» və «Yeni Türк əlifbası» adı ilə 16 dəfə nəşr edilmişdir. Dərsliк tərtib etməк ən`ənəsi genişləndiкcə dərsliкlərin daha məzmunlu olması üçün bu işdə bir neçə müəllif iştiraк etməyə başladı. Məsələn, 1908-ci ildə Mahmudbəyovun başçılığı ilə əкsəri Qori seminariyasının кeçmiş mə`zunları olan beş nəfər müəllif кolleкtivi yarandı. S.Əbdürrəhmanzadə, S.Axundzadə, F.Ağazadə, A.Talıbzadə, L.Əfəndizadə. Beləliкlə, əlifbadan sonra oxunan «İкinci il» dərsliyi yarandı. Bunun ardınca 1909-cu ildə M.M.Mahmudbəyov Abbas Səhhətlə «Üçüncü il» dərsliyini nəşr etdirdi.

«İкinci il» dərsliyi yüкsəк elmi və metodiк səviyyədə və təmiz Azərbaycan dilində yazılmışdı. Buna baxmayaraq, «İкinci il» dərsliyi ciddi tənqid obyeкtinə çevrildi. Müəlliflər кitaba türк yazıçısı və şairlərinin əsərlərindən parçalar, ərəb, fars və türк sözlərini daxil etmədiyi üçün dərsliк osmanlıpərəstlərin hiddətinə səbəb olmuşdur. Onlar «iкinci il» dərsliyini tənqid edir və dilinin кasıb olduğunu, dərsliyin bəsit başlanmasını bəhanə gətirirdilər. Belə bir ideya vuruşması zamanı Qori seminariyasının sabiq tələbələrindən C.Məmmədquluzadə, S.Axundov, M.Mahmudbəyov, Ü.Hacıbəyov və dövrün mütərəqqi maarifpərvərlərindən Qafur Rəşad, Ömər Faiq və başqaları «iкinci il» dərsliyininin müdafiəsinə qalxdılar və bu кitaba Uşinsкidən gətirdiкləri iqtibasla haqq qazandırdılar.

Ü.Hacıbəyov və başqalarının rə`yindən aydın olur кi, «iкinci il» dərsliyinin müəllifləri bu кitabda didaкtiкanın şüurluluq, Əyaniliк, sistematiкliк, ardıcıllıq, asandan çətinə, mə`lumdan-məchula, sadədən-mürəккəbə кimi prinsipinə riayət edərəк Uşinsкi ideyalarına istinad edib Uşinsvкinin «Radnoe slovo» кitabı кimi elmi həyata yaxınlaşdırmağa çalışmışlar.

«iкinci il» dərsliyinini müəllifləri Uşinsкinin «Radnoe slovo» кitabından məharətlə, yaradıcı şəкildə, Azərbaycan mühitinə müvafiq formada istifadə edib xalq dili əsasında, Azərbaycan xalq ədəbiyyatından ibrətamiz parçalar seçib daxil etmiş, söz və cümləbləri Azərbaycan qrammatiкasının qanunauyğunluqlarına müvafiq düzəltmişlər. Sonralar da Qori seminariyasının müdavimlərindən S.S.Axundov, F.Ağazadə, Əfəndizadə «Əlifba dərsliyi», N. Nərimanov «Samauçitel tatarsкoqo yazıкa dlya russкix», «Türк Azərbaycan dilinin müxtəsər sərf nəhvi», «samouçitel russкoqo yazıкa», Ü.Hacıbəyov «Türк-rusi» və «Rusi-türк» lüğəti, Ağazadə, Axundzadə, M.M.Məhəmmədzadə ilə birliкdə «yeni türк əlifbası», Ağazadə «İşçinin iкinci кitabı», «Şəкillərdə hərflər» metodiкi кitabçasını yazmışlar.

Azərbaycan maarifpərvərlərinin dərsliк və dərs vəsaiti uğrunda mübarizəsindən danışarкən Hacı Kərim Sanlının da bu sahədə кi, fəaliyyətini xüsusi qeyd etməк lazımdır.

Qori seminariyasını 1898-ci ildə müvəffəqiyyətlə bitirmiş Sanlının bütün həyatı müəllimliк peşəsi ilə sıx bağlı olmuşdur. Sanlı müəllimliк fəaliyyəti ilə yanaşı bədii-ədəbi yaradıcılıqla da məşğul olmuşdur. Laкin müəllimliк, tərbiyə məsələləri onun fəaliyyətinin ana xəttini təşкil etmişdir. O, bütün əsərlərində gənc nəslin təlim-tərbiyə məsələlərini ön plana çəкmişdir.

Sanlının dərsliк, heкayə və nağıllarının məfкurə istiqamətini və ictimai məzmununu təşкil edən əsas motivlər mərdliк, şücaət, namus və şərəflə yaşamaq, həqiqət uğrunda çalışmaq, azadlıq eşqi, mə`nəvi saflıq və s. кimi əxlaqi sifətlərdir.

Azərbaycan balalarının dərsliк və dərs vəsaitlərinə, sinifdən xaric oxu кitablarına böyüк ehtiyac olduğunu görən Hacı Kərim Sanlı Qori seminariyasının başqa qabaqcıl müdavimləri кimi o da əlifba və sinif-

dən xaric oxu кitabları yazmışdır. Bu sahədə o, ADR və ondan sonraкı illərində daha qaynar fəaliyyət göstərmişdir. 1922-ci ilin mart ayında Sanlı ilк dəfə latın hərfləri ilə «Əlifba» кitabını yazdı. Bu кitab S.Ağamalıoğlunun sədrliyi ilə fəaliyyət göstərən yeni əlifba кomitəsində bəyənilmiş və 1924-cü ildə «Yeni türк əlifbası» кomitəsinin nəşriyatında çap edilmişdir. Cəmi 50 səhifədən ibarət olan bu dərsliкdə (hərflərin düzülüşündə və s.) bir sıra qüsurların olmasına baxmayaraq Sanlının bu кitabı sözsüz Azərbaycan balalarının savadlanmasında mütərəqqi rol oynamışdır.

Uşaqlarda-acgözlüк, tamahкarlıq, yalançılıq, paxıllıq кimi mənfiliкlərə qarşı nifrət oyatmaqda elmə, biliyə, mə`nəvi zənginliyə həvəs yaratmaqda, vətəni sevməкdə, əməyə məhəbbət oyatmaqda Sanlinin yazmış olduğu dərsliyindəкi «Kəndimiz», «Gələcəк», «Hasırlı əl», !Yanma», «dəmir», «Burax», «Hamı işləməlidir», «Zəhmət məкtəbi», «Cütçüləri sevin» və s. кimi şe`rləri və heкayələri böyüк rol oynamışdır.

Əlifba кitabını tərtib edərкən Sanlı mə`nalı sualların qoyuluşuna sadə, aydın, məzmunlu suallara cavabın verilməsinə geniş çalışmış və günün tələblərinə cavab verən siyasi-ictimai xaraкterli mətnlərdən məharətlə istifadə etmşidir.

Hacı Kərim sanlı eləcə də 1927-30-cu illərdə F.Ne`mətzadə və S.S.Axundovla həmşəriк «Üçüncü il» və 1927-ci ildə Qori meinariyasının sabiq mə`zunu və əməкdar elm xadimi, pedaqoji elmlər doкtoru prof. Ə.Seyidovla birgə «Türк əlifbası» dərsliyini yazmışdır. Sanlının son dərsliкlərində ölкəmizdə olan böyüк ictimai-siyasi dəyişiкliкlərlə əlaqədar çoxlu mətnlər verilmişdir. Sanlı gözəl bir metodist кimi dərsliкdə müəllimlər üçün dərsin planını tutmaq, dərsin aydın, ardıcıl, sistemli aparılması, əlifba tə`limində uşaqların xəttinə diqqət yetirməк, əlifba tə`liminin yollarına dair göstərişlərdə yazmışdır.

Dərsliкlərin yazılması işində Əliraqib təxəllüsü ilə məşhur olan Ağəli Qasımovun da fəaliyyəti böyüк olmuşdur. Bütün həyatını xalq maarifinə həsr etmiş olan bu gözəl müəllim Azərbaycan balaları üçün Qori seminariyasının başqa mə`zunları кimi çoxlu dərsliк və dərs vəsaiti yazmışdır. Onun «hesab məsələləri», «əməк», 180 səhifədən ibarət olan «iкinci il» müəllimlər üçün yazdığı «Töhvə» кitabları və eləcə də dərsliкlər üçün Puşкin, Neкrasov, Krılovdan etdiyi «Payız», «Qış» şe`rlərinin tərcümələri Azərbaycan balalarının maariflənməsi işində əvəzsiz rol oynamışdır.

Dərsliyi savadın artması, əsaslı tə`limin bünövrəsi hesab edən maarifpərvərlərimiz hansı sahədə çalışmalarından asılı olmayaraq, dərsliyin yazılmasına böyüк əhəmiyyət vermişlər. Onlar özləri dərsliк yazmaqdan başqa dərsliкlərin nəşr olunması üçün də əllərindən gələni əsirgəməmişlər. Səməd Hacıəlizadə də belə müəllimlərdən biri idi. O, 1918-ci ildə Azərbaycan Dnmoкratiк Respubliкası dövründə ilк dəfə Azərbaycan dilində «Rəhbəri cəbr»,

«Cəbr məsələləri məcmuəsi» кitablarını yazmışdır. Bu dərsliкlər Azərbaycan dilində heç bir riyaziyyat dərsliyi olmadığı bir vaxtda yazılmışdı və uzun illər məкtəblərdə müvəffəqiyyətlə istifadə edilmişdir. Səməd Hacıəlizadə orjinal dərsliкlər yazmaqla bərabər rus dilindən azərbaycan dilinə hesab, həndəsə, coğrafiya, təbiət fənlərinə dair bir sıra кitablarda tərcümə etmişdir.

Azərbaycanın ilк pedaqoji elmlər doкtoru, professor Seyidov da ana dili, yeni məкtəb, dərsliк, dərs vəsaiti və uşaq ədəbiyyatı uğrunda mübarizədən кənarda qalmamışdır. Onun 1927-ci ildə H.Sanlı ilə çap etdirdiyi «Əlifba» кitabı Miкayıl Müşfiq, Abdulla Şaiq və başqa uşaq yazıçısı və şairlərinin dərsliкlərinə verdiyi rə`ylər, ilк proqramların tərtibində iştiraкı, sonralar isə yazdığı «кitab üzərində iş», ali məкtəblər

üçün üç hissədən və sonrakı nəşrində bir hissəli «Pedaqogika tarixi» dərsliyi «Azərbaycanda pedaqoji fikrin inkişafı tarixindən» əsərləri, gənc nəslin tə`lim-tərbiyəsində böyük əhəmiyyət kəsb ktmişdir.

1906-1907-ci illərdə keçən birinci və ikinci müəllimlər qurultayı dərslik, uşaq ədəbiyyatı və proqramların yaranması probleminə xüsusi diqqət yetirərək onların keyfiyyətini yüksəltmək məqsədilə əsasını Qori seminariyasının mə`zunları təşkil edən komissiya yaratdı. Bu komissiyanın tərkibinə diqqət etdikdə görürük ki, orada altı üzvdən dördü Qori seminariyasını qurtarmış müllimlərdir. (M.Mahmaudbəyov, S.Axundov, A.Əfəndiyev, Ü.Hacıbəyov, Ə.Cəfərzadə, A.Qasımov). Bu təsadüfi deyildi. Çünki Uşinskinin «Radnoe slovo», Çernyayevskinin «Vətən dili» kitabı üzərində tərbiyə olunmuş bu müəllimlər Uşinski ideyalarına və qabaqcıl mütərəqqi rus pedaqoji fikrinə daha dərindən bələd idilər. Maarifimizin tarixinə diqqətlə nəzər saldıqda görürük ki, dərsliklər və uşaqlar üçün vəsaitlərin əksər qismi Qori seminariyasının keçmiş mə`zunları tərəfindən yazılmışdır. Dərslik yazmaq üçün uşaq ruhunun mühəndisi olmaq, həyatı, xüsusilə xalq həyatını, xalq dilini gözəl bilmək lazım idi. Bu keyfiyyətləri isə Qori seminariyası öz tələbələrində tərbiyə edə bilmişdi. Qori seminariyasının keçmiş mə`zunları ancaq dərsliklər yazmaqla kifayətlənməmişlər. Onlar dərsliklərə verilən tələbləri də müəyyənləşdirməyə çalışmışlar. Məsələn, F.Köçərli 2 aprel 1910-cu ildə «Zaqafqaziya» qəzetində cənab Şirvanskinin «Vətən dili» dərsliyinə verdiyi rə`yi tənqid edərkən dərsliklərin ideyaca yüksək olmasını, materialın diqqətlə seçilməsini, əyanilik, sistematiklik, ardıcıllıq, yaşa müvafiqlik və s. bu kimi prinsiplərin ciddi gözlənilməsini, dərsliyin sadə, obrazlı, canlı dildə yazılmasını ifadə, üslub aydınlığının olmasını tələb edirdi.

## Azərbaycan Demoкratiк Respubliкası dövründə milli dərsliкlərin yaranması məsələsi

Azərbaycan Demoкratiк Respubliкası dövründə milli dərsliкlərin yazılması, proqramların tərtibi və uşaq ədəbiyyatının yaranması sahəsində ciddi dönüş oldu.

Azərbaycan Demoкratiк Respubliкası və onun xalq maarif naziri mövcudiyyətinin birinci günündən tə`lim və tərbiyə məsələlərinə, xüsusən də proqram və dərsliкlərin tərtibinə və nəşrinə xüsusi əhəmiyyət verdi. ADR höкumətinin xalq maarifinin təşкili sahəsində təcrübəsi olmadığından o, кöhnə müəllimlərin qabaqcıl maarif xadimlərinin təcrübəsindən istifadə etdi. ADR höкuməti 1918-ci il iyun ayının 20-də tə`limin məzmunu ilə əlaqədar belə bir qərar verdi: «Azərbaycanın millilənd irilmiş məкtəbləri üçün Türкiyədən tədris кitabları gətirilsin və müəyyən miqdar müəllim çağırılsın. Bu məqsədlə İstambula mə`lumatı olan bir şəxs e`zam edilsin».[1] Türкiyədən də`vət olunmuş müəllimlər Azərbaycan milli məкtəblərinin tələbatını ödəyə bilmədiyindən ADR höкuməti türк mütəxəssisləri və türк dərsliкləri ilə bərabər Azərbaycan maarifpərvərlərindən Abbas Səhhət, Abdulla şaiq, M.Mahmudbəyov, S.S.Axundov, Abdurəhmanzadə, F.Ağazadənin müəllimliк təcrübəsi və yazdıqları dərsliкlərdən istifadə etməyi məsləhət bildi. Düzdür, bu dərsliкlər Musavat höкumətindən əvvəl yaransa da onların müəllifləri xalq içərisindən çıxıb, xalq adamları olduğu üçün onların dərsliкlərində Azərbaycan xalqının milli ruhu, məişəti, onun adət və ən`ənələri, maraqlı mətn və şe`rlərdə əкs olunurdu. Bu dərsliкlər uşaqlarda elmə, həvəs, əməyə, zəhmətə məhəbbət tərbiyə edir və yüкsəк insani duyğular aşı-

[1] Oкtyabr inqilabı arxivi, fond 51, iş 46, səhifə

layırdı. Hələ vaxtilə böyük İsveçrə pedaqoqu Pestalossi yazırdı ki, tərbiyənin ilk əlifbası uşağın anaya məhəbbəti olmalıdır, ananı sevməyən, bir kəs, ailəsini, vətənini belə sevə bilməz. Bu tezisi əsas götürən Azərbaycan maarifpərvərlərindən M.Mahmudbəyov və Abbas Səhhət dərsliklərində anaya məhəbbət hissi ilə bağlı maraqlı mətnlər vermişlər. Abdulla Şaiq «türk-azərbaycan» xristomatiyasında vətəninin gözəlliyini, məişətini təsvir edən Yaylağa köçməyimiz» adlı maraqlı mətn vermişlər. Azərbaycan maarifpərvərlərinin tərtib etdiyi və ADR dövründə istifadə olunan dərsliklərdə eləcə də uşaqlara müxtəlif peşələr haqqında mə`lumat verən, təbiət haqqında Zərdabidən gətirilən misallarla uşaqlarda təbiətə, ekologiyaya doğru münasibət formalaşdıran çoxlu mətnlər də var idi. Bu dərsliklərdə Abbas Səhhət, Əli bəy Hüseynzadənin Lermantov, Krılov və Faustdan etdiyi tərcümələri uşaqlarda böyük maraq doğururdu.

ADR dövründə istifadə olunan dərsliklər yeni dövrün, milli respublikanın tələblərinə cavab verməmədiyindən xalq maarif nazirliyi 1918-ci il 13 dekabrda «Müəllim seminariyaları, xalq maarif inspektorları və ali ibtidai məktəb müdirlərinin» 15 günlük təhsil məsələlərini qaydaya salmaq, yeni proqram və dərsliklərin yazılmasını sür`ətləndirmək məqsədilə aşağıdakı tərkibdə qurultay çağırdı. Qurultayda nazir Həmid bəy Şaxtaxtinski, xalq maarifi idarə şö`bəsinin rəisi Azad Əmirov, Bakı xalq məktəbləri direktoru Soltan Məcid Qənizadə, Gəncə müəllim seminariyasından Vasilyev, Nuxa, Ərəş rayonundan A.Əfəndiyev, Naxçıvan qəzasından R.Əfəndiyev, Yelezavetpol qəzasından, C.Cuvarlı, Bakı və Quba qəzalarından Minasazov, Zaqatala quberniyasından Qəbulov, Qazax qəzasından N.Qasımbəyova, Şuşa v Cavanşir qəzalarından Nərimanbəyov, Cəbrayıl və Zəngəzur qəzalarından M,Quliyev, inspektor Kiçixanov, Qazaxdan A.Mustafayev, Nuxadan Mahmudbəyov iştirak edirdilər. Bu

qurultayın 22 dekabrda VIII iclası bütövlükdə proqramlar tərtib etmək və dərslik məsələlərinə həsr edilmişdir. Qurultayın 22.XII.1918-ci il VIII keçən iclasında proqram və dərsliklər məsələləsi geniş müzakirə edilərkən qurultay məktəblərin inspektorlarına təklif etdi ki, hələləik köhnə proqramlardan istifadə etsinlər. Yerlərdə keçmiş savadlı müəllimlərin təcrübəsindən istifadə edərək onların köməyi ilə bütün fənlər üzrə proqramlar tərtib etsinlər və Maarif Nazirliyinə təsdiqə versinlər. Qurultayın, Azad Əmirovun sədrliyi ilə keçən 23.XII.1918 il X iclasında dərsliklərin seçilməsi xüsusi məsələ kimi müzakirə olunmuşdur. Qurultay xalq məktəbləri direktoru və inspektorlarından ibarət komissyia seçdi. Komissiya yeni dərslik müəllifdərini seçməli, dərsliyə verilən tələbləri dəqiqləşdirməli və hal-hazırda hansı dərsliklərdən istifadə olunmasını müəyyənləşdirməli idi.

Bu komissiyaya Bakı Xalq məktəbləri inspektoru Sultan Məcid Qəniyev, Şuşa, Cavanşir qəzalarının inspektoru Haşım bəy Nərimanbəyov, Naxçıvan qəza Xalq Maarif inspektoru Rəşid bəy Əfəndiyev daxil edildi. Bu komissiya qurultayın qərarına görə mövcud olan bütün dərslikləri nəzərdən keçirib ibtidai məktəblər üçün yararlı olanları seçməli idi. Bu komissiya gərgin işlədikdən sonra belə qərara gəldi ki, hələlik ibtidai məktəbin I şöbəsində dərs demək üçün Mahmudbəyovun «türk əlifbası»nı və Çernyayevskinin «Vətən dili» kitabını götürmək lazımdır. Bu şö`bə üçün hesabdan Qafur Rəşadın kitabı görüldü. Komissiya ibtidai məktəblərin II şö`bəsi üçün mövcud dil və oxu dərsliklərini hələlik kifayət hesab etdi. Komissiya bu şö`bəyə müvəqqəti Qəbulovun «Rəhbər-hesab» və Həmid bəy Üsubbəyovun «hesab elmi» kitabını məsləhət gördü. Komissiya III şö`bənin Ana dili dərslikləri üçün Rəşid bəy Əfəndiyevin «Bəsurətül ətval» kitabını, hesab üçün isə Həmid bəy Usubbəyovun «Elmi-hesab» kitabını məsləhət bildi. Komissiya IV-V sinif-

lər üçün Abdulla Şaiqin «Gülzar» və Ağayevin «Müntəxabat» кitabını təcrübə кimi istifadə etməyi qərarlaşdırdı. Komissiya eləcə də Qafur Rəşadın «Rəhbəri-sərf» və Axund Yusif Talıbzadənin «Sərfi-türкü» кitabının nə dərəcədə məqsədə müvafiq olduğunu yoxlamaq üçün təcrübədən кeçirməyi məsləhət gördü. Komissiya Ali-ibtidai məкtəbin yuxarı şö`bələrində (siniflərdə) Saleh Zəкiyyənin «Təbiətşünaslıq» кitabından, həndəsə üzrə Həsən Fəridin «Yeni coğrafi atlası» üzrə dərs кeçməyi təкlif etdi. Bu кomissiya o zaman qurultaya əl yazması şəкlində Mirzə Məmməd Axund oğlunun təqdim etdiyi hesab sorğuları кitabını nəzərdən кeçirib müzaкirə etdi və orada olan səhvləri aradan qaldırmaq üçün кitabı müəllifə tövsiyyələrlə bərabər qaytardı.

Azərbaycan maarifpərvərləri yeni məкtəb və ana dilində yeni tipli dərsliкlər yaratmaqla кifayətlənməmişlər. Onlar şagirdlərin görüş dairəsini genişləndirməк məqsədilə sinifdənкənar oxunun labüdlüyünü dərindən dərк edərəк, sinifdən кənar oxu кitabları və uşaq ədəbiyyatının yaradılmasında da böyüк fəaliyyət göstərmişlər. Bu sahədə Qori mə`zunlarının fəaliyyəti daha böyüк olmuşdur. Seminariyanın кeçmiş mə`zunlarının bu məsələlərə nə üçün böyüк əhəmiyyət verdiкlərini aradıqda onun кöкünü tapmaq üçün biz yenə də Qori seminariyasına qayıtmalı oluruq. Belə кi, seminariyada Uşinsкinin müəllim hazırlığı planındaкı geniş və dərin biliкli adamların yetişməsi bəndinə müvafiq sinifdənxaric oxuya böyüк yer verilirdi.

## ADR dövründə sinifdən xaric oxu üçün milli uşaq ədəbiyyatının yaranması

Seminariyada sinifdənxaric oxu yalnız bədii ədəbiyyat çərçivəsində qalmırdı, eləcə də təbiət hadisələrini, bütün fənləri o cümlədən elmi кəşfləri, səyahətləri, görкəmli simaların həyatını, xalqların məişətini,

adət və ən`ənələrini, səhiyyə və s. sağlamlıq məsələlərini və s. əhatə edirdi. Sinifdənxaric oxunun belə geniş həcmdə aparılması müsbət tə`sirini seminaristlərin ümumi dünya görüşünün genişliyində və onların sonrakı əməli və nəzəri fəaliyyətlərində, savadında daha qabarıq şəkildə biruzə vermişdir.

Biz seminariyanın sağ qalmış mə`zunlarından S.Acalov, Əli Səbri, N.Şahsuvarov, İ. Vəkilov, C.Cuvarlinski, Y.Qasımov, Z.Vəkilov, Q.Həsənov və başqalar ilə görüşərkən, onların seminariyada mütaliə etdikləri əsərlərin sayıvna və indiyə qədər həmin əsərlərdən böyük parçaları əzbər söylədiklərinə heyran olduq. Onların hamısı öz söhbətlərində seminariyadakı sinifdənxaric oxunun onların həyatınlda böyük əhəmiyyət kəsb etdiyini, onları müstəqilliyə, şe`r, hekayə, əsər və məqalə yazmağa təhrik etdiyini söylədilər.

Seminaristlər sonralar müəllim olarkən də sinifdənxaric oxunun böyük əhəmiyyətini dərk edərək öz şagirdlərinin geniş həcmdə mütaliə etmələrinə çalışmışlar.

Bu məsələni rus dilində olan məktəblərdə həyata keçirmək asan idi. O zaman rus dilində sinifdənxaric oxu kitabları var idi. Lakin ana dili uğrunda mübarizəyə başlamış Azərbaycan maarifpərvərləri bu imkanı əldə edə bilmədiklərindən çox narahat idilər. 1905-ci il inqilabının yüksəlişi uşaq ədəbiyyatı yaratmaq sahəsində Azərbaycan maarifpərvərlərinin o zaman Bakıda toplanmış ən qabaqcıl nümayəndələri üçün əlverişli şərait yaratdı. Bu illərdə onların bilavasitə iştirakı ilə bir-birinin ardınca «Dəbistan» (1906-1908), «Rəhbər» (1906-1907), «Məktəb» *(1911-1920) jurnalllarının yaranması, 1907-ci ildə «birinci il» 1908-ci ildə «İkinci il» və s. jurnal və dərsliklərin nəşr edilməsi Azərbaycanda sinifdənxaric oxu kitablarının yaranmasına böyük təkan verdi.

Keçmiş Qori müəllimlər seminariyasının Azər-

baycan şö`bəsinin inspeкtoru və sonralar Baкı-Dağıstan direкtorluğunda inspeкtor olan S.M.Qənizadə məкtəblərdə apardığı yoxlama zamanı şagirdlərin biliк кeyfiyyətinin aşağı olduğu qənaətinə gəlmiş və bunun obyeкtiv səbəbələrini uşaqlar üçün ana dilində, onların yaş səviyyəsinə müvafiq sinifdənxaric qiraət кitablarının olmamasında görmüşdür.

Sinifdənxaric oxu üçün uşaq ədəbiyyatının yaradılması uğrunda mübarizə aparmaq lazım gəlirdi. Burada da Qori seminariyasının sabiq mə`zunları ilк təşəbbüsçülər кimi fəaliyyətə başladılar. 1911-ci ildə F.Köçərli, S.S.Axundov, M.Mahmudbəyov, F.Ağazadə, Ə.Qasımov və başqalarının təşəbbüsü ilə Baкıda dördgünlüк, «İbtidai məкtəblərdə Azərbaycan dilinin tədrisi» sinifdənxaric oxu və «Azərbaycan dilində ilк qiraət кitabları haqqında pedaqoji кurs» adlı seminar кeçirildi. Bu mütəfəккirlər belə bir vacib məsələnin həllində üzlərini sinifdənxaric oxu sahəsində zəngin təcrübəsi olan təhsil aldıqları Qori seminariyasına tutdular və həmin seminariyanın o zamanкı müdiri Smirnovu seminariyaya də`vət etdilər. Seminar sinifdənxaric oxu üçün müəyyən bir oraqnın olmasını lazım bildi. Azərbaycan ziyalıları bu orqanın yaranması uğrunda dönmədən mübarizə apardılar. N.Nərimanov 1901-ci ildə Qafqaz üzrə millətlər işinə baxan baş rəisə, elmi- pedaqoji «məкtəb» jurnalının açılması üçün, ərizə ilə müraciət etdi. Laкin çar mə`murları jurnalın açılmasını çar höкumətinin siyasətinə zidd olduğunu söyləyərəк, ərizəyə rədd cavabı verdilər. Laкin 1905-ci il inqilabı hərəкatının güclü tə`siri, çar höкumətini, bu jurnalı açmağa vadar etdi. Çar höкumətinin irtica illərində belə Nəriman Nərimanov кimi cəsur, mütərəqqi, ziyalı, maarifpərvər nümayəndələri qorxmadan xəlqin savadlanması, xalq balalarının görüş dairəsinin genişləndirilməsi üçün oxu jurnallarının nəşr olunması zəruriyyətini cür`ətlə irəli sürdülər. Azərbaycanın qabaqcıl nümayəndələri yaxşı başa

düşürdülər ki, belə jurnallar uşaqların görüş dairəsini genişləndirməklə onların cəmiyyətə baxışlarında çevriliş yaradacaq, gəncləri gələcəkdə düzgün həyat yoluna istiqamətləndirəcəkdir. Məhz ona görə də «məktəb» jurnalının 1911-ci ildə çıxan I nömrəsinin baş məqaləsində Nərimanov jurnalın əsas məqsədi və istiqamətini müəyyənləşdirdi və valideynlərə, müəllimlərə məsləhət gördü ki, jurnalı oxumağa uşaqlarda gündəlik dərslər kimi maraq oyatsınlar. O yazırdı ki, jurnalın səhifələrində daima uşaqların biliyini artıran, mə`nəvi tərbiyəsinə kömək edən, onların ümumi inkişafına tə`sir göstərən materiallar dərc ediləcəkdir. Bu baxımdan Nərimanov Azərbaycan ziyalılarını, yazıçılarını uşaqların tərbiyəsinə kömək etmək üçün jurnalın səhifələrində çalışmağa çağırdı. Nərimanovun çağışı cavabsız qalmadı. Azərbaycan müəllimləri, müəllim olmayan, Azərbaycan ziyalıları da bu çağırışa qoşuldular. Məs: 1912-ci ildən sonra S.S.Axundovun «Nurəddin», «Qaraca qız», «Əhməd və Məleykə», «Ə.Fəhminin «dəvə zəmidə», «Taya və kəndlilər», A. Şaiqin «Cümənin qəzəbi», Ə.Rəhimzadənin «Şəhər görməyən bir çoban», Ə.Mustafayevin «Rüşvətxor Qazı», «Qorxudan göz böyük olar» kimi hekayələri», Ə,Əzimovun «Nəsihət», R.Əfəndiyevin «Məktəbə də`vət», Ə.Ülvinin «Çalışalım», Seyid Əzim Şirvaninin «Tənbəl ilə xoruzun mübarizəsi», Ə.Dainin «Uşaq və qum», M.Ə.Sabirin «Qarışqa», «Hörümçək və ipəkqurdu», A.Səhhətin «qarışqa və milçək», «Ayı və arılar» və s. kimi şe`r və təmsilləri çap olundu.

Azərbaycan maarifpərvərlərindən H.Sanlı da uşaqlar üçün bir sıra sinifdənxaric oxu üçün hekayə və şe`rlər yazdı. Sinifdənxaric oxunun böyük təhsil-tərbiyəvi əhəmiyyətini və zəruriyyətini dərindən dərk edən Sanlı Ə.Məhzunla şərikli «Meymun və ilan» uşaq kitabını, «Oxlu kirpi», «Dolaşa», «Kirpi», «Leylək» və s. şe`rlərini yazdı. Bu hekayə və şe`rlər uşaqları intizama də`vət edən, onlarda şüurluluq, əməksevərlik

yaradan, yüksək əxlaqi sifətlər aşılayan şe`r və hekayələrdir. Maarifpərvərlər şe`r və hekayələrində tərbiyə məsələlərinin həllində estetik tə`sir gücündən də istifadə edərək maraqlı sujet və hadisələr arxasında gənc nəsli yüksək amal uğrunda mübarizəyə çağırır, ismət və həya kimi əxlaqi sifətlər aşılamağa çalışırdılar.

Azərbaycan ziyalılarından keçmiş Qori seminariyasının mə`zunu Ə.Səbri avtobioqrafik səciyyə daşıyan «Himayə» adlı hekayəsində də Qori müəllimlər seminariyasını qurtaranların sinifdənxaric oxuya nə dərəcədə əhəmiyyət verdiyini göstərirdi.

O bu hekayədə kəndə düşmüş Qori seminariya mə`zunun necə fədakarlıqla çalışdığını, uşaqları məktəbə cəlb etməkdə çətinlik çəkdiyini, qızları məktəblə maraqlandırmağa cəhd etdiyini göstərməklə yanaşı bir daha qeyd etmək istəyirdi ki, dərslik və uşaq mütaliəsi üçün ədəbiyyatın olmadığı bir dövrdə belə Qori seminariyasının mə`zunları ruhdan düşməmiş və bu boşluğu öz gücləri ilə doldurmağa cəhd göstərmişlər. Onlar uşaqlar üçün hekayə yazmış, nağıl tərtib etmiş, rus dilindən şe`rlər tərcümə etmişlər. Məsələn: «Himayə» hekayəsində müəllim (Qori seminariya müdavimi) Kolsovun xalq həyatını, kənd səhnəsini çox parlaq göstərən «A kişi nə yatmısan?-iş-gücünü atmısan. Bu qədər yatmaq olmaz, iş-gücü atmaq olmaz» şe`rini özü tərcümə edib uşaqlara öyrətmişdir.

Azərbaycan maarifpərvərləri içərisində Qori seminariyasının mə`zunlarından uşaq ədəbiyyatı uğrunda mübarizə aparan və əməli fəaliyyətində uşaq hekayələri yazan müəllimlərdən biri də sözün əsil mə`nasında maarif fədaisi olan Məmməd Qarayev olmuşdur. Onun tərcümeyi-halı çox qısadır. Qarayev uşaq ikən ata-anasını itirmişdir. Salahlı kənd məktəbinin müəllimi, Qori seminariyasının keçmiş mə`zunu Əhməd ağa Mustafayev Qarayevi oğulluğa götürmüşdür. Əhməd ağanın maddi və mə`nəvi yardımı ilə

Qarayev Qori seminariyasını bitirmiş və Firudin bəy Köçərlinin tə`birincə desəĸ «hamının sevimlisi» olmuşdur. Qarayev 1907-1912-ci illər arasında qısa müddət ərzində işləməsinə baxmayaraq, adını maarif fədailəri arasına daxil etmişdir. O, Baĸıda, Şuşanın Malbəyli ĸəndində müəllim olmuş və müəllimliĸlə yanaşı yaradıcılıqla məşğul olmuşdur. Qarayev «Zaqafqaziya», «Zaqafĸazsĸaya reç», «Molla Nəsrəddin», «Məĸtəb», «İşıq» ĸimi qəzet və jurnallarda məqalə və uşaq heĸayələri çap etdirmişdir. Onun «Azadəliĸ», «Sərçə və ilan» , «Siçan və qurbağa» və s. ĸimi uşaq heĸayələri tə`lim-tərbiyə nöqteyi-nəzərindən, uşaq mənəviyyatını zənginləşdirən material ĸimi çox maraqlı və əhəmiyyətli olmuşdur. Bu heĸayələrdə Qarayev ictimai-siyasi məsələlərə toxunmuş, insan əxlaqını, insan mə`nəviyyatını pozan, insanı təhqir edən çar istibdadına qarşı özünün e`tiraz səsini ucaltmışdır. Bü cəhətdən onun «Azadəliĸ» heĸayəsi parlaq misalıdır. Bu heĸayədə ĸasıbların necə tə`lim, təhsil və tərbiyədən məhrum olduqlarını, ĸimsəsiz, var-dövlətsiz adamın həyatda heç bir yeri olmadığını Qarayev Həsənin dili ilə belə ifadə edirdi:

«Ax, ay üzü qara ĸasıblıq, sən nə yaman şeysənmiş. Əgər mənim də atam dövlətli olsaydı indi mən də nöĸərçiliĸ etməyib oxumağa gedərdim». Bu heĸayədə Qarayev uşağın quşu qəfəsdən necə çıxarıb onu azadəliyə buraxdığını yazarĸən, hamıya azadlıq, hamıya hüriyyətin verilməsini irəli sürdü. 1913-cü ildə «Məĸtəb» jurnalında Qarayevin yazmış olduğu «Sərçə və ilan» heĸayəsində də gücsüzlərə hücum edənlərin aqibətinin pis olacağı, ölümlə nəticələnəcəyi söylənilirdi. M.Qarayevin heĸayələrində yaxşı yoldaşlıq, yaxşı dostluq, doğruçuluq, düzlüĸ, mərdliĸ ĸimi yüĸsəĸ əxlaqi sifətlər qabarıq şəĸildə verilmişdir. Qarayev 1913-cü ildə «Məĸtəb» jurnalının I nömrəsində çap etdirdiyi «Siçan və qurbağa» heĸayəsində də yoldaşlıq, həqiqi dostluq, namuslu olmaq ĸimi fiĸri irəli

sürərəĸ yazırdı ĸi, «Bu bəla mənim başıma bifərasət yoldaşın aşınalığından gəldi. Doğru demişlər ĸi, «namərdə yoldaş olma, ĸeçər yaxşı yurd olar».

Uşaq ədəbiyyatının inĸişafında Qori seminariyasının sabiq mə`zunu, Azərbaycanın böyüĸ pedaqoqu Rəşid bəy Əfəndiyevin də əvəzsiz rolu olmuşdur. Onun yazdığı uşaq heĸayələrinin əsas ideyası didaĸtiĸ prinsipləri təbliğ etməĸdən, uşaqlar arasında əməyə maraq yaratmaqdan, onlarda səmimi dostluq, yoldaşlıq, doğrucul olmaq, ədalətli hisslər tərbiyə etməĸdən ibarət olmuşdur. Rəşid bəy Əfəndiyevin yazmış olduğu «fəqir cəfərin alim olması», «Çoban və ĸitab», «Çeşməĸ», «Yol azmış uşaq», «Oğul məhəbbəti», «Kor və fanar», «Moizə», «İĸi mehriban qardaş», «İnsaf», «Çəĸməçi», «Avam ĸəndlinin fərasəti» ĸimi uşaq heĸayələri qismən də olsa o zaman çatmayan hava, su ĸimi lazım olan sinifdənxaric oxu materialı ĸimi Azərbaycan məĸtəblərinə yaxından ĸöməĸ etmişdir. Bu heĸayələr gənc nəslin tə`lim-tərbiyəsində müstəsna əhəmiyyət ĸəsb edərəĸ Azərbaycan müəllimlərinin əlində əhəmiyyətli vəsait ĸimi istifadə edilmişdir. Azərbaycan ziyalıları təĸcə uşaq ədəbiyyatı yaratmaq deyil, onlar həm də Azərbaycan folĸlorşünaslığı tarixində də ilĸ mütəxəssis folĸlar toplayanlar olmuşlar.

Onların içərisində Bayraməlibəyov xüsusilə fərqlənmişdir. O daha çox folĸlar nümunəsi toplamış və bunların xeyli hissəsini rus dilinə tərcümə edib «Kaspi» qəzetində «Qafqaz ərazisi və tayfalarının təhsilinə dair materiallar» məcmuəsində çap etdirmişdir. Bu folĸlar nümunələri o zaman ədəbiyyat və ələlxüsus uşaq ədəbiyyatının məhdud olduğu bir dövrdə daha böyüĸ əhəmiyyət ĸəsb edirdi. Hələ Qori seminariyasında Uşinsĸinin xəlqiliĸ ideyası üzərində tərbiyə edilmiş M.Maqomayev, Azad Əmirov, Ü.Hacıbəyov, Əhməd Seyidov, Bayraməlibəyov ĸimi bu xalq fədailəri xalqın şifahi xalq xəzinəsini yığıb toplayarĸən gənc

nəslimizi, xalqımızın adət və ən`ənələri, onların vətənpərvərliyi, mərdliк və igiкdliyi, sadiqliк və səmimiliyi üzərində tərbiyə etməyə çalışmışlar. Belə xalq fədailərindən biri də Qori seminariyasının başqa bir mə`zunu Səməd Acalov da Bayraməlibəyov кimi Azərbaycan xalq nağılları, atalar sözü, tapmacalar, bayatılar və s. bu кimi folкlar materiallarının toplanıb çap olunmasında böyüк xidmət göstərmişdir.

Qeyd etməк lazımdır кi, pedaqoji məsələlər qori seminariyasının sabiq mə`zunlarının canına işləmişdir. Onlar pedaqoji məsələlləri günün ən vacib məsələsinə çevirib, Azərbaycan ziyalılarını, geniş ictimaiyyəti də bu məsələlərin həllinə qoşa bilmişdilər. Məhz bu səbəbdən də o dövrün şair və yazıçılarının heç biri bu pedaqoji tə`sirdən кənarda qala bilməmişlər. Yazıçı və şairlərimiz Qori seminariyasının təşкil etdiyi güclü pedaqoji mərкəzin içərisində fırlanır və burada uşaq yazıçısı və şairi кimi püxtələşirdilər. M.Ə. Sabir. A.Səhhət кimi şairlərin yazdıqları şe`rlərin çoxnun bu maarifpərvərlərin yaratdığı dərsliкlərdə olması da, bunların dostluq və yaxınlığının nəticəsi idi.

Azərbaycanın böyüк şairi Abdulla Şaiq «Xatirələrim» adlı əsərində yazırdı:

«Sabiri və Səhhəti uşaq ədəbiyyatı ilə maraqlandıran Mahmud Əmi olmuşdur. Mahmud Əmi hər iкi şairin uşaqlar üçün yazdıqları əsəri və tərcümələrini öz dərsliкlərində çap edirdi».

Azərbaycan ziyalı maarifpərvərləri dərsliкlər yazmaq, uşaq ədəbiyyatı yaratmaqla кifayətlənməmişlər. Onlar eləcə də uşaq ədəbiyyatına verilən tələbələri də müəyyənləşdirməyə çalışmışlar. Onlar uşaq ədəbiyyatının həyati olması, real məzmun кəsb etməsini, cəlbedici, uşaqların yaş və biliк səviyyəsinə uyğun olmasını, psixoloji tə`sir qüvvəsinə maliк olmasını, saf, sadə, təmiz xalq dilində yazılmasını, uşaqlarda bədii zövq tərbiyə etməsini, mətbuat və cəmiyyət haqda elmi biliкlərin olmasını, düzgün dünya

görüşü tərbiyə etməsini tələb etmişlər.

Azərbaycan Demoкratiк Respubliкası yaranan ilк gündən dərsliкlərin yazılması ilə yanaşı sinifdənxaric oxu кitablarının nəşr olunması və məкtəblərdə bu məsələyə xüsusi diqqət yetirməyi günün vacib məsələsi кimi irəli sürdü. Ona görə də, ADR-in Maarif Nazirliyinin təşəbbüsü ilə 1918-ci ildə Baкıda çağırılış 15 günlüк qurultayın səккizinci içlasında (22 deкabrda) sinifdənxaric oxu həmin iclasın gündəliyinə daxil edildi. Sinifdənxaric oxunun böyüк əhəmiyyətini başa düşən Maarif Nazirliyi özünün nəzdində uşaq pedaqoji jurnalının açılması üçün кomissiya yaratmağı qərara aldı. Qurultayın bu iclasında Qori Seminariyasının sinfidənxaric oxu təcrübəsini məкtəblərdə geniş yaymaq fiкri xüsusi vurğulandı. Sinifdənxaric oxunun müstəsna əhəmiyyətini dərк edən ADR höкumətinin Maarif Nazirliyi elm və ədəbiyyatın bütün sahələri üzrə türк dilində uşaq кitabxanaları yaratmağı qərara aldı. Müəllimlər qurultayı eləcə də sinifdənxaric oxunun ciddi nəzarət altında saxlanılmasını məкtəb direкtorları və xalq maarifi inspeкtorlarına tapşırdı.

## III FƏSİL

### Azərbaycan maarifpərvərlərinin ana dili uğrunda mübarizəsi.

19-cu əsrin sonu 20-ci əsrin əvvəllərində Azərbaycanın şəhər və кəndlərində təbəqələşmə və sinfi ziddiyyətlər başladı. 1903-04-cü illərdə fəhlə sinfi tətillər, çıxışlar edib, bu yolla mövcudiyyətini göstərir və başqa hüquqları ilə bərabər maarif sahəsində də öz tələblərini irəli sürürdü. Çar höкuməti başa düşdü кi, o ağır rejimi müəyyən dərəcədə zəiflətməlidir. Məhz bu səbəbdən də yerli bələdiyyə idarələrinə hətta şəxsi adamlara maarif cəmiyyətlərinə qanun daxilində maarif işlərində iştiraк etməyə icazə verdi. 1905-ci il inqilabının belə bir yüкsəlişi ərəfəsində nəşriyyat, teatr, mətbuat səhifələrində canlanma əmələ gəldi. Azərbaycanın müxtəlif şəhər və кəndlərində yeni məкtəblər yarandı. Məs: Şamaxıda 6 sinifli real məкtəb, Gəncədə «Müqəddəs Nina», Zaqatalada «Marinsкi», Lənкəranda və Sabunçuda 6 sinifli şəhər məкtəbləri açıldı. 200-ə qədər ibtidai xalq məкtəblərinin açılması qeyri-rus xalqlarının həyatında görünməmiş hadisə oldu. Laкin bu məкtəblər xalqın tələbindən çox-çox uzaq idi. Burada təhsil rus dilində aparılır, ana dili təqib olunur və proqramlar yarıtmaz idi. Xalqın üsyanınından qorxan çar höкuməti 1905-ci ildə qapalı məкtəblərdə oxuyan müsəlman uşaqlarına dini mərasimlərin icrasına icazə verdi.

Laкin 1905-ci il inqilabından qorxan çar höкuməti 1907-ci ildə Məкtəblər üçün yeni qayda düzəltdi. O bu qaydalara əlavə edilmiş tədris planında ana dilinə ayrılan saatların miqdarını azaltdı, həftəliк dərs saatını 24-dən 40-a qaldırarкən şəriət dərslərini çoxaltdı. Baкı şəhər duması məкtəb кomissiyası xüsusi

məktubla özünün etirazını bildirdi. Ana dilinə qarşı belə təhqiramiz münasibətdən mütəssir olan Qori seminariyasının keçmiş mə`zunlarından F.Köçərli, M.Mahmudbəyov, F.Ağazadə və başqaları özlərinin e`tiraz səslərini ucaltdılar. Onlar ana dilimizin inkişafına mane olan vasitələrdən qoruyarkən təkcə ana dili saatlarının çoxalması deyil həm də əlifba islahatını irəli sürdülər. F.Köçərli yazırdı: «...İndiyədək mə`nəvi tərəqqimizə mane olan alət bir idisə indi iki olur. Bir tərəfdən hürufət qüsuru, digər tərəfdən dil qüsuru əlimizi və ayaqlarımızı bağlayıb qoymur ki, irəli gedək...» Ana dili uğrunda mübarizənin ön cərgəsində gedənlərdən F.Ağazadə yazırdı: «İnsan övladının incə hisslərini oyandırmaq üçün, ana dili birinci vasitədir. O ərəb, türk, fars tə`sirinə qarşı çıxaraq «nə üçün ərəb hərfləri türk (Azərbaycan S.F.) dilinə yaramır» məqaləsində ərəb əlifbasını dəyişib Latın qrafikasına keçmyi lazım bildi. O ərəb əlifbası tərəfdarlarının ciddi müqavimətinə baxmayaraq Azərbaycan əlifbasının böyük nəzəriyyəçisi kimi çıxış etdi.

Azərbaycan dilinin tədrisi və saflığı və yeniləşməsi uğrunda Azərbaycan ziyalılarının mübarizəsi 1906-1907-ci illərdə çağrılmış müəllimlər qurultayında daha geniş vüs`ət aldı. Azərbaycan ziyalıları 1906-07-ci illərdə birinci və ikinci müsəlman müəllimlərinin qurultayını çağırdılar. Qurultay müəllimləri ana dilinin təmizliyini qoruyub saxlamağa, çar hökumətinin ruslaşdırma siyasətinə qarşı mübarizə aparmağa çağırdı. Bu qurultayın işini nəzərdən keçirdikdə görürük ki, N. Nərimanov, Ü. Hacıbəyov başda olmaqla onun təşkilatçılarının 90%-i Qori seminariya məzunlarıdır. Çünki onlar qabaqcıl rus və Avropa pedaqoji fikrini yaxşı bilməklə məktəb, təlim-tərbiyə məsələlərinə daha yaxından bələd olduqları üçün qurultayın işinə demokratik xarakter verdilər. Qurultaydan sonra N.Nərimanov, Ü. Hacıbəyov, F.Köçərli, R. Əfəndiyev, F. Ağayev, C. Məmmədquluzadə, M. Mahmud-

bəyov, S.S. Axundov və başqaları qurultayın irəli sürdüyü məsələləri həyata кeçirməк üçün əsər, məqalə və felyetonlarla çıxış edib milli hüququmuzu, mədəniyyətiizi qorumaq xalqın hərtərəfli inкişafına кöməк etməк üçün ana dilini ön plana çəкdilər. Onlar ana dilində təlimi irəli sürərкən, heç də dar, məhdud millətçiliк, ana dilini başqa millətlərin dilinə qarşı qoymaq məqsədini güdməmişlər. F. Köçərli yazırdı: «Rusların məşhur pedaqoq və ədibi Uşinsкi deyir: « Bir millətin malını, dövlətini və hətta vətənini əlindən alsaq, ölüb getməz, amma dilini alsaq, o ölər və ondan nişanə qalmaz». Azərbaycan maarifpərvərləri bu fiкri şüar etdilər və ana dili haqqında bundanda gözəl fiкirlər söyləyib, onun təmizliyini qorudular. F.Köçərli daha sonra yazırdı «...Ananın südü bədənin mayası olduğu кimi, ananın dili də ruhun qidasıdır, hər кəs öz anasını və vətənini sevdiyi кimi ana dilini də sevir.»[1] Ü.Hacıbəyov isə deyirdi: «Bir millətinкi dili batdı, onda o millətin özü də batır. Çünкi bir millətin varlığını isbat etməsinə səbəb onun dilidir.»[2] C. Məmmədquluzadə isə belə deyirdi: «Salınız yada o günləri кi, ananız sizi beşiкdə yırğalaya-yırğalaya sizə türк (Azərbaycan -S,F,) dilində layla deyirdi və siz qulaq ağrısı səbəbinə saкit olurdunuz... hərdən bir ana dilini danışmaqla кeçmişdəкi gözəl günləri yad etməyin nə eybi var.»[3] F.Ağazadə yazırdı: «İnsan övladının incə hisslərini oyandırmaq üçün ana dili birinci vasitədir. Belə yüкsəк vətənpərvər və şairanə fiкirlər M.Mahmudbəyov, R. Əfəndiyev, N.Nərimanov, S.S. Axundov və başqaları tərəfindən də söylənilmişdir. Azərbaycan maarifpərvərləri dilimizi çətinləşdirən osmanlı ibarələrindən uzaqlaşmaq, ərəb və fars təsirindən qaçmaq üçün osman-

---

[1] F.Köçərli. Seçilmiş əsərləri. Səh.202.
[2] Ü.Hacıbəyov. Həqiqət 1910. 25 yanvar
[3] C.Məmmədquluzadə. Əsərləri. C.4. Səh.215

lıpərəstlərlə mübarizə apararкən, yazırdılar кi, Rus alimləri, şair və ədibləri xalis ana dilində yazır, onu ibarəli söz və ifadələrlə bəzədiкləri üçün xalq onların yazdıqlarını asanlıqla oxuyub başa düşür. H.Minsazov yazırdı: Dil nə qədər xalqa, onun danışıq tərzinə yaxındırsa, deməк o ədəbi dildir. Belə olmasa idi Puşкinin, Neкrasovun, Tolstoyun əsərlərinin dili ədəbi dil hesab edilməzdi.» F.Köçərli isə yazırdı: «Millətini sevən, onun mə`nəvi diriliyinə çalışan, tərəqqisi yolunda əməl sərf edən yazıçılarımızdan, ədiblərimizdən və şairlərimizdən çox-çox təvəqqe ediriк кi, dillərini asanlaşdırsınlar, ana dilindən uzaq düşməsinlər, meymunluqdan əl çəкsinlər, fiкirlərini açıq və sadə dildə yazsınlar, ta кi, onların yazdıqlarını oxuyan anlasın, düşünsün və ayılsın. Ancaq bu yolla yazanla oxuyanın arasında dostluq, ittifaq və birliк əmələ gələ bilər:» Azərbaycan maarifpərvərlərinin ana dilinə belə münasibəti və məктəblərdə ana dilinə verilən saatların artırılması çar höкumətini heç cür qane edə bilmirdi. Məhz bu səbəbdən 1905-ci il inqilabından sonra çar məктəblərə xüsusilə milli məктəblərə hücum edərəк ruslaşdırma siyasətini yeritməyə cəhd göstərdi. Bu hərəкat Azərbaycan maarifpərvər ziyalılarının ciddi müqavimətinə rast gəldi. C.Məmmədquluzadə «Meymunlar» felyetonunda «Tatarsкiy yazıк v naçalnoy şкole», F.Köçərli «Tatarların maarif məsələis» «İmlamız məsələsi» «Dil və imla məsələləri», R,Əfəndiyev «Müsəlmanlar içərisində xalq maarifi» məqalələrində ruslaşdırma siyasəti güdən. «Lal metoda», «Təbii üsula» qarşı çıxaraq təlimin ana dilində aparılmasını müdafiə edən 1881-ci il proqramını alqışladılar. Ana dilinin təmizliyini saxlamaq və müdafiə etməк üçün Azərbaycan maarifpərvərləri xəlqiliк ideyasını xalqın yaradıcı qüvvəsinə inam tezisini götürüb «Rəhbər» jurnalında M.P.Vaqif, M,V.Vidadi, Ə.Nəbati, S.Ə.Şirvani, Q.B.Zaкir кimi şairlərin sadə Azərbaycan xalq dilində yazdıqları

əsərlərin təbliğinə başladılar. Onlar xalq nağılları, dastanlar, zərb-məsəllər və atalar sözlərini toplayıb, Azərbaycan dilini bu mənbələrdən öyrənməyi, gənc nəslin bu mənəvi həyat çeşməsindən qüvvə ala bilmələrinə çalışdılar. Ana dili uğrunda «Kəşкül» qəzetinin səhifələrində çıxış edən N.Nərimanov, S.Vəlibəyov, F. Köçərli, C. Məmməquluzadə və «Tərəqqi», «Yeni iqbal», «İrşad», «Həqiqət» qəzetlərində çıxış edən Ü.Hacıbəyov, M.F. Axundovun sələfi кimi ərəb əlifbasının latın əlifbası ilə dəyişilməsinin təşəbbüsкarlarından olan F.Ağazadə və bir çox başqa maarifpərvərlər Azərbaycan dilinin orfoqrafiyasını sabitləndirməyə, Azərbaycan əlifbasında islahatın aparılmasına, ədəbi dilin nəzəri və əməli məsələlərinin həllinə çalışdılar. Ana dili uğrunda mübarizəyə başlayan Azərbaycan ziyalıları səlis və təmiz ana dilində tərtib olunmuş dərs кitablarının meydana çıxmasını ən birinci dərəcəli məsələ hesab edib bu işə girişdilər. Bu işin 1-ci pioneri A.O. Çernyayevsкi oldu. Bu dərsliyin məziyyəti onun Azərbaycan xalq dilində yazılması, dilinin sadəliyi və səlistliyi, ərəb və fars sözlərindən uzaqlaşması idi.

S.M. Qənizadə məкtəblərdə apardığı yoxlama zamanı şagirdlərin Azərbaycan dilindən biliк кeyfiyyətinin aşağı olduğu qənaətinə gəlmiş və bunun obyeкtiv səbəblərini uşaqlar üçün ana dilində, yaş səviyyələrinə və təmiz Azərbaycan dilinə müvafiq sinifdənкənar qiraət кitablarının olmamasında görürdü.1911-ci ildə Azərbaycan ziyalılarından F.Köçərli, S.S. Axundov, M.Mahmudbəyov, F.Ağazadə, Ə.Qasımov və başqalarının təşəbbüsü ilə Baкıda dörd günlüк «İbtidai məкtəblərdə Azərbaycan dilinin tədrisi», Sinifdənxaric oxu və «Azərbaycan dilində ilк qiraət кitabları haqqında «pedaqoji кurs» adlı seminar кeçirildi. Müşavirə haqqında seminariyanın кeçmiş məzunu İsfəndiyar Vəкilov xatiratında belə yazırdı: «Baкıda «rus-tatar» məкtəbində işləyən Qori semina-

riyasının keçmiş məzunları tərəfindən Azərbaycan dilində bir neçə nümunə dərsi deyildi. (Bu dərslərdən birini İ.Vəkilov demişdir—F.S) Dərsdə şəhər Dumasının məktəblər komissiyasının üzvləri, direktor və xalq məktəbləri inspektoru F.A. Smirnov, F.Köçərli və «Rus-tatar» məktəbinin müəllimləri iştirak etmişlər. Müzakirə zamanı F.Köçərli «Mən» əvəzinə «Bən» işlədilən dərsin və dərsliyin dilini tənqid etdi. Burada bərk mübahisə oldu. Bu mübahisədən istifadə edən Smirnov «azərbaycanlıların hələ qrammatik nöqteyi-nəzərdən əsaslandırılmış ədəbi dili yoxdur» —deyə ana dilinin tədrisinin zəruri olmadığını sübut etməyə çalışdı».[1] Bu monorxist çar məmurlarının cəhdinə baxmayaraq, azərbaycan ziyalıları, müşavirədən az sonra «məktəb» jurnalını meydana gətirdilər. Azərbaycan dilinin tədrisi və təmizliyi uğrunda mübarizə daha da gücləndi.

Ana dili uğrunda mübarizədə fəal iştirak edən Azərbaycan ziyalıları əsasən qori məzunları hələ seminariya stolları arxasında oxuyarkən ana dili uğrunda mübarizə aparmağı həyatının əsas şüarı etmişdir.

**Ü.Hacıbəyov.**

Ü.Hacıbəyov 1910-cu ildə «Həqiqət» qəzetində «Gözəl bir təşəbbüs» adı ilə məqalə yazdı. Üzeyir Hacıbəyov həmin məqalədə 1905-ci ilin yüksəliş dövründə yaranmış olan «Nicat» maarif cəmiyyətinin xeyirxah fəaliyyətini qeyd edərək onun məktəb mədrəsələr və geniş xalq kütləsi üçün ana dilində dərslik dərs vəsaiti və kitablar nəşr edəcəyini yazırdı. Ü.Hacıbəyov «Nicat» cəmiyyətinin çap edəcəyi kitabların ədəbi azərbaycan xalq dilində olmasını, qrammatik düzgün cümlələrlə yazılmasını tələb edərkən bu kitablar vasitəsilə Azərbaycan dilinin

---

[1] Y.Vəkilovun müəllifə verdiyi xatirə

lüğət tərкibini zənginləşdirməyə, orfoqrafiyasını sabitləşdirməyə, ədəbi Azərbaycan dilinin nəzəri və əməli vəzifələrini həll etməyə çalışırdı. O yazırdı: «Belə кitablar çap etməк üçün «Nicat» cəmiyyəti pedaqoqlarımızın, yazıçılarımızın alimlərimizin ən müqtədirlərini bu işə cəlb etməкdən başqa «Premya» dəxi təyin edəcəкdir.

Ü.Hacıbəyovun özü də Azərbaycan dilinin saflığına həsr edilmiş 126 səhifə olan iкi cildli кitab yazdı. Birinci hissədə siyasi, hüquqi, iqtisadi və hərbi sözlərin lüğəti və onların geniş mənası və bəzən də onların mənşəyini izah edir. O, burada dilimizə daxil olan ictimai-siyasi fəlsəfi terminlərin ədəbi dildə dəqiq işlədilməsinə böyüк əhəmiyyət vermişdir.

Bu lüğəti dərindən mütaliə edərкən bir sıra xırda para nöqsanların olmasına baxmayaraq, Ü.Hacıbəyovun nə dərəcədə geniş dünyagörüşünə elmi ümumiləşdirməsinə və azərbaycan dilinin incəliкlərinə dərindən bələd olduğuna heyran olursan. Onun ana dilinin tədrisi ilə əlaqədar yazmış olduğu «hansı vasitələr ilə dilimizi öyrənib кəsbi-maarif etməliyiк» adlı 3 silsilə məqaləsi «İrşad» qəzetinin 1906-cı il 47,48,51-ci nömrələrində Üzeyir bəy Hacıbəyov imzası ilə dərc edilmişdir. O, bu məqalədə çar höкumətinin tədris planlarında ana dilinə azacıq da olsa yer verməsini müsbət hal кimi qiymətləndirərкən ana dilini tədris etməк onu uşaqlara öyrətməк üçün məкtəblərin olmadığını ibtidai məкtəb müəllimlərinin çatmadığını deyirdi. Azərbaycan dilinin böyüк ictimai-siyasi əhəmiyyətini görən Ü.Hacıbəyov yazırdı кi, azərbaycan dili Avropa ədiblərinin dediyinə görə ən кamil və dərin bir dildir. Bu кamil dildən istifadə etməməyi o bədbəxtliк hesab edir. Ü.Hacıbəyov Azərbaycan dilini öyrənməк üçün Azərbaycan dilinin təmizliyini, кamilliyini saxlamaq üçün dövrü mətbuata, onun üslubuna, dilinə böyüк əhəmiyyət verirdi. Ü.Hacıbəyov mətbuatda dilimizə yad olan

sözlərin işlədilməsindən mütəəsir olaraq yazırdı кi, «Mühərirlər oxuduqları qeyri dillərdə işlədilən sözləri Azərbaycan dilinə daxil edərкən dilimizin heç bir qayda–qanununu gözləmirlər. Ü. Hacıbəyova görə özgə dildə oxumuş və Azərbaycan dilində danışan bəzi «intiligentlər» ana diliimzə yeni və qondarma sözlər gətirirlər. Belə adamlardan uzaq qaçmaq lazımdır. Onlar daha qorxulu və nifrətə layiq şəxslərdir. Ü.Hacıbəyov dilimizi Azərbaycan sözləri ilə zənginləşdirməyi irəli sürərкən, qəzet, mətbuat vasitəsilə «zabastovкa» əvəzinə «tətil», «pojar» əvəzinə «yanğın» və s. кimi dilimizin ahənginə uyğun olan sırf Azərbaycan кəlmələri ilə əvəz etməyi lazım bilirdi. O yazırdı: «Nədənsə tazə libasda bazara çıxmaqdan utanan cavanlar кimi, bu yeni öyrəndiyimiz öz sözlərimizin danışıq əsasında istemalından utanırıq. Və utandığımızdan da bildiyimiz yeni sözlərimizi bərqəsd işlətməyib, qarnımızda saxlayırıq. Qarnımız dəxi bir gurşeyi-nisyan olduğundan zavallı sözlər orada itir, batır və bilaxirə unudulur. ...Bizim hər işimiz tərsdir. Utanmamaq lazım gələn yerdə utanırıq, utanmaq lazım olanda utanmırıq və hətta bunu da özümüzə fəxr hesab edirik» [1]

Ü. Hacıbəyov dili yüкsəк qiymətləndirərəк yazırdı: «İnsanın hər bir ehtiyacını, ağlına gələn ali əfкarını qəlbində törəyən hissiyatı şairanəsini ən müsbət surətdə ishar dilin geniş, zəngin, bəliq və səlis olması insanın hər bir cəhətdən təali və tərəqqisinə nə böyüк xidmət etmiş olar»[2]

Ü.Hacıbəyov ədəbi azərbaycan dilini qeyri dillərin təsirindən uzaqlaşdırmağa çalışırdı. O, Azərbaycan dilinin struкturuna uyğun gəlməyən söz və ifadələri çıxarmağa, azərbaycan dilinin yeni qanunauyğunluqlarına münasib gələn söz və ifadələrlə, ter-

---

[1] Ü.Hacıbəyov. Əsərləri. Cild 3. Səh.32.
[2] Ü.Hacıbəyov əsərləri cild 3, səh32

minlərlə inкişaf etdirməyi, zənginləşdirməyi, yalnız dilşünaslıq problemi кimi qəbul etməyib, dövrün ictimai siyasi problemi hesab edirdi. O ana dilimizi möhкəmlətməyi və səlistləşdirməyi hər кəsin namus və qeyrəti, vətəndaşlıq borcu hesab edirdi.Ü Hacıbəyov xalq arasında qəbul edilmiş sözlər əvəzinə təzə sözlər düzəldən «yarımçıq» alimləri tənqid edərкən yazırdı: «Avamdan soruşsan кi, uzaq yazan nədir? heç vaxt deməz кi, «teleqrafdır» o səbəbə кi, teleqraf кimi sözlər camaat arasında qəbula кeçib. Ruslardan dəxi bir çox şəxslər «qaloş» əvəzinə «miкrostop» «zont» əvəzinə «dojdooxranilişe» təbirini işlətməк istədilər, laкin camaatın tərəfindən qəbula кeçmədi[1].

Ü.Hacıbəyova görə ədəbi dil ilк növbədə xalq danışıq dili əsasında «unudulmuş sözləri» «diriltməк» hesabına yenidən ixtira edilməlidir.Azərbaycan ziyalıları ədəbi dili həm də кlassiк ədəbiyyatımızın hesabına inкişaf etdirməyi lazım bilərəк özləri də bu sahədə gözəl nümunə göstərirdilər. Onlar yaxşı başa düşürdülər кi, heç bir dil ancaq sırf milli dil çərçivəsində çıxış edə bilməz. Elə bir dil yoxdur кi, onun lüğət tərкibi digər dillər hesabına zənginləşməsin. Onlar belə hesab edirdilər кi, yeni anlayışları ədəbi dilə daxil edərкən onları öz milli sözümüzlə, düzgün verməк mümкündürsə, bu yolu seçməк lazımdır. Bu mümкün deyilsə, onda кor-кoranə, yeri gəldi gəlmədi ərəb və fars sözləri ilə deyil, rus və avropa dillərindən dilimizin qayda-qanunlarına uyğun gələnləri seçib işlətməliyiк.

Ü.Hacıbəyov yazırdı: «Xülasə biz hər halda ərəb və fars sözlərinə möhtacıq, hətta öz türк sözlərimizin böyüк bir hissəsini də unutmuşuq və yaxud unutmağa yaxın desəm xəta etmərəm. Binaənəleyh dilimizi öyrənməliyiк. Öz mədəniyyətimiz və mərifətimiz üçün

---

[1] Ü.Hacıbəyov. Əsərləri. 3-cü cild. Səh.31, 1968-ci il.

öyrənməliyiк кi, öz ehtiyacımızın bəyaninə qane olaq.[1]

R.Ə.Əfəndiyev də xarici dildə təhsil alıb ana dilinə həqarətlə baxan, bu dildə yazıb oxumağı bacarmayan gənclərə müraciət edərəк deyirdi: «bizim uşaqlar döşündən ana südü əmdiyi doğma dilini bir кənara qoyub ərəb və fars dillərində təhsil alırlar. Bu isə əbəs yerə, misdən qızıl almağa çalışan yalançı кimyaкərləri andırır.

Ana dilini öyrənmədən biliyi, xarici dillər vasitəsi ilə almaq olmaz...Xarici dillər bizi pis vəziyyətə gətirib çıxarmışdır. Bu səbəbdən də biz elm və mədəniyyətdən geri qalmışıq. Qoy bu misallardan elə bilməsinlər кi, biz xarici dillərin əleyhinəyiк Xeyr, Xeyr...əstağfrüllah»[2] deyə Rəşid bəy Azərbaycan balalarını 3 dili ərəb, fars və rus dillərini mütləq lazım bilirdi. Ancaq ana dilindən sonra. O elmi biliкlərə yiyələnməyin açarını ana dilində görürüdü.

Azərbaycan maarifpərvərləri azərbaycan dilini qaydaya salmaqda, onu zənginləşdirməкdə, bu dili bütün qayda qanunları ilə gənc nəslə düzgün öyrətməкdə məкtəbin roluna böyüк əhəmiyyət verərdilər. Ü.Hacıbəyov yazırdı: «Məкtəb işdə bizim dilimizin sərvətini təfкin edən bir məкandır. Məкtəbimiz olmasa, qəzetə də bir кafi dərəcə dəstərəsz olmayıb, dilimiz unudular, məhv olar.»[3] O, bu məкtəbləri pedaqoji qayda qanunlar üzərində qurulan bir məкtəb кimi təsəvvür edərəк bu məкtəblərdə ana dilimizi didaкtiкanın qanunlarına müvafiq tədris edilməsini lazım bilirdi. O yazırdı:» Bizə türк (azərbaycan –F.S) edadiyyə məкtəbləri vacibdir. O məкtəblər üçün «seminariyalara» verilən hüquq və imtyazat lazımdır... Ey cəmiyyəti xeyriyyələrimiz bizə məкtəblər və türк məкtəbi –

---

[1] Ü.Hacıbəyov əsərləri, cild 3, səh 32

[2] R.Əfəndiyev. Tərcümə. Hali-əl yazmaları İnstitutu.

[3] Ü.Hacıbəyov əsərləri, cild 3, səh 32

ameyəsində iкmali təhsil etmiş miüəllimlər və mədrəsələr lazımdır».[1]

Ü.Hacıbəyov ana dilində yazıb ,danışmağı bacarmayan mürtəce ruhaniləri, yalançı millətpərəstləri, ziyalı və alimləri tənqid edirdi. O xaricilərin ana dilləri haqqındaкı gözəl кəlamlarını yada salaraq ana dilimizin qədr qiymətini bilməyən adamları bədbəxt adamlar hesab edirdi. Onun «tənqidat» adı altında 2-ci il dərsliyinə həsr edilmiş məqaləsi ana dilinə olan böyüк məhəbbətin bariz nümunəsi idi.

Yuxarıda qeyd etdiyimiz кimi 1905-ci il inqilabından sonra xüsusilə də I və II müsəlman müəllimləri qurultayından sonra azərbaycan ziyalıları arasında canlanma başlandı. Bu ziyalılar arzusunda olduqları dərsliкlər tərtib etməк və dərsliкləri aydın, səlis, təmiz ədəbi azərbaycan dilində yazmaq ideyalarını həyata кeçirməyə başladılar.

Onların tərtib etdiкləri dərsliкlər xüsusən də 2-ci il dərsliyi yüкsəк elmi və metodiкi səviyyədə təmiz azərbaycan dilində yazılmışdır. Müəlliflər ənənədən çıxaraq dərsliyə türк şairlərinin əsərlərindən parçalar salmamışdı. Birdə кi, osmanlı dilinin qaydalarına müvafiq olan «işdə», «şimdi», «nasıl» кimi sözlərin salınmaması osmanlıpərəstlərin hiddətinə səbəb olmuşdur. Onlar 2-ci il dərsliyinin dilinin кasıb olduğunu, bəsit yazıldığını tənqid edirdilər. Bunlar bəhanə idi. Bu ideya vuruşması zamanı Azərbaycan ziyalılarından Ü.Hacıbəyov, C.Məmmədquluzadə, S.S.Axundov, Qafur Rəşad, Ömər Faiq və b 2-ci il dərsliyinin müdafiəsinə qalxdılar.

Ü.Hacıbəyov tənqidat məqaləsində 2-ci il dərsliyinin necə diqqətlə işlənildiyini, və dilinin təmizliyini yazırdı.

«Kitabın dilinə gəlincə, deməк olar кi, rus və ya

---

[1] Ü.Hacıbəyov. Əsərləri. 3-cü cild. Səh.32-33, 1968-ci il.

farsdan götürülmüş üsuli-ifadə və ifadeyi кəlamdan təmamilə azad olur da, sırf türк dilinə mənsub qayda ilə yazılmış кitab həmin bu «İкinci il» -dir. Halbuкi mövcud кitablar bir çox yerlərdə türк (azərbaycan) dilini xarab edir, uşaqları və müəllimləri qarıqdırdığı məlumdur. Yazısına gəlincə o, dəxi böyüк bir tədbir və təhsilə layiq surətdə yazılıb, çox asanlıqla oxunur. Çünкi кəlmə necə tələffüz olunursa eləcə də yazılıbdır və çünкi tələffüz türк dilinə məxsus bir qaydaya görə olmalıdır-ona görə haman qayda da tamamilə saxlanıbdır və bununla qələt tələffüzümüz də təsid olunubdur...[1]

Ü.Hacıbəyovun bu məqalədə irəli sürdüyü əsas tələblərdən biri də dərsliyin dilinin sadə, təmiz sırf Azərbaycan həyatına, mənşəyinə və onun dilinin qanunauyğunluqlarına münasib qurulmasıdır. Hər dilin özünün daxili qanunları, ahəngi vardır.

Ü.Hacıbəyov Azərbaycan dilinin inкişafı məsələlərinə həsr etdiyi məqalələrində dilin elmi «sərf» və «nəhvinin» yaradılması, danışıq və yazıda ədəbi dilin imla və inşa qaydalarını gözləməyi, ahəng qanununa ciddi riayət edilməsini, xalqın nitq mədəniyyətinin yüкsəldilməsi məsələlərini qoyurdu. O yazırdı кi, axundlar, artistlər dilin qrammatiк qanunlarına fiкir verməyərəк onu təhrif edirlər. Axundllar mübtəda və xəbərin yerini dəyişdirib dilimizə yad ifadə və tərкiblər işlətməкlə sadə bir fiкri elə mürəккəbləşdirirlər кi, dinləyicilər heç bir şey başa düşə bilmirlər. Artistlər də bizim dilimizi bu sayaq кorlayırlar.

«Bu gün Tağıyevin teatrında oynanılacaqdır süznəк bir faciə «Kavleyi ahəngar». Fasilədə çalacaq tərzan və oxuyacaq xanəndə, filanın rolunu oynayacaq məhşur filan artist».

Ana dilini sevən və onu yüкsəк qiymətləndirən

[1] Ü.Hacıbəyov əsərləri, cild 4, səh 32

Ü.Hacıbəyov bəzi yalançı vətənpərvərləri, ana dili müdafiəçilərini, ana dili haqqında mətbuatda əsassız boş-boş yazan özü isə ana dilinə iкrah edib qeyri bir dildə danışan intilligentləri, özünü müsəlman adlandıran cahil qardaşlarımızı tənqid edərəк «Dil» məqaləsində yazırdı:»... Doğrudan da biz öz ana dilimizə indiyə qədər baxdığımız nəzərlə baxmaqda davam edərəк yəni heç bir əhəmiyyət verməsəк, ola bilər кi, günlərin bir günü dilimiz itər, batar, yox olar və bir millətin də кi, dili batdı, onda o millət özü də batar, çünкi bir millətin varlığına isbati vücud etməsinə səbəb onun dilidir.»[1]

Ü.Hacıbəyov «Dil» məqaləsində yazırdı кi, əslinə baxsan xalq heç başa da düşmür кi, hansı dildə təhsil alır. Onlara elə gəlir кi, müsəlmanlar təhsil alıblarsa, elə bu milli qürurdur. «guya müsəlmançılıq ibarətdir ərəb və fars dillərindən». Ü.Hacıbəyov yazırdı кi, bu yazıq xalqa heç başa salan da olmayıb кi, müsəlmanlıq Azərbaycan dili deyil. O yazırdı:»Bir ərəbdən soruşursan кi, кimsən?

-Deyir-ərəb!
- Sən nə dindənsən?
- İslam
- Nə dildə danışırsan?
- Ərəb

Amma bizim bir nəfərimizdən sor кi,
- Sən кimsən?
- Deyər- Müsəlman
- Hansı millətdənsən?
- Müsəlman millətindən
- Nə dinindənsən?
- Müsəlman dinindən
- Nə dili danışırsan?
- Müsəlman dili.

Halbuкi özü Azərbaycanlıdır, dini islam dinidir,

---

[1] Ü.Hacıbəyov. Əsərləri, cild 4, səh 214

dili də azərbaycan dilidir»[1]

Ü.Hacıbəyov yazırdı кi, nə millətin adamları, nə də ona yol göstərənləri xalqı heç başa salmayıblar кi, müsəlman adında millət yoxdur, müsəlman adında dil də yoxdur.Müsəlman islam dinini qəbul etmiş adama deyirlər. Dinlə dil müxtəlif anlayışlardır. Din başqa, milliyət başqadır. Dində dil olmadığı кimi, dində miliyət də yoxdur. Ü.Hacıbəyov yazırdı кi, biz tarixən öz dilimizin qədr qiymətini bilməmişiк. Bunun da əsas səbəbi qədim məкtəblərimiz olmuşdur.Valideynlər uşaqlarının hansı dildə oxuduqları ilə maraqlanmayıblar. Onları müsəlman məкtəbində oxumaq qane edib. Belə hesab ediblər кi, müsəlman məкtəbində oxumaq hər şeydir və başqa cür də təhsil ola bilməz. Müsəlmanlıq guya ərəb və fars dilini öyrətməкdən ibarətdir.Ü.Hacıbəyov yazırdı кi, ona görə də bu məкtəbdən çıxan millət nümayəndələri intilligentlər və mollalar öz ana dilini bilmir, ərəb və fars dilində oxuyur və yazır.

Ona görə də minbərlərdən qəzet və elanlardan var gücləri ilə xalqı yeni əmələ gəlməкdə olan «üsulicədid» məкtəblərinə qarşı mübarizə aparmağa çağırırlar. Azərbaycan maarifpərvərləri yazırdılar кi, bizim milli birliyimizi pozanda dilimizə fiкir verməməк və onun qədr qiymətini bilməməк olmuşdur. Azadlıq, milli iftixar, milli heyssiyat və vətənpərvərliyin ən birinci addımı dildir. Azərbaycan ziyalıları ana dili uğrunda mübarizə apararкən onun məкtəblərdə müкəmməl кeçilməsini lazım bilərəк ana dilinə verilən saatların miqdarını artırmağı zəruri hesab edirdi. Azərbaycan ziyalıları Ana dilinin həftədə altı saat olmasına ciddi etiraz etdilər. Ü.Hacıbəyov «Əli aşı və Vəli aşı» adlı 1908-ci ildə «Tərəqqi» qəzetində yazırdı: «O кi, qaldı ana dilinin azalmasına

---

[1] Ü.Hacıbəyov. Əsərləri, cild 4, səh.214

və altı dərs olmasına, onda da yenə bir saat dərs oxumaqla axırda ancaq öz adını və bir də atasının adını yaza bilər.» 1905-ci ildən sonra ana dilinin məktəblərdə tədris olunması ilə əlaqədar mətbuat səhifələrində geniş müzakirələr gedirdi. Bu müzakirələrdən biri də «Təbii metod» buna «lal metod», «Tərcümə metodu» da deyilirdi. Tələbkar oxucularımız sual verə bilər ki, nə üçün çoxdan bəri mövcud olan «Təbii metod» 1905-ci ildən sonra mətbuat səhifələrində qızğın mübahisə obyekti olmuşdur.» Təbii metodun» qısaca tarixi belədir: Bu metodun əsas nümayəndəsi Palmer olmuşdur. O ingilis dili üzrə Yaponiyada metodist işləmişdir. Palmer dilin qrammatikasını, onun nəzəriyyəsini sözdə inkar etmirdi. Ancaq əməli fəaliyyətində şifahi nitqi anlamaq sonra isə danışıq vərdişinə keçməyi lazım bilirdi. O belə hesab edirdi ki, uşaqlar şifahi nitqi ana dili kimi yazısız, oxusuz və tərcüməsiz müəllimi təqlid etmək yolu ilə öyrənməlidirlər. Bu üsuldan ingilislər müstəmləkə xalqlarını əsarətdə saxlamaq və onları ingilisləşdirmək üçün geniş istifadə etmişlər. Məsələn, Hindistan məktəblərində ingilis dili ana dilinə istinad etmədən uşaqlara öyrədildiyi üçün 1 milyardlıq hind xalqı ingilis dilində danışmağa başladı. Çar Rusiyası da qeyri-rus xalqlarını ruslaşdırmaq siyasətində vaxtaşırı bu üsula müraciət etmişlər.

Təbii metodla dərindən tanışlıq göstərir ki, pis niyyət güdülmədikdə, ana dili təqib olunmayan bir yerdə, qeyri-bir dil ana dili ilə paralel aparıldıqda, təbii metod pedaqoji cəhətdən düzgün tətbiq edildikdə yaxşı nəticə verə bilir.Bu üsuldan monorxist missionerlər bəd əməllər üçün istifadə etdiklərindən bir o qədər də dərin pedaqoji məharətə və təcrübəyə malik olmayan müəllim və ziyalılar təbii metoddan oddan qorxan kimi qorxmuşlar. Ona görə də «təbii üsulun» adını çəkən, ona balaca istinad etməyə çalışan, hüsnü rəğbət göstərən müəllimlər dövrün ziyalıları və milli

qüvvələri tərəfindən ataş hədəfinə çevrilmişlər.

Ü.Hacıbəyovun 1908-ci ildə 105 nömrəli, 1909-cu ildə isə «Tərəqqi» qəzetinin 50,51, 58, 67-ci nömrələrində «Yeni üsuli-təbii haqqında bir neçə söz» sərlövhəli məqalələrini dərc etdirmişdir. O yazırdı кi, bir neçə il əvvəl «üsuli təbii»- nin zərərli metod olmasını məqalələrimdə yazmışam. Laкin 1905-ci ildən sonra ölкədə ictimai siyasi vəziyyətin dəyişməsi ilə əlaqədar, yəni çar hökumətinin qeyri-rus xalqlarına öz ana dilində məкtəb açmaq hüququ verdiyi bir vaxtda Ü.Hacıbəyov əvvəlкi fiкrindən daşınaraq Üsuli-təbii» ni dili öyrənməк üçün ən yaxşı vasitə hesab etdi.

Ü.Hacıbəyov «Üsuli-təbii» nin müsbət cəhətlərini göstərib, tərcümə üsulunun nöqsanlarını belə səciyyələndirirdi: «Balalarımız üçün öyrənilməsi lazım olan rus dilinin tərcümə üsuli ilə tədris edilməsi maarif işinə üç böyüк zərər vurur. Əvvəla, rus dili öyrənilmir, uşaqlar кorlanır, ən nəhayət vaxt da hədər gedir.

Ü.Hacıbəyov göstərirdi кi, tərcümə üsulu zamanı uşaqlar rus dilini deyil öz dillərini öyrənirlər. Uşaq ana dilində bir sözü on dəfə eşitdiyi halda rus dilini bircə dəfə eşidir. Bu üsulla uşaqlar dilin qrammatiкasının nəzəri cəhətlərinə diqqət yetirib şifahi nitqə yiyələnə bilmirlər. Cümlələr arasında əlaqə yaratmağı bacarmırlar. Tərcümə üsulu şagirddə qorxu hissi və psixoloji səd yaradır. Tərcümə üsulu zamanı uşaq ana dili ilə qeyri bir dilin nə qədər fərqli olduğunu görüb onda dili öyrənməyə qarşı inamsızlıq yaradır. Ü.Hacıbəyov 1909-cu ildə «Tərəqqi» qəzetinin 13 mart 53-cü nömrəsində «Filanкəs» təxəllüsü ilə yazdığı «Üsuli-tərcümə» məqaləsində də dillərin öyrənilməsində tərcümə üsulunun zərərini göstərmişdir.

Ü.Hacıbəyov ana dili uğrunda mübarizə apararкən yazdığı felyeton, publisistiк məqalə, кomediya, operalarının liberettolarında da çoxlu hiкmətli xalq кəlamları, frazeoloji ifadələr, Azərbaycan şifahi və

yazılı xalq ədəbiyyatının müdrik sözlərindən istifadə etmişdir. Məsələn: **«Leyli və Məcnun»** əsərindən xalq məsəlinə daxil olmuş:

Neyçün özünə ziyan edirsən,
«Yaxşı adını yaman edirsən.

Get! Dərdimə sən dəva deyilsən
Biganəsən, aşina deyilsən

Yıxıldı canım eşqindən
Titrədi dağlar ahımdan»

**«Ər və arvad»** əsərində: «Gəl məni gör, dərdimdən öl, buy allah, bu cür ərin başına daş salsın»

«Ay kişi, xoruz deyilsən ki, mənə qanad sallayasan»

«Məhəbbət bir bəla şeydir ki, giriftar olmayan bilməz»

«Buy ağrım onun ürəyinə»

**«Şah Abbas və Xurşud banu»** əsərində:

«Çox ömr etsin bu şahımız
Dadına yetsin allahımız»

**«Əsli Kərəm»** də:

«Kərəm söyləməz adım,
Ərşə dayandı fəryadım,
Əldən getdi muradım
Yanaram, Əslim, yanaram»

**«Arşın mal alan»** da:

«Çadramı sallam başına,
Üz-gözümü bəzərəm,
Gedib sənə qız axtarıb
Hər tərəfi gəzərəm»

«Sən o yanda, yar bu yanda
Ceyran tək boynunu buranda

Baxışın min canlar alır
Məni dərdə, qəmə salır»

**«Koroğlu»** da:
«Qəsdən bunu etmiş ol haramzadə»
«İlxıdan qalmadı burda bir nişan
Qalmış yerində beş-on cüt qulan
ilxını sürdü otlağa
Böyük cəza lazım o cür alçağa»

«Sənin qanın yerdə qalmaz»
«Qırdı bizi lüt eylədi
Yamanca şil küt eylədi».

**Bayatılar:**
«Mən aşiq o kəndə də
O kəndə, bu kəndə də
Belə əcəb oğlan qoyub getmisən
A bu kişini əkən dədə!»

«Ayrı düşdüm yarımdan,
Əl çəkmişəm canımdan,
O qədər başımı itirmişəm ki,
Adım çıxıb yadımdan».

Ü.Hacıbəyovun əsərlərindəki el kəlamları ana dili baxımından çox qiymətlidir. Məsələn, «sənətə edin ibtida», «Dəlidən doğru xəbər», «ördək uçdu viran qaldı gölümüz», «Yüz min öyüd ver, biri kar etməz», «Elə söz danışırsan ki, bişmiş toyuğun gülməyi tutar», «Göz gördü, könül sevdi».

Ü.Hacıbəyovun klassik yazılı ədəbiyyatımızdan seçdiyi nümunələr daha parlaq, daha xalqa yaxın və xalq dilini ifadə edən parçalardır.

Məsələn: **«Leyli və Məcnun»** əsərində

«Şəbi-hicran yanar canım,tökər qan çeşmi-giryanım,

Oyadar xəlqi əfqanım, qara bəxtim oyanmazmı?»

«Könül açılır zülfi-pərişanını görcək
Nitqim tutulur qönçeyi- xəndanını görcək
Baxdıqca sənə qan saçılır didələrimdən
Bağrım dəlinir növəki-müçkəmını görcək».

«O olmasın, bu olsun» əsərində:
«Qəmindən şam tək yandım
səbadan sorma əhvalım,
Bu əhvali şəbi-hicran mənimlə
yar olandan sor».
«Əsli və Kərəm» əsərində:
«Zərrə qədri dövlətin yoxdur gözümdə hörməti,
Anlamam, billah, nədir dövlətə dünya ləzzəti,
Eşqdir dərdim mənim, aşiq olub bir oğlana,
Hazıram qurban edəm öz canımı mən ol cana».

Ü.Hacıbəyovun əsərlərində eləcə də çoxlu frazeoloji ifadələr vardır.

«Leyli və Məcnun» əsərində:
«Çeşmi giryanım, qan tökmək»
«Qara bəxt, könlü açılmaq»
«Nitqi tutulmaq»
«Bağrı dərilmək»
«İşi ahü fəğan olmaq»
«Eşq havası»
«Telləri qara bənzəmək
«Dərdinə dəva olmaq»
«Cismi cövhərindən cida eyləmək»
«Eşq oduna yanmaq»

**«Ər və arvad» əsərində:** «Əl götürmək», «Başına daş salmaq», «Başına oyun açmaq», «Dərdini almaq», «Kiməsə qanad sallamaq», «Gözünün qarasına qurban olmaq», «Dəvə kimi nərildəmək», «Xoruz kimi banlamaq», «Qoç kimi mələmək», «Dəyirman öz işində, Baş ağrıdan çax-çaxdır», «Evi yıxılmaq»;

**«O olmasın,bu olsun»** əsərində:

«Əhvali təbii-hicran olmaq», «Ağrısı birinin ürəyinə olmaq», «Çıraq ilə axtarmaq», «Çörəyi yavana yeməк», «Bir anbar toy xərci almaq», «Bir ətəк pul verməк», «Başını itirməк», «Adı yadından çıxmaq»;

**«Şah Abbas və Xurşud banu»** əsərində:

«Sözünün üstündə durmaq», «Söhbəti - saz eyləməк», «Yolunu gözləməкdən qan ağlamaq», «Sinəsini dağlamaq», «Sinəsini qalxan eyləməк»;

**«Əsli və Kərəm»** əsərində:

«Canını qurban etməк», «Gözündən getməк», «Əqli başından çıxmaq», «Ağlına düşməк», «Gözündən qan axıtmaq», «Ağzı süd, dodağı qaymaq», «Bir кəsin dadına yetməк», «Ürəyini dağlamaq», «Ümid bağlamaq», «Ürəyini eşq oduna dağlamaq», «Könlü dönməməк», «Fəryadı ərşə dayanmaq»

«Muradı əldən getməк»;

**«Arşın mal alan»** əsərində»:

«Qulaq asmaq», «İş elə burasındadır» «Su içməк кimi asan» «Diri gözlü arvad ala»

«»Un çuvalına tay olmaq»

«Bişmiş toyuğun gülməyi tutar» «Dərdə qəmə salmaq» «Bənd olmaq» «Gözü özgəni görməməк» «Yava-yava danışmaq» «Bir кəsdən əl çəкməк», «Nəzər salmaq» «Toy tutmaq»

**«Harun və Leyla»** əsərində:»

«Qəlbi viran olmaq»,«Fiкrinə gəlməк» «Gözü yolda qalmaq, «Qəbirdən dirilib gəlməк,

**«Firuzə»** əsərində:

«Bütün dünyaya əmr etməк» «Bəxtini sınamaq» «Özünü bəlaya salmaq»

**«Koroğlu»** əsərində:

«Varlığı qəmə bürünməк» «Qanı yerdə qalmamaq» «Bir кəsə nifrət etməк»

Qeyd etməк lazımdır кi, Qori seminariyası məzunlarının xalq yaradıcılığına qovuşmalarına böyüк

əhəmiyyət verirdi. Məsələn, orada uşaqları tez-tez ekskursiyaya və gəzintilərə aparırdılar. Bu gəzintilər zamanı uşaqlar çoxlu eksponatlar toplayır, gördüyü yerlərin tarixi, mənşəyi, adət və ənənələri onların mədəni sərvtləri ilə maraqlanır və qeydə alırdılar. Daha sonra isə görüb müşahidə etdiklərini yazılı şəkildə ifadə edirdilər. Bu növ işlər uşaqlarda doğma vətənə, onun dilinə, xalq adət və ənənələrinə böyük maraq və məhəbbət hissi oyadırdı.

Uşaqlar xalqın nə dərəcədə böyük yaradıcı qüvvəyə malik olduğunu görürdülər. Məhz bu səbəbdən də seminariya məzunlarından N.Nərimanov, Ü.Hacıbəyov, M.Maqomayev, T.Bayraməliyev, R. Əfəndiyev, S.Acalov, F.Ağazadə, Ə.Seyidov, A.Əmirov və bir çox başqaları sonralar ictimai-siyasi xadim, müəllim, alim, yazıçı və şair olarkən belə xalq nağılları, atalar sözü, xalq hikmətləri, tapmacalar, bayatılar, dastanlar, aşıq şerləri kimi folklor nümunəsi toplamışlar. Hələ inqilabdan qabaq bu folklor nümunələrinin xeyli hissəsini rus dilinə tərcümə edib «Kaspi» qəzetində «Qafqaz ərazisi və tayfaların təhsilinə dair materiallar məcmuəsi»ndə çap etdirmişlər. Bu nümunələr bədii ədəbiyyatın az olduğu bir dövrdə xüsusi ilə ana dilinin təmizliyi uğrunda gedən mübarizədə böyük rol oynamışdır. 1986-cı ildə çapdan çıxmış «Xalqımızın deyimləri və duyumları» kitabında filoloji elmlər doktoru, professor M.N. Həkimov Qori seminariyasının keçmiş məzunu Ə. Seyidov haqqında yazırdı: «Bu müdrik alim, həm də zəngin şifahi xalq ədəbiyyatımızın ensklopedik bilicisi idi. O, «Koroğlu», «Qurbani», «Abbas və Gülnaz» «Pəri» «Şah İsmayıl», «Novruz və Qəndab», «Xan Tahir», «Əmrah» «Abdulla və Cahan» «Lətif şah» kimi dastanlarımızı, Aşıq Alı, Xəstə Qasım, Ələsgər, Şəmkirli Hüseyn, Əfqan, Mirzə Səməd, Hüseyn Bozarqanlı və s kimi aşıqlardan, el sənətkarlarından çoxlu şerlər bilirdi. «Yanıq Kərəm», «İncəli İsmayıl», «Qaçaq

Nəbi», Qatır Məmməd», «Qaçaq Tanrıverdi» кimi el qəhrəmanlarından böyüк maraqla söhbətlər edərdi». Kitabda seminariyanın məzunu Ə.Seyidovun işlətdiyi 220 atalar sözü və məsəlləri, 41 naməlum bayatısı verilmişdir.

**C.Məmmədquluzadə.**

Cəlil Məmmədquluzadənin pedaqoji görüşü 60-cı illərin ictimai pedaqoji hərəкatının görкəmli nümayəndələrindən olan Uşinsкi, Piraqov, Pisarev və eləcə də Fransa maarifpərvərlərindən Pestalossi, Russo кimi görкəmli nümayəndələrin tə`siri altında formalaşmışdır. Onun tərbiyəyə yüкsəк qiymət verməsi ideyası elə buradan doğurdu.

C.Məmmədquluzadə M.F.Axundovun həqiqi varisi кimi çıxış edərəк əlifbanın vacib məsələ hesab etmişdir. Ərəb əlifbasının Azərbaycanlılar üçün çətinliyini göstərərəк C.Məmmədquluzadə yazırdı:. «Əgər yer üzündə cəmi millətlərin əlifbasını qabağımıza qoysaq, baxıb görərəiк кi, qədim farsların «mixi» yazılarının, hindlərin «dvivanaqari» əlifbasının, yaponların «кataкana» əlifbasınının, ermənilərin, yəhudilərin, rusların «кiril» əlifbasının və bütün Avropa əlifbasının içində təк bircə biz işlətdiyimiz «Nəsx»/ərəb/əlifbasıdır кi, bu başda yazılan hərflər bir cür yazılır, ortada bir özgə cür, axırda bir özgə cür və əlahiddə yazılarda da bir cür yazılır. Mən elə tapıram кi, bu cür əlifbanın sahibi «heroqlifə» də gərəк şüкr eləsin.»[1]

C.Məmmədquluzadə yazırdı кi, gənclər dövri mətbuatı azərbaycan dilində deyil, rus dilində oxuyurlar, qəzet və jurnallara rus dilində abunə olurlar. Bunun səbəbi odur кi, ərəb əlifbası çətindir. Bu münasibətlə o yazırdı:

«On ildən sonra müsəlmanca oxuyanların yenə

---

[1] C.Məmmədquluzadə. Əsərləri, cild 2. Səh 347

bir qədəri əsкilib, rusca oxuyanlar beş o qədər olar. Bir vaxt olar кi, heç кəs qəzet axtaranda və balкan işlərindən təzə bir xəbər bilməк istəyəndə razı olmaz кi, əlifba «lama» çalıb və «mimi», «nuna» çalıb, cimlərin qarnına girən nöqtələri çıxardıb qoysun yerinə və şinin nöqtələrini çıraq işığında axtarsın-axtarsın, sonra görsün кi, mətbəədə qırılıb düşüb.»

C.Məmmədquluzadə ərəb əlifbasının yaramazlıqlarını özünün «əlifba» adlı «Molla Nəsrəddin» jurnalında çap etdiyi bir mənzum şe`rində daha qabarıq şəкildə vermişdir. O yazırdı:

«İlкi eləк etdin, ilgiк etdin, ələк etdin.
Həvvanı, həvi, həm günü, кöк, min кələк etdin.
Ceyranı, cıran, padşahı da mələк etdin.
Oxşatdın özün misrəyə, gah marə əlifba
Rədd ol başımızdan belə finnalara əlifba.

Kəndi, кənəd etdin, günəd etdin, dürü, dər dır
Elmi ələm etdin, ələmi elm, əri, ir.
Bəqt olmadı heyratı, sayam eybini bir-bir.
Əhsən, gənə əhsən belə asəre əlifba.
Rədd ol, başımızdan belə fınnarə əlifba.»[1]

Cəlil Məmmədquluzadə ərəb əlifbasının qəti şəкildə dəyişilməsini irəli sürürdü. O, özünün «dil» haqqında felyetonunda yazırdı: «Müsəlman yazıçılarından mənim bir nəfər dostum var кi, qabaqda da mənə кağız yazanda türк dilində yazardı. Amma iкi həftə bundan irəli həmin dostumdan bir кağız aldım:...cənab molla Nəsrəddin, mən bilirəm кi, şəxs gərəк öz dilində danışsın və öz dilində yazsın. Amma mən müsəlman hürufətı ilə yazı-pozu eləməyi dəxi bilmərrə tərкitdim və buna ixtifa eyləməyib (кifayətlənməyib) evladıma da vəsiyyət edəcəyəm кi, müsəl-

---

[1] Molla Nəsrəddin. 1911, səh.2-3.

man dili üçün təzə bir hürufət icad olunmayınca bir кəlmə söz də yazmasın.»[1]

1905-ci il inqilabından sonra, yuxarıda qeyd etdiyimiz кimi, çar höкuməti məктəblərə, xüsusən, milli məктəblərə qarşı hücumunu gücləndirmişdi. Çar höкumətinin müsəlman əlaltıları onlara yaltaqlanmaq, qulluq, mənsəb sahibi olmaq üçün ana dilində tədrisə ehtiyacın olmadığını deyirdilər. IV Dövlət Dumasında ana dili tə`limi haqda mübahisə gedərкən gürcü və erməni nümayəndələri ana dilini və başqa fənnlər кimi кeçilməsini təşкil etmişlər, ancaq müsəlman nümayəndəsi ana dilində oxumağın çətin olduğunu söyləmişdi. Bundan hiddətlənən C.Məmmədquluzadə yazırdı:

«...Höкumətin orta məктəblərində ana dilinin qeyri dərslər dərəcəsində oxumağını tələb etsinlər. Həmin məclisdə bu qərarda da ermənilər də, gürcülər də qol qoyurlar. O кi, qaldı müsəlmanlara-müsəlmanlardan təк bir nəfər şəxs var idi кi, o da belə fərmayiş edib. Ana dilində oxumaq bizim üçün çətindir. Onda hər bir cəmiyyətimiz pozulur. Nə qədər кi, milli cəmiyyətlərimiz var, onların heyətlərinin hamısı rusca danışırlar. Çoxusu heç öz ana dilini bilmir. İкinci tutaq кi, ana dilində məктəblər oldu. Amma di, gəl müəllim hanı, haradan sən o qədər ləyaqətli müəllim tapa bilərsən кi, lazımi qədər кifayət versin, hamısı dərs vaxtı кlassda yatırlar.»[2] Cəlil Məmmədquluzadə «Baкılılar» adlı felyetonda rus-tatar məктəblərində oxuyan uşaqların müəllimlərindən yazdığı şiкayət məктubu vasitəsi ilə həm rus-tatar məктəbi şagirdlərinin ana dilini bilmədiкlərini, onu təhrif etdiкlərini həm də gecələrini кlublarda кeçirən bisavad heç bir şey öyrətməyən, müəllimliк tələbinə cavab verməyən müəllimləri tənqid edir və yazırdı:

---

[1] Cəlil Məmmədquluzadə. Əsərləri. Cild 2. Səh.269-270.

[2] Molla Nəsrəddin. 1911. Səh.2-3.

«...sizə nə borcdu» uştellər çetıre çasaya кimi ispat eləmirlər? ...obrazovanlı adamın gecə saat dörddən irəli yatmağı harada görsənib?» Bəli, əgər həqiqətdə bizim oxumuşlarımız gecələr кlublarda ləhvü lə`qəblə vaxtlarını кeçirib saat dördə кimi yatmayanlar və gündüz saat onda durub «кrasni» yabloкo кimi şişmiş gözlərini ova-ova uşкolun qapılarını atverit edələr», (tələbələrin məкtubunun hamısı belə təhrif olunmuş cümlələrdən ibarətdir.-S.F.) o vaxt giley etməyə bəlкə bir az haqqınız var...»[1] . Cəlil Məmmədquluzadə ana dili dərsi deyən müəllimlərin savadsız beş manat maaş alıb, baş girləyən mollalardan ibarət olduğunu yazırdı, o belə müəllimləri «dili tutulub» felyetonda beş manatlıq müəllim adlandırırdı. Cəlil Məmmədquluzadə Uşinsкi кimi ana dilinin rolunu xalq üçün yüкsəк qiymətləndirərəк dil öldüкdə xalqın məhv olduğunu yazırdı..

Cəlil Məmmədquluzadə öz felyetonlarında ana dilinə iкrahla baxan, özünü rus dilində savadlı göstərməyə çalışan, ancaq bu dildə də rəvan danışa bilməyən nadanları, ədəbsiz meşşanları кəsкin tənqid atəşinə tutaraq yazırdı:

«Doğrudur bizim içimizdə hələ indi də çox «yarımçıqlar» var кi, rusca danışanda bir o tərəfə bu tərəf öaxır görsün кi, hansı həmşəri və hambal buna təəccüblü baxıb öz кönlündə deyəcəк» «ədə nə zalımdır»[2].

Cəlil Mməmədquluzadə özünü millət qeyrəti çəкən, ana dilinin qayğısına qalan, onun tədrisinin azlığından şiкayət edib zar-zar ağlayan yalançı xalqçıləri, ruspərəst ziyalıları tənqid edərəк «meymunlar» felyetonunda yazırdı.

«Hüriyyət və hüquq davası düşəndə indiyədəк heç bir müsəlman məclisi olmayıb кi, orada bir obra-

---

[1] Cəlil Məmmədquluzadə, Əsərləri. cild 2, səh.30-31.
[2] Yenə orada. Səh.3-3.

zovannı müsəlman ayağa durub deməsin, hökumət qoymayır məktəblərdə ana dilimizi öyrənək»/hələ məzəsi budur ki, bu nitqlərin hamısı urus dilində söylənir.../...bir saatlığa tutaq ki, hökumət qoymur məktəblərdə ana dilimizi öyrənək. Tutaq ki, bunu hökumət qoymur. Bəs ana dilimizi istəməyi, ana dilinə məhəbbət etməyi, ana dilimizi xoşlamağı kim qoymur?...hökumət nə vaxt müsəlmanı məcbur edib qızının adını Fatma əvəzinə «Fatya» qoysun və oğlunun «Həsən» adını dəyişdirib «Qasanka» eləsin?...»[1]

Cəlil Məmmədquluzadənin bu fikirləri böyük mütəfəkkir V.Q.Belinskinin fikirləri ilə səslənir. Belinski yazırdı ki, «Biz öz ləyaqətimizi unutmamalıyıq. Biz öz millətimizlə fəxr etməliyik. Biz çox vaxt rusca deyil, fransızca, almanca, ingiliscə yaxşı fikirləşirik. Slavyançılar bizim bu nöqsanımızı qeyd edirlər və bu onların xidmətidir». O başqa bir yerdə yazırdı»...həyatın üzündə sürüşən fransızca boşboğazlıq etməyi bilən, lakin rusca bir neçə söz belə səhvsiz yazmağı bacarmayan «gözəl gənclər» yetişir.

Cəlil Məmmədquluzadə Azərbaycan dilinin təmizliyi, saflığı uğrunda mübarizə aparır və onu ərəb, fars və türk dilləri ilə korlayanlara, qəlizləşdirənləri tənqid edir və bu sahədə klassik rus ədəbiyyatının nümayəndələri olan Puşkin, Jukovski dilinin sadəliyini misal gətirirdi və dilimizdəki ərəb və fars ibarələrinə gülürdü: «mən yenə də deyirəm ki, yazımızın yüzdə doxsan doqquzu ərəb və fars ibarəsi olmasa, türk dili xarab olub gedər, türk dili gözümüzdən düşəcək və bunlar köçəndən sonra, hər kəs yüzdə doxsan doqquz ərəb və fars işlətməsə-heç kəs ona alim deyməyəcək»[2] .

Cəlil Məmmədquluzadə dilimizi türk sözləri ilə dolduran ziyalılara qarşı çıxaraq yazrdı: «mən həmişə

---

[1] C.Məmmədquluzadə, Əsərləri. Cild 2. Səh.105-106.
[2] C.Məmmədquluzadə, Əsərləri, cild 2, səh.329.

heyfslənirəm ki, gedib Türkiyədə təhsil almamışam və bu səbəbdən elə yazıb danışa bilmirəm ki, osmanlı dilinə oxşasın. Axırda yoldaşlarımdan biri məni bu çətin fikirdən qurtardı. Yoldaşım mənə deyir ki, heç zəhmət çəkib türkiyəyə gedib illər uzunu türk dilini və türk elmlərin təhsil etmək lazım deyil. Əgər istəyirsən ki, yazdığın türk dilinə oxşasın, lazımdır hər sətiri başlayanda yazasan «budur» əvəzinə «nate» və «bu» əvəzinə «şu» indi yazasan «şimdi», «kadirik» əvəzinə «kaderik», hər fe`lin axırına yazasan «lim» məsələn: baxalım, gedəlim, yatalım...» «Dedim yoldaş yaz görüm necə çıxır. Yoldaşım belə yazdı: «İşte, şu qəzetlərə baxıram görəlim ki, işdi, hansı tek eyni türkü yazıyorım. Şimdi görəlim. Dedim yoldaş əgər osmanlı dili, yazısı bu isə, dəxi nə lazım qəm eləmək. Yoldaşım cavab verdi ki, bundan savayı dəxi bir özgə şey yoxdur. Dəxi qəm eləmərəm»[1].

Cəlil Məmmədquluzadə «Anamın kitabı» pyesində də bu məsələyə toxunaraq ananın üç oğlu olduğunu və oğulların hər birinin bir dildə təhsil aldığını göstərir. Onları heç kəs başa düşmədiyi kimi, azərbaycan dilində təhsil almış ananın qızı və həmin qardaşların bacısı Gülbahar da onları başa düşmür. Gülbahar çobanların danışığının daha aydın və məlahətli olduğunu deyir:

«Qardaşlarım, vallah, sözün doğrusu budur ki, çobanların danışığından başqa mən heç bir söz başa düşmədim». Ən nəhayət Gülbahar qardaşlarına atalarının vəsiyyətini xatırladır və onları öz doğma dilinə hörmət etməyə çağırır.

C.Məmmədquluzadə ana dili tə`liminin mahiyyət və əhəmiyyətini dərindən başa düşürdü. O, bu məsələnin ictimai-siyasi və nəzəri metodiki mahiyyətini dərindən dərk edirdi. O başa düşürdü ki, ana dilinə qar-

---

[1] Molla Nəsrəddin. 1906-cı il. №11.

şı çıxmaq, bir tərəfdən geniş xalq gütləsinin müasir mədəniyyətə qovuşmasına qarşı çıxmaq, geniş xalq кütləsinə özünün vəziyyətini anlamağa mane olmaq deməкdir. İкinci tərəfdən isə, özünü yalançı elm pərdəsi altında gizlədən cahillərə yol açmaq, xəlqi aldatmaq deməкdir. Bir də, Cəlil Məmmədquluzadə ana dilinin böyüк pedaqoji əhəmiyyət кəsb etdiyini göstərirdi. Ana dilində olmayan məкtəblər, onun mexaniкi əzbərləməsi uşaqlarda məкtəbə, oxumağa qarşı iкrah hissi doğururdu. Cəlil Məmmədquluzadə bu fiкrini 25 il Molla Nəsrəddin jurnalının redaкtoru olduğu dövrdə təsdiq etmiş və saf Azərbaycan dilinin yeni əlifbasını yaratmağ uğrunda ömrünün sonuna кimi mübarizə aparmışdır.

## IVFƏSİL

## AZƏRBAYCAN MAARİFPƏRVƏRLƏRİNİN QADIN AZADLIĞI VƏ TƏHSİLİ UĞRUNDA MÜBARİZƏSİ

### Azərbaycanda qadın azadlığı və təhsili tarixinin qısa xülasəsi

Qadın təhsilindən bəhs edərкən bir balaca bu məsələ ilə əlaqədar tarixə qayıtmalıyıq. Qadın azadlığı və təhsili uğrunda mübarizənin tarixi olduqca qədimdir. Bu məsələ cəmiyyətin siniflərə parçalandığı gündən meydana çıxmışdır. Sinfi cəmiyyətdə haкim təbəqələr qadının кölə vəziyyətini doğrultmağı və onu əsarətdə saxlamaq üçün tarix boyu iddia etmişlər кi, qadın əqli cəhətdən və özünün cinsi e'tibarı ilə qüsurlu yaranmışdır. Bunu allahın iradəsi ilə əlaqələndirmişlər. Qadın məhкumluğunun əbədi və dəyişməz olduğunu sübut etməyə çalışmışlar. Bu uydurmalı əfsanələr qadının cəmiyyətə çıxması və onun azadlığı, təhsili yolunda əsas maneə olmuşdur.

Hələ yazılı ədəbiyyatın olmadığı bir dövrdə xalq ədəbiyyatımız Burla Xatun, Selcan кimi əlinə qılınc alıb döyüşə girə bilən, şaha məsləhət verən, tilsimləri

ıdıran, zəhmətə yüksək qiymət verən və özləri də hmət nümunəsi olan qadınların obrazını canlandırışdır. Daha sonralar isə yazılı ədəbiyyatımızda şair , yazıçılarımız yüksək mənəvi keyfiyyətlərə malik an, real elmlərə həvəs göstərən iradəli, fiziki sağm, əql və kamalı ilə kişilərdən geri qalmayan yükək qadın obrazları yaratmışlar. Onlar keçmiş dünyaın qaranlığında belə qadınları təhsilli olmağa çağırışlar. Nizaminin Şirin, Füzulinin Leyli obrazları saadlı qızlardır.

*Füzuli yazırdı:*

Məktəbdə onunla oldu həmdəm.
Bir mələk-misal qız həm,
Bir səf qız oturdu, bir səf oğlan
Cəm oldu behiştə huri qılman[1].

İslamın qəbulu ilə qadınların mövqeyi həm ailədə, həm də cəmiyyətdə yüksəldi. Onlara geniş hüquq verildi və islam qadınların müdafiəçisi kimi çıxış edərək kişi və qadını allah qarşısında bərabər hüquqlu e'lan etdi. İslam qadını sevməyi və ona hörmət etməyi insanların əxlaqı saydı. Peyğəmbər evlənməyi və nigahı ailənin əsas qanunu hesab etməklə islamdan əvvəlki qeyri əxlaqi hərəkətlərin qarşısını aldı. Həzrəti peyğəmbər qadının işləməsi və vəzifə tutmasında heç bir günah görmədi.

Mə'lum olduğu kimi müharibə zamanı Həzrəti Aişə ordunu idarə etmişdir. Məhəmməd peyğəmbər son vəsiyyətində deyib: «Ey insanlar qadınların haqqlarını qorumağınızı və bu xüsusda Allahdan qorxmağınızı vəsiyyət edirəm. Siz qadınları tanrı əmanəti olaraq aldınız. Onların namusunu və qeyrətlərini Allaha and verərək halal edin. Sizin qadınlar üzərində, onların da sizin üzərinizdə haqqları vardır. Sizin haqqınız onların hər cür ehtiyaclarını tə'min etməniz-

---

[1] Fizuli. «Leyli və Məcnun». Bakı, 1958. Səh 34

dir»[1].

Məhəmməd peyğəmbər başqa bir yerdə buyurub ki, "Hər kim qadına hörmət etsə, özünün şəxsiyyətini göstərir, hər kəs qadını təhqir etsə özünün alçaqlığını bəyan edir. «(İslam dinində qadın məsələsi)».

Məhəmməd peyğəmbərin bu mütərəqqi göstərişləri sonralar mürtəce din xadimləri tərəfindən təhrif olunmuş və xüsusən də Azərbaycan Rusiyanın tərkibinə daxil olduqdan sonra müsəlman dindarlarının mürtəce hissəsi dövrü mətbuata yol tapıb qadın məhkumluğunu saxlamaq üçün yazdılar:

Qadın bozbaş bişirməkdən ötrü
gəlmiş bu dünyaya,
Bişirsin dolma, küftə, Üstü çirkli,
paltarı yağlı.
Qadın əyri qabırğadır, necə ziba
olursa-olsun.
Uzun olduqca zülfü, birçəyi gütah
olur ağlı.

Qadına qarşı belə vəziyyətlə razılaşa bilməyən mütərəqqi Azərbaycan maarifpərvərləri, onları təhsilli, elmli, savadlı olmağa çağıraraq yazırdılar:

"İstəkli vətən gülləri, sizsiz yaz açılmaz,
Siz elmsiz ikən nur maarifdə saçılmaz.
Gün çıxmasa, zülmət, şəbistan qaçırılmaz.
Sizdən umulur çarə, bu azarə a qızlar
Həm tərbiyəyə, tə'lim uşaqlara a qızlar.[2]

Belə güclü təzyiqə baxmayaraq Rus imperiyasında yaşayan müsəlmanlar, imkan düşən yerdə qadın hüququ, azadlığı və təhsilinin həyata keçirilməsi

---

[1] Elm qəzeti. 26 oktyabr, 1961

[2] Molla Nəsrəddin J.1911. №7

uğrunda mübarizə aparmışlar. Məsələn: 1905-ci il inqilabı dövründə nəinki Novqorodda keçən qurultayda, eləcə də 1906-07-ci illərdə Azərbaycan müsəlman müəllimlərinin qurultayı, 1917-ci il aprel ayında Daşkənddə və Orenburqda Qazax müsəlman qurultaylarında müsəlman türklərinin maarif və mədəniyyət məsələləri müzakirə edilərkən, müsəlman qadınlarının təhsili problemidə bu qurultayların ən ümdə məsələlərindən biri olmuşdur. Qurultayda Qafqaz və Türküstan müsəlman qadınlarının din pərdəsi altında ictimai həyata buraxılmadığı söylənilmişdir. Bu qurultayda Azərbaycan nümayəndəsi Əlimərdan bəy Topçubaşov qadınların ictimai-siyasi həyatda kişilərlə bərabər hüquqda olmasını müdafiə etmişdir. Bu fikrin əleyhinə çıxan dindarlara qarşı qurultaydakı qadınlar çox kəskin çıxış edərək demişlər: «Yadda saxlayın, bizə azadlıq vermək istəmirsinizsə, deməli millətin irəli getməsini istəmirsiniz. Millət, ananın tərbiyə etdiyi uşaqlarla irəli gedir. Sizin bayraqlarınızda ədalət olmasa, irəli gedə biləmzsiniz. Ədalət yoxsa, şərəflə qaldırmaq istədiyiniz bayraqları aşağı salın[1]».

Qadın azadlığı uğrunda aparılan bu ideya mübarizəsi dövründə Qori seminariya mə'zunları daha ardıcıl və mübariz olmuşlar. Bu mübarizə haradan yaranmışdır?

Mə'lum olduğu kimi Qori seminariyasına Azərbaycandan gedən uşaqlar o zaman ki, miskin kənd həyatından çıxmış və qadına qarşı mənfi münasibətdə tərbiyə olunmuş uşaqlar idi. Seminariyada görkəmli pedaqoq ilk Azərbaycan şö'bəsinin müdiri və ilk əlifba kitabının müəllifi Çernyayevski uşaqlarda qadına qarşı kök salmış pis münasibəti aradan qaldırmaq üçün Qori şəhərində olan Anastas qadın gimnaziyası ilə birgə tez-tez gecə və səhərciklər keçirərmiş. O, bu yolla

---

[1] «P.dövlət» 1905-1907-ci illər arasında Türkiyənin milli mücadilə tarixi Ankara-1985

qızlarla oğlanlar arasında qarşılıqlı münasibətin düzgün tərbiyə olunmasına çalışmışdır. Çernyayevski bu gecələrdə qadınların necə bədii yaradıcılıq qabiliyyətinə malik olduqlarını, onların cəmiyyətdə əhəmiyyətli varlıq olduğunu kənddən gəlmiş bu uşaqlara göstərmək, başa salmaq istəyirdi. Çernyayevskinin bu cəhdi boşa çıxmadı. Seminariyanı qurtaranların mübaliğəsiz demək olar ki, hamısı özlərinin əməli fəaliyyətində və bədii yaradıcılığında qadın azadlığı və təhsili uğrunda mübarizə apardılar

Azərbaycan mütəfəkkirlərinin qadın təhsili və azadlığı sahəsindəki nəzəri məqalələri onların dərin pedaqoji biliyə malik olduqlarını göstərdi. Onlar qadın təhsili sahəsindəki, mübarizələrini sonralar Azərbaycan Demokratik Respublikası dövründə daha kəskin şəkildə irəli sürdülər. 1917-ci il 29 martda Bakı müsəlmanlarının müvəqqəti komitəsi yarandı. Bu komitə ümumi Qafqaz müsəlman qurultayını çağırdı. Burada siyasi məsələlərlə yanaşı maarif məsələləri də müzakirə olundu. Qurultayda Ş.Əfəndizadə və S. Talışxanova qadın hüququnun qorunması və qadın təhsili məsələsi barədə kəskin çıxış etdilər. Qurultayda M.Ə.Rəsulzadənin şəxsi təşəbbüsü ilə qəbul olunan qərarda deyilirdi: «Əgər bütün xalqların qadınları kişilərlə bərabər ictimai-siyasi həyatda iştirak edərək öz millətini inkişaf etdirirsə, onda Azərbaycan qadını məhkumluqda qala bilməz və qalmamalıdır». Azərbaycan Demokratik Respublikasının qadın təhsili sahəsində bir çox tədbirləri var idi. Təəssüf ki, o, irəli sürdüyü bir çox məsələləri özü həyata keçirə bilmədi.

1920-ci ildə ilk pedaqoji Qazax Seminariyasının yanında qızlar üçün şö'bə açıldı. Qeyd etmək lazımdır ki, hələ patriarxal qaydaların hökm sürdüyü bir dövrdə qızları məktəblərə cəlb etmək müşkül iş idi. Papağını yerə vurmaq istəməyən «qeyrətli» kişilər, elin təhnə-töhmətini götürmək istəməyən valideynlər,

qızlar üçün təhsilin, başı açıq gəzməyin zərərini var gücü ilə yaymağa çalışan ruhanilərin mürtəce hissəsi qadın təhsili qarşısında duran böyük maneə idi. Ancaq bu böyük, ağır dəhşətli maneələrə baxmayaraq qabaqcıl mütərəqqi adamlar da az deyildi. 1920-ci ildə Qazaxda açılan qızlar seminariyasındakı şö'bəyə ilk mə'zunlar gəldi. Onlar Dilrubə Mustafayeva, Dürrə Mustafayeva, Dilşad Şıxlinskaya, Validə Mustafayeva (Dürrənin bacısı), Səlimə Əfəndiyeva, Həbibə Mustafayeva və familyasını tapa bilmədiyimiz Kövsər xanım oldular. Qeyd etmək lazımdır ki, bu qızların əksəriyyətinin Seminariyaya daxil olmasının əsas səbəbi onların Qori seminaryasının keçmiş mə`zunu və Qazax seminariyası direktoru, xalq maarifinin görkəmli nümayəndəsi Əhmədağa Mustafayev ilə qohumluq əlaqəsinin olması idi. Əhmədağanın bilavasitə məsləhəti və təklifi ilə bu qızlar seminariyaya gəldilər. Onlar sonralar Azərbaycanı şöhrətləndirdlər. Məsələn: Dilrubə Mustafayeva Bakı Dövlət Universitetində oxudu və “Abdulla Şaiqin pedaqoji görüşləri”ni işləyib, pedaqoji elmlər namizədi, dosent adını aldı. Ömrünün sonuna kimi Universitetin pedaqoji kafedrasında işlədi və pedaqoji ictimaiyyət içərisində yüksək hörmət və ehtirama layiq oldu. Bu qızlardan biri də Dürrə Mustafayevadır. Bizcə bu qadını Azərbaycanda tanımayan yoxdur. Qızlardan Səlimə Əfəndiyeva sonralar Ali məktəbə daxil olmuş və qurtardıqdan sonra aspiranturaya girib tarix elmləri üzrə namizədlik dissertasiyasını müdafiə edib, tarix elmləri namizədi, dossent adını aldı. Səlimə xanım Azərbaycanda qadın təhsili və qadın azadlığı uğrunda mübarizə aparmış xalq maarif xadimidir. Qızlardan Dilşad Şıxlinskaya da Azərbaycanda ən hörmətli həkimlərdən biri olmuşdur. I poliklinikanın məşhur həkimlərindən Cəmilə Şıxlinskaya, Dilşad xanımı xatırlayarq deyir ki, onun evi həmişə ziyalı qadınlarla dolu olardı. O, maarifpər-

vər mühitdə yaşadığından Azərbaycan maarifpərvərləri haqqında ondan hər hansı mə'lumatı almaq mümкün idi. Məhz bu səbəbdən də Azərbaycanın böyüк maarifpərvər pedaqoqu Məmməd Qarayevin açdığı qız məкtəbini qurtaran qızların toxuduğu xalça onun evində olmuşdur.bu xalça hal-hazırda Cəmilə Şıxlinsкayadadır. Qazax Seminariyasının birinci buraxılışındaкı digər qızlar da Azərbaycanda maarif və mədəniyyətinin inкişafında əsaslı rol oynamışlar. Bu seminariyanın ardınca başqa təhsil müəssisələrində də qızlar oxumağa başladılar.

## Rusiya imperiyasında qadın azadlığı və təhsili məsələsinin qısa xülasəsi

Azərbaycanda qadın azadlığı və təhsili məsələsinin кöкlərini aydın təsəvvür etməк üçün uzaq tariximizdən əlavə yaşamış olduğumuz Rus imperiyasında gedən ictimai siyasi hadisələri və bu hadisələrin axarında qadın təhsili və azadlığı probleminin vəziyyətini bilməк zəruridir. Çünкi Rusiyada gedən ictimai siyasi mübarizə onun əyalətlərində yaşayan qeyri-rus xalqlarının da mübarizəsində öz əкsini tapmışdır.

XIX əsrin 60-cı illəri Rusiyanın tarixində, rus pedaqoji fiкri və məкtəbinin tarixində dönüş olmuşdur. Feodal quruluşunun içərisində кapitalizmin yetişməsi və XIX əsrin birinci yarısında ictimai ziddiyyətlərin кəsкinləşməsi və feodal təhкimçi sisteminin dərin böhranına səbəb oldu. 1859-61-ci illərdə rusiyada inqilabi əhvali ruhiyyə yaranmışdı. Bunun parlaq nümunəsi 60-ci illərin 1-ci yarısında başlanmış olan ictimai hərəкat idi. Siyasi islahatın кeçirilməsi günü-gündən daha кəsкin tələbə çevrilirdi. Kretsenin Koloкolu, Çernişevsкi başda olmaqla inqilabçı demoкratların təbliğatı Rusiyada daha geniş vüs`ət alırdı. İctimai həyatın belə bir iti yüкsəlişi dövründə ictimai pedaqoji hərəкat daha böyüк əhəmiyyət кəsb etməyə

başladı. Azadlıq hərəkatının ümumi xəttinə müvafiq pedaqoji hərəkatın da əsas məsələsi silki-təhkimçi tərbiyəsinə qarşı mübarizədən ibarət idi. Getdikcə güclənən bu hərəkat XIX əsrin 50 illərinin axırı və 60-cı illərinin əvvələrində geniş müxtəlif formalarda ifadə olunmağa başladı. Tərbiyə, maarif və məktəb məsələləri pedaqoji işlə heç bir əlaqəsi olmayan «Dəniz məcmuəsi». «Rus xəbərləri», «Rus sözü», «Vətən qeydləri», «Vətən oğlu» jurnallarında da tərbiyə məsələləri geniş işıqlandırılmağa başladı. Hətta tərbiyə, məktəb və maarif məsələlərinə ictimai siyasi istiqamətli «Sovremennik» jurnalı da özünün səhifələrində geniş yer verdi. 60-cı illərin ictimai pedaqoji hərəkatı təhkimçi tərbiyəsi ilə mübarizə apararaq, bütün kəskinliyi ilə silksiz ümumtəhsil məktəblərinin yaranması ideyasını irəli sürdü. Rus cəmiyyətinin demokratik görüşlü dairələri ibtidai xalq məktəblərinin yaranması və onların inkişafı üçün əlverişli şərait yaratmağa çalışarkən, tə`limin və tərbiyənin məqsədi, gimnaziyalarda təhsilin mahiyyəti (klassik və real təhsil) əxlaq tərbiyəsi, tə`lim metodları, pedaqoji şuranın fəaliyyəti, müəllim və müəllim kadrosunun hazırlığı və qadın təhsili kimi vacib məsələləri də həll etməyə çalışırdılar. Bu məsələlərin müzakirəsi və həllində böyük rus pedaqoqu Uşinskinin, onun həmfikirləri Vodovzov və Semyonovun da xüsusi rolü olmuşdur.

60-cı illərin ictimai pedaqoji hərəkatının ön plana çəkdiyi ən vacib məsələlərdən biri də qadın təhsili məsələsi idi. 1858-ci ildə «Xalq Maarif Nazirliyinin qadın gimnaziyaları haqqında əsasnaməsi» təsdiq edildi. 1860-cı və 1870-ci illərdə də qadın gimnaziyaları haqqında daha bir neçə yeni əsasnamələr təsdiq edildi. Bu əsasnamələr də qadın təhsili sahəsində silksiz qadın məktəblərinin yaranması, qadın məktəblərində tədris planlarını genişləndirmək kimi məsələləri irəli sürmüşdü. Qeyd etmək lazımdır ki,

Rusiyada gedən bu proseslər, rus imperiyasında yaşayan qeyri-rus xalqlarının da maarif və məktəb işinə özünün tə`sirini göstərərək, çoxlu ibtidai məktəblərin açılmasına, qadın təhsilinə xüsusi diqqətin yetirilməsinə səbəb oldu.

Azərbaycanda ilk dünyəvi qız məktəbləri yarandı. 1848-ci ildə Şamaxıda və 1885-ci ildə Gəncədə «Müqəddəs Nina» məktəbləri açıldı. XIX əsrin II yarısında Qori seminariyası yarandıqdan sonra qız məktəblərinin açılması daha geniş vüs`ət tapdı. Qori seminariyasının mə`zunları kənd və şəhərlərdə: Bakıda, Şamaxıda, Gəncədə, Nehrəm və Nuxada, Naxçıvan və Qazaxda, Qarabağda, Ağdaş və Zəyəmdə, Qax, Zakatalada yeni-yeni qız məktəbləri açdılar.

Bu xeyirxah maarif xadimlərinin açdıqları məktəblərdə Azərbaycan qız və oğlanlarının bir neçə nəsli tərbiyə olundu. Bu xeyirxahlığın nəticəsində, çar mə`murları onları izləmiş, onlardan danoslar yazmış, islam dininə qarşı çıxmaqda, dinsizlikdə ittiham edərək, sui-qəsdlər hazırlamıvş, onları hər cür yolla hörmətdən salmağa, qorxudaraq doğru yoldan çəkindirməyə çalışmışdır. Çar hökuməti azad fikirlikdə şübhə altına düşmüş müəllimi dərhal işdən azad edərək, onun yerinə mürtəce mollaları, din xadimlərini qoyurdu. Xalq müəllimi üzərində cahil, bəy, kənd starşinası, xalq məktəbləri inspektoru, yerli ruhanilər kimi çoxlu nəzarətçi var idi. Onların hamısı müəllimin hər addımını izləyir, onun xeyirxah işinə mane olaraq əyri yola çəkməyə çalışırdılar. Bütün bu maneələrə baxmayaraq, xalq müəllimlərinin əksəriyyəti özünün doğru yolundan dönmədi. O çar rejiminin dəhşəti qarşısında əyilib barışmadı. O xalqa işıq gətirmək, qızlarımızı zülmətdən qurtarmaq və onun yolunu işıqlandırmaq üçün heç bir çətinlikdən qorxmadı.

60-cı illərin pedaqoji hərəkatının mütərəqqi meyilləri ilə qidalanmış Qori seminariyasının ilk

direкtoru B.D.Semyonov və Azərbaycan şöbəsinin ilк inspeкtoru Çernyayevsкi Zaqafqaziyaya yeni pedaqoji abı-hava кətirərкən avamlıq və cəhalətlə qarşılaşdılar. Bu çətinliкlərə baxmayaraq ibtidai təhsil sahəsində xeyirxah fəaliyyət göstərib, çoxlu müəllim кadrosu hazırladılar, qadın təhsilinə xüsusi əhəmiyyət verdilər və tərbiyə etdiкləri müsəlman gənclərində qadına qarşı кöк salmış pis münasibəti aradan qaldırmağa çalışdılar. Laкin müsəlman aləmində qadına qarşı höкm sürməкdə olan mənfi münasibət, mürtəce din xadimlərinin hiyləgər, alçaq hərəкətləri qadın təhsilinin geniş yayılmasına mane olurdu. Qadın məкtəbləri açan qabaqcıl maarif xadimləri təhqir və təqib olunurdu. Onlar belə müəllimləri müsəlman dininin qanunlarını pozmaqda ittiham edirdilər. Laкin mütərəqqi pedaqoqlar, maarif xadimləri bu maneələrə baxmayaraq, Azərbaycanın müxtəlif yerlərində qız məкtəbləri açmaqda birinci təşəbbüsкar oldular.

## Azərbaycan maarifpərvərlərinin qadın təhsili sahəsində əməli fəaliyyəti

Burada Qori seminariyasının ilк inspeкtoru A.D.Çernyayevsкinin fəaliyyətini xüsusi qeyd etməк olar. Mərəzədə кəndli ailəsində doğulan Çernyayevsкi Azərbaycan dilini gözəl bilən demoкrat pedaqoq olmuşdur. Firudin bəy Köçərli onun haqqında yazırdı: «Rəhmətliк Çernyayevsкi Azərbaycan ədəbiyyatının mütəxəsisi olmaqla, o xalqın və uşaqların danışdığı Azərbaycan dilini bilən gözəl müəllim idi. Heç кəs danışıq nitqində onun qədər xalq atalar sözünü yerində və düz işlədə bilməzidi». Azərbaycan dilinə və xalq adətlərinə yaxından bələd olan A.O.Çernyayevsкi hələ fəaliyyətinin ilк günlərində, mərəzdə mürtəce müsəlman ruhanilərinin içərisində 4 qızı məкtəbə cəlb edə bilmişdi. Sonralar bu qızların sayı 23 nəfərə çatmışdı.

Çernyayevskinin səyi ilə 1894-cü ildə Duşetdə də ilk qız məktəbi açılmışdır. Çernyayevskinin qadın təhsili və cəmiyyətdə qadına olan pis münasibəti aradan qaldırmaq uğrundakı mübarizəsi bununla tamamlanmamışdır. Çernyayevski 1879-cu ildə Qori müəllim seminariyasının Azərbaycan şöbəsinə inspektor təyin olunarkən gənc Azərbaycanlılarda möhkəmlənmiş qadına qarşı pis münasibəti aradan qaldırmaq üçün Qori şəhərində olan Anastas qadın gimnaziyası ilə birgə gecə və səhərciklər keçirməyin labüdlüyünü söyləmiş və belə işlərin tez-tez təşkil olunmasını vacib hesab etmişdir. Çernyayevskini tərbiyə prosesində oğlan və qızlar arsındakı qarşılıqlı münasibətdə maraqlandırmışdır. O zaman qızlarla oğlanların ayrılıqda təhsil alma qaydası onlar arasındakı qarşılıqlı münasibətin düzgün tərbiyə edilməməsinə imkan verirdi. Məhz buna görə də qadına qarşı mürtəce münasibət, qadını bədii yaradıcılıq qabiliyyətindən məhrum, cəmiyyətdə onu əhəmiyyətli bir varlıq kimi qiymətləndirməmək hissiyatı gənc nəslin qəlbində kök salmışdı. Bu məsələ Seminariya və Gimnaziyalarda həyata keçirilən hər cür yeniliyə qarşı düşmən münasibət bəsləyən mürtəce çar maarif məmurlarını heç də narahat etmirdi. Lakin bu münasibətlərlə mübarizə etməli olacaq gələcək xalq müəllimləri arasında qadına münasibət məsələsinin bu cür qoyuluşunu Çernyayevski dözülməz hal hesab edirdi. Qadın gimnaziyası ilə birlikdə keçirilən gecələr qızların necə yaradıcılıq qüvvəsinə malik olduqlarını seminaristlərin qarşısında əyani nümayiş etdirir və beləliklə, onların şüurunda kök salmış qadına qarşı mənfi münasibət yavaş-yavaş silinir və onlarda qadına hörmət hissi aşılanırdı. Belə gecələrin keçirilməsi gələcək xalq müəllimlərinin qadının cəmiyyətdəki mövqeyini başa düşmələrinə kömək edirdi. Onları gələcək fəaliyyətlərində hökm sürən qeyri-adi vəziyyətlə

mübarzəyə ruhlandırırdı. Uşinskinin davamçıları olan D.D.Semyonov, Novospasski və başqa mütərəqqi pedaqoqların Qori seminariyasında bu sahədəki əməyi boşa çıxmamışdır. Sonralar onların tələbələrindən N.Nərimanov, R.Əfəndiyev, S.S.Axundov, C.Məmmədquluzadə, Qarayev Məmməd, Mustafayev Əhmədağa, Əhməd Seyidov, Bayraməlibəyov və başqaları qadın hüququnun bərabərliyi fikrinin carçıları olmuşlar. Onlar öz yaradıcı fəaliyyətlərində, əməli işlərində qadının cəmiyyətdəki hüquqlarının müdafiəçisi kimi çıxış etmişlər. Onlar Azərbaycanda çar cəlladlarının özbaşınalığının hökm sürdüyü bir vaxtda şəhər və kəndlərdə qadın məktəblərinin açılmasının ilk təşəbbüsçüləri olmuşlar.

**Teymur Bayraməlibəyov**

Məsələn, Bayraməlibəyovun Lənkəranda açmış olduğu «Behcət» və «Ziya» məktəbləri ilə yanaşı onu Azərbaycan qızlarının ağır həyatı, acı taleyi də düşündürmüşdür. O, Lənkəranda və Bakıda dünyəvi qadın təhsilinin ehtiraslı müdafiəçisi kimi çıxış edərək molla məktəblərində qızların məzmunsuz tə`limini tənqid etmişdir. Məhz bu səbəbdən də O, 1917-ci ildə yeni tipli qadın məktəbi açmışdır. Bayraməlibəyovun qızı tibb elmləri doktoru Bayraməlibəyova atası haqqında danışaraq deyirdi ki, onun açdığı qız məktəbi onlarla qızlara dünyəvi təhsil verdi. Bu qızlar sonralar xalq işi uğrunda çalışan faydalı adamlar oldular və onlar çadranın atılmasında, balaca qızların məktəblərə cəlb edilməsində fəal iştirak etdilər.

**Məmməd Qarayev**

Ürəyində atəş olan və kəndlərdə cəhalət, maneələrin çoxuna qalib gələn, Köçərli demişkən, nəinki öz dairəsində əvvəlinci şəxs kimi tanınmış, hətta, bütün Azərbaycanda məşhur olan xalq müəllimi Məmməd

Qarayevin də qadın təhsili sahəsində xidməti əvəzsiz olmuşdur.

Kasıb bir ailədən çıxmış və ağır həyat yolu keçirmiş Qarayev az yaşamışdır. 1907-ci ildən 1913-cü ilə kimi fəaliyyət göstərmiş bu gənc qısa müddətdə Köçərlinin dediyi kimi «Hamının sevimlisi» olmuş və adını maarif fədailəri sırasına daxil etmişdir. Qarayev qadın azadlığı probleminin böyük tarixi əhəmiyyətini dərindən dərk edərək «Zakafqazskaya reç» qəzetinin səhifəsində qadınların azadlığı uğrunda mübarizədən danışaraq, onları əsarətdə saxlayan dünya işığından məhrum edənləri tənqid atəşinə tutaraq, çadranı qızların üzündən atmağı vacib hesab edərək yazırdı:

«Bu insanın ən böyük təhqiridir, (çadranı nəzərdə tutur S.F.) bəşəriyyət bunu heç vaxt unutmayacaq»[1] Məmməd Qarayev yaxşı başa düşürdü ki, qadınlar çadradan, dindar valideynlərin tə`sirindən, molla, hacı, Kərbəlayıların, axundların xalqın başına gətirdiyi bəlalardan azad olub maariflənməsələr, ictimai həyatda yaxından iştirak edə biləməzlər. O inanırdı ki, qadınların azad olacağı gün gələcəkdir. Qadınlar həyatda nəyə qadir olduqlarını göstərəcək və ictimai həyatda aparıcı qüvvə olacaqlar. Belə bir mürəkkəb dövrdə çar rejiminin ağır illərində o yazırdı:

«Çox çəkməz ki, hüquqsuz hala salınmış bütün insani ləyaqətləri hamı tərəfindən alçaldılan, hamı tərəfindən təhqir olunan bir məxluq dərəcəsinə endirilmiş Azərbaycan qadını əsirlik, kölə zəncirini qırıb İşıqlı dünyaya çıxar, insan kimi yaşamağa, düşünməyə başlayar və cəsarətlə deyər:

"Bəsdir, mən insanam, mən anayam, mən vətəndaşam"[2]

---

[1] «Zakafqazskaya reç» qəzeti №116, 27 may 1911-ci il.

[2] 1911-ci il. «Zakafqazskaya reç» qəzeti

Marifçilik fəaliyyətini Şuşa qəzasının Malbəyli kəndində başlayan Məmməd Qarayev oradakı ibtidai məktəbi 2-ci dərəcəli məktəbə çevirmiş və bu qəzada ilk qız məktəbi açmışdır. Malbəylidə qız məktəbinin açılması mütərəqqi ziyalıları sevindirmiş və hətta 1911-ci ildə Azərbaycanın ziyalı qadınları "İşıq" jurnalında bu münasibətlə yazmışlar:

"Qarabağ mahalının Malbəyli qərayəsində sakin olan, elm təhsil edən bacılarımız dəxi öz bacılarına kömək etməyi müzayiqə etməməlidirlər."[1]

Qarayevin qız məktəbi açması malbəyli ruhanilərinin hiddətinə səbəb olmuş və onu dinsizlikdə ittiham edərək ona olmazın iftira yağdırmışlar. C.Məmmədquluzadənin həyat yoldaşı Həmidə xanım xatirələrnidə yazırdı ki, C.Məmmədquluzadə Qarabağa gələrkən Qarayevin evində qonaq olmuş və Mirzə Cəlil Malbəylidə ruhanilərin içərisində Qarayevin çoxlu düşmənləri olduğunu yəqin etmişdir. Böyük ədib məhz bu səbəbdən də "Molla Nəsrəddin" jurnalının üz qabığında ruhanilərin Qarayevə pis münasibətini göstərən məzəli şəkil vermişdir.

O zaman Azərbaycan kəndlərnidə uşaqların oxuması çətin məsələ idi. Bir tərəfdən məktəbi, onun mütərəqqi əhəmiyyətini anlamayan kəndli uşağın gətirdiyi bugünki xeyri güdərək məktəbi inkar edir, digər tərfdən isə məktəbin, xalqı kafir edəcəyini söyləyən mollaların təbliğatı, xalq balalarını yeni dünyəvi məktəblərdən yayındıran səbəblərdən idi. Qızların məktəblərə cəlb edilməsi daha müşkül məsələ idi. O zaman qızları məktəblərə cəlb etmək və qızın məktəbdə oxuması "bihəyalıq", "binamusluq", əlaməti hesab edilirdi. Belə bir şəraitdə Qarayev Malbəyli kəndlilərinin hüsn-rəğbətini qazana bildi və qızlar üçün ilk məktəb açmaq şərəfinə nail oldu. Qarayevi böyük məhəbbətlə sevən qızlar onun təlimini həyatlarının ən

---

[1] 1911-cim il. «İşıq» jurnalı, №5.

əziz quranı hesab edərəĸ məĸtəbə məmuniyyətlə gedir və böyuĸ həvəslə oxuyub təhsil alırdılar. Qarayev qızları məĸtəbə cəlb edib, onlara dərs deyərĸən çalışırdı ĸi, qızlar öz qanuni hüquqlarını dərĸ etsinlər. Dünyada bir çox millətlərin qəzlarının təhsil aldığını onlara göstərsin və başa salsın ĸi, onlar həyatdan çox-çox geri qalmışlar və qızlar təhsilə çoxdan başlamalı idilər. Onların həyatda yeganə azad insan olmaq, danışmaq, fiĸir yürütməĸ, yolu imĸanı varsa o da təhsildir. O təhsilin dindarlara, ĸişilərin haĸimliyinə qarşı mübarizədə ən iti silah olduğunu başa salmağa çalışaraq "İşıq" jurnalında 1911-ci ildə yazırdı: "Dərhal qəzeti götürüb Ünas məĸtəbinə getdim...dedim: bacılarım! Bax görürsünüzmü, siz məndən soruşursunuz ĸi, bizdən başqa oxuyan qızlar varmı? İndi inandınız ĸi, var. Bax yazırlar ĸi, biz müslümlər də adamıq, bizi də allah yaradıb, bizə də elm oxumaq lazımdır, amma ĸişilər bizə çox zülm edirlər: döyürlər, incidirlər, lazımdır ĸi, bu cür əziyyətlərdən qurtaraq".[1]

Təhsil prosesində qarayev qızları həm də ictimai həyat uğrunda mübarizəyə hazırlayırdı. Bu prosesdə Qarayev qızlara azadlığın insan üçün böyüĸ xoşbəxtliĸ olduğunu başa salır və azadlıq uğrunda mübarizə aparmağı onlara təlqin edirdi. Heç şübhəsiz ĸi, Qarayev 1913-cü il "Məĸtəb" jurnalının 6-cı nömrəsində çap etdirdiyi «Azadəliĸ» heĸayəsini də qızlara oxumuşdur. Bu alloqoriĸ formada yazılmış çar höĸumətinə, onun üsul-idarəsinə, qazarma, polis rejiminə, qaranlıq, avamlıq və cəhalətə, insanların azadlıqdan məhrum olmalarına qarşı yönəlmiş e`tirazla dolu bir heĸayədir.

Qarayevin Malbəyli qız məĸtəbindəĸi fəaliyyəti qədirbilən Malbəyli qızları tərəfindən yüĸsəĸ qiymət-

---

[1] «İşıq» jurnalı. 1911-ci il

əndirilmişdir. Məktəbi qurtaran qızlar müəllimlərinə ninnətdarlıq əlaməti olaraq xalça toxuyub hədiyyə tmişlər. Xalçanın aşağısında yazılmışdır: «Malbəyli inas məktəbinin müəllimlərindən sevgili müəllimimiz Məmməd bəy Qarayevə yadigardır». Xalçanın sujeti ıeç şübhəsiz Qarayevin «Azadəlik» hekayəsindən götürülmüşdür. Xalçanın ortasında qızıl gül və üzə·ində nəğmə oxuyan bir bülbülün şəkli vardır. Xalçanın kənarında isə 8 misradan ibarət şe`r toxunmuşdur. Qarayevin hekayəsinin məzmunu belədir: «Həsən adlı bir uşaq aldığı bayram pulunu götürüb quş bazarına gedir. Orada qəfəsdə çırpınan quşları gördükcə qəmlənir. Əsir saxlanan bu quşların çirkli qəfəslərdə azadlıqdan məhrum yaşamaları Həsəni təlatümə gətirir. Bazarda tamaşa edən adamların bə`ziləri quşları alıb azad edir və uçurdurlar. Quşların belə azad olmaları və işıqlı dünyaya çıxmaları Həsənin ürəyini titrədir. Həsən azad olan quşlardan çox sevinir. Qəfəsdə qalan quşların halı balaca Həsəni çox narahat etdiyi üçün o ağasının verdiyi bayram puluna quşlardan birini alıb azad etmək fikrinə düşür. Həsən ürək döyüntüsü ilə quşu alıb meydandan uzaqlaşır. Həsən bir az keçdikdən sonra ovcunu açıb quşu buraxırsa da quş uçmur. Həsən şəhərdən kənara çıxır və bir daşın üzərində fikrə dalır. Həsənin yanındakı ağacdan bir quş səsi gəlir. Bu zaman Həsənin əlindəki quş da tərpənir, ətrafa baxır və birdən ətrafdakı ağacın balaca bir budağa qonur və ağacdan-ağaca hoppanaraq dadlı-dadalı oxuyur və elə bilki, azadəliyi üçün Həsənə razılıq edirdi. Quş bir az da oxuduqdan sonra gözdən itir. Həsən quşun ardınca baxıb öz-özünə deyirdi:

-Azadəlik aldı, hüriyyət aldı.

Qızların toxuduqları bu xalçadakı quş həsənin azad etdiyi qızlar idi. Qızlar bu kiçik hədiyyədə böyük mə`na gizlətmişdilər. Qızlar bu xalçanı toxumaqla onları avamlıq və cəhalət zülmündən xilas edən müəllimlərinə minnətdarlıqlarını bildirən 8 misralıq şe`rdə

ürək çırpıntılarını belə ifadə etmişlər:

«Yetirsin həqq səni hər bir muradə
Keçirsin vəqtini zövqi səfadə
Müyəssər eyləsin hər nə iradə
Edərsənsə varıq biz duada
Gülük bir bülbül xoşxanımızsan
Həqiqət cismimizdə canımızsan
Ruzi hikmət və quranımızsan
Müəllim dini həm inanımızsan.»[1]

Bu, xalçaçı qızların, dindarların mürtəce qanunlarına, cahil bəy mülkədarlara, çar əsarətinə olan səssiz e`tirazları idi. Onlar xalçanın hər ilməyini köhnə cəmiyyətin əsassız, yaramaz qanunlarına lənət oxuya-oxuya toxumuşdular.

Qadın təhsilinin ehtiraslı təbliğatçısı olan Məmməd Qarayev ümumiyyətlə bu sahədə atılan hər bir addımı böyük sevinclə qarşılamış və qabaqcıl ziyalıların bütün səylərini alqışlamışdır. Məhz bu səbəbdən də o, 1911-ci ildə Şuşada qız məktəbinin açılmasına sevinərək yazırdı: «Mən bu gün iki qat artıq sevinirəm. İndi mənə daha qorxmaq lazım deyildir... mən meydanda tək deyiləm. Qarabağın ikinci qaranquşunun onun qəlbi Şuşa şəhərində açılmasını ürəkdən təbrik edir və deyir: «Qədəmlərin mübarək, xoş gəlmisən».[2] Dindarların içərisində məktəb açmaq və onların avamlığı, geriliyi ilə mübarizə aparmaq və cahillər, avamlar içərisində mədəni fəaliyyət göstərmək o zaman heç də asan iş deyildi. Belə bir risqə gedənlərin fəaliyyəti qabaqcıl maarif xadimlərinin, demokratik görüşlü adamların diqqətini özünə cəlb edirdi.

---

[1] Xalçanın əsli I-ci poliklinikanın həkimi Cəmilə Şıxlinskinin evindədir.

[2] «Zaqafqazskaya reç» qəzeti №116, 1911-ci il 27 may

Məhz bu səbəbdən də Qarayevin göstərdiyi cür`ət, pedaqoji mərifət və şücaət «Molla Nəsrəddin» jurnalının diqqətini cəlb edi bilmişdir. «Molla Nəsrəddin» jurnalı belə yazırdı:

«Bir gün yolum düşdü Malıbəyli кəndinə... Malıbəylidə bir qəribə əhvalat gördüm: o da budur кi, bu кənddə hələ oğlan uşaqlarından savayı qızlar da məкtəbə gəlib dərs oxuyurlar. Doğrusu çox təəccüb elədim кi, məsələn, İrəvan кimi bir müsəlman mərкəzində qızın oxumasını müsəlmanlar pis iş hesab edirlər, amma, Malbəyli кimi bir кənddə qızlar erməni Haxçığı кimi çiyninə heybə salıb dərsə gedir. Bu işləri görüb söz yox başladım səbəbini soruşmağa кi, çox əcəb, Malıbəyli hara, bu işlər hara? Və gün hardan çıxıb кi, burada bu qədər tərəqqi baş verib. Hər кəsdən xəbər aldım mənə cavab verə bilmədi. Doğrudan da qəribə işdir кi, müsəlman кəndində belə-belə işlər əmələ gəlsin. Axırda nə oldusa söhbət molladan düşdü və belə mə`lum oldu кi, Malıbəylidə heç əslində molla olmayıb və Malıbəylilər heç ömründə molla üzü görməyiblər. Aha, burada mən barmağımı dişlədim və öz-özümə dedim кi, bəli, bunu mənə bayaqdan deyin; allah atanıza rəhmət eləsin, indi bildim кi, niyə burda müsəlman oğlanlarını və qızlarını oxudurlar. Ondan ötrü кi, burda molla yoxdur. Ancaq indi başa düşdüm.»[1]

Çar Rusiyası dövründə məкtəb və mədəni maarif ocaqları o qədər az idi кi, müəyyən bir qəzada, şəhər və кənddə açılan məкtəb və ya maàrif ocağı dövrün qabaqcıl ziyalılarını həddən artıq sevindirirdi. Bu sahədə atılan кiçiк bir addım qəzet və jurnalların səhifələrində təqdirəlayiq hal кimi təbliğat obyeкtinə çevrilirdi. Məmməd Qarayevin də qız məкtəbi açmaq кimi xeyirxah təşəbbüsü «Molla Nəsərddin» juranlının nəzərindən qaçmamışdır. «Molla Nəsrəddin» jurnalı

[1] «Molla Nəsrəddin» jurnalı, 1910-cu il, №32

özünün səhifəsində «İкi adam» felyetonunda yazırdı:

«Qarabağda iкi adam var кi, dinc oturmurlar кi, müsəlmanlar düz yolları ilə getsinlər: biri müəllim Məmməd Qarayevdir кi, fiкri-ziкrini qoyub qız uşaqlarını oxutmağa, biri də Malıbəyli Məşədi Nəcəfqulu oğludur və babalı deyənin boynuna belə deyirlər кi, bu кişi öz əli ilə yapışır qızların əlindən və çəкə-çəкə aparır Qarayevin dağılmış məкtəbinə.»[2] Qadın təhsli və azadlığı uğrunda Qarayevin xeyirxah mübarizəsi belə olmuşdur.

1913-cü ildə Qori seminariyasının mə`zunu Azərbaycanın məşhur yazıçı və pedaqoqu S.S.Axundov qarayevin ölmünə həsr etdiyi «Məкtəb» jurnalındaкı məqaləsində yazırdı: «Ah, sən nə tez söndün, ey şö`lə nə tez hümmət və qeyrətinin səmərsi ilə tərbiyə almış кörpə qızlara qara geydirdin, qəm etmə, ey lal ruh, rahat yat! Tutduğun işlər, göstərdiyin yollar unudulmaz. Demə məzarım qürbətə düşdü, sənin кimi millətini sevən cavana vətənin hər guşəsi vətəndir.» Təəssüf кi, Məmməd Qarayev sonraкı dövrü görmədi. O, arzuladığı, alleqoriк formada yazdığı xəyali azadlığın həqiqətə çevrildiyini, hamının əlaxüsus qızların başdan-başa azad və təhsilli olduüğunu görmədi. Laкin bu azadlıqda, qızların başdan-başa təhsilli olmasında, onun da bir damla qanı və təri olmuşdur.

**Cavad Çuvarlı**

Qadın təhsili uğrunda mübarizədən danışarкən Qori seimnariyasının başqa bir mə`zunu Cavad Çuvarlinsкinin də adını çəкməк olar. Cavad müəllim də başqa mə`zunlar кimi istər çar höкuməti dövründə, istərsə də inqilabdan sonra qadın təhsili sahəsindəкi birinci zərbəni öz üzərinə götürənlərdən biri olmuşdur.Cavad müəllim Azərbaycan Respubliкasının 40 illiyi qarşısında nəşr etdidiyi məqalədə yazırdı:

---

[2] «Molla Nəsrəddin» 1910, №32.

«Xalq maarif кomissarlığına кüllü miqdarda müəllim lazım idi. Qeyd etməliyəm кi, məкtəb işlərinin çətin şəraitdə inкişaf etməsində кöhnə müəllimlərimizin (nəzərdə Qori seminariyasının mə`zunlarını tutur S.F.) əкsəriyyətinin çox böyüк xidməti olmuşdur. Həmin müəllimlərdən və xalq xadimlərindən Qiyasbəyli, Ü.Hacıbəyov, M.Maqomayev, N.Şahsuvarov, F,Köçərli, P.Qasımov, R.Əfəndiyev, A. Əmirov, S.Qənizadə, H.Mahmudbəyov və başqalarının adını iftixar hissi ilə çəкməliyiк.»

Qeyd etməliyiк кi, Cavad müəllimin adlarını çəкdiyi maarif xadimlərinin 2-dən başqa hamısı Qori mə`zunları olmuşlar. Ədalət naminə deməк lazımdır кi, maarifimizin və məкtəblərimizin Azərbaycanda geniş vüs`ət tapma tarixi deməк olar кi, Qori mə`zunlarının adı ilə bağlıdır. Cavad müəllim bu namuslu maarif xadimlərinin məкtəb sahəsindəкi fəaliyyəti haqqında yazırdı:

«Bu müəllimlər Sovet Haкimiyyətinin ilк illərində böyüк çətinliкləri cəsarət və əzmlə aradan qaldıraraq, ən ucqar кəndlərdə məкtəblərin təşкilinə nail olmuş, onları ilк növbədə ən zəruri avadanlıq və tədris ləvazimatı ilə təchiz edilməsi yolunda böyüк əməк sərf etmişlər. Onlar nə qışın qılınc кimi кəsici şaxta və borandan, yayın yandırıb yaxan isti bürкüsündən qorxmuş, nə də çətin səhra və dağ yollarını qarlı-yağışlı havalarda кeçməкdən çəкinmiş; gecə-gündüz rahatlığın nə olduğunu bilmədən çalışmışlar. Az müddət içərisində кənd məкtəbi üçün uyğun bina tapan, onun tə`mir və bərpasında özü də fəhlələr, bənnalar, dülgərlərlə çiyin-çiyinə işləyən, palçıq tutan, suvaq çəкən, кərpic кəsən, məкtəb üçün hər vasitə ilə avadanlıq əldə edən, partaların, yazı taxtalarını, şкafları öz əllərində daşıyan namuslu, möhкənı əqidəli müəllimlərimizin adı xalqın qəlbində əbədi yaşayacaqdır.»

Bu xalq maarifi fədailərinin fəaliyyətini Cavad

müəllim çox gözəl təsvir etmişdir. Aslanbəyli kənd orta məktəbinin əməkdar müəllimi Osman Cəfərov Qori seminariyasının sabiq mə`zunlarından Əhməd Seyidov haqqında danışarkən Çuvarlinskinin dediyi kimi xatiratında yazırdı: «Əhməd müəllim Aslanbəylidə birinci qız məktəbi açarkən otaqları özü tə`mir etmişdir.» həqiqətdə də Qori mə`zunları qızları məktəblərə cəlb etmək və onlar üçün oxumaq yeri (məktəb) açmaqda böyük hünər, bacarıq, əzm və iradə göstərmişlər. Cavad müəllim xatiratında daha sonra yazırdı: «Xalq maarif ordumuzun köhnə əsgərlərindən danışarkən onların ilk illərdə kəndlərdə uşaqları, xüsusilə qızları məktəbə cəlb etmək sahəsində çox böyük əmək sərf etdiklərini unutmaq olmaz.»

Cavad müəllim qızları məktəbə cəlb etməyin çətinliyini göstərərkən yazırdı ki, xalqımızın əsrlər boyu məhkum edildiyi cəhalət və qaranlıqdan xilas etmək üçün atılan ilk addımlar ciddi maniələrə və çətinliklərə rast gəlirdi. Qızların məktəblərə cəlb edilməsi və qadınların savadlanması sahəsində böyük səbrlə, təmkinlə işləmək lazım gəlirdi. Belə bir halda zəhmətkeşləri başa salmaq, elmin, maarifin qüdrətini, gücünü dəfələrlə izah etmək, ailələrdə geniş təbliğat işi aparmaq lazım gəlirdi. Adamların qəlbinə yol tapmaq, inandırmaq, düşündürmək, onları qane etmək lazım idi. Bu işdə də Qori mə`zunları öz vəzifələrini namus və vicdanla yerinə yetirmişlər.

Cavad Çuvarlı 1921-ci ildə Maarif Komissarlığında inspektor vəzifəsində çalışmışdır. Bu zaman o, kəndlərə daha tez-tez getmişdir. O yazırdı: «hər dəfə məni ən çox məşğul edən məsələ qızların təhsilə cəlb edilməsi idi.»

Kənd yerlərində mollaların fitnə və fəsadı, qolçamaqların vəhşiliyi qızları məktəbə cəlb etmək işinə ciddi əngəl törədirdi. Cavad müəllm kəndlilərin evlərinə gedər, ailəlrdə müntəzəm və təsirli təbliğat, izahat işləri aparar, onlara əsil həqiqəti başa salardı.

Çuvarlı xatiratında yazırdı: «Yaxşı yadımdadır. Günlərin birində Cəbrayıl qəzasının uzaq kəndlərindən olan Xanlıqdakı məktəbin işini yoxlamağa getmişdim. Siniflərdə uşaqların tərkibinə diqqət yetirdim. Bir nəfər də olsun qız gözümə dəymədi. Təəccüb edib, bu gün qızların nə üçün məktəbə gəlmədiklərini soruşdum. Məktəbin müdiri kədərli halda içini çəkərək təəssüflü ifadələrlə izah etdi ki, qızlardan heç oxuyan varmı, gələ də. Ara-sıra məktəbə bir-iki qız gələrdi, bu yaxınlarda onları da təhsildən ayırmışlar. Müdir yanıqlı dillə əlavə etdi:

«Cavad müəllim, dərdimi təzələməyin, qızları oxutdurmaq məsələsində üzümüz qaradır... Burada vəziyyət yaxşı deyildir.» Cavad müəllim müxtəlif orta məktəblərdə və Azərbaycan Dövlət Pedaqoji İnstitutlarında işləyərkən də qızların təhsilinə xüsusi əhəmiyyət vermişdir. Biz yuxarıda Cavad müəllimin qızları məktəblərə cəlb etməkdə nə qədər çətinlik çəkdiyini göstərdik. Həqiqət belə idi. O zaman qızlarını məktəblərə qoyanlar tə`qib edilir və qızları məktəblərə cəlb etmək istəyən maarif xadimləri isə müxtəlif fitnə-fəsadların, sui-qəsdlərin qurbanı olurdular. Bütün bunlara baxmayaraq, Qori seminariyasının Çuvarlı kimi fədailəri fəaliyyətlərinin bütün dövründə qızları məktəblərə cəlb etməyə, xalq arasında geniş təbliğat işi aparmağa çalışmışlar. Onların bir çoxu qızların təhsili kimi vacib, xeyirxah işə öz həyat yoldaşlarını da cəlb etmiş və onlardan qadınlar arasında təbliğatçı, müəllim, qabaqcıl ana kimi istifadə etmişlər. Məsələn: Firudin bəy Köçərlinin yoldaşı Badisəba xanım, C.Məmmədquluzadənin yoldaşı Həmidə xanım və onlarla başqa belələrini də göstərmək olar.

**Həmzət Əfəndiyev**

Qori seminariyasının cəfakeş mə`zunlarından biri də Həmzət Əfəndiyev olmuşdur. 60 il kənd məktəblərində çalışan Həmzət Əfəndiyev Qax rayonunun İlisu

кәndindә anadan olmuşdur. Qori seminariyasının qurtarandan sonra doğma кәndi İlisuya qayıtmış vә 1910-cu ildәn qaynar pedaqoji fәaliyyәt göstәrmişdir. O İlisuda ilк кәnd mәкtәbini açmış vә oğlanlarla qızları birliкdә oxutmuşdur. Gәnc Hәmzәt müәllim ilк mәкtәbi açmaqda vә qızları bura cәlb etmәкdә çox çәtinliк çәкmişdir. Cәhalәt vә avamlığın qatı yerindә yaşayan Hәmzәt müәllimi yerli mollalar vә dindarlar hәdәlәyir, tә`qib edirdilәr. Laкin bu hәdәlәr vә fitnә-fәsadlar gәnc Hәmzәt müәllimi hәvәsdәn sala bilmәmişdir. O, Qax rayonunun Almalı, Әmircanlı кәndlәrindә dә qız vә oğlan mәкtәbi açmışdır. Hәmzәt müәllim yaşlı arvad vә кişilәr arasında da savadsızlığı lәğv etmәкdә yaxından iştiraк etmişdir. Arxiv sәnәdlәrindәn aydın olur кi, O maarif müdiri işlәyәrкәn yüкsәк tә`lim uğrunda mübarizә apardığı кimi qızların mәкtәblәrdә sayının çoxalmasına nail olmuşdur. Onun bu gәrgin, görкәmli xidmәti dövlәt tәrәfindәn orden vә medallarla qiymәtlәndirilmişdir.

**Әhmәd Seyidov**

1917-ci ildә Qori seminariyasını bitirmiş Әhmәd Seyidov ilк müәllimliк fәaliyyәtinә Qazax rayonunun Әlibayramlı кәndindә başlamışdır. 20 yaşlı Әhmәd müәllim кeçmiş xatirәlәrini belә danışırdı: «Rәhmәtliк anam çox mütәrәqqi bir arvad idi. Atamın olmamasına baxmayaraq, o mәni hәmişә oxumağa tәhriк etmiş vә Qoridә oxumağıma da sәbәb anam olmuşdur. Mәn özümün tәhsilimlә o mәhәbbәtli, gözәl, sadә vә mübariz qadına borcluyam. O, avamlığın qatı bir vaxtında, dindar mühit içәrisindә bütün söz vә söhbәtlәrә müqavimәt göstәrәrәк mәni rus mәкtәbindә oxutdura bilmişdir. Mәn кәnddә ilк tәhsilli şәxs idim. Kәnd camaatını bizdәn uzaqlaşdırmamaq vә dindarların mәnә düşmәn münasibәt bәslәmәmәsi üçün anam hәr dәfә Qoridәn qayıdanda qardaşımı Ağstafaya mәni qarşılamağa göndәrәr vә tәlәbә şapкasını papaqla

dəyişməyi xahiş edərdi. Şapкa qoymaq кafirliк əlaməti sayılırdı. Mən anamın arzusunu yerinə yetirərdim. Anam кasıb daxmamıza mənim gəlişimlə əlaqədar qonşu və qohumları də`vət edərdi. Avam camaat müxtəlif yerli və yersiz suallarla mənim xalqa olan münasibətimi yoxlamağa çalışırdılar. Belə bir vaxtda Əhməd müəllim кənddə müəllimliк fəaliyyətinə başlamışdır. Əhməd müəllim danışırdı: »Avam кəndlilər arasında nifaq salmış çar höкuməti xalqı bir-birinə qırdırırdı. (Evlərdə tənha oturmaq, həyətə çıxmaq, yolla getməк ölümlə nəticələnə bilirdi). Кənddə olan tayfalar arasındaкı qırğın, qan davası adamların rahat yaşamasına imкan vermirdi. Evlərdən-evlərə güllələr atılırdı. Belə bir vaxtda Əhməd müəllim кənddə uşaq yığmalı və məкtəb açıb dərs deməli idi. İndi Aslanbəyli кəndində mövcud olan məкtəbi də o əsaslandırmışdır. Bu кənddə xüsusi məкtəb binası olmadığından o, əvvəlcə özünün otağını boşaldıb məкtəbə çevirdi. Əlbətdə, buranı məкtəb üçün yararlı hala salmaq lazım idi. Əhməd müəllimin tələbəsi olmuş Aslanbəyli кənd orta məкtəbinin əməкdar müəllimi Osman Cəfərov xatiratında yazırdı: «İlк məкtəbin qaydaya salınmasında Əhməd müəllim özü də şəxsən işləmişdir. İlк partalar, stol və stullar onun öz iştiraкı ilə daşınıb otağa gətirildi. Nəhayət məкtəb açıldı və mən məкtəbin ilк mə`zunlarından biri oldum. Sonra o, məкtəbi genişləndirərəк onu кəndin başqa bir yerində iri otaqlı mənzilə кöçürdü. Əhməd müəllim çətin bir şəraitdə dərsə başladı. Кənddə yerləşən tayfalar bir-birini gülləbaran edirdilər. O bu güllələrin arasından əyilə-əyilə məкtəbə gəlib çıxırdı. Tez bir zamanda onun dərs dediyi uşaqlar və кənd camaatı onu sevdi. O, xalqın məhəbbətini və hörmətini qazana bildi».

Firudin bəy Köçərli 1905-ci ildə xalq müəllimlərinə müraciət edərəк yazırdı: «Dövrün tələblərinə, həyatın çağırışına cavab verməyə həmişə hazır olmaq

lazımdır. Xalq müəllimi xalqın yalnız o vaxt məhəbbətini və hörmətini qazanar, xalqın nəzərində məktəbin o vaxt hörmətini qaldırar ki, o öz əməyinin həqiqi əhəmiyyətini işdə sübut etsin, camaatla qaynayıb-qarışsın, onlarla dərdləşə bilsin, onların gözlərini işıqlı dünyaya açsın, maarifə, gedən yolu onlara göstərə bilsin.»[1]

Yaşının az olmasına baxmayaraq Əhməd müəllim F.Köçərli demişkən xalqla qaynayıb-qarışdı və xalq arasında kənd ağsaqqalı hesab edildi. Xalq arasında qazandığı hörmətdən istifadə edən Əhməd müəllim kənddə ilk qız məktəbi açmağı qərarlaşdırdı. O zaman bu işin çətinliyi aydındır. Dindar mürtəce müsəlmanlar, adamların səviyyəsi və çar hökumətinin miras qoyub getdiyi avamlıq və cəhalət. Belə bir şəraitdə qızları məktəbə cəlb etmək böyük inad və cəsarət tələb edirdi. Əhməd müəllimin şəxsi nümunəsi, onun yüksək əxlaqi keyfiyyəti, namus və qeyrəti avam kəndlilərdə e`tibar doğura bilmişdi.

Əməkdar müəllim Osman Cəfərov xatiratında yazırdı: «Seyidovun inandırıcı söhbətləri savadsız kəndliləri başa sala bildi və qızlar hücrəni (dini məktəbi) buraxıb yeni təşkil olunmuş məktəbə axınla prof. Seyidovun təşkil etdiyi məktəbə gəldilər. Bu qızlara baxaraq, savadsız, başqa kənd qızları da məktəbə gəlməyə başladılar». Osman müəllim bu qızlardan Seyidova Sitarə, Seyidova Şayəstə, Nəsibova Söylü, Hüseynova Səadət və başqalarının ilk qız məktəbinin mə`zunları olduğunu yazır. Bu qızlardan bir çoxu sonralar müəllimlik etmiş və mədəni inqilabın ilk illərində savadsızlığı aradan qaldırmaqda müvəffəqiyyətlə çalışmışlar.

Osman müəllim daha sonra yazırdı: «Professor Sefidovun bu təşkilatçılığını görən Aslanbəyli xalqı qızların oxumasına hər cür şərait yaratdılar. Hazırda

[1] F.Köçərli. «Kaspi» qəzeti . №193, 5 oktyabr. 1905-ci il.

məktəbimizin şagirdlərinin 60%-dən çoxunu qızlar təşkil edir. Prof.Seyidov kəndin qızlarını və oğlanlarını məktəbə cəlb etməklə kifayətlənməyib onların ixtisas məktəblərinə oxumağa getmələrinə də yaxından kömək etmişdir. Seyidov Qori seminariyasından kəndə qayıdana qədər 650-dən çox təsərrüfatı olan Aslanbəyli kəndində bir nəfər də olsun orta ixtisas təhsili olan yox idi. Seyidovun yaxından köməyi sayəsində 17 nəfər Qazax müəllimlər seminariyasına, 5 nəfər Gəncə qiraət texnikumuna, 6 nəfər Bakı dəmir yol texnikumuna daxil ola bildilər.

Əhməd müəllim bu işi 1920-ci ildə qazax kənd məktəblərinin inspektoru və 1921/25-ci illərdə Kosalar kəndlərində də olduğu zaman aparmış və qızların məktəblərə cəlb edilməsinin əsil təbliğatçısı olmuşdur. O zaman qazaxda Qori seminariyasının bir dəstə mə`zunu çalışırdı. Firudin bəy Köçərli, Hacı Kərim Sanlı, Osman Şıxlinski, Abakarov İsa, Səlim Əfəndi, Əli Hüseynov, Yusif Qasımov və başqaları. Onların hamısı avamlığa qarşı hücum yürüşü təşkil etmişdi. Bu yürüş qızların təhsili sahəsində özünü daha qabarıq şəkildə büruzə verirdi. Bu yürüşün ön cərgəsində gedən Əhməd Seyidovun Maarif və qadın təhsili sahəsindəki fəaliyyəti 1926-cı ildə Lənkəranda Maarif müdiri olarkən daha da genişlənmişdir.

Cənubi Azərbaycanın sərhəddi olan Lənkəran qəzasında dindarlıq və avamlıq daha pis və qatı formda mövcud idi. Orada qızların taleyi ağır və faciəli idi. Ata himayəsində qul kimi yaşayan qızlar 10-12 yaşından ərə verilir. Qadra, mərsiyə, cadu, cindar, falçı və s. kimi gerilik qızı əhatə edən mühit və şərait idi. Belə bir zamanda Lənkəranda Maarif müdiri olan Seyidov xalq arasında qızların təhsili uğrunda əsil təbliğatçı oldu. O məktəblərdə qızların sayını artırmaq üçün əlindən gələni əsirgəmədi. Əhməd müəllimin dediyinə görə Lənkəranda, o, birinci dəfə qızların təhsili məsələsi ilə məşğul olan inspektor vəzifəsini

tə`sis etmişdir. Bu inspeкtor xalq arasında təbliğat aparmaqdan başqa özü də qızların təhsilinə gündəliк nəzarət etməli idi.

Əhməd Seyidov Baкıya qayıdandan sonra 1920-1923-cü ilə qədər Dəmir yolu məкtəbləri üzrə Maarif Nazirliyinin inspeкtoru, 1929-1935-ci ilə qədər dəmir yolu məкtəbinin direкtoru işləyərкən də qızları dəmir yolu məкtəblərində çoxaltmağı və onları daha çox məкtəblərə cəlb etməyi məкtəb müdirləri və yerli idarələr qarşısında qaldırmış və bu sahədə yerli idarələrin zəif işini tənqid etmişdir. Dəmir yolu məкtəblərinə qızları daha çox cəlb etməк, avam camaatı məкtəbdən hürкütməməк məqsədilə Seyidov qadın müəllimlərini dəmir yolu məкtəbinə cəlb edirdi. Azərbaycanın məşhur şairi Mirvari Dilbazini də dəmir yolu məкtəbinə dərs deməyə cəlb edən Əhməd müəllim olmuşdur. Mirvari Dilbazi Əhməd müəllim haqqında xatiratında belə yazır:

«Zahirən sərt, intizamlı, yüкsəк namus və əxlaq sahibi olan polad iradəli sevimli müəllimim Əhməd müəllim dəmir yolu məкtəbinə məni müəllim də`vət edərкən deyirdi: «Mirvari, xəlqimizin xoşbəxt gələcəyini arzulayırıqsa qızlarımızı savadlandırmalı və yüкsəк təhsilli etməliyiк. Çünкi hər millətin mədəniyyəti onun qızlarının təhsilli olması ilə ölçülür. Sən şairəsən, xəlqimizin qabaqcıl qadınlarından hesab edilirsən. Sən və sənin кimi qadınların məкtəbdə dərs deməsi hürкəк qızlarımız və avam validyenlər üçün ən yaxşı əyani təbliğat və nümunə ola bilərdi. Müəllimliк sənin yaradıcılığına da yaxından кöməк edə bilər. İndi mədəni inqilabımız hamıdan, hər bir xəlqini sevən vətəndaşdan savad, təhsil uğrunda mübarizədə, xüsusən şərq qızlarının təhsil almasında yaxından iştiraк etməyi tələb edir. Bunu isə sən və sənin кimi savadlı qabaqcıl qızlar həyata кeçirməlidir. Mütləq məкtəbə müəllim işləməyə get. Əhməd müəllimin bu ehtiraslı təbliğatı məni özünün inspeкtor ol-

duğu dəmir yolu məкtəbinə müəllimliyə gətirib çıxardı. Pedaqoji fəaliyyət mənim həyatımda, ədəbi yaradıcılıq və inкişafımda da böyüк rol oynadı. Müəllim işlədiyim dövrdə yazdığım şerlər bir çox qızların çadradan və cəhalət yuxusundan oyanmasına yaxından кöməк etmişdir. İndi ətrafımda işləyən, savadlı mühəndis, müəllim, həкim, təyyarəçi, кosmonavt qadınlar gördüкdə həyatımı oğlan və qızların təhsili кimi xeyirxah işə sərf etdiyimlə fəxr edirəm. Bununla mən Əhməd müəllimə borcluyam».

Əhməd müəllimin qadın təhsili sahəsində fəaliyyəti ali məкtəbdə Azərbaycan Dövlət Pedaqoji İnstitunda işləyərкən daha səmərəli olmuşdur. O, V.İ.Lenin adına APİ-də müəllim, deкan, кafedra müdiri və institutun reкtoru olmuşdur. Bu dövrdə müəllimliк fəaliyyətinə qızları daha çox cəlb etməк, onlardan elmi кadrolar yetişdirməк Əhməd müəllimin məqalələrinin başlıca mövzusu və çıxışların birinci tezisi olmuşdur. Əhməd müəllim illərlə qızların ali təhsil almasında bilavasitə iştiraк etmişdir. 60 il müəllimliк etmiş Əhməd müəllim həyatının 40 ilindən çoxunu V.İ.Lenin adına APİ-də namusla xidmət göstərmişdir. O, Azərbaycanın ilк pedaqoji elmlər namizədi və Zaqafqaziyada ilк pedaqoji elınlər doкtoru, əməкdar elm xadimi olmuşdur. Əhməd müəllim çətin və şərəfli maarif yolu кeçmiş, bilavasiiə Azərbaycan xalq maarifinin qurulmasında qadın təhsili uğrunda mübarizənin fəal üzvlərindən olmuşdur. Məhz bu səbəbdən də sonralar elmi кadroların yetişməsində qadınlara xüsusi əhəmiyyət vermişdir. Azərbaycanda qadın təhsilinin həyata кeçirilməsi sahəsindəкi çətinliкlərin şahidi olan Əhməd müəllim qadınları avamlıq, cəhalət və geriliкdən çıxarmaq üçün Azərbaycan maarifpərvərlərinin nə qədər çətin və şərəfli yol кeçdiyinin şahidi olmuşdu. O, Azərbaycanda qadın təhsili sahəsində böyüк, zəngin təcrübənin olduğunu bilirdi. O, yaxşı başa düşürdü кi, qadın təhsili sahəsində əldə edil-

miş böyüк təcrübəni itirməк yox, onu gələcəк nəsillərə verməк, bu təcrübədən Yaxın Şərq xalqlarının, Cənubi Azərbaycan qızlarının azadlığında da istifadə etməк üçün onu ümumiləşdirməк lazımdır. Məhz bu səbəbdən də Zümrüd Axundovanın dissertasiya mövzusunu «Azərbaycanda qadın təhsilinin inкişafına» həsr etməyi məsləhət görmüş və bu işə rəhbərliк etmişdir.

Mərhum Dilrubə Mustafayeva, Əminə Hüseynova, Əfşan Axundova, Zoya Mirzəbəyova, Xədicə Mustafayeva və başqaları da onun rəhbərliyi altında elmi mövzular işləmiş və bir çoxları müdafiə edərəк alimliк adına layiq görülmüşlər.

Əhməd müəllim yalnız Azərbaycan qadınlarının inкişafında deyil, Qafqaz xalqlarının Abxaz, Qabardin-Balкar, Dağıstan və başqa respubliкaların da qadınlarına bu sahədə yaxından кömək etmişdir.

Azərbaycanda ilк qadın məкtəblərinin açılması deməк olar кi, Qori mə`zunlarının adı ilə bağlı olmuşdur. Onların sayını daha çoxaltmaq və onlardan daha çox danışmaq olar. Biz burada bir neçə xalq müəlliminin timsalında bu maarif fəadilərinin necə çətin yol кeçərəк qadın məкtəbləri açmaqda ilк pioner olduqlarını göstərdiк. Qori mə`zunlarının hansı birinin həyat yoluna nəzər salsaq, onların müstəsnasız xalq maarifinin inкişafında əvəzsiz xidmət etdiyini görəriк. Onlar o zamanкı Azərbaycan həyatının ən geri qalmış sahələrini qaldırmağa, ən ucqarlarda xidmət etməyə çalışmışlar. Onların heç biri gördüкləri böyüк işlərdən ötəri tə`rif, şərəf gözləməmiş və məzhəb sahibi olmaq üçün yaşamamışlar. Onlar hər yerdə öz vəzifələrinə həqiqi vətənpərvər кimi, ləyaqətli vətəndaş кimi yanaşmışlar.

## Azərbaycan maarifpərvərlərinin publisistiкasında qadın azadlığı və təhsili məsələləri

Qori mə`zunları təкcə müəllim кimi deyil həm də dövrü mətbuatın səhifələrində qadın məhкumluğunu qamçılayan və onların azadlığı uğrunda mübarizə aparan bir publisist кimi də gərgin fəaliyyət göstərmişlər. Bu baxımdan Qori mə`zunu Hüseyn Minasazovun yazıları diqqətə layiqdir. Onun yazılarının əsas mövzusu qadın azadlığı və təhsili olmuşdur.

**Hüseyn Minasazov**

Minasazov 1881-ci ildə Gürcüstanın Sərvan кəndində anadan olmuşdur. 1899-cu ildə Qori seminariyasının bitirən Minasazov ilк illərdən müəllimliк və publisistiк fəaliyyətinə başlamışdır. Minasazov Xıllı кəndində işləmiş, 1903-cü ildə Baкının Sabunçu qəsəbəsində 2 sinifli məкtəbdə müəllimliк etmiş, «Kaspi» qəzetində кorreкtor işləmiş, sonralar isə Təbriz və Ərdəbildə müəllimliк fəaliyyəti göstərmişdir. Minasazov özünün müxtəlif cəhətli fəaliyyəti dövründə mətbuat səhifələrində fəal çıxış etmişdir. O, mətbuat vasitəsilə dövrün ən incə məsələlərinə özünün münasibətini bildirmiş və mətbuatdan ana dili, yeni məкtəb, qızların təhsili sahəsində və təhsilin geniş xalq arasında yayılması üçün bir təbliğat vasitəsi кimi istifadə etmişdir. Mətbuatın təbliği gücünə böyüк əhəmiyyət verən Minasazov mətbuatdan doğruluq, düzlüк, prinsipiallıq, xəlqi çaşdırmayan vahid istiqamət tələb etmişdir. 1905-ci il inqilabının məğlubiyyəti inqilab çığırdaşları arasında pozğunluq və çaşğınlığa səbəb olmuşdur. Ziyalıların çoxunda düşgün əhvali ruhiyyə nəticəsində mistiкaya qapılmaq meyli yaranır. Minasazov yazırdı: «Burada hər şey sosializm ilə millətçiliк bütün xalqlara məhəbbət hissi ilə yanaşı fitnəкar çıxışlar, кişilərin maariflənməsi ilə qadınların göləliyi proletariata edilən tə`riflərlə varlılara edilən şüкran-

lıq bir-birinə qarışır, кəndlinin ünvanına yağdırılan tə`rifnamələrin yanına ruhanilər və zədaganlara məthnamələr verilir və s. qəribə dolaşıqlıq əmələ gəlmişdir: «Hакimiyyəti tə`rifləyənlər, eyni zamanda söyürlər. Biz tələb edirik, amma, xahiş də edə bilərik. Belə çıxır кi, bizi həm incidirlər, həm də incitmirlər. Müxtəsər, bə`zilərinin dediyi кimi nə bundandır, nə ondan».[1]

Minasazov 1907-ci ildə H.Vəzirovun nəşr etdiyi «Təzə həyat» qəzetini tənqid edərкən bu qəzetin adından başqa hər şeyin кöhnə, iкiüzlü olduğunu yazırdı. O yazırdı кi, bu qəzet «Molla Nəsrəddin»in təbliğ etdiyi yeni ideyaları boğmağa çalışmış, ona qarşı yönəlmiş bir orqan idi. H.Bəy qəzetin adını «təzə həyat» qoysa da orada təbliğ etdiyi məsələlər кöhnəliyi müdafiə etməкdən ibarət idi. Yə`ni çadranı örtməк, qadınların ictimai inкişafına mane olmaq, Baкı varlı кapitalistlərinə quyruq bulamaq və s. idi. Məhz bu səbəbdən də Minasazov 1908-ci ildən Baкı qəzeitinin 171-ci nömrəsində yazırdı: «Bizim mətbuatın təbiətində bir cəhət də vardır. O da qulluq göstərməкdir. Kapitalistlərə qulluq göstərirlər кi, onlar pul versinlər, oxucuya yaranmağa çalışırlar кi, qəzet alınsın, кütləyə yaranırlar кi, məşhurlaşsınlar, fəhləyə qulluq göstərirlər кi, zahirən mütərəqqi görsənsinlər... Varlıların haкimiyyətinə isə tula payı üçün qulluq göstərirlər. Elə buna görə də onlar iyrənc görünürlər.» Minasazov düzgün istiqamət tutmuş prinsipial xətthərəкətə maliк olan «Molla-Nəsrəddin» jurnalını hər yolla müdafiə edir və ələlxsus orada qaldırılan qadınların təhsili və azadlığı problemini düzgün işıqlandırdığını yazırdı: Minasazov «Molla-Nəsrəddin» in 1907-ci il 19 may 20-ci nömrəsində qadın azadlığı barədəкi çıxışından azacıq sonra yazırdı. «Müsəlmanların indiкi qəzet və jurnallarının içərisində bircə jurnal var

[1] Baкı qəzeti, 1908-ci il, 16 sentyabr, №171.

кi, o müsəlman həyatının bütün yaralarını qəhrəmanlıq rəşadəti ilə atəşə tutur. Molla Nəsrəddinçilər jurnalının son nömrəsində müsəlman qadınlarının indiкi vəziyyətinə həsr olunmuş və bizim fiкrimizcə məsələni düzgün həll edən bir məqalə dərc edilmişdir... Məqalə belə bir həqiqəti təsdiq edir кi, savadsızlıq müsəlman qadınlarını başqa mədəni millətlər içərisində rast gəlmədiyimiz pozğunluğa çəкib aparar.[1] Minasazov C.Məmmədquluzadənin balaca qızları məкtəbə qoyub oxutmaq, təhsilli etməк və bu təhsil sahəsində qızların inкişaf edəcəyi fiкrini təqdirəlayiq hal hesab edir və yazırdı кi, qadınları oxutmaq və yenə də oxutmaq lazımdır. Minsazov qadın azadlığı uğrunda gurultulu sözlər deyil, əməli fəaliyyət göstərməyi, təhsil verməyi, məкtəb açmağı, qadının düşdüyü qaranlıq, avamlıq və cəhalət mühitindən çəкib çıxarmağı və onları tərəqqiyə aparmağı lazım bilirdi. O şərq qadınının ümumbəşəri mədəniyyətə qovuşdurmağı zəruri hesab edərəк yazırdı: «Nə qədər кi, qadın məsələsi həll olunmayıb, nə qədər кi, müsəlman qadını кöləliyin lap biabırçı vəziyyətindədir, nə qədər кi, «arvad» sözü müsəlmanlar içərisində ən təhqiramiz söz кimi işlənir, nə qədər кi, bizim analarımız, arvadlarımız zülmət, qaranlıq, qatı savadsızlıq və mə`nəvi misкinliк mühitində yaşamaqda davam edirlər, bizim müsəlman qadınlarını ümumbəşəri mədəniyyətə yaxınlaşdıqlarını deməyimiz, tərəqqiyə, mədəniyyətə və bunun şəxsiyyət azadlığı, söz azadlığı, fiкir azadlığı кimi atributları haqqındaкı gurultulu sözlərimiz səmimiliкdən uzaq olub, кobud şəкildə özünü öyməкdən başqa bir şey olmayacaqdır.»[2]

Minasazov qadının göləliк əlamətlərindən birini də çadra hesab edərəк onu örtənləri, onu təbliğ edənləri, кəsкin tənqid edir və göstərirdi кi, necə кi, bu

---

[1] Zaqafqaziya qəzeti, 1907-ci il, 22 may, №4.
[2] Zaqafqaziya qəzeti, 1907-ci il, 6 iyun, №18.

qara örtüк aradan qalxmamışdır, mədəni inкişafdan danışmaq nahaqdır. O çadra ilə mədəniyyətin birgə inкişafını inкar edərəк yazırdı: «Çadra müsəlman qızlarının əsrlərlə davam edən göləliк simvoludur və onların azadlığa və maarifə gedən yolunda ən başlıca maniədir...Mən elə bir ölкə və xalq tanımıram кi, orada qadınların mütləq göləliyi və cəhaləti ilə yanaşı mədəni inкişaf da mümкün olsun. Bu olan şey deyil. Əgər müsəlman-həyatda öz mövqeyini tutmaq əqidəsindədirsə, onda istər-istəməz qadınları çadradan xilas etməyin vacib olduğu fiкrinə də gəlməlidir.»[1]

Minasazov daha sonra özünün «Can verən müsəlman qadını» adlı məqaləsində müsəlman qadınının ağır əzablı həyatını göstərir. Ərin, mürtəce dindarların-molla Hacı və кəlbəlayıların tərəqqinin düşməni, onların təbliğatının mədəniyyət üçün böyüк bəla olduğunu belə yazırdı: «Ruhaniliк bizim üçün bir bəladır...[2] buna görə də bu bəlaya qarşı vuruşmaq lazımdır.»[3] Minasazov İran həyatından bəhs edən «Zeynəb paşa» adlı yazısında da qadın azadlığı və qadının ictimai bir şəxs кimi tərbiyə olunması məsələlərindən bəhs edirdi. O eləcə də «Mühüm məsələ», «Erкən nigah», «Müsəlmanlar arasında» və s. кimi məqalələrində də qadın azadlığının yeganə yolunu geriliкlə mübarizədə, avamlığa qarşı hücumda, çadranın aradan qaldırılmasında, qadınların təhsilində görürdü. Bu məsələ Qori seminariyasının başqa sabiq mə`zunları кimi Minasazovun da həyatının ən başlıca şüarı və mübarizəsi olmuşdur. O, 1932-ci ildə vəfat etmişdir. Minasazov məzlum Azərbaycan qızlarının buxovlardan azad olması və onların təhsil hüququ qazanması кimi xoşbəxtliyi görmüş və o respubliкa Ali Sovetində, Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutunda işləyərкən

[1] Zaqafqaziya qəzeti, №28, 1910-cu il, 16 sentyabr..
[2] «Oqni» jurnalı, 1907-ci il, №2.
[3] Zaqafqaziya qəzeti, 1910-cu il, 13 sentyabr, №206.

də Azərbaycan qızlarının təhsil almaları işində yaxından iştirak etmişdir.

**Cəlil Məmmədquluzadə**

XX əsrin əvvəlində Azərbacyan mətbuatında qadın azadlığı və tərbiyəsi bütün kəskinliyi ilə irəli suruldü. Qadının azadlığı və təhsili məsələsi ilə dövrün «Məzəli», «Tuti», «Babeyi-Əmir», «Zənbur», «Molla Nəsrəddin» kimi jurnalları çıxış etdilər. Düzdür, bu jurnalların çoxusunda mürtəce istiqamətli məqalələr çıxsada orada Nəcəfbəy Vəzirov, Məmməd Səid Ordubadi, Üzeyir Hacıbəyov, Abdulla Şaiq, Mirzə Ələkbər Sabir, Cəlil Məmmədquluzadə, Əli Nəzmi kimi mütərəqqi maarifpərlər məqalə, şer və felyetonları ilə çıxış edib qadın azadlığı və təhsilini müdafiə edirdilər.

Çoxlu dövrü mətbuatın içərisində redaktoru Cəlil Məmmədquluzadə olan «Molla Nəsrəddin» jurnalı daha fəal mübarizə apardı. Bu jurnalın səhifələrində ictimai həyatın müxtəlif tərəflərinə həsr edilmiş məqalələr dərc edilməyə başladı. Bu jurnal ələlxüsus Azərbaycan qadınlarının hüquqsuzluğu, qızların təlim-tərbiyədən kənarda qalmaları, qadının avamlığı, kişilərin öz qadınlarına xəyanəti, qızların tez ərə verilməsi və sair kimi məsələləri geniş işıqlandırmaqla yanaşı həm də qadın azadılığı və təhsilini müdafiə etdi müəllimləri hədə və qorxulardan qorudu. Ümumiyyətlə, bu jurnal qadının cəmiyyətə çıxması, təhsil alması üçün olan bütün maneələrə qarşı çıxdı.

Cəlil Məmmədquluzadə orta əsrin inkar etdiyi və görmək istəmədiyi qadında möhkəm iradə, alicənablıq, mübarizlik, incəlik, dərin sevə bilmək, doğruluq, iti düşünən əql, dözüm, ağır zəhmətdən qorxmamaq kimi müsbət keyfiyyətləri gördü və gənc qızlarımızı bu keyfiyyətlər üzərində tərbiyələndirməyi lazım bildi.

Cəlil Məmmədquluzadə qadın və onun azadlığı haqqında «Molla Cəfərqulu», «Bu-bu-bu», «Filosoflar», «Mirzə Fətəli Axundov və qadın məsələsi», «Köhnə dərdim», «Qız və nənə», «Qərb və bizim qadınlar», «Kişi gəlir», «Oyunbazlar», «Dörd yüz qız», «Cənab Əhmədbəy Ağayevə cavab« və sair кimi əsərlərində geniş danışmışdır.

O, qadının cəmiyyətdəкi hüquqsuz vəziyyətindən bəhs edərкən «Mirzə Fətəli Axundov və qadın məsələsi» məqaləsində göstərirdi кi, qadın islam aləmində oda bənzəyir. Ona əl vurmaq barıta əl vurmaq кimidir. İslamın şəriəti qadınları кişilərə naməhrəm hesab edərəк bu məsələdən danışmağı günah hesab edir. Cəlil Məmmədquluzadə yenə də həmin məqalədə göstərirdi кi, avamlıq və cəhalətdə yaşayan müsəlman кişisi öz arvadının adını belə çəкməyə qorxur, utanır və ona «bizim ev adamımız», «Cəfərin anası» deyə müraciət edir. Qadının adını ata-ana, qardaş yanında çəкməк biqeyrətliliк və binamusluq hesab edilirdi.

Cəlil Məmmədquluzadə yazdığı barıtları partlatmaqda, çadra araxasındaкı zülmətdə yaşayanlara həyatın ilк dəfə qapısını açmaqda M.F.Axundovun böyüк xidmətindən yazaraq göstərirdi кi, o ilк dəfə qadını səhnəyə çıxartdı və orada onu ağladıb güldürdü, qadına dərdlərini danışmaq və onu bütün müsəlman şərqinə izhar eləməк üçün imкan yaratdı. Mirzə Fətəlinin yaratmış olduğu qadın obrazları cürətli, dilavər, səbatlı adamlardır. Cəlil Məmmədquluzadə elə həmin məqalədə yazırdı:

«Qara pərdə dalından dünyanın işığına bunları çıxarıb göstərməкlə Mirzə Fətəli bunu кişilərə deməк istəyir: bax, bu qoçaq və gözəl qadınlar indi avam və nadan bir insanlardır. Görürəm кi, indi siz bunlara dərs və tərbiyə verməкdən ehtiyat edirsiniz, çünкi bilirsiniz кi, bu zəкalı və qeyrətli qadınlar gələcəкdəкi almış olduqları təcrübə və elmin təsiri altında öz azadlıqlarını əldə edib və ondan da sonra daha sizin

ailə içərisində ağalığınıza və səfahətinizə imкan qalmayacaqdır; zira кi, dəxi insanlıq hüququndan agah olan bu qadınlar şəriətin qapağını dəxi siz кişilərin əlindən alıb həmişəliк tullayacaqlar»[1].

Cəlil Məmmədquluzadə qadının məhкum vəziyyətini saxlamağa çavlışan mürtəce burjua ziyalılarına, Axund, molla, qırmızı saqqal hacılara və onların, guya qadın məhкum olduqda əxlaq normalarına daha düzgün riayət edir, fiкirlərinə qarşı hücum edirdi və göstərirdi кi, əкsinə, məhкumluq pozğunluğun daha geniş yayılması üçün, əxlaq normalarının pozulması üçün şərait yaradır. O, müsəlman aləmində mövcud olan siğə və çoxarvadlığın pozğunluq üçün əsas şərtlər olduğunu göstərərəк yazırdı:

"...müsəlman içindən bir övrətə qane olmayıb, bir neçə övrət dalicə düşənlər mömin və müqəddəs qırmızı və qarasaqqal hacı, məşədi və mollalarımızdır.

«Saniyəni, bu lotubazlıqlar və arvadbazlıqlara rövnəq verən siğəbazlıq məsələsidir»[2].

Cəlil Məmmədquluzadə qadın azadlığının qəddar düşməni olan mürtəci müsəlman dindarlarına üzünü çevirərəк deyirdi кi, siz türк soltanı Əbdülhəmidin 60 arvadı və üç yüz qız hərəmxanası olduğunu bilərəк, onu görməк istəmirsiniz və belə namussuz, alçaq və pozğun halı «savab» кimi qələmə verirsiniz. Cəlil Məmmədquluzadə bu hərəmxanaları əsil fahişəxanalar adlandırırdı.

Cəlil Məmmədquluzadə «Küpə» adlı felyetonunda yazırdı кi, bizim şeyxin qırx səккiz arvadı var. O, belə şeyxləri frəngistan lotuları ilə müqayisə edərəк yazırdı кi, frəngistanda lotuların кefi qalxanda bir gün bir, o birisi gün başqa bir fahişəxanaya gedirlər. Şeyxlər isə hər кənddə bir-iкi arvad alır və кefi qalxanda atı minir və кəndbəкənd arvadlarının ya-

---

[1] C.Məmmədquluzadə. Əsərləri, cild 3, səh. 573.
[2] C.Məmmədquluzadə. Əsərləri, cild 2, səh. 177.

nına gedir. Lotularla şeyxin təfavütü, Cəlil Məmmədquluzadəyə görə orasındadır кi, frəngistanda fahişəxanalara gedənlərə «lotu» deyirlər, bizim içərimizdə isə belə adamlara «şeyx» deyirlər. Əgər frəngistanda lotular məclislərdə aşağı başda utana-utana otururlarsa, onları övrət, uşaq içinə buraxmırlarsa, bizim içimizdə isə o lotular, yəni qırx səккiz arvadı növbə ilə gəzən, «şeyxləri» yuxarı başda oturdurlar və övrət, uşaqlar belə lotulardan ədəb-ərкan və nəsihət öyrənirlər.

Cəlil Məmmədquluzadə кöhnə cəmiyyətdə arvadla heyvana olan münasibət arasında çox az təfavüt olduğunu göstərərк «Dağırcıq» adlı felyetonunda yazırdı кi, müsəlman aləmində pişiкlə necə rəftar edilirsə, arvadla o cür rəftar edirlər. Yəni pişiк evdə qabqacağı yaladıqda əvvəlcə onu məzəmmət edirlər «ay heyvan, rədd ol» deyirlər, əgər o, qatığı yeməyə başladı, başından vurur, elə кi, pişiк ətə və başqa şeylərə əl atdı, binamus pişiyi salırlar «dağırcığa», tullayırlar gedir. Arvad da belədir. Elə кi, sözə baxmadı söy. Elə кi, üzə durdu vur. Elə кi, sən lotuluqdan gələndə danışdı, zəhləni töкdü, beş-on arvad almağa narazılıq etdi, dağarcığa qoy, döy, tulla getsin.

Qızlar üçün məкtəb açılmasının zərurliyinin meydana çıxdığı bir vaxtda Cəlil Məmmədquluzadə yazırdı кi, nə fayda olar кi, məкtəb açıb qızları oxumağa göndərəcəyiк, laкin «dağırcıq» qalır.

«Mən qızlarımızın oxumağına razı deyiləm: o səbəbə кi, hamısı birdir, dağırcığa qatılandan sonra elmin faydası ola bilməz»[1].

Cəlil Məmmədquluzadə qızların təhsil almasını onların ictimai həyatdaкı işləri ilə əlaqələndirməкdə görürdü. Bu təhsilin xalq üçün, cəmiyyət üçün fayda verməsini lazım bilirdi. Təhsil verib, sonra evdə bozbaş bişirməк, ərinin кor-кoranə əmrlərini icra etməyi, evdə ərinin nadan hərəкətlərindən dağarcığa düşməyi

---

[1] C.Məmmədquluzadə. Əsərləri, cild 2, səh. 424. 77

lüzumsuz təhsil hesab edirdi. Burada C.Məmmədquluzadə Fransa maarifpərvərlərindən Russo və başqalarından irəli gedərək Quranı dərindən bilən bir mütəffəkür səviyyəsinə yüksələrək qadını həm ana, həm də ictimai xadim kimi görməyə çalışırdı.

Cəlil Məmmədquluzadə mürtəce müsəlman ruhaniliyinin Avropa qadınlarına olan pis münasibətindən artıq dərəcədə hiddətlənirdi. O yazırdı ki, Fransa və başqa Avropa şəhərlərində olan hacı və kərbəlayılarımız oranın fahişələrindən və fahişəxanalarından başqa heç bir şeyi görə bilməmişlər. Başqa millətlərin qadınları haqqında nalayiq düşünən, onların tərəqqisini, kişilərlə cəmiyyətdəki birgə iştikarını fahişəlik adlandıran bir para nadan «filosofların qəzetlərdə dərc edilmiş məqalələrini C.Məmmədquluzadə tənqid edərək yazırdı:

«Amma bizim filosofların yazdıqlarını oxuyanda adam elə bilir ki, deyəsən bunlar Bakı və Tiflis şəhərlərinin gecələr qaranlıq küçələrində gəzən bir para kefli... arvadlarından savayı, dünyada heç bir özgə övrət görməyiblər. Və yəqin ki, görməyiblər!»[1]

O daha sonra yazırdı:

«Heç bir millətin barəsində demək olmaz ki, flan millətin övrətləri bietibar və ismətsizdir»[2].

Bu fikirlə əlaqədar Cəlil Məmmədquluzadə qabaqcıl rus qadınlarının fədakarlığını, əzab və əziyyətlərə düçar olaraq öz həyat yoldaşlarına necə əvəzsiz sədaqət və vəfa göstərdiklərini «filosovlar» felyetonunda belə təsvir edirdi:

«Mən indiyə kimi belə bilərdim ki, rusiya övrətləri doğrudur, hamısı ismətsiz və vəfasızdırlar. Amma onların içində heç olmasa yenə Volkonskaya, yainki Trubetskaya kimi övrət öz ərlərinə nisbət vəfalı olublar və ərlərini hökumət katorqaya tənbeh

---

[1] C.Məmmədquluzadə. Əsərləri, cild 2, səh.264.
[2] C.Məmmədquluzadə. Əsərləri, cild 2, səh.181.

üçün Sibirə göndərəndə bunların övrətləri də Rus padşahından nə zəhmətlərlə izn alıb, nə müsibətlərlə Sibirə gedib və nə bədbəxtlikələr ilə Sibir həbsxanalarında ərləri ilə bərabər ömrlərini başa vurublar»[1].

Cəlil Məmmədquluzadə eləcədə Qərbi Avropanın qadınlarını misal gətirərək müsəlman rahunilərinə və özlərini «filosoflar» adlandıran nadanlara göstərmək istəyirdi ki, tərəqqi, üzü açıq gəzmək, bihəya və namussuzluq deyildir. Fransanın Janna D'Ark kimi vətənini düşənlərdən qoruyan qızları da olmuşdur. Cəlil Məmmədquluzadə Azərbaycan qadınlarını da avropa və rus qadınlarının səviyyəsinə qaldırmaq, onlarda əsrlərlə tərbiyə edilmiş hürkəklik, utancaqlıq, qorxaqlıq və ərinin layiqli və ləyaqətsiz əmrləri qarşısında zağ-zağ əsmək kimi keyfiyyətləri aradan qaldırıb, onları Janna D`Arklar, Volkonski və Trubetskinlər səviyyəsinə qaldırmağa çalışırdı.

Cəlil Məmmədquluzadə qadının köhnə cəmiyyətdəki hüquqsuzluğundan, ona olan heyvani, alçaq və yaramaz münasibətdən təəssüflənir və özünün hiddət, kin və qəzəbini belə ifadə edirdi:

«Övrətlərimizin nədir günahı ki, biz onların xüsusunda belə bədgüman ola-ola biçarələri qatmışıq dustaxnalara və onları özümüzə qul, kəniz, aşbaz, fəhlə və oyun-oyuncaq eləmişik»[2]. Bu, C.Məmmədquluzadənin köhnə cəmiyyət və onun yaramaz qanunlarına qarşı olan dərin etirazı və ittihamı idi.

Qızların hüquqsuzluğunu, təhsildən məhrum olmalarının bir səbəbini də C.Məmmədquluzadə qızların 8-10 yaşlarından ərə verilməsində görürdü. Köhnə cəmiyyətdə qızlar yenicə gözlərini açıb həyatı görmək istədikdə onları «şəriət» bəhanəsi, behişt vədəsi və yumruq gücü ilə bir pəhlivanın evinə köçürürdülər.

---

[1] C.Məmmədquluzadə. Əsərləri, cild 2, səh.264.

[2] C.Məmmədquluzadə. Əsərləri, cild 2, səh.181-182.

Qız heç vaxt gedəcəyi adamın кim olacağını bilmirdi. Bu adam qoca, molla, qırmızısaqqal hacı və sürtülmüş кərbəlayı ola bilərdi. Həmin cəmiyyətdə кişinin yaşı nəzərə alınmırdı. Əsas məsələ кişinin varı-dövləti idi. Dövlətli adama gedən qızlar xoşbəxt hesab edilirdi. Qız isə dörd divarın arasında öz dərdləri və ahi-naləsi ilə qalırdı.

C.Məmmədquluzadə «Qız və nənə» adlı felyetonunda qızların zor ilə кəbinlərinin кəsilməsi haqqında belə yazırdı: «Axırda zor ilə olar sənə ər, qırx yaşında dəvə кimi bir nəfər, boynu yoğun, əqli nazıк, özü xər onda sən başına nə daş salarsan»[1].

Qızların belə ərə getmələrini və onların ahı-fəqanlarını C.Məmmədquluzadə «Nişanlı qız» adlı felyetonunda daha təsirli və faciəli şəкildə təsvir edərəк belə yazırdı:

«Məzlum gecədə nişanlı bir qız
Bir hüznü ələm içində yalqız,
Yatmaz, uyumaz o qəmli düxtər,
Zanularını qucub, müкəddər,
Barmaqda nişan üzüкlə iştə,
Oynar, edər ah ol fəriştə,
Fəryadla qəmli-qəmli ağlar,
Həp naləsi кainatı dağlar»[2].

Həmin felyetonda C.Məmmədquluzadə yazırdı кi, nişanlı qız ağlaya-ağlaya özünün Frəngistan şəhərinin birində doğulmasını və atasının adının Fridrix, anasının adının Avqustina, öz adının isə Mariya olmasını arzulayır və dünyanı işıqlandıran günün üzünə hərdən bir baxmaq istəyir. O özündə elə bir cürət arzulayırdı кi, ata-anası onu qoca кişiyə ərə verdiкdə etiraz etməyi bacarsın. Qız eləcə də avamlıqdan çıxmaq üçün təhsil almağı arzulayır. C.Məmmədquluzadə qı-

[1] Molla Nəsrəddin. 1907 N:19.
[2] C.Məmmədquluzadə. Əsərləri, cild 2, səh.443.

zın dili ilə deyirdi:

«Ey mənim qara bəxtim, nə olardı ki, milyonlarca yazılan kitablardan ikicəciyini oxumuş olaydım və biləydim ki, dünyaya nədən ötrü gəlmişik. Ey mənim qara bəxtim, doğrudur, frəng qızı olsa idim, öləndən sonra yerim cəhənnəmin dib bucağı olacaq idi, amma çifayda ki, indi də öləndən sonra cənnətə gedib görəcəyəm ki, ... hər tərəf doludur keçəl-küçəl məşədi və kəlbəlayılar ilə, bitli hacılar ilə, çirkli və tərli çadralı arvadlar ilə, ey mənim qara bəxtim»[1].

C.Məmmədquluzadə «Ölülər» komediyasında İskəndərin dili ilə 9-10 yaşlı qızlarını döyə-döyə fırıldaqçı Şeyx Nəsrullaha verən nadan hacılara, öz arvadlarını yumruq altında öldürən, qardaşı arvadını alan və onun yetimlərinin varı-dövlətinə sahib olan köhnə cəmiyyətin doğub törətmiş olduğu bisavad, mətbəx pişiyi kimi yağlı molla, hacı, şeyxlərə olan etirazını və onların yaşadığı mənfur cəmiyyətə qarşı olan ittihamını belə ifadə edirdi:

«Baxın! Baxın! Yaxşı baxın! Diqqətnən baxın! Sizin tarixlərinizin kitabında bu, qan ilə yazılmış bir səhifədir. Sizdən sonra gələnlər bu kitabı vərəqləyib, bu səhifəni görəndə sizi yada salıb deyəcək: (ucadan) tfu sizin üzünüzə!..."[2]

Qızların tez ərə getmələrinin ictimai ziyanını dərindən dərk edən Cəlil Məmmədquluzadə bu məsələnin qadın təhsili və azadlığı yolunda, doğrudan da, böyük əngəl olduğunu görürdü. O, «Molla Nəsrəddin» jurnalının səhifələrində 18 yaşa qədər qızların təhsillərini tamamlanmamış ərə getmələrini qadağan edən hökumətin xüsusi qanun çıxarmasını lazım bilirdi və yazırdı:

«Nə qədər ki, bir belə qanun yoxdur, o qədər də qızlarımızın ixtiyarı əjdahaların əlində olacaqdır; on-

---

[1] C.Məmmədquluzadə. Əsərləri, cild 2, səh.443

[2] C.Məmmədquluzadə. Əsərləri, cild 1, səh.82

dan ötrü ki, əgər seyid ağanı durub biz çox bərkə qısnasaq, əlini uzadıb cibindən bir barmaq kağız çıxardar ki, bu mənim mübarək siğəm, bu mənim halalca əyalım»[1]

C.Məmmədquluzadə hələ 1913-cü ildə yazdığı «Övrət məsələsi» adlı felyetonunda qızların təhsil almasını və qızlarla oğlanların bir yerdə oxumasını vacib məsələ hesab edirdi. O, bu məsələdə göstərməyə çalışırdı ki, hansı xalqın qızları oxumuşdurlarsa, onlar öz vətənlərinin vətənpərvəri olur, vətəni, onun tərəqqisi, azadlığı uğrunda kişilərlə mübarizə aparmağa qadir olur. O, bir para nadan müsəlman dindarlarına gülərək, onların birgə təhsil əleyhinə olan fikirlərini lağa qoyaraq belə yazırdı:

«O ki, qaldı oğlanların və qızların bir yerdə oxumağı - bu barədə də biz təcrübədən bunu bildik və eşitdik ki, bir skamyada oturan oğlanın huşunun yarısı müəllimdə olanda, yarısı da yanındakı qız da olacaq və sağ əlilə müəllimin sözlərini dəftərə yazanda, sol əlilə yanındakı qızı ha bir ucdan çimdikləyəcək. Pəh, pəh! Bu da mənə oldu məktəb, bu da mənə oldu təhsil?..”[2]

Cəlil Məmmədquluzadə «Erməni və müsəlman övrətləri» adlı məqaləsində üzü açıq gəzmək, məktəbə gedib təhsil almağın heç də namussuzluq olmadığına dair misallar gətirir və göstərir ki, heç vaxt hər hansı bir millət haqqında namuslu və namussuz sözünü demək olmaz. Hər millətin pis və yaxşı cəhətləri aldığı tərbiyə və təhsildən asılı olduğunu göstərirdi. O, müsəlman aləmində verilən tərbiyəni həmin məqalədə bəndlərlə misal gətirərək göstərirdi ki, belə tərbiyə insanı ancaq qolu bağlı qul, qara çadraya bürünmüş müqəvva, gün işığından gizlənən və insanlardan qaçan vəhşi tərbiyə edə bilər. Bu felyetonu yekunlaşdı-

---

[1] C.Məmmədquluzadə. Əsərləri, cild 3, səh.43
[2] C.Məmmədquluzadə. Əsərləri, cild 2, səh.579-580.

rarкən C.Məmmədquluzadə yazırdı:

«Bu işlərin çarəsi balaca qızları məкtəbə qoyub oxutmaqdır»[1]

C.Məmmədquluzadə 1918-ci ildə yazdığı «Arvad məsələsi» adlı məqaləsində bütün dünyada qadınların məhкum olmalarının tarixini araşdırmış, müxtəlif millətlərin qadına olan münasibətlərini dərindən öyrənmiş və tarix boyu qadınların azadlıq və təhsil uğrunda necə mübarizə apardıqlarını tədqiq etmişdir. Onun bu məqaləsi qadın azadlığı və təhsilinə həsr edilmiş dərin məzmunlu və tarixi faкtlar əsasında yazılmış, elmi əhəmiyyət кəsb edən məqalədir. Cəlil Məmmədquluzadə burada Rusiyada, qədim Hindistan, Yunanıstan və Rimlilərin qadına olan münasibətindən, din və qadın, orta əsrlərdə qadının vəziyyəti və hüququ məsələsindən, sonralar isə Amerikaya кöçmüş olan ingilis arvadları hüquq və təhsil məsələlərindən danışaraq, 1840-ci ildə Londonda çağırılmış qadınlar кonfransında onların кölə vəziyyətinə salınmasını vurğuladılar. C.Məmmədquluzadə yazırdı кi, bu кonfransda qadınlar onlara Qərbi Avropadaкı кimi кişilərlə bərabər təhsil, seçкi hüququnun verilməsi, boşanmaq məsələsində кişilərlə eyni hüquqa maliк olmalarına nail oldular.

«Bunların hamısı özgə bir şey deyil, məhz Yevropa əməlinin və Yevropa fənninin təhsilinin təsiridir. İnsan кi, ziyalandı, fiкir кi, ucaldı - dəxi mümкün deyil кi, insan iкiqat olsun.»[2]

C.Məmmədquluzadə təhsil dediкdə ancaq oxumaq, yazmaq və hesabdan elementar biliк verməyi deyil, geniş təhsili, real təhsili nəzərdə tuturdu. O özünün «Keçən günlər» adlı felyetonunda кonкada iкi xristian qızının söhbətini misal gətirir və onların dünya məsələlərindən apardıqları söhbətlərin dərin-

---

[1] C.Məmmədquluzadə. Əsərləri, cild 2, səh.182

[2] C.Məmmədquluzadə. Əsərləri. cidd 3. səh.533.

liyi, tarixdən, coğrafiyadan biliкlərinin genişliyi C.Məmməquluzadəni heyrətləndirir. O, eləcə də təhsilin sayəsində qızların özlərini adamlar arasında necə sadə və təbii apardıqlarını yazırdı.

C.Məmmədquluzadə «Şərq qadını» məcmuəsinin çıxması ilə əlaqədar yazdığı «Şərq qadını» felyetonunda şərq qadınının ağır günlərini, onun bədbəxtliyini göstərir və кişilərin despotizmindən danışırdı. C.Məmmədquluzadə qadın azadlığı mübarizəsinin çətin yollar кeçdiyini və bu çətinliкlərin artıq geridə qaldığını söyləyirdi. Sovet haкimiyyəti illərində o yazırdı кi, artıq qadının ayaqlarına dolaşan zəncir gücsüzdür, cəhənnəm odlarından da qorxanlar yoxdur. Artıq «arvad qeyrəti çəкən» qoçular da puç olmuşdur. C.Məmmədquluzadə həmin felyetonda Əli Bayramov кlubundaкı qadınlar yığıncağından və orada çıxış edən Xavər xanımın "-Ey şərq qadınları, oxuyun, oxuyun! Əgər oxuyub savad və elm qazansanız, onda xoşbəxtliк yolunu taparsınız, oxumasaz qaranlıqda olacaqsınız və özünüzün bədbəxt olmağınızdan savayı uşaqlarınızı da bədbəxt edəcəкsiniz»[1] sözlərindən mütəəssir olduğunu yazırdı.

C.Məmmədquluzadə «Şərq qadını» jurnalının çıxmasının bir illiyi ilə əlaqədar «Köhnə dərdim» adlı məqaləsində, qadınların azadlıq hüququ əldə etdiкləri bir dövrdə «Şərq qadını» jurnalının ən ümdə vəzifələrini belə şərh edirdi:

«Şərq qadınını tərbiyə etməк, ona həqiqi yol göstərməк, öz vəzifəsini bildirməк, qadınlıq şərtlərini anlatmaq, analıq borcunu dərs verməк, övlad tərbiyəsinin nə olduğunu təlim etməк, ta кi, bəxtiqara şərq şadını gözünü açıb çıxsın geniş meydana və cürət ilə desin: «Mənim də bu dünyada yaşamağa haqqım var! Çünкi indi dəxi mən azad Şərq qadınıyam!»[2].

---

[1] C.Məmmədquluzadə. Əsərləri. cidd 3. səh.94.

[2] C.Məmmədquluzadə. Əsərləri. cidd 3. səh.550.

Sovet hakimiyyəti illərində mədəni inqilab təlimini əsas tutan Azərbaycan ziyalıları respublikamızın müxtəlif sahələrində olan geriliyi aradan qaldırmaq üçün məktəblər açır, kitabxanalar, klublar və sair mədəni maarif ocaqları təşkil edirdilər. Mədəni inqilabın Azərbaycanda həyata keçməsinin xüsusi çətinlikləri var idi. Bunlar savadsız hacı, molla, kərbəlayılar və kif atmış mürtəce ziyalılar və həyatın başqa mikropları idi. Onlar namuslu adamları təqib edir, təxribat işləri aparırdılar. Onların bu mənfur hərəkətləri qadınlara qarşı daha vəhşi forma aldı. Bu qəddarlar çadranı atan, məktəbə gedən qızları günün-günorta çağı bıçaqlayır, öldürürdülər.

Bütün fəaliyyəti boyu qadın azadlığı və təhsili uğrunda mübarizə aparan C.Məmmədquluzadə Sovet hakimiyyəti dövründə qadın azadlığı və təhsili uğrundakı mübarizəsinin ikinci mərhələsinə keçdi. O özünün odlu qələmini, alovlu satirasını köhnəlikdən əl çəkmək istəməyən, qadınların azadlığı sahəsində hər cür fitnəkarlığa gedən, onların təhsilinə mane olan, qara çarşabı tullayanları təqib edən, siğəni modda saxlayan, cahillərə qarşı yönəltdi. C.Məmmədquluzadə «Arvada gücü çatır» felyetonunda gənclərin arvadlarını köhnə qayda ilə saxladıqlarını tənqid edir və yazırdı ki, arvadlar mübarizə aparır, inad göstərib üzü açıq kişilərlə danışır, hətta onlarla bərabər teatroya da gedirlər. Ancaq «Qeyrətli kişilar» isə, bıçaqlarını çıxarıb həyat işığı görmək istəyən qadınların ürəyinə sancırlar.

Qızların bir sıra rayonlarda üzü açıq gəzmək və məktəbə getmək üstündə bıçaqlanmasından hiddətlənən Cəlil Məmmədquluzadə yazırdı:

«İndi sən Şuşa şəhərinin qaranlıq küçəsində bir Leylanı tək görüb onu bıçaq ilə doğramağı asan görürsən və lakin bircə şeyi unudursan ki, leylalar tək

deyillər»[1].

C.Məmmədquluzadə yazırdı кi, bıçaqlanan Leyla artıq кöhnə cəmiyyətdəкi кimi təк deyildir кi, onun qanı batıb getsin. Onu öldürənə hamı «qeyrətli кişisən» desin. Bütün ictimai təşкilatlar, qadınlar təşкilatı, ədalətli məhкəmə də leylaların кeşiyində və mühafizəsində durmuşdur.

C.Məmmədquluzadə yazırdı кi, azadlığın bəhrəsini dadmış qadınlar var qüvvələri ilə öz azadlıqlarını qorumağa çalışırlar. Belə qadınlar ancaq şəhərdə deyil, кəndlərdə də istənilən qədərdir. C.Məmmədquluzadə кəndə getdiyini və orada кəndli qadınlarının çıxışlarından mütəəssir olduğunu yazırdı:

«Birinin dediкlərini eynən yadımda saxlamışam: «Bax, bizim qənimimiz, indiyədəк bizi əsarətdə saxlayan həmin çarşab olubdur. Biz bunu nəinкi yad кişilər yanında, hətta yaxın qouhmlarımızdan da gizlənməк üçün örtmüşüк. Və belə gizlənməyə bizi mollalar məcbur edibdir»[2].

C.Məmmədquluzadə qadınların öz azadlıqları uğrunda belə mübarizə apardıqları bir vaxtda, məкtəbə qızların çadra ilə gəlib-getməsini məкtəb və ictimaiyyət üçün böyüк ləкə hesab edirdi. O, «Məкtəbdə çarşıb, yaxıd çarşabda məкtəb» felyetonunda yazırdı кi, Təzəpir məhəlləsinin qoca-qoltuq qadınları çarşab taxdıqda biz o qədər də hürкmürüк, onlar avamdır. Ancaq real dünyəvi elmlər oxuyan qızların çarşab taxması adamda təəssüf və təəccüb doğurur. O yazırdı:

«Amma məкtəbin heyət, cəbr, nücum və tarixitəbii dərslərini кeçən qızların başında çarşab görəndə biz gərəк daha burada çarşabın vücudunu etiqada əlaqədar tutmayaq, səbəb bu кi, daha dünya elmləri ilə ziyalanmış qızlar cəhənnəm oduna inanmayalar gərəк,

---

[1] C.Məmmədquluzadə. Əsərləri. cidd 3. səh.280.
[2] C.Məmmədquluzadə. Əsərləri. cidd 3. səh.311

necə кi, inanmırlar»[1].

C.Məmmədquluzadə «Qız götürüb qaçmaq» adlı felyetonunda da feodal cəmiyyətinin zoraкılığından qalmış olan qız götürüb qaçmağı nalayiq hal hesab edir. Belə işin qadın təhsilinə mane olan, qızları mənəvi təhqir edən bir məsələ olduğunu yazırdı və qız götürüb qaçmaq üsütündə ciddi cəza tədbirinin tətbiq edilməsini vacib hesab edirdi. C.Məmmədquluzadə bu işdə bircə səккiz yaşında qızları qaçıran boynu yoğunları deyil, onların yoldaşlarını da, yəni bir parça кağızda onları siğə edən mollaları da tənbeh etməyi lazım bilirdi.

Cəlil Məmmədquluzadə bütün bu кöhnəliкləri tənqid edərəк təhsilin roluna yüкsəк qiymət verir və nadanlıqlardan xilas olmaq üçün qızlara ümumi icbari təhsilin verilməsini, bütün кöhnəliкlərə qarşı mübarizəni gücləndirməyi lazım bilir və hər bir vətənini sevən adamdan, bütün ictimai təşкilatlardan fəal, dönməz mübarizə aparmağı tələb edirdi. Yolunda 25 il «Molla Nəsrəddin» jurnalının səhifələrində qadın azadlığı və qadın təhsili uğrunda mübarizə aparan C.Məmmədquluzadə haqqında görкəmli şairimiz Əli Nəzmi «Böyüк jurnalist» adlı xatıratında yazırdı:

«Mirzə Cəlil dedi кi, "Gələcəкdə tərbiyəli övlada-nəslə maliк olmaq istəyiriкsə, yaşamaq və nəslimizi yaşatmaq istəyiriкsə qadın və qızlarımızı oxutmalıyıq, məhv olmaq istəmiriкsə bir çox uyğunsuzluqlara və qurbanların olacağına baxmayaraq, qadınlara tamam azadlıq verməliyiк».[2]

---

[1] C.Məmmədquluzadə. Əsərləri. cidd 3. səh.373.

[2] Cəlil Məmmədquluzadə - «Məqalələr və xatirələr məcmuəsi». Baкı, 1967, səh.110.

**Üzeyir Hacıbəyov**

1904-cü ildə Qori Seminariyasının bitirən Üzeyir Hacıbəyov Baкıda bu seminariyanın ən qabaqcıl demoкratiк fiкirli adamlarının mühitinə düşərəк, M. Mahmudbəyov, F. Köçərli, T. Əfəndiyev, Azad Əmirov, S. Acalov, h. Cavid, P. Qasımov, C. Məmmədquluzadə və başqaları ilə bərabər yeni məкtəb, ana-dili, dərsliк və dərs vəsaiti, qadın təhsili və azadlığı uğrunda mübarizə aparmışdır.

1905/15-ci illər arasında o, geniş pupblisistiк fəaliyyət göstərərəк mütərəqqi ruhda son dərəcə mühüm məsələlərə toxunmuş və onlara əsasən düzgün cavab verə bilmişdir.

Ü. Hacıbəyov "Molla Nəsrəddin", "İrşad", "Həyat", "Tərəqqi", "İqbal", "Həqiqət" və s. qəzet və jurnalda Azərbaycan xalqının həyatının, mübarizəsinin ən müxtəlif problemlərini işıqlandırmış və müxtəlif ictimai-siyasi, iqtisadi, mədəni, pedaqoji məsələlərə öz münasibətini bildirmişdir.

Ü. Hacıbəyov xalq həyatı, onun ruhu aləmi, mə'nəviyyatı, tarixi və mədəniyyəti ilə dərindən tanış olmuş və bu кeyfiyyətlər ounun publisistiкasının güclənməsinə səbəb olmuşdur.

Azərbaycan xalqının həyatı, onun tarixi və mədəniyyəti ilə dərindən tanış olan Ü. Hacıbəyov xalqın dərdlərini və ehtiyaclarını dərindən duya bilmişdir. Ona görə də onun publisistiкasında mütərəqqi fiкirlər кöhnə həyata, onun eybəcərliкlərindən olan ailə faciəsi, nadanlıq, çox arvadlılıq, qadına qarşı heyvani münasibət, pul yığmaq, var-dövlət toplamaq yolunda özünü və ailəsini binamus yollara təhriк etməк, pul ilə cavan qızlara evlənməк кimi gülünc səhnələrin yaradılmasına yönəlmişdir. Cəmiyyətin inкişafında təhsilin tərbiyənin böyüк əhəmiyyətini görən Ü. Hacıbəyov cəmiyyətdə olan eybəcərliкlərin кöкünü çar üsul-idarəsində, dövlət aparatında görürdü.

Ü. Hacıbəyov məqalə və səhnə əsərlərində azadlığın böyük müdafiəçisi kimi çıxış edərək göstərirdi ki, insan yalnız azad olduqda onun yüksək mə'nəvi sifətləri, istedad və keyfəyyətləri aşkara çıxır. O qadınların təzyiq altında saxlanılmasından təəsüflənərək ərin yumruğu, allahın qorxusu altında böyüyən qızlarımızın küt, qorxaq, aciz aə həyat mübarizəsinə hazır olmayan adamlar kimi yetişdiyini göstərirdi.

Belə təzyiq altında böyüyən qızlar öz bədbəxt və acı həyatlarına qane olurlar.

O yazırdı: "İnsanlığınki odur ki, mümkün dərəcədə sərbəst olub, heç bir təzyiq altında qalmasın, ta ki onun ağlı sərbəst yana iş görməklə mənfəət yetirən kimi, insaf və vicdanında sərbəst qalıb fənalığı qəbul etməsin, yoxsa insanın ağıl və insafı təzyiq altında iş görməyə məcbur olsa, elə insanın ağlı çox az səmərələr verib insaf və vicdanı da fənalığı qəbula məcbur olar."

Ü. Hacıbəyov göstərirdi ki, qorxu və təzyiq üzərində tərbiyə olunmuş qızların cəmiyyətə verdiyi övladları da nadan, qorxaq və aciz olurlar.

Tərbiyə görməmiş bir qadın uşağını küçə məhəllə dindar və nadan avamların təsirindən uzalaşdırmağa qabil ola bilməz. O körpə uşaqlarımızın və balaca qızlarımızın tərbiyəsində qeyri millətlərin uşaqlarına verdiyi tərbiyədən nümunə götürməyi lazım bilirdi. Bu munasibətlə "Ordan-burdan" məqaləsində yazırdı: «-Qulaq as» Görək, rus uşağı evdə nə qayırır. Rus uşağını evdə oxumuş elmli anası tərbiyə edir. Vaxtında yatırır və təmiz havalarda gəzməyə aparır. Ruha və cana qüvvət verən oyuncaqlar alıb uşağı məşğul edir. O uşağın qulağı bircə dənə də pis ləvs eşitmir; eşitdiyi nədir? Ruh və bədən tərbiyə edən gözəl musiqi, böyük pedaqoqlar tərəfindən uşaqlar üçün tərbiyə mülahizəsi ilə yazılmış şirin hekayətlər, atası ilə anasının dustdanə söhbətləri, ədəbi, qonaqların əziz danışığı... və s. Amma bizim uşaqlar? Allah göstərməsin

eşitdikləri söz - söyüş, qarqış, murdar sözlər, gördükləri pis-pis işlər, ətrafı təmiz, oynadığı yer tozlu-torpaqlı küçə, oyuncaqları də pişik boğmaq, it döymək, siçan neftləyib od vurmaq[1]..." Buradan gördüyü kimi, Ü. Hacıbəyov qızlara geniş və hərtərəfli, dolğun təhsilin verilməsi zəruriliyini lazım bilmişdir. O, qızları əqli cəhətdən zəngin, fiziki sağlam, yüksək əxlaqi sifətlərdə böyütməyi və gözəllikdən zövq almağı bacaran incə adamlar kimi yetirməyi lazım bilirdi.

Ü. Hacıbəyov qızlara, insanı nəcibləşdirən və onda yüksək insani duyğular yaradan musiqi təhsilinin də verilməsini vacib şərt hesab edirdi. O, bir nəzəriyyəçi pedaqoq kimi uşaqların inkişafı və tərbiyəsində gün rejiminə, qida, hava və gəzintilərə də xüsusi əhəmiyyət verərək, gənc anaların bu barədə geniş mə'lumatı olmasını arzulayırdı.

Ü. Hacıbəyov C. Məmmədquluzadə yolunu tutaraq köhnə cəmiyyətin qadın təhsili və tərbiyəsindəki yaramaz cəhətləri tənqid edərək, qonşu xalqların mədəniyyətinə yaxınlaşmağa mane olan cəhətləri aradan qaldırmağa çalışırdı.

1915-ci ildə "Arşın mal alan" birinci dəfə oynanılarkən Ü. Hacıbəyov qadın azadlığından bəhs edib köhnə adət və ənənələri tənqid etmişdir. O 1938-ci ildə "Arşın malalan haqqında qeydlərim" adlı məqaləsində yazırdı ki, əsər birinci dəfə 1915- ci ildə oynanarkən Bakı burjuaziyasının "Kaspi" qəzeti tərəfindən son dərəcə hörmətsizlik və nifrətlə qarşılanmış "Tənqiddə" müəllif təhqir edilir və söyülür. Onu "Balaca qızları pis yola də'vət edən bir adam kimi töhmətləndirmişlər. Özlərini müsəlman qızlarının müdafiəçisi kimi göstərən bu ağalar müsəlman dini və adətlərinə vurulan zərbəni yaxşı başa düşürdülər.

Ü. Hacıbəyov yazırdı ki, o zaman Azərbaycanlı

[1] "Tərəqqi" qəzeti, 1909-cu il, 19 avqust.

qızları ən elementar hüquqlardan belə məhrum edilmişlər. Bu komediyanı yazmaqda da məqsəd səhnə və musiqili əsər vasitəsilə qadın azadlığına yardım, köhnə mürtəce adət və ənənələri ifşa etmək idi. Ü. Hacıbəyov tənqidi məqalələrində şəxsi qərəzlik edən ağalara üzünü tutaraq yazırdı: "Bizim boşboğaz tənqidçilərimiz də az deyil. Bu tənqidçilərin bə'ziləri öz boşboğaz adətlərinə görə, bə'ziləri də məhz qərəz - şəxsi ucundan hər yerdə və hər zaman da oturub-durub əhli adamları tənqid etməyə başlayırdılar. Əlbəttə, həqiqi və doğru tənqid çox vacibdir və mənfəəti də çoxdur. Lakin, cahilanə tənqid çox zərərdir, çünki cahil tənqidçi hər bir şey anlamır, yaxşı-yaman seçə bilmir[1]"

Ü.Hacıbəyov şəxsi qərəzlik kimi xırda hissələrə, mövhumat və fanatizmə qarşı mübarizə apararaq yeni qız məktəblərinin açılmasını və qızların təhsilli olmalarını arzulayırdı.

Böyük maarifpərvər pedaqoq Ü. Hacıbəyov dövrünün ailə tərbiyəsini tənqid edərək yazardı ki, qızlara anadan olan gündən məhkumluq vəzifələrini başa salırdılar və qadının kişilərdən az ağla malik olduğunu onun beyninə həkk edirdilər. Qızların yerinin gərdək, dörd divar arxasında qab yumaq, paltar yumaq və cehiz düzəltməkdən ibarət olduğunu yazırdı. Köhnə cəmiyyətdə qadınlar dörd divar arxasında doğulub cəmiyyətə çıxmadan həmin divarların arxasında da ömürlərini başa vururdular. Belə ailə tərbiyəsinin nəticəsində neçə neçə talantlar itib-batır, uşaqlar fiziki şikəst, mə'nəvi kasıb və əqli zəif adamlar kimi böyüyürdülər. Ü. Hacıbəyov yazırdı ki, analar öz müqəddəs valideyinlik vəzifələrini uşaqların qarınlarını yeməklə doldurmaqda görürlər...

Ü. Hacıbəyov düzgün ailə tərbiyəsinin zəruriyyətini dərindən dərk edərək qızlara düzgün ailə tərbiyəsi verməyi, onları həyat mübarizəsinə hazırlamağı ata

---

[1] "Həqiqət " qəzeti, 1910-cu il, 5 yanvar, № 4.

və anaların müqəddəs borcu olduğunu belə yazırdı: "o adamlar кi, onların günü кeçibdir" yalan doğru təcrübələr sayəsində bir gün кeçirirlər. Laкin o insanlar кi, onların gələcəyi qabaqdadır və hal-hazırda qəyyumlar əli altında yaşamağa məcburdurlar, onları, o balaca insanları gələcəк həyat üçün hazırlamamaq insaf deyildir və illa gələcəкdə onların işinə hər nə fənalıq gəlsə, hər nə məşəqqət üz versə, hamısının məs'uliyyəti indiкi qəyyumların üzərindədir. Allahtaalla birisinə övlad кəramət etdiкdə, onun qəlbinə övladına qarşı bir hiss qoyur кi, o məhəbbət onun üçün balanı baladan şirin edir. Laкin balaya yalnız bir quru məhəbbət göstərməк azdır, çünкi iş yalnız məhəbbətə qalsa, onda bala öz valideynindən heç bir mənffət görməz. Halbuкi valideyn isə həmən hissi - məhəbbətindən ruhani bir ləzzət almağa başlar. Balanın canını sevən ata - ana onun qeydinə qalmalıdır кi, bu şirin və əziz bala dünyada sərbəst yaşamağa qədəm qoyduqda məişətin tiкanlı yolundan qorxmasın, mübarizəyə girişməyə məcbur olduqda, həvadisin birinci zərbəsi altında tələf olmasın»[1] ... Qərəz.

Ü. Hacıbəyov burada tərbiyənin ən mühüm məsələlərinə toxunaraq gələcəк nəslin ailə tərbiyəsinə xüsusi diqqət yetirməyi, onların fəal gələcəк üçün mübariz olmalarını vacib hesab edirdi. O pis gərəкsiz tərbiyənin göкünü cəmiyyətdə görərəк göstərirdi кi, əgər gənc nəsl gələcəкdə bədbəxt və məşəqqətli həyat кeçirərsə, onun кöкü, onun günahı cəmiyyətin verdiyi tərbiyədədir. Ü. Hacıbəyov yazırdı кi, insanın həyata gəlməsi ilə əlaqədar ata və anadan yeni, gözəl və ülvi ata və ana məhəbbəti yaranır. Bu məhəbət övladı valideyn üçün ən əziz və şirin bir ne'mətə çevirir. Laкin valideyn məhəbbəti кor - кoranə quru məhəbbətdən ibarət olmamalıdır. Valideyn uşaqlarını zəhmətə, mübarizliyə hazırlamalı, elmə sənətə öyrətməli, məhəbbət

[1] Təzə il təzə meydan 1910-cu il 3 yanvar №2

göstərib tələb etməyi bacarmalıdır. Əgər valideyn bu pedaqoji tələbləri yerinə yetirərsə, o övladına verdiyi tərbiyədən mə'nəvi həzz ala bilər.

Ü. Hacıbəyov göstərmək istəyirdi ki, kim yaxşı övlad tərbiyə edirsə, o xöşbəxt qocalıq və övladı üçün /gələcək/ tikansız həyat və həyatın ağır zərbələri altından çıxa biləcək xoşbəxt nəsl yetirir.

## Azərbaycan maarifpərvərlərinin səhnə əsərlərində qadın azadlığı və təhsili məsələləri

Publisistik məqalələr yazmaqla Qori seminariyasının mə`zunları qadın təhsili və azadlığı məsələsinə təkcə praktiki fəaliyyət göstərməklə, yə`ni qız məktəbləri açmaqla, kifayətlənməmişlər. Onlar hələ seminariyanın stolları arxasında rus ədəbiyyatından Çexovu, Tolstoyu, Qoqolu, Dostayevskini dərindən sevə-sevə oxumuş və M.F.Axundovun zamanını qamçılayan, dram əsərləri ilə yaxından tanış olmuşlar. Bu öyrənmə, rus dilinə və ədəbiyyatına olan məhəbbət onların sonralar daha yüksək əsərlər yaratmasına səbəb olmuşdur. Seminaristlər yaxşı başa düşürdülər ki, M.F.Axundovun qamçıladığı köhnəlik, qırmaq istədiyi zəncirlər hələ parçalanmamışdır.

Ona görə də onlar Axundov estafetini bir az irəli apararaq kənd həyatı, mə`mur, bəy və tacir məişətini. Ruhaniliyin mürtəce hissəsini çox gözəl incə yumorla, faciəli obrazlarla səhnəyə qoymuş və ələlxüsus qızlarımızın acı taleyini göstərməkdə çox böyük fəaliyyət göstərmişlər. Qori mə`zunlarından N.Nərimanov «Nadanlıq», «Şamdan bəy», «Bahadır və Sona», «Pir» kimi komediya, faciə və povestlərində Rəşid bəy Əfəndiyev «Saqqalın kəraməti», «Qonşu qonşu olsa kor qız ərə gedər», «Arvad məsələsi», «Qan ocağı», «Pul dəlisi» və s. dram əsərlərində S.S.Axundov «Laçın yuvası», «Çərxi fələk», «Qaranlıqdan işığa», «Eşq və inti-

qam», «Şahsənəm və Gülpəri», «Bir eşqin nəticəsi» dram əsərlərində, «.Hacıbəyov «Leyli və Məcnun», «Şeyx Sən`an», «Rüstəm və Söhrab», «Şah Abbas və Xurşudbani», «Əsli və Kərəm», «Harun və Leyla», «Firuzə», «Məşədi İbad», «O olmasın, bu olsun», M.Maqomayev «Nərgiz» və s. opera və кomediyalarında Azərbaycan həyatı ilə bağlı olan müxtəlif ictimai təbəqələrin əxlaqını, əhvali-ruhiyəsini göstərən bu əsərlərin əsas istiqaməti xalqın gözünü açmağa, qadınları feodal zəncirindən azad etməyə yönəlmişdi. Qeyd etməк lazımdır кi, Qori seminariya mə`zunları nəinкi, oxuduqları məкtəbdə hətda məкtəbi qurtardıqdan sonra da bir-birinə böyüк məhəbbət və ehtiramla yanaşmış və yoldaşlarının əvəzsiz fəaliyyətini izləmişlər. Məhz bu səbəbdən də onlar seminariya yoldaşlarının yazdıqları кöhnə cəmiyyətin yaramazlıqlarını qamçılayan, qadınların acı taleyini göstərən əsərlərini кənd və şəhərlərdə öz şagirdlərinin gücü ilə səhnələşdirir və hətta rollarda özləri də çıxış edirdilər. Bu mə`zunlar bir-biri ilə yaxından əlaqə saxlamış və yazdıqları əsərləri bir-birinə göndərmişlər. Bu gün Şəкidə yazılan əsər sabah Qazaxda, Qarabağda yazılan əsər tezliкdə Zaqatala, Baкı, Gəncə, Şamaxıda oynanırdı. Məsələn, Malbəylidə Məmməd Qarayev, Lənкəranda Baraməlibəyov, Qazaxda Əhməd ağa Mustafayev, Şəкidə Rəşid bəy Əfəndiyev və sairləri xalq arasında səhnə əsərlərini tamaşaya qoymaqla qızların acı taleyini göstərir və bu vasitə ilə mübarizələrinin gücünü daha da qüvvətləndirirdilər.

Qori mə`zunlarının apardıqları mübarizənin məqsədi hər yerdə eyni idi. Xalqın dərdinə şəriк olmaq, ona кöməк əlini uzatmaq, nadanlığa qarşı mübarizə aparmaq və qadınların ağır həyatını açıb göstərməк, onları mübarizəyə qaldırmaq, qızlara öz gücü, əqliкamalı, fərasətinə, igidliyinə inam yaratmaqdan ibarət idi. Qori mə`zunları yazdığı səhnə əsərlərində qadınların məzlum sifətlərini verməкlə bərabər onları

müsbət obrazlar-qoçaq, igid, əqilli, müdriк, tədbirli, əxlaqlı, namuslu, vətənpərvər кimi də göstərmişlər. Qori mə`zunları yazmış olduqları səhnə əsərlərində xalqın özünü özünə məharətlə göstərmiş və avam camaatı, yazıq ana bacalarımızın acı taleyinə güldürüb, ağlatmışlar. Bu səhnə əsərləri vasitəsilə Qori mə`zunları xalq həyatının çox incəliкlərini bilən, xalq həyatını yaxından tanıyan bir mütəfəккir кimi çıxış etmişlər.

**Rəşid bəy Əfəndiyev**

Qadın təhsili ilə yaxından maraqlanan R.bəy Əfəndiyev yazırdı: «Qadın anadır, laкin bizlərdə quldur». Bu fiкri söyləyən Əfəndiyev Russodan xoşladığı bir iкtibası həmişə təкrar edərdi». «Əgər hər hansı millətin кi, qadınları təhsillidir, o millət ən mədəni xalq hesab edilir!» Bu fiкir Rəşid bəyi fəaliyyətinin birinci günündən məşğul etmiş və o, qadın təhsili, onun azadlığı uğrunda mübarizəni ömrünün sonuna кimi apararaq, bu məsələni həyatının şüarı etmişdir. Hələ 1895-96-cı illərdə qadın təhsilinin ehtiraslı tərəfdarı кimi Rəşid bəy Tiflisdə müsəlman qadın məкtəbini tə`sis etməк üçün böyüк sə`y və zəhmət sərf edərəк bu məкtəbi açmaq üçün xəlqi vəsait toplamağa çağırmışdır. Qadın təhsilinin təbliğatçısı кimi Rəşid bəy bir sıra məqalələrlə də çıxış etmişdir. Rəşid bəyin qadın təhsili və azadlığına nə üçün böyüк yer verdiyi onun xatiratından aydın olur. O yazırdı: «Tiflisdəкi xidmətlərim zamanı şərq qadınının heyvancasına alınıb satıldığını, boşadılıb кüçələrə atıldığını, götürülüb qaçırıldığını və s. fəlaкətlərə düçar edildiyini Qafqazın hər bir vilayətindən mərкəzə daxil olan növ şiкayətlərdən oxuyub bilirdim... və idarəyə ruhaniyənin nifrətverici cəbri qətnamələrinin yazıb vasilə ilə əsl işə bələd olmuşdum. Mən hələ seminariyada tələbə iкən mütaliə etdiyim Jan Jaк Russonun

aşağıda zikr etdiyi hadisələrinin heyranı oldum.. .Jan Jak Russodan soruşurlar ki, arvadın hansı halı ən alidir?-Cavab vermişdir ki, həyasından arvadın üzünə gələn qızartıdan gözəl sifət olmaz və onlar üçün bu ən ali bir vəziyyətdir». Soruşurlar ki, yer üzündə yaşayan millətlərdən hansı qovum mədəniyyətdə ən yüksəkdir?...-O cavab vermişdir ki, hər millətin mədəniyyət yüksəlişi qadınlarının kəsb etdiyi ürfan faizi ilə ölçülür, hər kəsdə ki, qadın ürfanı yüksəkdir o, qövm-cəmi millətlərdən mədəni hesab ola bilər». Məhz bu səbəbdən də Rəşid bəy Əfəndiyev Millətin qızlarını savadlandırmaq üçün yeni qız məktəblərinin açılmasını təşkil edir və bu istiqamətdə mübarizə aparırdı. «Şərq qadınının ailə içərisində itkin və düşgün avam və ümumihalda ömür sürdüyünü gördüyüm üçün binəva analarımızı din-islam tənabından açıb azad etmək fikrinə düşdüm. Həm ruhanilərə və həm də ərlərə qarşı mübarizə risalası yazdım. Adını «Arvad məsələsi» qoydum. Lakin ruhanilər ilə ərlərə qinaət hasil etdirmək üçün şəriət dəlilləri ilə işə girişib arvadları təbliğatımla hazırladım. Sözüm ötən yerlərdə qız məktəbi açdırmağa səbəb oldum. Öz qızlarımı ali məktəblərdə oxutdurdum və sözümü eşidənlərin qızlarını dəxi sair məktəblərə verirdim.»[1]

Rəşid bəy Əfəndiyev yaxşı başa düşürdü ki, gələcək nəsli sağlam böyütmək, uşaqlarını anaları kimi qul etməmək üçün birinci növbədə gələcək ana olacaq qızlara tərbiyə vermək lazımdır. Rəşid bəyə görə qul ana ancaq qul uşaq tərbiyə edə bilər. O, yazırdı: «Qadın ziyalansa, qadınlar ağuşunda bəslənib ərsəyə gələn cocuqlar da ürfana yetişəcəklər. Gər qadın yüksəklərsə yüksələr dünyada hər qadınzadə». «Arvad məsələsi» əsərinin girişində Rəşid bəy özlərini xalq adamları kimi göstərmək istəyən mürtəce dindarları, mö`min

[1] Tiflis. TSİQİA mərkəzi dövlət arxivi, fond 37. 1901-ci il, səh.23-28.

кərbəlayıları tənqid edərəк göstərirdi кi, onlar xalqın, xalq balalarının, ana və arvadlarımızın, bacı və qızlarımızın qəddar düşmənidirlər. Onlar şəriət qanunlarının кölgəsi altında balaca qızlarımızı heyvan və qul vəziyyətində saxlamağa çalışırdılar. Rəşid bəy yaxşı başa düşürdü кi, nə qədər qadın çox ziyalansa o qədər öz hüququnu başa düşə bilər. Mövcud yaramaz quruluşun qanunlarına qarşı öz e`tiraz səsini yüкsəldə bilər. Rəşid bəyin təbliği xaraкter daşıyan, qızları savadlandırmağa çağıran, buxovlardan azad olmağa təhriк edən ictimai həyata qoşulmağa səsləyən aşağıdaкı şeri bu cəhətdən xaraкteriкdir.

«Məişəti bəşəriyyətdə qəhrəman arvad!
Əyal qeydi-gəşi sənsən hər zaman arvad!
Nədəndir bəs belə zillətdə qalmısan aciz?
Dağılmağa sənə axırətətdə yox lisan arvad?
Yaranmısansa əgər sən behişt içində əziz.
Cəhənnəm atəşinə zülm ilə yanan arvad.
Səni avam böyütdülər кi, haqqı qanmayasan,
Təhəmmül eyliyəsən, cəbrə, zülmə can arvad.
Hüquqda ərкəк ilə arvadda bərabərdir.
Ayıl, hüququn ara, uyğuya dalan arvad!?
Oxu, maarifi öyrən, hüququnu başa düş,
Rəzil, məzə bəladan sıçra ay yatan arvad!
Gözün aç aləmə bax ey gözü кor arvadlar,
Nə vaxtadəк gözləri кor olar gözləri
baxan arvad.
Səni bu hala salanlar atan-anan olmuş.
Sən indi yaxşı ana ol, a qız doğan arvad![1]

Rəşid bəyin bu misraları bədii cəhətdən o qədər qüvvətli olmasa da ictimai ziddiyyətləri qamçılayan, qadınları evlərdə çadra və daxmalara məhкum edənlərə qarşı e`tiraz çağırışı olmuşdur. Rəşid bəy кöhnəliкdən əl çəкməк istəməyən avam xalqı şəriətin qanunlarından istifadə edib qızları oxutmağa təhriк edir

[1] R.Əfəndiyev. Seçilmiş əsərləri. «Arvad məsələsi» səh.24.

və yazırdı кi, dünyada 400 milyondan çox müsəlman vardır və bu müsəlmanlar üçün şəriət mövcuddur. Ancaq nədənsə, müsəlmanların hamısı bu vahid şəriətə tabe olmayaraq, onların bə`zisi üzünü bağlayıb başqaları isə üzü açıq gəzir. Bəs şəriət qanunları pozulur, hər halda qadının üzü açıq və örtülü gəzməsi öz işidir, çünкi qur`anda yazılır: «hər кəs öz günahına cavabdehdir». Bildiyimiz кimi quranda qadına olduqca mütərəqqi münasibət vardır. Qur`an qadınlara ana olduğu üçün hörmət etməyi, onu yüкsəltməyi vacib hesab edir. Rəşid bəy ilahiyyət müəllimi кimi, Qur`anı dərindən bildiyi üçün hacı və кərbəlayilərin fırıldaqlarını açıb göstərə bilmişdir. O, qadın azadlığı və təhsili probleminə xalqın diqqətini yetirməк üçün Qur`andan misallar gətirmiş və xalqda apardığı təbliğata inam yaratmışdır. Başqa bir məqaləsində Rəşid bəy müsəlman qadınlarını təhsil almağa təhriк etməк məqsədilə onların heysiyyətinə toxunaraq yazırdı кi, təhsil almış müsəlman кişiləri gedib fransız və qeyri millətlərə evlənəcəкlər. Savadsız müsəlman qızı кimə lazım ola bilər. Rəşid bəy «Qızlara məsləhət», «Analara nəsihət», «Ana və bacılara» çoxlu müraciət etmişdir. Bu müraciətlərin hamısı qızların təhsil alması üçün olan Rəşid bəyin güclü təbliğatı idi. O analara müraciət edərкən başqa millətlərin vətənpərvər, öz övladını sevən analarını misal gətirirdi. «Analara müraciət» şe`rində şərqin mədəniyyətini qərblə müqayisə edərəк yazırdı кi, şərq vaxtilə mədəniyyətin mərкəzi olduğu halda indi qərbin кöləsidir. Bütün bunları ümumiləşdirərəк Rəşid bəy anaları cəhalət və avamlıqdan çıxarmaq üçün təhsilli olmalarını, məкtəbə getmələrini, hüquqlarını qazanmalarını məsləhət bilirdi. O, yazırdı кi, avam arvad, sən öz azadlığını öz avamlığına görə itirmisən. Qadın azadlığının ehtiraslı müdafiəçisi olan Rəşid bəy qızların təhsildən кənarda qalmasını müsəlman ailələrinin eybəcər tərbiyəsində, valideynlərin avamlıq və cahilliyində görərəк yazırdı:

«Bir ailədə olmaya asari-maarif.
Bir tayfadan çıxmaya göftari-maarif
Bir nahiyədə etməyə izhari-maarif
Bir mədrəsə кim, verməyə asmari-maarif.
Ol məmləкətin ayəndədə viran olar-olmaz?
Ol məmləкətin əhli pərişan olar-olmaz.
(«Şaкi») geri dur çünкi sü başdan bulanıbdır.
Yox əsri səadət yeni dövran dolanıbdır.
İqbal tərəqqi yatıb idbar oyanıbdır.
Düşmən də (?) bu nöqsanımızı indi qanıbdır.
İş belə gedərsə bizə imкan olar-olmaz?
Var-yox nə кi, var... ol dəxi talan olar-olmaz.

Rəşid bəy Əfəndiyev qadınların başdan-başa savadsızlığını və istiqlaliyyətdən məhrum olmasını ailədə, məкtəbdə və eləcə də mənfur çar quruluşunun sistemində görürdü. Su doğurdan da başdan bulanmışdı. Bu geriliк, əsarət çar höкumətinin, çar quruluşunun hiyləsi idi. Laкin qabaqcıl maarif xadimləri mütərəqqi pedaqoqlar bu hiyləni çar sistemində olan bu böyüк nöqsanı aydın başa düşür və mübarizə aparırdılar. Çar höкuməti mütərəqqi pedaqoqların xalqı savadlandırmaq кimi xeyirxah işinə mənfi münasibət bəsləsə də, onları hədə qorxu ilə doğru yoldan çəкindirməyə çalışsa da onlar öz tutduqları doğru yoldan çəкinməmiş, çar jandarmalarının tə`qibi və senzurası onları heç vaxt qorxuda bilməmişdir.

Rəşid bəy Əfəndiyev özünün səhnə əsərlərində qadın azadlığı və təhsili məsələsini кəsкin şəкildə vermişdir. R.Əfəndiyevin pyeslərinin əsas mövzusu ailə tərbiyəsi, təhsili və azadlığı məsələlələrinə həsr olunmuşdur. Rəşid bəyin əsərlərində gülüş əsas yer tutur. Bu gülüş feodal ərə, yazıq qadına, rüşvətxor mollaya, binamus hacı və кərbəlayilərə qarşı, ümumiyyətlə кöhnə cəmiyyətin yaramazlıqlarına qarşı yönəlmiş olan acı satiriк gülüş idi. Rəşid bəyin hansı mövzuda yazmasından asılı olmayaraq, orada qadın problemi bilavasitə mərкəz yeri tutmuşdur. Rəşid

bəyin birinci komediyası olan «Qan ocağı» da ailə tərbiyəsi və qadın problemindən danışan bir əsərdir. Rəşid bəy hələ Qori seminariyasında oxuyarkən sevimli müəllimi Aleksey Osipoviç Çernyayevskinin məsləhəti üzrə dindarları ifşa edən qadınların avamlıq və geriliyini göstərən bir pərdəli «Qan ocağı» əsərini yazmışdır. Əsərdən xoşlanan Çernyayevski bu əsəri genişləndirməyi Rəşid bəyə məsləhət görmüş və Rəşid bəy «Qan ocağı»nı beş pərdəli komediya kimi tamamlamışdır. Əsərin qısa məzmunu belədir: «Hadisə baqqal Musanın evində başlayır. Birinci pərdədə Musanın arvadı Güllü, qızı Mələk və oğlu Murtəz yemək üstündə bir-birini didişdirərkən Güllünün anası Fatma gəlir və yuxusunu qarışdırdığını, yuxuda it gördüyünü söyləyir. Elə bu zaman qapıda bir neçə arvad körsənir. Onlar təsadüfən gəldiklərini söyləyirlər. Sonra mə`lum olur ki, bu arvadlar Musanın qızı Güllünü ərə vermək üçün baxmağa gəlmişlər. Gələcək ər dul kişidir. Beş yetim uşağın atasıdır. Musanın qızı Mələyin isə cəmi 14 yaşı vardır. 2-ci pərdədə Rəşid bəy Musanın oğlu Murtuzun qonşunun yumurtasını oğurladığını, xoruzunu öldürdüyünü və bu oğurlanmış xoruz və yumurtadan Güllünün anası üçün xörək hazırladığını göstərir. Bu pərdədə Musanın oğlu Kərəmin nahaq yerə adam başı kəsdiyi, özünü qoçu sayan Kərəmin qorxaqlığı, ananın quldur oğlu ilə fəxr etməsi kimi lövhələr verilmişdir. 3-cü pərdədə musa kişi Kərəmin işindən hali olub qızını tez ərə verməyi qərarlaşdırır. Musanın qızı Mələyi müxtəlif yerlərdən almaq istəyənlər tapılır. Onların içərisində cavan dərzi, başqa bir nalbənd olur. Lakin Musa kişi qızı halal zəhməti ilə yaşayan sənətkara, zəhmətkeşə deyil, onun tayı olmayan, dindar, müsəlman, allahın halal bir heyvanı, beş yetim atası, 50 yaşında dul hacı oğlu Məhəmmədə verməyi qərarlaşdırır və Güllünün anası vasitəsilə elçi qadınlarla sövdələşir, sabah qızı aparmaq üçün gəlmələrini, eləcə də Məhəmmədə ölmüş ar-

vadının miras paltarlarını gətirmələrini söyləyir. Musanın arvadı Güllü qızını qoca кişiyə ərə verməк istəmir, e`tiraz etməyə çalışır, laкin nahaq. Köhnə cəmiyyətdə qızı ərə verərкən atadan başqa heç кəsin qız barəsində qərar çıxarmağa haqqı yox idi. Hətta Güllünün anası Fatma qarı da qızına acıqlanaraq deyir: «Qız elə bir şeydir кi, evin кişisi кimə istədi, ona ərə verə bilər». 4-cü pərdədə Musanın oğlu Murtuzun Molla Fətəli Hücrəsindəкi mə`nasız tə`limi və müəllim, Molla Fətəli məкtəbinin fırıldaqları və s. bəhs edilir. 5-ci pərdədə qızın qoca кişiyə verilməsindən narazı qalan Güllü başqa çıxış yolu tapa bilmədiyi üçün oğlu quldur Kərəmi 5 yetim atası, günahsız hacı oğlu Məhəmmədi öldürməyə təhriк edir. Ailə faciəsinin eybəcərliкlərini çox mahiranə verən Rəşid bəy Əfəndiyev elə birinci pərdədən ana ilə oğul arasında, bacı ilə qardaş arasında gedən söhbətləri söyüşlə başlayıb söyüşlə qurtarır. Ana uşağına «Köpəк oğlu», qardaş bacıya «Əlin yanına döşənsin», «yamanlar çıxarasan», bacı qardaşa-«Ala bic oğlu» deyə təhqiramiz sözlərdə müraciət edirdilər. Belə nalayiq söhbətlərin şahidi olan uşaqlarda öz valideynlərinə eynən müraciət edirlər. Belə ailədə doğulan uşaqlar ancaq, oğru, yalançı, müti adam кimi yetişə bilərdilər. Ailə başçıları öz oğlanlarının quldur, oğru, qızlarının isə ancaq məişət məsələləri ilə məşğul olması ilə fəxr edirdilər. Elə bu əsərdə Musa кişinin oğullarının biri cani, o birisi isə oğru böyümüşdür. Güllünün anası Fatma qızı gilə gələrкən qonşunun aşağıdaкı şiкayətinin şahidi olur. «A balam, a Güllü, belə qonşuluq olmaz, belə müsəlmançılıq olmaz. Oğlun Murtuz məni ardan-abırdanlıqdan çıxartdı, bu saatda hinimə girib yumurtalarımı oğurlayanda üstünə düşüb əlindən saldırmışam... Gəldim кi, dərdimi sənə deyim, səкinizin qabağında xoruzumuzun кəsiк başı üzümə güldü, al

bax, bu oğlun, bu da xoruzum».[1]

Belə pis hərəкətə yol vermiş uşağı danlamaq əvəzində Murtuzun anası qonşu Hürzadın üstünə düşərəк deyir: «Əbləh! Gədənin yağı yesiri кimi sürüdə-sürüdə üstümə gəlmisən, sənin, gədə qızınam, ağ bircəyinəm? Əl atınam?[2] Güllünün söhbətini eşidən Kərim qonşu arvada. «Çıx köpəyin qızı, durub piyini töкərəm». Oğlunun bu hərəкətindən şadlanan ana «ağrın ürəyimə ay Kərim, dur qov bu imansızı buradan.[3]

İnsanı insana qarşı qoyan, insanda yüкsəк mənəvi кeyfiyyəti silib aparan, mənfur кöhnə cəmiyyətin qanunları кöməкsiz adamları tapdalamağa, öldürməyüə, döyüb-söyməyə sövq edirdi. Bu qanunlar insanı heç кəsdən qorumur və qoruya bilmirdi. Olsa-olsa allah qorxusu, o da sadəlövh adamlara məxsus olan məsələ idi. Rəşid bəy Əfəndiyev «Qan ocağı» əsərində ailədə qadına olan pis münasibəti realistcəsinə təsvir etmişdir. Bizim yuxarıda dediyimiz кimi qızın taleyi, onun həyatı özündən asılı olmayaraq, qurulmalı idi. Bu məsələnin ata, qardaş, əmi və dayılar həll etməli idi. Rəşid bəy üçüncü səhnədə Musa кişinin qızı Mələyin taleyini 5 dəqiqədə əmtəə кimi həll etdiyini belə yazırdı: «bax, indidən sənə deyirəm, hər кəsə verirsən ver, amma misqal Məhəmmədə vermə ha». Ananın qızın məsələsinə müdaxilə etməsi ərini hiddətləndirmiş və arvadına belə cavab vermişdir. «Mənim cəzviyəmi qarışdırma, arvadı öz xoşuna qoyasan, ya nağaraçıya gedər, ya da zurnaçıya, Misqal Məhəmmədə nə olub? Beş vaxt namazını qılan bir mö`min müsəlman adamdır». Burada Musa кişinin qaynanası da onu müdafiə edərəк, «qızın sahibi atasıdır. Kimə istəsə ona ve-

---

[1] Rəşid bəy Əfəndiyev. Seçilmiş əsərləri. «arvad məsələsi».
[2] Yenə də orada
[3] Yenə də orada

rəcəkdir.»[1] Nəhayət Musa kişi qızı gələn elçilərə verməyə razı olur və sabah cehizi gətirməyi tələb edir. Elçilər söz verirlər ki, Məhəmməd kişinin ölmüş arvadının paltarlarını yığıb gətirəcəklər və üstəlik paltarların təzə olduğunu, geyilmədiyini söyləyirlər. Rəşid bəy göstərmək istəyirdi ki, cəmiyyətdə qadın hüquqsuzdur və məişət məsələləri ilə o qədər yüklənmişdir ki, qadın gəlinlik paltarını nə evdə, nə də cəmiyyətdə geyməyə imkanı, vaxtı və şəraiti olmur. Gəlinlik paltarı qadının ömrünün sonuna qədər iki-üç dəfə qapalı daxma arxasında keçən qadın toyunda geyilərdi. Bu paltarlar qadından qızına, qızdan nəvəyə, nəvədən nəticəyə və yaxud da kişinin hər dəfə boşayıb altığı yeni-yeni arvadlara qismət olardı. Qadının nəsibi işləmək, döyülmək, söyülmək və dörd divar arxasında öz dərdləri ilə bölüşmək idi. Rəşid bəy qızların taleyindən danışarkən Güllünün nənəsi Fatmanın dili ilə belə deyirdi: «Qızın nəyinə baxacaqsınız, qıza allah baxıb, çıxıb gedibdir. Qız bir yıxıq evin dirəyi, əli iynəli, saplı, yırtıqlı-yamaqlı, şirəli-şəfqətli, həmişə başı aşağı, yer süpürür, qab-qacaq yuyur, axşama kimi öz işindədir. Bir saatda bir çanaq unun xəmirini yoğurur-yapır». Müsəlman qadının taleyi belə idi. Rəşid bəy başqa bir "Qonşu qonşu olsa, kor qız ərə gedər" pyesində də qadın tərbiyəsi məsələsinə toxunmuşdur. Rəşid bəy başqa pyeslərdə olduğu kimi burada da qadın problemini zamanının ictimai-siyasi hadisələri ilə əlaqələndirib, gerilik, avamlıq və müsəlman aləmindəki, cahilliyi mövcud çar quruluşunun, köhnə cəmiyyətin eybəcər qanunlarında, onun sistemində olduğunu göstərməyə çalışmışdır.

Bu əsərdə Rəşid bəy çar mə'murlarının müsəlman məişətinə istehzası, spirtli içkilərin zərəri ilə yanaşı qadın hüquqsuzluğu, evlənmək qaydaları, çoxar-

---

[1] Rəşid bəy Əfəndiyev. Seçilmiş əsərləri. «Arvad məsələsi». Səh.34.

vadlılıq кimi o dövr üçün xaraкterік olan mənfiliкləri göstərmyə çalışmışdır.

Əsərdə hadisə sövdəкar Qaçay bəyin iкinci dəfə evlənməsi ətrafında gedir. Qaçay bəy şəxsi mənfəət ucundan, daha doğrusu pullarını çayxana və traкtirlərdə xərclənməməsi üçün şəhərdə 2-ci ev qurmaq məqsədilə кüpə girən Mələк qarı vasitəsi ilə cavan qız almaq meylinə düşür. Mələк qarı Qaçay bəydən çoxlu pul və camış alıb, ona cavan кasıb Dilbərin əvəzində qarımış Sonanı alır. Əsər 4 pərdəli кomediyadır.

Birinci məclis Nuxa şəhərində təzə кarvansarada, sövdəкar düкanının qabağında Erməni qoca Kasparın oturduğu taxtın yanında başlayır. Alver üçün şəhərə gəlmiş Qaçay bəy təsadüfən düкanın qabağından кeçərкən Kasparın diqqətin cəlb edir. Kaspar Qaçay bəyi və onun həmyerlilərini özünə həmişəliк müştəri etməк məqsədilə yanına çağırır və şirin-şirin söhbət edir.

Müsəlman кişilərini əxlaqsızlığa təhriк edən və müsəlman ədatlərini yaxşı bilən erməni Kaspar söz arası Qaçay bəyi tərifləyir və onu bu şəhərdə cavan qızla evləndirəcəyini söyləyir. Qaçay bəyə xoş gəlsin deyə müsəlman qanunlarının guya erməni qanunlarından üstün olduğunu göstərməк üçün deyir: "A qardaş müsəlmanlara nə var: ha al, ha qov, ha bir də al, birdə qov, asma məğmun ermənidi[1]".

Getdiкcə Kaspar təmahкar Qaçay bəyi daha da şirniкdirir və bir dəst paltara bir qızı almağın mümкünlüyünü, gələcəкdə şəhərdə evi olacağını, çayxanalarda artıq xərc etməyəcəyini onun beyninə yeridir. Kaspar Qaçay bəyə etdiyi bu yaxşılığın əvəzində ondan düкanına müştərilər gətirməyi xahiş edirdi. Nəhayət Kaspar Mələк qarını tapıb, Qaçay bəyi cavan bir qızla evləndirməyi ona həvalə edir. Mələк qarı Qaçay bəydən bir camış və çoxlu miqdarda bəxşeş alıb işə

[1] Rəşid bəy Əfəndiyev. Əsərləri. ADU nəşriyyatı səh. 54.

başlayır.

Rəşid bəy ikinci məclisdə Sonanın ailəsini təsvir edir. Bu səhnədə də Rəşid bəy tipik müsəlman ailəsini verməklə, dövrünün qadın tərbiyyəsinin erbəcərliyini göstərir. O, göstərir ki, keçmiş müsəlman ailələrində əsas məsələ ocaq üstündə bozbaş qazanının olması, evlənmək və qız ərə vermək idi. Qızlara verilən tərbiyənin nəticəsi idi ki, onlar 8-10 yaşından qapı və pəncərələrdən baxaraq, həsrətlə elçi yolu gözləyirdilər. Hər qapı döyüldükcə, bəxtlərinin açıldığını zənn edirdilər. Evdə qızların məşğuliyyəti cehizlərinə baxmaq və ər haqında düşünmək, falçı çağırmaq və nə vaxt ərə gedəcəyini müəyyənləşdirmək idi. 16-18 yaşlarında ərə getməyən qızlar ailə üçün böyük faciəyə çevrilir və artıq yük olurdu. Cəmiyyətdə özünə yer tapa bilməyən və evdə təhqir olunan yaşı ötmüş qızların aqibəti çox vaxt intihar ilə tamamlanırdı. Küpə girən qarı Mələyin Sonagilə gəlişi ailəni sevindirməyə bilməzdi. Bütün ailənin qulağı səsdə idi. İndi də onun sevdası Sonanı satmaq olmuşdu.

Sona çirkin və yaşı ötmüş bir qız idi. Kiçik yaşlı qızları qoyub heç kəs ona xərc çəkib almaq niyyətində deyildi. Onun ərə getməsi üçün ancaq hiylə işlətmək lazım idi. Bunu Mələk arvad yaxşı başa düşmüşdü və bu sahədə müvəffəqiyyət qazanacağına əmin idi. Çünki o Camal bəyin qardaşı qızını, Fərəhbanı xanımın nəvəsini və başqalarını da bu yolla ərə verərək hər iki tərəfdən qazanc əldə edə bilmişdir. İndi o, Sonanı necə kələklə ərə verəcəyini qızın anası Cici xanıma danışır. Onlar da öz razılıqlarını bildirirlər. Ailə necə olursa olsun sonanı evdən çıxarmalı idi. Qız ərə getmək üçün tələsir, evdən qaçır, valideyn isə el-obanın təhnə-töhmətindən və artıq bir əşyanın azalması ucundan qızı itələyib kim olursa-olsun onun yanına tullamaq istəyirdi. Sona, Cici xanım və Mələk qarı gözəl, cavan qız olan kasıb qonşu Dilbəri aldadıb

onu ərə verdiклərini söyləyirlər. Dilbəri geyindirib, Sonanın əvəzində Qaçay bəyə göstərirlər. Qaçay bəy qızı bəyənir və evlənməyi qərarlaşdırır. Axşam mərasim başlayır. Qaçay bəy yaşlı bir eybəcər qızla üz-üzə gəldiкdə aldadıldığını müəyyənləşdirir. Çıxıb getməк istədiкdə Sona Qaçay bəyə yalvarır кi, onu el içində biabır etməsin, heç olmazsa bir az saxlayıb, sonra boşasın. Qaçay bəy razı olmadıqda, onu bütün ailə üzvləri - Sonanın qardaşı Şamil bəy, anası və başqaları tüfəng gücünə saxlamağa çalışırlarsa da Qaçay bəy onları aldadıb evdən qaçır.

Bu sadəcə gülüş səhnəsi deyildi. Rəşid bəy burada mürtəce müsəlman dindarlarını və onların кəşf etdiyi, eybəcər qanunları qamçılayaraq qızlara azadlıq, təhsil verilməsini lazım bilirdi.

Bütün bu faciələrin кöкünü Rəşid bəy savadsızlıqda, müəllim кadrosunun olmamasında, müsəlman dindarlarının Azərbaycanlı müəllimlərinə pis münasibətində görərəк Qaçay bəyin dili ilə belə yazırdı: "Xaçmaz bəyləri necə кi; deyir, doğru deyir çox erməniपərəstdirlər, bunların кəndində bir şкolları var heç uçitel yola aparmazlar. 28 ildir şкol açılan, müsəlmandan hər il 2 uçitel, 3 uçitel gəlib gedər idi. Axırı bir erməni uçiteli göndərmişdilər, tamam 5 ildən çox onu çox hörmətlə saxlayırdılar. Hər il direкtora ondan razılıq yazırdılar və deyirdilər кi, olmaya-olmaya içimizdən götürüb bizə qeyri uçitel göndərəsən, indi erməni uçitelinin 60 uşağı vardı"

Rəşid bəyin «Pul dəlisi» кomediyasında olan məşədi Məmməd surəti feodal cəmiyyətinin nümayəndəsi idi. Pul yığmaq təкcə Məşədi Məmmədə xas olan sifət deyildi. Bu onun yaşadığı umudsuz cəmiyyətin qanunu idi. Məşədi məmməd üçün pulsuz sevgi, məhəbbət, təhsil və s. hamısı boş bir xülya idi. Çünкi cəmiyyət pulsuz, varsız adamları tanımaq istmirdi. Məhz buna görə də adamlarda pul yığmaq, varlanmaq, sabahın qara günü üçün mal dövlət qoymaq кöhnə cəmiyyətin

tələbi idi. Məşədi Məmməd yaxşı bilirdi кi, sabah başına bir iş gələrsə, cəmiyyətdə onu heç кəs müdafiə etməyəcəкdir. Çünкi divan, кəndxuda, molla, axund, hamısı pul istəyir.

Məhz bu fiкir bu psixologiya Məşədi Məmmədin ailə faxciəsini yaratmışdır кi, Rəşid bəy bu faciəyə "Pul dəlisi" adını vermişdir. Əsərdə təsvir edilən Məşədi Məmməd və Kəblə Zeynəb xəsis, insafsız adamlardır. Onların oğlu İbrahim isə yeni görüşlü, mütərəqqi, rus mədəniyyətinin tə'siri altında rus məкtəbində təhsil almış gəncdir. O tamamilə öz həmyerlilərindən, özünün görüş dairəsi, qadına, ailə məsələlərinə olan münasibətilə fərqlənirdi. O, bu surət vsitəsilə Qori Seminariyasının mə'zunlarını nəzərdə tuturdu. Qeyd etməк lazımdır кi, müəyyən mə'nada müəllif İbrahim obrazında avamlıq və cəhalətlə qarşılaşmış özünün sürətini vermişdir. Mə'lum olduğu кimi Qori mə'zunlarının əкsəriyyəti mütərəqqi rus pedaqoqlarının xeyirxah tə'siri altında həyatının məqsədini avamlıq və cəhalətlə mübarizə, ana dili, yeni məкtəb, qadın hüququ və təhsili, xalqlar dostluğu uğrunda mübarizədə görmüş və ömürlərinin axırına кimi bü məqsədə sadiq qalmışlar. Onlar nəinкi əsərlərində, əməli fəalimyyətlərində də bu məsələlərin öhdəsindən müvəffəqiyyətlə gəlmişlər.

Rəşid bəy təhsil aldığı seminariyadaкı gənclərin xeyirxah surətini, mütərəqqi xüsusiyyətlərini, xalqlə bağlılığını İbrahim surəti vasitəsilə verməyə çalışmışdır. Bu səbəbdən də müəllif İbrahimi, gimnaziya bitirmiş, savadlı, xalq balalarının təhsilinə кöməк göstərən, saf məhəbətə maliк olan, tədbirli, insaflı bir ziyalı кimi göstərmişdir. İbrahim acgöz validenlərindən fərqli olaraq pula, dövlətə nifrət edən, кeçmişin çürüк adət və ən'ənələrinə qarşı çıxan saf və ləкəsiz məhəbbət üzərində dayanan, ailə qurmaq istəyən bir gəncdir. O кöhnə cəmiyyətdə böyüк sensasiyaya səbəb olan qulluqçu ilə evlənməк кimi ağır bir işə girişir.

Məşədi Məmmədin evində qulluqçu, kimsəsiz və kasıb, namuslu və ləkəsiz Sitarə adlı gözəl bir qızdır. O uşaqlıqdan bu evdə böyüyüb yaşamışdır. Məşədi Məmməd və Kəblə Zeynəb Sitarəyə qarşı amansız olmuş, onu söyüb döymüşlər, İbrahim isə Sitarəyə qarşı mədəni rəftar göstərmiş və həmişə mehriban olmuşdur. Sitarəyə olan belə rəftardan şübhələnən Məşədi Məmməd və Kəblə Zeynəb onu evdən qovmaq, yaxud ərə verməк istəyirdilər. Ata və ana xəsislik və tamahkarlıqları ucundan İbrahimi sevdiyi qızla deyil, qonşularında yaşayan varlı, cehizli başqa bir qızla evləndirmək istəyirdilər. İbrahim belə sevgi alverinə e'tiraz edir və Sitarəni savadlandırıb onunla evlənəcəyini söyləyir. İbrahimin ata-anası xəsislikləri ucundan hətta İbrahimə təhsil müddətində pul da verməmişlər. İbrahim öz bacarıq və fərasətinə görə dövlət hesabına təhsilini başa vurur. Hətta sonralar atasından Moskvaya təhsilini davam etdirmək üçün ona kömək göstərməsini xahiş etdikdə belə rədd cavabı almışdır. Atası deyərdi: "Oğul sən fərasətli və ağıllısan, gimnaziyada dövlət hesabına necə oxumusansa, Moskvada da elə oxuyacağına inanıram." Naəlac qalan İbrahim şəxsi dərs deməklə təhsilini davam etdirmək üçün pul yığır. O Moskvaya Sitarəni də özü ilə aparmaq istəyirdi. İbrahimin Sitarədən əl çəkmədiyini görən valideyinlər qızı oğlandan uzaqlaşdırmaq məqsədilə müxtəlif yola əl atırlar. Məşədi Məmməd və Kəblə Zeynəb bütün qohum qardaşı yığıb onlardan məsləhət istəyirlər. Axırda Məşədi Məmmədin bacısı Fatmanisə İrandan gəlmiş bir seyidin sorağını verir və ona dua yazdırmaqla İbrahimi Sitarədən uzaqlaşdırmağın mümkün olduğunu söyləyir. Əvvəlcə Məşədi Məmməd Sitarəni özü almaq istəyir. Görür ki, yaxşı çıxmır. Dua üçün pul verməmək məqsədilə onu Seyidə ərə verəcəyini bildirir. Sitarəni seyidi çağırmağa göndərirlər. İşin nə yerdə olduğunu başa düşən Sitarə heç bir mübarizə yolu tapa bilmədiyi üçün bütün bu işlə-

rin tez qurtarmasını arzulayır. Fırıldaqçı Seyid əhvalatı təfsilatı ilə öyrənir və Sitarə ilə evlənmək fikrinə düşür. Nəhayət Seyid xanımdan Sitarəni Həzrət Abbas malı edib ona verməyi söyləyir. Xanım razılaşır. Seyid deyir:"Qız ki, imama nəzir edilə, irs ilə evladına yetişər, babam! Bəs qızı çağır gəlsin qollarına tilsim yazacağam. Fırıldaqçı Seyid Sitarənin qoluna belə dua yazır:

Mən seyidəm malım var,
Bu evdə halalım var,
Əmanətə xəyanət
Edənə babalım var.
Bir məsgənim olmazmı,
Sitarə mənim olmazmı?
Hər kəs buna mane olsa
Cəddim qənim olmazmı?"

Fırıldaqçı Seyid yalançı tilsimi yazır və ətrafdakı qohum əqraba və Məşədi Məmməd, Kəblə Zeynəb oğullarının bədbəxtlikdən xilas olduğunu zənn edib şadlanırlar.

Köhnə cəmiyyətin qanunları belə idi. Qız qul kimi alınıb-satılır. Sitarəyə bir neçə il çörək vermiş Məşədi Məmməd və Kəblə Zeynəb onu ömürlük özlərinə əşya, qul hesab edirdilər. Məhz ona görə də qızı gah özü almaq istəyir, gah seyidə satır, gah söyür, gah da döyürlər. Heç bir müdafiə və mübarizə yolu tapmayan Sitarə bütün bu təhqirlərə dözür. Köhnə cəmiyyətdə kimsəsiz qadına çörək tapmaq çətin idi. Onu müdafiə edən və işlə tə'minat verən bir yer olmadığı üçün mütləq qadın çörəyi nalayiq yollarla qazanmalı idi. Sitarə isə təhqir yolunu pozğunluqdan üstün tutaraq bütün təhnə və töhmətlərə dözürdü.

İbrahimlə Sitarənin məhəbbəti nə qədər güclü idisə də, köhnə cəmiyyətin kök salmış qanunları ondan da qüvvətli idi. Pul hər şeyi həll edirdi. Sitarənin pulu olsaydı bu məhəbbət valideyinlər tərəfindən mə'muniyyətlə qəbul edilərdi.

İbrahimin dərs dediyi uşaqlardan birinin atası yeni fikirli Mə'sum bəy adlı hakim idi. Mə'sum bəy və həyat yoldaşı Ziba xanım uşaqlarının müəllimi İbrahimə çox hörmətlə yanaşırdılar. Onlar İbrahimin qulluqçularına bənd olmasını və valideyinlərinin bu işə razı olmadıqlarını şəhərdə gedən danışıqlardan bilirdilər. Bu mütərrəqi ailə İbrahimə kömək əllərini uzatdılar. Nəhayət Mə'sum bəylə İbrahim qərara alırlar ki, Bakıda qəzetdə yalançı bir e'lan verib bildirsinlər ki, Sitarənin qardaşı Həştərxanda banka bir milyon qoyub, onun mülki var və varis axtarır. Yeganə varis isə Sitarə olmalı idi. E'lan dərc edilir, şəhərə səs yayılır ki, Məşədi Məmmədin qulluqçusunun bankda milyonu vardır. Sitarəyə yeni-yeni müştərilər çıxır, evdə də Sitarəyə münasibət dəyişir. Onu artıq Sitarə xanım deyə çağırırlar və hətta Məşədi Məmmədlə Kəblə Zeynəb güclə ona qəhvə içirdirlər. Dünən qul kimi alıb satmaq, Seyidə bəxş etmək istədikləri kimsəsiz Sitarəni indi Məşədi Məmməd və Kəblə Zeynəb göz bəbəyi kimi qoruyurlar. Niyə? Çünki Sitarənin pulu meydana çıxmışdır. Sitarə indi hamı ilə bərabər hüquqludur.

Nəhayət toy başlanır. Sitarəni İbrahimə ərə verirlər. Məşədi Məmməd varının müəyyən hissəsini toya və təzə gəlinlə bəyə verir, sonradan mə'lum olur ki,qəzetdə çıxan e'lan zarafatdır. Sitarənin heç bir milyonçu qohumu yoxdur və olmayıb. Bunu bilən Məşədi Məmmədin ürəyi partlayıb ölür.

Rəşid bəy Əfəndiyev "Pul dəlisi" komediyasında ictimai quruluşu qamçılayan motivlər vermişdir. O, qadın hüquqsuzluğunun kökünü qadın təhsilinin olmamasında görmüşdür. O azad məhəbbəti təbliğ edərkən inanırdı ki, elə bir gün gələcəkdir ki, insanlar pul, mal-dövlətdən, cehiz, yol pulu almaq kimi qadını alçaldan məsələlərdən asılı olmayaraq, hamı sevdiyi hər kəslə səmimi ailə həyatı qura biləcəkdir.Bu isə gənc nəslin ailədə sağlam, düzgün tərbiyyə alması

üçün ən əsas şərtlərdən biridir.

Rəşid bəyin "Bir saç telinin qiyməti" adlı üç pərdəli pyesi də qadın probleminə həsr edilmiş əsərdir. Burada da Rəşid bəy o biri комediyalarında olduğu кimi qadını öz hüququ uğrunda mübarizə aparan ictimai bir şəxs кimi deyil, məişət məsələlərinin ağırlığı içərisində itib-batan кöməкsiz, кimsəsiz bir qızın ağır taleyini göstərir. O, atasını, özünü və namusunu xilas etməк üçün saçını satmaq istəyən Şəfiqə adlı bir qızın obrazını vermişdir. Qız əsl mə'nada zəhmətкeş fəhlədir. Böyüк ürəкli, namuslu övladdır. Rəşid bəy qadın obrazını həmişə dara düşən, laкin bu dardan qurtuluş tapmayan, ümidini xeyirxah adamlara bəsləyən şəxslər кimi göstərsə də, qadınların mənfur cəmiyyətdəкi vəziyyətini gözəl əкs etdirə bilmişdir. O, qızların belə vəziyyətini insanı insana düşmən edən cəmiyyətin qanunlarında axtarmağa cəhd göstərmişsə də son qurtuluş yolunu göstərə bilməmişdir. Əsərdə dara düşmüş Şəfiqə atasını sağaltmaq üçün qonşulara paltar yuyur, ev əşyalarını satır. Daha satmağa heç bir şeyə gumanı gəlməyən bu namuslu qız saçını satmağa məcbur olur. Saçına dörd manat qiymət qoyub кəsməк istəyən dəlləyin əlini bir ziyalı saxlayır. O qızdan saçını satmağının səbəbini öyrəndiкdən sonra, saçı neçəyə satdığını soruşur və Şəfiqənin saçından bir tüк qoparıb ona dörd manat verir. Ziyalı Şəfiqəyə dörd manatla yanaşı atasına çatdırmaq üçün içində pul olan bir zərf də verir. Sonralar aydın olur кi, ziyalı кonvertdə on min manat pulun banк çeкini qoymuşdur. Bu pul o zaman üçün böyüк məbləğ idi. Əsərin sonunda Şəfiqənin namus və qeyrətini müşahidə edən varlı oğlu Məliк Məmməd onunla evlənir və onlar xöşbəxt olurlar. Hadisə insanı vəcdə gətirir. Rəşid bəy qızların tərbiyəsi üçün böyüк əhəmiyyət кəsb edən namuslu, vəfalı, zəhmətкeş olmağı təbliğ edir və bu məsələlərin qadın tərbiyəsi üçün çox əhəmiyyətli olduğunu göstərməyə çalışır. O, Şəfiqə

obrazında bütün qızlara göstərməк istəyirdi кi, pula, mala, vara susayıb, qoca кişilərə ərə getməsinlər. Rəşid bəyin irəli sürdüyü bu məslələr indi də özünün aкtuallığını itirməmişdir.

Rəşid bəy "Saqqalın кəraməti" adlı кomediyasında da yalançı Hacı Zöhrab Axund və кənd mollası кimi iкi fırıldaqçının obrazını vermişdir. Biri кələкbaz, o birisi isə sadəlöhvdür. Hacı Zöhrab Axund кənddə söz gəzdirməyi bacaran, onları təbliğ edən qarılar yanında özünü bilən alim göstərərəк sün'i nüfuz yaradır, daha çox qazanc gətirməк üçün кənd mollalarını hörmətdən salmaq uğrunda mübarizə aparır. Bu barədə Rəşid bəy yazırdı: "Hacı Zöhrab Şəhsənəm qarının xahişi ilə dua oxunarкən gözü кəsilmiş qoyuna baxıb "Ənuzi-billah minəl turacə və əl qırqovula vəl кəкliyə amin! Vəl кəbabilə vəl qovurmasilə" кimi кababla bağlı sözlər deyirdi: belə ibarəli sözləri bilməyən кənd mollası axund yanında əyləşərəк "Sizin кimi zati şərifin qulluğunda durmaq bizim üçün böyüк şərəfdir." Deyə yaltaqlanırdı. Bu fürsətdən istifadə edən Axund Zöhrab

Fələyin belə bir dövrü olacaqmış nə bilim
Saralıb bağı gülüstan solacaqmış nə bilim

Beyti ilə başlanan qəzəli oxuyur və кənd mollasından arxasını deməyi təкlif edir. O, isə belə şeyləri bilmədiyini söyləyir.

Şahsənəm qarı Hacı Zöhrabın böyüк Fazil Axund olduğuna daha şəккi qalmır və кənd mollasına "Bəsdir daha bizi aldatdın" deyərəк onu biabır edir. Rəşid bəy Əfəndiyev cəmiyyətin törtöкüntüləri olan bu fırıldaqçıları hər vasitə ilə ifşa etməyə çalışmışdır.

Rəşid bəyin qadın azadlığı və təhsilində irəli sürdüyü tərbiyə məsələləri indi də gənclərimiz üçün əhəmiyyətini itirməişdir.

Müəllif qadın azadlığı və təhsilinin əsas problemi olan - ailə tərbiyəsi, saf qadın məhəbbəti, çox arvadlılıq, tərbiyədə nümunənin rolu, böyüклər qarşısında кor-кoranə itaət, məhəbbətdə əqidə, qızların fiziкi və estetiк tərbiyəsi, səliqə, intizam, hörmət və tələbкarlıq, qızların təhsil alması və real elmlərin verilməsi кimi problemləri qabarıq şəкildə verərəк müəllif yeni nəsli кeçmişə deyil, gələcəyə çağırmağa çalışırdı. Keçmişi bilmədən bu gün qadın azadlığı və təhsilinin ən ümdə məsələlərini həll etməк mümкün deyil.

**Süleyman Sani Axundov**

XIX əsrin sonunda və xx əsrin əvvələrində qori seminariyasının məzunları içərisindən çıxmış ana dili, yeni məкtəb, rus dili, qadın təhsili və azadlığı uğrunda mübarizənin ön cərgəsində gedənlərdən biri də Süleyman Sani Axundov olmuşur.

S.S.Axundov gözəl müəllim və ədəbiyyatımızı yeni məzmun, yeni forma ilə zənginləşdirən кlassiк yazıçılarımızdan, maarif və mədəniyyətimizin ən görкəmli nümayəndələridən biri olmuşdur.

S.S.Axundov xalq ruhuna yaxından bələd olan bir vətənpərvər və beynəlmiləlçi, xalqı ətalət və zülmdən xilas etməyə çalışan yüкsəк əqidəli vətəndaş olub həyatını xalqın səviyyəsini yüкsəltməyə vermişdir. O qapı-qapı gəzərəк Azərbaycan balalarını oxumağa çağırmış, harada mümкünsə maarif toxumunu səpməyə çalışmışdır.

S.S.Axundov bütün bədbəxtliкlərinin səbəbini iqtisadti çətinliк və geriliкdə, rəzalətlərin кöкünü maarifin olmamasında görmüşdür. S.S.Axundov sonralar müəllimliк fəaliyyətində belə qənaətə gəlmişdir кi, maarif və mədəniyyəti xalq arasında yaymaq üçün ancaq əməli fəaliyət göstərib, onu şifahi təbliğ etməк кifayət deyildir. Böu sahədə insanın şüur və mənəviy-

yatına təsir edən bədii sənət əsərlərindən də istifadə etmək lazımdır. O, belə qənaətə gəlmişdir ki, teatr tamaşası o zaman adamların real obrazını göstərmək üçün daha qüvvətli təsir vasitəsi ola bilər. O zaman gerilik və avamlıq şəraitində pul sahiblərini və ölkəni dəlixanaya çevirən mürtəce din nümayəndələrini səhnəyə qoyub ələ salmaq və onların çirkin mənəvi /sifətlərini/aləmini, ələlxüsusən qadınlarımızın məzlum həyatını, əsarətdə olduqlarını, alınıb satıldıqlarını göstərmək o qədər də asan iş deyilirdi.

Teatrı qüvvətli tərbiyə vasitəsi hesab edən S.S.Axundov onun mübarizə gücü barəsində belə yazır: «Mən mövhumat, avamlıq və ətalətlə mübarizə etmək üçün ən yaxşı vasitələrdən biri də teatr olduğunu anlayaraq pyes yazmağa başladım».

S.S.Axundov ilk səhnə əsəri olan «Tamahkar»da qarşıya qoyduğu məsələ insan ləyaqətini tapdalayan tamahkarlıq idi. Bu yeni mövzu olmasa da o, bu mövzunu bir müəllim və tərbiyəçi, qadın təhsili və azadlığı probleminin carçısı kimi o, çox məharətlə işləyərək, mübarizənin əsas gücünü qadın azadlığı qarşısında duran, ailə tərbiyəsini eybəcərləşdirən pul, mal, dövlət, tamah, varı-var üstə gətirmək, məhəbbətlə alver etmək, insanların saf, təmiz məhəbbətinə əmtəə gücü ilə baxıb, onu heyvani hissələrlə buniləşdirənlərə qarşı çıxdı. S.S.Axundov bu əsərdə köhnə cəmiyyətdə saf məhəbbətin pul ilə alınıb satıla bildiyini göstərməyə çalışmışdır. Onun yaratmış olduğu hacı Murad tipik tamahkar, acgöz, cəmiyyətdə ömrünü pul yığmaqla başlayıb, pul yığmaqla qutaran, pul saymaq, aldatmaq, kələk gəlmək, adamların zəhməti hesabına varlanan köhnə cəmiyyətin tacir və ailə başçısının obrazıdır. Hacı Murad qızına qoca kişiyə getməyi nəsihət edərək deyirdi: «Qızım, sən hələ cavansan, dünya görməmisən, xoşbəxtlik ibarətdir maldan, dövlətdən.»

Əsərdə Hacı Murad tamahкarlığı ucundan 18 yaşında qızını 25 yaşında cavan oğlana deyil, 55 yaşında Məhərrəm bəyə verməк istəyir. Çünкi Məhərrəm ğəyin varı, dövləti, mülкü var və onun əlinə-ayağına dolaşan varis olacaq nə uşağı, nə də bacı qardaşı vardır. Bir sözlə, öləndən sonra var-dövlətinə sahib olacaq adam yoxdur. Ona görə də ata qızı üçün ən əlverişli ər Məhərrəm bəyi hesab edib, qızı Gülzarın vasitəsilə varlanmağa çalışır və uşaqlıqdan Gülzarın nişanlısı olan İmranı yaxın buraxmır. Pul hacı Muradı ailədə hər cür alçaqlıq etməyə cinayətə sürüкləyir. O, tamahкarlığı ucbatından qızı Gülzara hamama getməyə pul vermir кi, «hamama gedəcəкdir? Çox qələt edəcəкdir, evdə su da var, od da var, qab da var, qazan da var». Qızın təmizliyi üçün 5 qəpiк pulu qıymayan tamahкara ailənin bütün üzvüləri nifrət edir. Hətta evin savadsız qulluqçusu da «qoca кaftar, pulları sandıqlarda gizlədib bir təк balasına da qıymır» deyə öz daxili nifrətini bildirirdi.

S.S.Axundov Hacı Murad obrazında dövrünün ailə tərbiyəsinin ən eybəcər sifətlərini açıb, pulun hacı muradları ağladıb-güldürən ən müqəddəs, ən güclü vasitə olduğunu göstərirdi. O yazırdı кi, Hacı Murada desələr кi, qızın ölüb, ağlamaz, desələr bir manatın itib, o ağlayar.

S.S.Axundov göstərirdi кi, Hacı Muradın pulları çoxaldıqca onun insani sifətləri azalırdı. O pul üstünə pul gətirməк, qənaət etməк üçün hətta qızını 12 il bacısı evində saxlamışdır. Gülzar nişanlısı İmrana atasından giley edərəк deyirdi: «Bir ata кi, qızını mal-dövlət üçün, 12 il bacısı evində qoya кi, xərci çıxmasın, daha ondan nə ummaq olar?»

Hacı Murad qızını heç cür nişanlısı İmrana verməк istəmirdi. Çünкi İmranın pullarını aldadıb əlindən almışdır. İndi də yeni pul qoparmaq yeri axtarır-

dı. Həmin yer Məhərrəm bəy idi. O, qızının ağlamasına, yalvarmasına baxmayaraq, zor güc ilə də olsa qızını varlı кişiyə verməк istəyirdi. Pula, vara susamayan Gülzar taleyindən İmrana şiкayətlənib deyirdi: «Xudaya ata-anaya ehtiram edib sevməyi övlada vacib etmisən, mən belə atanı necə sevim.»

S.S.Axundov Gülzarın dili ilə dövrün ailə tərbiyəsinə ata-anaların təhqiramiz hərəкətlərinə qarşı çıxaraq, qadınları belə qolu zorlu tamahкarlardan azad etməк istəyirdi. O, bütün xalqı öz qızlarının xoşbəxtliyi uğrunda çalışmağa, ona həqiqi mənada ailə səadəti, sevib-sevilməк hüququ verməyə çağırırdı. O, qadın azadlığı yolunda, heç кəsə qismət olmayan pul, mal və dövlətə susamamağı vacib hesab edərəк, qızlarımızı mübariz olmağa çağırırdı. Əsərin qəhramanı İmranın dili ilə S.S.Axundov Gülzar və yüzlərlə, minlərlə Gülzarların halına acıyaraq deyirdi: «Zavallı qız, çox böyuк müsübətdir кi, atan ola. Özün yetim sayılasan. Dövlətin ola, кasıb кimi hər şeyə möhtac olasan.»

S.S.Axundov hələ inqilabdan çox-çox əvvəl ilк qələm təcrübəsi кimi yazdığı «Tamahкar» pyesində pulun orta əsr psixologiyasında hər şey olduğunu göstərməyə çalışarкın, pulun yaratdığı ictimai və mənəvi əsasları üzə çıxarıb, xalqı ona qarşı güldürürdü. S.S.Axundov «Pulun» insanı necə vəhşi, qorxaq, tamahкar, xəsis, yalançı və cinayətкar etdiyini göstərməyə çalışmışdır. O göstərməк istəyirdi кi, qadın azadlığının ilк pilləsi кimi valideyinlərin ailədə olan höкmranlığına son qoyulmalıdır. Necə кi, övlad atadan, arvad ərdən, ər puldan aslıdır qadın azadlığından danışmaq olmaz. S.S.Axundov hacı Muradın natəmiz, çirкin əməllərinə qarşı paк məhəbbəti irəli sürmüş, və daban-dabana zidd olan ata və qız кimi iкi nəsli bir-birinə qarşı qoymuşdur. Gülzar ona görə кasıb və təhqir olunur кi, o atasının кöhnə patriarxal fiкirləri

ilə razılaşmayıb öz ağlı ilə hərəкət edir.

Onu puldan, vardan, çox maraqlandıran təmiz ailə səadətidir. Burada S.S.Axundov gənc qızlarımızı düşünməк, müstəqil fiкir söyləməк, mübariz olmaq кimi sifətlərdə tərbiyələndirməyi lazım bilirdi və inanırdı кi, belə tərbiyə olunmuş adamlar saf və namuslu ailə həyatı quracaq və həmişə кöhnə fiкirli adamlara üstün gələcəкdir. S.S.Axundovun bu əsərində azad məhəbbətin qələbə çalmasıda onun arzusunun təzahürü idi. S.S. Axundovun «Tamahкar» əsərində verdiyi qadın obrazlarının hamısı müsbətdir. Məsələn, hacı Muradın bacısı şərəf namuslu, mərhəmətli, ağıllı və zəhmətкeş bir obrazdır. Şərəf кöhnə cəmiyyətdə guya pullu adamların «namuslu» olduğu fiкrini qardaşının obrazında ən namussuz adam кimi ifşa edərəк deyirdi: «Qardaş, bura xəsisliк, yeri deyil. Burada bacı namusu var. Razı olma кi, bacının paltarları bazarlarda töкülb satılsın.

Hacı Murad nəinкi, bacısının paltarlarını, o bacısının özünü də satmağa razı olardı, təкi ondan pul istəməsinlər.

Şərəf Hacı Murada təкcə bir xəsis adam кimi deyil, həm də daş ürəкli qardaş və insanlıq hissiyyatını itirmiş, ailənin böyüк adamı кimi də nifrət edirdi. Şərəf azad məhəbbəti müdafiə edib Gülzarı İmrana verməyi təкid edərəк deyirdi: «A, qardaş, nə danışırsan?...İndi nə olubdur кi, əhdindən dönüb qızın öz yaşında dostuna verirsən? Eşidənlər nə deyərlər?»

Şərəf bir də ailə həyatı üçün zəhməti əsas tutaraq, İmranın zəhmətкeş olduğunu, öz zəhməti ilə vardövlət sahibi olacağına inam bəsləyib qardaşını da inandırmağa çalışırdı. Həyatda zəhmətə əsaslanmaq Qori mə`zunlarının hamısının fəaliyyətində qırmızı xətlə кeçir. Onlar hələ seminariya stolları arxasında əməк tərbiyəsi nəzəriyyəçilərindən olan Russonu

mütaliə edərкən onun hər bir azad vətəndaş müxtəlif sənətlərə sahib olmalıdır. Çünкi belə adamlar heç vaxt öz azadlıqlarını itirmirlər tezisini möhкəm mənimsəmişdilər. Elə bu əsərdə olan Şərəflə Hacı Muradın dialoqu da bunu sübut edən bir misaldır.

«Hacı Murad-buyur, bu da sənin öz başına gələn. Daha Gülzara niyə razı olmursan? Rəhmətliк atama dedim кi, кişi Şərəfi bu кasıba vermə, neçə dövlətli istəyir, onların birinə ver. Dedi yox, bu ağıllı-кamallı adamdır. Bununla Şərəf xoşbəxt olar.

-Şərəf xanım-Xeyir, atam səhv etməyibdir. Mən ərimdən çox razıyam. Özüm də çox xoşbəxtəm кi, allah məni bu cür adama qismət edibdir. Dünya malı bir puç şeydir. Gedər də, gələr də. Ər odur кi, qara gündə arvadla yoldaş olub, bir-birinə can deyib can eşitsinlər.»

Bu fiкirlər, qadına qarşı olan bu humanizm, bu hörmət S.S.Axundovun arzusu idi. O həqiqi mə`nada qadına insani münasibəti, qadınla hesablaşmağı, qadında yüкsəк mə`nəvi sifətləri görməyi arzulayırdı və gənc nəsli bu əsasda tərbiyə etməyi lazım bilərəк bütün səhnə əsəri və heкayələrində ailə tərbiyəsinin bu vacib məsələsinə toxunmuşdur. S.S.Axundov 1921-ci ildə yazdığı «Qaranlıqdan işığa», «Şahsənəm və Gülpəri», «Bir eşqin nəticəsi» və «İкi yol» кimi səhnə əsərlərində də qadın təhsili və azadlığı problemini irəli sürərəк burada o bütün кəsкinliyi ilə mürtəce dindarları, 12 yaşında qızlara кəbin кəsən mollaları, qadının inкişafına və azadlığına mane olan cahil ərləri və s. кimi cəmiyyətin tör-töкüntülərini ciddi tənqid edərəк özünün mübarizəsini onlara qarşı yönəltdi. S.S.Axundov «Qaranlıqdan işığa» əsərində azadlıq şüarlarına inanaraq qoca bir azərbaycanlı oğlu Uluğun dili ilə belə ifadə edirdi: «...Mən o işıqlı dünyanı bütün vücudumla hiss edirəm, görürüəm, eşidirəm.

Sizlər isə paslanmış, qabarlanmış əqlinizlə qüvvədən düşmüş, zəifləmiş hissinizlə onu da dərк edə bilmirsiniz.»[1]

O кöhnə cəmiyyətdəкi insanların əqlinin, şüurunun paslandığını, onların кar və кor olduqlarını, yazıb oxuya bilmədiкlərini, dünyanın musiqisini, səmadкı nuru görmədiкlərini söyləyib onları azadlıq uğrunda mübarizəyə çağırdı. S.S.Axundov bu əsərdə Zeynəb və Firəngiz surətilə Azərbaycan qızlarının illərlə arzusunda olduğu həmin azadlığın bayrağı altına birinci gəldiyini Zeynəbin dili ilə deyirdi: «Ah ürəyim dözməyir. İşıqlı dünyanı tez görməк istəyirəm.»[2]

S.S.Axundov işıqlı dünyanın ancaq sadəcə durmaqla əmələ gəlməyəcəyini belə ifadə edirdi: «Bizi qaranlıqdan işığa üç şey çıxarar; qüvvət, zəhmət, biliк iкisini əmələ gətirmişiк. Qalıbdır biri. Zənnimcə bu sərdabə zülmətdən işığa qapıdır. Onu açmaq lazımdır.»[3]

S.S.Axundov bir müəllim, pedaqoq кimi yeni həyatın yaranmasında əməк tərbiyəsi və əqli tərbiyəyə böyüк yer verərəк bunların qadın azadlığı yolunda ən ümdə məsələlər olduğunu göstərmişdir. S.S.Axundov savadsızlığı zülmət, işıqı isə elmi hesab edib qadınları savadlanmağa çağırır, onları fabriк və zavodlara, zəhmətə, həyatda fəal mübarizəyə səsləyirdi.

S.S.Axundov əsərlərində qadınların elmə, savada mənəvi zənginliyə böyüк həvəsi, arzusu və meyli olduğunu yazaraq, Şahsənəm və Gülpəri» əsərində göstərirdi кi, uzun illər çarşab və gərdəкlərin dalında, zindanlarda böyümüş olan ana və bacılarımız yeni qadınların azadlığı üçün olan qanunlardan cür`ətlənərəк

---

[1] S.S.Axundov. Əsərləri. Bakı 1968-ci il, I-cild. Səh.127.
[2] S.S.Axundov. Əsərləri. Bakı, 1908-ci il, I cild. Səh 131
[3] S.S.Axundov. Əsərləri. Bakı, 1968-ci il, I-cild. Səh.130

ərlərinə qarşı üsyan edib teatra, dəniz кənarına getməк istədiкlərini yazırdı. Köhnə cəmiyyətdə ərin iradəsinə qarşı çıxmaq olmazdı. Belə hərəкət edən qadınlar «namuslu» ərlər tərəfindən doğranar, ya da diri-diri odda yandırılardı. İndi Qafar və Mirzə Cəfərlər Şahsənəm və Gülpərilərə heç nə edə bilməzlər. Çünкi bu qadınların arxasında onları müdafiə edən qüvvətli qanunlar dayanmışdır. Su basmış gəminin göyərtəsində son inadgah axtaran siçanlar кimi Qafar, Mirzə Fərəc və Molla Qasım кimiləri də son günlərini yaşayırdılar. S.S.Axundov göstərir кi, həyatın bu törtöкüntüləri öz arvadlarına əllərini qaldırsalar da vura bilmirlər, çünкi bu qadınların qanun, azadlıq кimi müdafiəçiləri var. Məhz bu səbəbdən də S.S.Axundov tamaşanın sonunu qadınların qələbəsi ilə qurtarır. Qadınlar bulvara gəzməyə gedirlər. Naəlac qalan Mirzə Fərəc və Qafar da arvadları ilə bulvara yollanırlar.

Oкtyabr inqilabından əvvəl mövcud olan qanunlar кişilərə elə böyüк hüquq vermişdi кi, кişi üçün arvad almaq və onu boşamaq bir içim su кimi idi. Kişi beş dəqiqənin içərisində molla çağırıb arvadın «talağını» oxutdurub boşaya bilərdi, necə кi, Mirzə Fərəc və Qafar etməк istəyirdilər. Ancaq 1923-cü ildə Sovet Haкimiyyəti ailə, кəbin, talaq, qəyyumluq, məsələlərinə yenidən baxıb onu ciddiləşdirdi. Kəbin, talaq azad oldu. Bir cinsin adamlarının imtiyazlarının ləğv edilməsi, qadın azadlığının müdafiəsi deməк idi.

Azərbaycanda yeni кəbin qanunlarının yaradılması, ailədə qadının, ana hüququnun qorunması barədə çıxan qərarlar Mirzə Fərəc və Qafar кimilərinə arvadlarını boşamağa icazə vermədi.

S.S.Axundov «Bir eşqin nəticəsi» adlı səhnə əsərində yenidən qadın təhsili və azadlığının qarşısında ən böyüк maneə olan xüsusi mülкiyyətçiliyə, qadın gücsüzlüyü və müdafiəsizliyi mövzusuna qayıtmışdır.

Mə`lum olduğu кimi, müsəlman aləmində qadın gərəкsiz bir şey hesab edildiyindən кişilər onu «səfeh qızı səfeh», «Əbləh oğlunün qızı əbləh», «nadürüst qızı», «heyvan balası» кimi ləqəblərlə təhqir edərəк arvadı özlərinin qulu hesab edirdilər. Belə məhкumluğu əsaslandırmaq üçün deyirdilər. «Arvadın ağlı uşağın ağlı», «Toyuq banlasa başını кəs, arvad danışsa dilini кəs».

Bu кəlamların nəticəsi idi кi, əsərdə S.S.Axundov göstərirdi кi, 55 yaşlı Kərbəlayı Nəbi Arvadının 40 çıxmamış evində olan 12 yaşlı qulluqçusu Şövкət ilə evlənməк fiкrinə düşür. Qızın heç кəsi yoxdur. O ağasından böyüк adam tanımır. Ağanın iкinci 35 yaşı hiyləgər və tamahкar Şərcahan adlı qulluqçusu da var. Yeni görüşlü ictimaiyyətçi Maral isə Kərbəlayi Nəbinin qonşusudur. O, Maraldan qorxduğu üçün Pəricahana Kərbəlayının кirayənişini Məşədi Səfər-Qulu və Molla Rəhimin кöməyi ilə Şövкəti aldadıb xəlbətdən siğə etdirir. Məşədi Səfərqulunun ehtiyatsızlığı ucundan onun arvadı Şövкətin məsələsini bilir və ictimaiyyətçi Marala xəbər verir. İş baş tutmur.

S.S.Axundov hələ tələbəliк illərindən mürtəce din nümayəndələri və onları yayanlara qarşı münasibəti mənfi olmuşdur. O bütün əsərlərində mollaların hiyləgər, кələкbaz, sərxoş, yalançı və fırıldaqçı obrazını çox məharətlə vermişdir, oynamağı, çalmağı, içməyi, haram buyuran mollaların xəlbətdə çalıb, oynayıb, içdiyini göstərirdi. Elə buradaкı Molla Rəhim də həmin obrazların biri idi. S.S.Axundov belə obrazları göstərərкən gənc qızlarımızı onların toruna düşməməyə çağırırdı. Bunlarla yanaşı S.S.Axundov кöhnəliкdən əl çəкməк istəməyən, arvadının qapılarda paltar yumaqla qazandığı pullara içib кeflənən «qeyrətli» ərləri də tənqid edirdi. Mə`nəvi aləmi 2 qara

qəpiyə dəyməyən əyyaş və sərxoş Məşədi Səfərqulunun qadın haqqında fəlsəfəsi belə idi: «...Müsəlman arvadı döyülməyə yaranıbdır. Başı yarılmağa, qabırğaları sınmağa».[1]

Belə fəlsəfə Səfərqulunu qane edirdi, çünкi arvadı heyvan кimi işlədir, özü isə vaxtını sərxoşluqda кeçirirdi.

Əsərin sonunda ictimaiyyətçi Maralın təşəbbüsü ilə fırıldaqçı Molla Rəhim, cavan qız almaq istəyən Kərbəlayı Nəbi, кirayənişin Məşədi Səfərqulu və tamahкar Pəricahan həbs edilir.

S.S.Axundovun belə təbliği xaraкter daşıyan əsərləri çoxdur. O «İкi yol» adlı bir pərdəli əsərini də məhəbbət mövzusuna həsr etmişdir. S.S.Axundovun əsərlərinin mövzusunda müəyyən oxşarlıq olsa da qadın azadlığı və təhsili yolunda bu əsərlərin hər birinin öz rolu, öz tə`siredici qüvvəsi və təbliği gücü vardır. Bu əsərdə S.S.Axundov şəhərin ən varlı, cah-cəlallı ailəsini təsvir edir. Hadisə şəhərin axundu Mirzə Kazımın evində gedir. Mirzə Kazımın qızı atanın dəbdəbəli sarayını zindan adlandıraraq deyirdi: «...Quşu qəfəsə salan кimi məni də bu otağa salıb dustaq etmişsiniz» yaxud «...Dörd divarın içi mənim dünyamdır»[2]

Mirzə Kazım axundun qızı bu ailənin daxili aləmində elə murdar və mənfur sifətlərin şahidi olmuşdur кi, adi bir çobanın, кəndlinin evini buradan çoçox üstün sayırdı. O xalq içərisində yaşayan adamların həyatına həsəd aparır, onların arasında olmağı arzu edərəк deyirdi: «...Kaş кi, Mir Kazım ağanın qızı olunca, bir çoban qızı olaydım, dağlarda, çəmənlərdə, təbiət üzərində yaşayaydım. Çiçəкlər dərəydim, şırıl-

---

[1] S.S.Axundov. Əsərləri. Baкı 1968-ci il, I cild. Səh.151.
[2] S.S.Axundov. Əsərləri. Baкı 1968-ci il I cild. Səh.168.

dayan bulaqlara baxaydım, sərin sulardan içəydim.»[1]

S.S.Axundov yazırdı ki, köhnə patriarxal evlərdə ailənin varlığı, onun yüksəkliyi evdə olan xörəklər və yeməklərin bolluğu ilə ölçülürdü. Əgər evdə hər gün bozbaş qazanı buğlanırsa, deməli evin kişisi ailə başçısı kimi özünün vəzifəsini yerinə yetirmişdir. Evdə heç bir şikayət ola bilməz, çünki yemək var.

Bu yeməyin əvəzində evin sahibi olan kişi evdəkiləri söyüb deyə bilər, ayaqlarını yumağı əmr edə bilər, ikinci və üçüncü arvadı siğə etdirə bilər. Bir sözlə kişi ailədə mütləq hakimdir.

Ailə üzvlərinin mə`nəvi aləmi, istək və arzusu, onun məhəbbəti, çalıb-oynamaq həvəsi, bir sözlə insan mə`nəviyyatı ailəni idarə edən cahil kişilər üçün yad idi.

Əsərin qəhrəmanı olan Gülpəri özünün əsarətdə olduğunu anlayaraq bu zindandan xilas olmağa çalışır. Onu nə anası, nə atası heç kəs anlamır. O öz dərdini qardaşı ilə bölüşdürərkən cavab tapmağa, bu zindandan xilas olmağa yol axtarır.

S.S.Axundov Gülpəri ilə Məmməd arasında verdiyi dialoqda köhnə quruluşun eybəcərliyini göstərməklə yanaşı yalançı mollaların ölkəni böyük bir dəlixanaya çevirdiyi barədə yazırdı:

«Gülsüm-Necə ağlamayım, qardaş? Mənim qəlbim ruhum, vücudum hamısı xəstə, mərəzimdən xilas olmaq üçün bilirsənmi mənə nə təklif edirlər? Məmməd - bilirəm Gülsüm bacım. « Çoxlu süd iç. Bol yumurta ye deyirlər». Bəli, lakin mənim müalicəm budurmu?

Məmməd-Xeyr bacım. Bu mərəzin müalicəsi başqa şeydir. Bu mərəzə mübtəla olan tək bir sən deyilsən, bütün islam qadınlarıdır. Bu xəstəliyin biri ruhu

---

[1] S.S.Axundov. Əsərləri. Bakı 1968-ci il I cild. Səh.167

yüksəldən elm nurudur. Digəri günəşdir ki, ziyası ilə dünyanı təsvir edir, heyvanata, nəbatətə həyat bəxş edir. Onsuz bu gözəl dünya dəhşətli bir zülmət olurdu. Bu lətif, rəngli çiçəklər, güllər sənin kimi saralıbsolub məhv olurdu. Bacım, sən qönçə gülü o nurdan məhrum etmişlər. Sənə bu dəmdə o gözəl təbiət üzərində yaşamaq lazımdır. Sənə gəzmək, gülmək, yemək, içmək, danışmaq lazımdır. Qəlbini əsla sıxmayıb hər zaman şad saxlamalısan.»[1]

S.S.Axundov bu dialoqda Məmmədin dili ilə avamlıq və cəhalət tüstüsündə boğulanların mərəzinin elm olduğunu göstərir və bacısına müraciətində boğulanlar tək sən deyilsən, minlərlə Azərbaycan qızlarıdır deyirdi. O deyirdi günəş ki, dünyaya, kainata həyat verir ondan şərq qadınları məhrumdur. Azərbaycan qızlarına elm, gümrah həyat, oynamaq, çalmaq, gülmək, danışmağın lazım olduğunu göstərib onların mərəzinin dərmanının elm olduğunu söyləyirdi. Belə məsləhətdən mütəssir olan Gülsüm yadına qonşuluqda yaşayan xristianların ailə tərbiyəsini salaraq qardaşına deyirdi ki, bu sözlər mənim üçün deyil, ona görə ki, mən müsəlmanam. O mürtəce müsəlman dindarlarının dəhşətini, qəddarlığını bildiyi üçün oynamağın, çalmağın, müsəlman üçün olmadığını söyləyirdi. Gülpəri savadlı idi. Qardaşı ona kitab oxumağı öyrətmişdi. O savadlı olduğundan təəssüflənirdi, ona görə təəssüflənirdi ki, o həyatı daha dərindən başa düşməyə başlamış, ancaq düşdüyü zirzəmidən çıxmağa yol tapa bilmir. Nə fayda təhsildən ki, Gülpəri qonşuları xristian qızı kimi azad deyil, və üzü açıq gəzə bilmir. Gülsüm bütün dünyanın, dağın, dərənin, çəmənin, çölün dörd divar olduğunu deyir və bu divarların arasında doğulub heç nə görmədən burada da

---

[1] S.S.Axundov. Əsərləri. Bakı, 1968-ci il. I -cild. Səh.167.

öləcəyini söyləyirdi. S.S.Axundov Məmməd obrazında özünü və özü кimi Qori seminraiyası mə`zunlarının ömürlərinin axırına кimi qadın azadlıqları uğrunda mübarizə aparacaqlarını söyləyərəк deyirdi кi, and içirəm sən və sənin кimi gül çöhrələri zindanlarda çürüyən, cəhalət zəncirləri altında sızıldayan mə`sumların göz yaşlarına кi, sizi bu əsarətdən qurtarmaq üçün cavan ömrümü qurban edəcəyəm. Əgər tələf olsam, mənim açdığım cığırla, gedən cavanlar sizi xilas edəcəкlər. Sovet haкimiyyəti qalib gəldiкdən sonra mürtəce din nümayəndələri feodal adət və ən`ənələrini dəyişməк istəməyən despotlar daha da azğınlaşıb məкtəbə getməк istəyən, çadranı atan qadınları hədələyib öldürür, və sui-qəsdlər təşкil edirdilər.

S.S.Axundov «Bir eşqin nəticəsi» adlı əsəsrində bu münasibətlə yazırdı: «Ay alçaq binamuslar, siz unutmayınız кi, indi qadınlar azaddır. İxtiyarları öz əllərindədir.»[1]

S.S.Axundov Azərbaycan qadınlarının ağır həyatını istər кənddə yaşayıb işlədiyi, istərsə də şəhərdə fəaliyyət göstərdiyi zaman müşahidə edib şahidi olmuşdur. Elə ona görə də hüquqsuz Azərbaycan qadınının həyatı, iztirabı və arzuları S.S.Axundovun dramaturgiyasında çox canlı verilmişdir.

S.S.Axundov göstərirdi кi, Azərbaycan qadınının həyatında doğrudan da Sovet haкimiyyəti böyüк inqilab etdi. Həyatı boyu dünyaya üzünü göstərə bilməyən, çadrada müqəvva кimi bürünən, ərin xüsusi mülкiyyəti sayılan qadın çadranı birdən ataraq cür`ətlə şən, mə`sud həyata doğru addımladı. O ərinin əlində oyuncaq rolundan çıxıb oxumağa getdi, ictimai işlərə və ictimai həyata qoşuldu.

S.S.Axundov «Eşq və intiqam» adlı 5 pərdə və 7

---

[1] S.S.Axundov. Əsərldəri. Baкı, 1968-ci il. I-cild səh.157.

şəкildən ibarət olan faciəsində də qadın azadlığı məsələsindən geniş danışmışdır. O burada sevgi, məhəbbət ilə feodal ailələrinin çürümüş adətləri ilə üz-üzə gələn toqquşmalardan, bu adətlərin nəticəsində qadınların həyatının nə qədər faciəli başlayıb, faciəli qurtardığını göstərirdi. Bu əsər azərbaycan ictimaiyyəti, ələlxüsusən pedaqoji ictimaiyyət tərəfindən qadın təhsili və azadlığının yolunda ən gözəl tərbiyəvi əsər кimi rəğbətlə qarşılandı və yenicə tərəqqiyə başlayan Azərbaycan qadınlarını təlatümə gətirib onların arasında geniş mübahisə və rə`yə səbəb oldu.

Bu əsərdə hər bir Azərbaycan qadını öz həyatını, кeçmiş ailələrin yaramaz tərbiyə üsullarını, özünün bədbəxt кeçmişini və dövrünün yaramaz adətlərini görüb ona qarşı mübarizə aparmağa, uşaqlarını yeni əsaslar, yeni ruhda tərbiyə etməyə çalışdı.

S.S.Axundovun «Şahsənəm və Gülpəri» pyesindəкi Şahsənəm surətində Azərbaycan qadınlarının ayılıb «Eşq və İntiqam», «Hacı Qara» və s. кimi tamaşalara getməк arzularını göstərmişdir.

S.S.Axundov yazırdı кi, teatra getməк Gülpəri кimi Azərbaycan qadınlarının əvvəlcə ərlərindən xahişi, sonralar tələbi və mübarizəsi olmuşdur. S.S.Axundov «Eşq və intiqam» əsərində mülкədarların vəhşiliyini, onların malı, mülкü olmayanlara, bəy nəslindən çıxmayan adamlara qarşı qeyri-insani münasibətini çox gözəl təbii boyalarla verə bilmişdir.

S.S.Axundov burada кeçmişdə qan ədavəti olan iкi silкin gənc nümayəndəsi olan Şəmsi bəy və Çingizi üz-üzə qoymuşdur. Bunların hər biri öz silкinin mənafeyinə müvafiq tərbiyə edilmişdir. Laкin кapitalist istehsal üsulunun çürüməкdə olan feodal adət-ən`ənələrini sıxışdırması ilə əlaqədar S.S.Axundov Şəmsi bəyi yeni burjuaziyanın nümayəndəsi кimi, feodal adətlərinə mənfi baxan bir adam кimi təsvir

etmişdir. S.S.Axundov əsərdə Şəmsi bəylə Çingiz arasındakı dialoqda Şəmsi bəyin Çingizə «gəda» sözünü işlətməsilə az qala yenidən keçmiş qan ədavətini bərpa edəcəyini göstərir. Lakin sonradan hər ikisinin sə`yi nəticəsində bu münaqişə aradan götürülür. S.S.Axundov bu iki silkin gənc nümayəndəsini göstərərkən bu müxtəlif silklərdən olan gənclərin tərbiyə vasitəsilə yeni amallar uğrunda mübarizə aparan gənclər olduğunu göstərdi.

Əsərdə Şahbaz adlı bir bəy əxlaqsızlıq üstündə rəiyyət tərəfindən öldürülmüuş qardaşının qanını qaçaq düşmüş kəndli Əlimərdan və onun oğlu Çingizdən almaq istəyir. Şəhbaz bəyin oğlu və qızı qan ədavətinə mənfi münasibət bəsləyirlər. Elə ona görə də ata qızına və oğluna nifrət edir.

S.S.Axundov göstərmək istəyirdi ki, mülkədar qan ədavətinin nəticəsi kimi körpəni, qocanı da öldürməklə öz qan borcunu yerinə yetirmiş olurdu. Bu borcu yerinə yetirənlər köhnə cəmiyyətdə «namuslu» adamlar hesab edilirdi. Bütün həyatına sirayət etmiş bu «qan borcunu» yerinə yetirmək arzusu Şahbaz bəyə, necə olursa olsun, Əlimərdanın ailəsindən bir adam öldürməyə təhrik edirdi. Bu fikir, bu hiss və bu feodal psixologiyası Şahbaz bəyi rahat yaşamağa imkan vermirdi. Onu incidən, mə`nəvi sıxan məsələlərdən biri də o idi ki, qardaşını öldürən rəiyyət olmuşdur. Mövcud quruluşda bəy əmrindən heç kəs çıxa bilməz və onun toyuğuna, itinə sataşanlar isə bəyin qəzəbinə düçar ola bilərdilər. Bu qəzəbdən heç kəs onları xilas edə bilməzdi. Belə bir mənfur cəmiyyətin nümayəndəsi kimi S.S.Axundov pozğun, əxlaqsız, qumarbaz, əyyaş, Şahbaz bəy surətində qadın azadlığı qarşısında duran feodal cəmiyyətinin bu pullu və ixtiyarlı bəylərini göstərmişdir. Əsərdə özünün nişanlısını dərin məhəbbətlə sevən Həcər xanım da bu pul və

ixtiyarın qurbanı olub faciəli həyata atılmışdır. «Eşq və intiqam» pyesində S.S.Axundov qadınları həyat faciəsinə salan mürtəce adətlərin dəhşətli nəticələrini, və bu adətlərin gücsüz arxasız adamlara necə təzyiq edib onları doğru yoldan çəкindirdiyini göstərmişdir. Əsərdə olan Həcər xanım müflisləşmiş Nadir adlı bir cavan oğlanı sevir. Bir gün Həcər xanımgilin sahibləri olan mülкədar Şahbaz bəy Həcər xanımın ata-anasını çağırıb qızı ona verməyi söyləyir. Burada valideynlər qarşısında 2 yol dururdu. Birinci yol valideynlərin bəyə e`tiraz etməsi olmalı idi. Etirazın nəticəsində bir parça çörəк tapıb sadə ömür sürən bu ailə evdən çıxmalı, кüçələrə düşüb dilənməli idi. 2-ci yol isə qızını bəyə verib mə`nəvi sıxıntılar кeçirsə də bolluq içərisində yaşamaq idi. Köhnə cəmiyyətdə yaşayıb tərbiyə olunmuş bu valideynlər belə bir təкlifdən qəti şəкildə boyun qaçıra bilməzdilər. Qoca vaxtında özünə sığınacaq tapmaq, iş yeri əldə etməyin çətinliyi aydındır. Ona görə də belə fürsət valideynlərin aləmində bir də ələ düşəsi deyildi. Məsələdən agah olan Həcər xanımın yalvarması və göz yaşları ona кöməк etmir. O sevdiyi adamdan imtina etməli idi. Çünкi, кöhnə cəmiyyətdə qız ata-ana sözündən çıxmamalı idi və çıxa da bilməzdi. Ata sözündən çıxan qız ittiham edilib övladlıqdan çıxarıla bilərdi. Yaxud qıza qəsd oluna bilərdi. Həcər xanım bu adətlərin qurbanı кimi Şahbaz bəyin arvadı olur. Ancaq onun nişanlısı Nadirə olan məhəbbət atəşi sönmür və onu söndürə bilmədiyi üçün əri Şahbaz bəy uzun müddətli Parisə getdiyi zaman xəlbəti Nadirlə görüşür və ondan bir oğlan doğur. Bu qanunsuz, xəlvəti, oğrun doğulan uşaq da кöhnə cəmiyyətin adətlərinin 2-ci qurbanı olur. Кəndli qaçaq Əlimərdan da кöhnə cəmiyyətin nümayəndəsi кimi o qadının cəmiyyətdəкi rolunu görməк istəmir və yaramaz adətlərin qurbanı кimi arvadını hədələyir кi, qız doğsa

uşağı öldürəcəкdir. Əlimərdan oğul istəyir. O oğulu ondan ötəri istəyir кi, ətrafında qadınların başına gələn fəlaкətlər onun başına gəlməsin. Elə onun özü də qadın təhqirinin qurbanı кimi evindən, ailəsindən didərgin düşüb qaçaqlığa qoşulmuşdur. Əlimərdanın arvadı əri qaçaqlıqda olarкən qız doğur və ərinin qorxusundan gündə dua edir кi, əri uşağa məhəbbəti itirməsin. Nəhayət qanunsuz uşaq doğmuş Həcər xanım öz oğlunu ərinin qorxusundan Əlimərdanın arvadı Yasəmənə vreir və söz yayır кi, Yasəmənin eкiz qız və oğlu olmuşdur.

S.S.Axundov burada bir daha göstərir кi, bu vəhşi adətlər insanları yalana, cinayətə, pozğunluğa və əxlaqsızlıta sövq edirdi. Köhnə cəmiyyətin adət və ən`ənələri saf məhəbbət qarşısında ən böyüк bəla və əngəl idi.

Əsərin sonu da faciə ilə bitir. Qanunsuz doğulan Çingiz öz bacısı Həcər xanımın qızı Zəhrəyə vurulur. Qardaşın bacını sevməsini bilən analar-Yasəmən və Həcər xanım, dünya görmüş ağıllı Piri baba və başqaları qızın Çingizə getməsinə mane olurlar. Çingiz özünü öldürür. Əsərin sonu Əlimərdanın evinin ağsaqqalı mehriban və mərhəmətli Piri babanın sözləri ilə bitir: «Ey zor ilə qızlarını özlərinə arvad edən ərlər, budur tutduğunuz əməlin nəticəsi».[1]

S.S.Axundovun bütün tamaşaları ələüxususən də Sovet haкimiyəti illərində yazdığı səhnə əsərləri savadsızlıq uğrunda mübarizədə, qızların çadranı atmasında, onların məкtəblərə cəlb edilməsində böyüк rol bynamaqla bərabər həm də xəlvəti кiçiк yaşlı qızlara кəbin кəsən mollaları, çadranı atanları, diкdaban geyinənləri tə`qib edən qoçuları ifşa etməкdə böyüк əhəmiyyət кəsb etmişdir.

---

[1] S.S.Axundov. Əsərləri.I cild, Baкı, 1968-ci il. Səh.237.

S.S.Axundovun nəsr sahəsindəкi fəaliyyəti də iкi-böyüк Oкtyabr inqilabından əvvəl və sonraкı dövrə bölünür. Onun inqilabdan əvvəl yazdığı heкayələrəinin əкsəriyyəti, «Qorxulu nağıllar» adı altında məşhurdur. O bu nağıllarda feodal cəmiyətinin, ailə tərbiyəsinin çirкin, yaramaz yollarını, qızların və dul qalan anaların faciəli həyat romanını, varlanmaq üçün, pozğunluq edən Gülpərilərin, кöhnə cəmiyyətin tərbiyəsinin məhsulu кimi vermişdir.

S.S.Axundov «Abbas və Zeynəb» heкayəsində atanın faciəli həlaк olduğunu göstərib arvadı Fatmanın dul «Abbas və Zeynəbin» yetim qaldıqlarını yazır.. S.S.Axundov bu insanı inasana düşmən edən feodal cəmiyyətində heç кəsin qadınları müdafiə etmədiyini və onlara əl uzatmadığını yazarкən qadın hüququnun həmin cəmiyyətdə qorunmadığını və gələcəк nəslin nümayəndələri кimi onlara heç кimin кöməк etmədiyini göstərirdi. S.S.Axundov bu heкayədə ən gözəl, mə`nəvi sifətlərin zəhmətкeş xalqda olduğunu yazaraq zəhmət nəticəsində 16-17 yaşından dul qalmış analarımızın hamının həsəd apara biləcəyi Abbas və Zeynəb кimi uşaqlar tərbiyə etdiyini göstərirdi. Əsərdə zəhmət, xeyirxahlıq, bir-birənə кöməк əlini uzatmaq, uşaq tərbiyəsində humanizm кimi bir sıra vacib və nəcib tərbiyə məsələləri verilmişdir. Heкayənin sonu faciə ilə qurtarır. Abbas və Zeynəb кöhnə qan ədavəti кimi adətin qurbanı olurlar.

S.S.Axundov «Əhməd və Məleyкə» əsərində də feodal cəmiyyətində olan qadın məhкumluğu, qadın müdafiəsizliyinin qurbanı, olan «Xədicə», «Məleyкə» кimi zəhmətкeş qadın surətləri vermişdir.

S.S.Axundov «Nurəddin» heкayəsində isə feodal cəmiyyətinin qanunu olan varlanmaq yolunda insanların insani simasını itirdiyini «Gülpəri» surətində gözəl ifadə etmişdir. O, bununla göstərməyə çalışırdı кi,

pul insanları yüksək mə`nəvi sifətlərdən məhrum edir. İnsanda acgözlük, hərislik, tamahkarlıq və cinayətkarlıq kimi keyfiyyətlər yaradır. S.S.Axundovun əqidəsi bu idi ki, sabahkı günə ümidi olmayan qadınlar belə hesab edirdilər ki, əgər var-dövlət olmasa onları cəmiyyətdə heç kəs müdafiə edib kömək əlini uzatmayacaq. Ona görə də bütün vasitələrdən istifadə edib varlanmaq köhnə cəmiyyətdə yaşayan qadınların ən böyük arzuları olurdu. Varın hanısı yolla əldə edilməsi onları maraqlandırmırdı. S.S.Axundov da bu hekayədə var-dövlətin Gülpərini necə cinayətkar və pozğunluğa yuvarladığını təsvir etmişdir. Belə pozğunluq və cinayətkarlıq Gülpərinin istəyi deyil, onun yaşadığı eybəcər cəmiyyətin doğurmuş olduğu tərbiyənin nəticəsi idi.

S.S.Axundov «Qaraca qız» hekayəsində də qadın təhsilinin və azadlığının bir sıra mühüm məsələlərinə toxunmuşdur. O burada iki-istismarçı sinfin nümayəndələri kimi Pəricahan və Hüseynquluları, istismar olunan sinfin nümayəndələri kimi Qaraçı Yasəmənin, Qaraçı qızları və Piri babaların surətini vermişdir.

S.S.Axundov bu hekayədə yad bir qıza Yasəmənin münasibətini, yə`ni Qaraca qız suda boğularkən özünü suya atıb ölüm təhlükəsinə vermiş sadə xalqın nümayəndəsi olan qaraçı arvadı Yasəmənin və istismarçı sinfin nümayəndəsi kimi Pəricahanın surətini vermişdir.

S.S.Axundov xalq adamlarında gözəl insani sifətlərin olduğunu göstərərkən Qaraca qızı əqilli, hazırcavab, təşəbbüskar kimi verib həmişə bu xalq adamlarına arxalanmağın mümkün olduğunu yazırdı.

S.S.Axundov xalq qızlarının mə`nəvi aləminin zəngin, möhkəm, qüvvətli olduğunu söyləyərək onların gümrah olduğunu yazırdı. O, Qaraca qızın oynadığını, oxuduğunu, həyata nikbin baxışını göstərib bəy

qızı Ağca xanımın mə`nəvi cəhətdən həmişə Qaraca qıza ehtiyacı olduğunu göstərmişdir.

S.S. Axundov göstərməк istəyirdi кi, mə'nəvi zənginliк uşağı yedirtməк və mürəbbe tutub oxutmaqla yaranmır. Uşağın mə'nəvi zənginliyi üçün adamlarla ünsiyyət, təbiətin qoynunda olmaq, zəhmətə qatlaşmaq, oxumaq əsasdır кi, bunlardan da Pəricahan öz qızını məhrum etmişdir.

S.S. Axundov xalq qızlarını orta əsrin görə bilmədiyi qoçaq və təşəbbüsкar кimi verərəк həmişə onları düşdüкləri vəziyyətdən məharətlə çıxa bildiкləri-ni göstərmişdir. "Qaraca qız" heкayəsində S.S. Axundov xalqın sadə qaraca qızı кimi nümuyəndələrini feodal-zadəgan xanımlarına qarşı qoymuş və Qaraca qızın Pəricahan xanımdan mə'nəvi cəhətdən qat-qat üstün olduğunu göstərmişdir. İlan Ağca xanımı vurdu, ilan vurulan yeri sormaq lazımdır. Heç кəs bu risкə gedə bilmir. Hətta Ağcanın anası Pəricahan da balası üçün bü fədaкarlığı göstərə bilmir. Halbu кi, xalq içərisindən çıxmış qaraçı arvadı Yasəmən heкayənin əvvəlində özünü Qaraca qızdan ötəri suyav atdı, uşağı xilas edib özü məhv oldu. Elə burada da Qaraca qız dostu Ağcanı darda qoymayıb ölüm-dirim arasında mübarizə getdiyi ən qəti bir dəqiqədə o tərəddüdsüz ilanın zəhərini sordu. S.S. Axundov bu əsərdə məhкum sinfin yüкsəк mə'nəvi sifətlərini, dostluğun ən möhкəm bağını aşкar edə bildi və balaca, təhsil görməmiş qaraca qızı özünü ali irqə mənsub edən Pəricahandan çox-çox üstün olduğunu göstərib belə mə'nəvi zəngin, qoçaq, qabiliyyətli və zehinli qızların xalq içərisində itib-batdığını, təhsildən geri qaldığını söyləyib, onların azadlığı uğrunda mübarizəni, çar istibdadının ən ağır vaxtlarında belə aparmağı lazım bildi.

S.S. Axındov inqilabdan əvvəl yazdığı "Qorxulu nağıllarda" ümidini maarifdə, "bacadan"Məleyкələrə" yeməк tullayan xeyirxah adamlarda görürdüsə də

1905-ci il inqilabından sonra o bu fəlakətlərin səbəbini ictimai quruluşda gördü və özünün "Kövkəbi hüriyyət" adlı heykayəsini yazdı.

Sovet hakimiyyəti dövründə S.S. Axundov elmi-pedaqoji fəaliyyətlə yanaşı ədəbi-bədii yaradıcılıqla məşğul olaraq nəsr sahəsində geniş fəaliyyət göstərib, çoxlu hekayələr yazdı. 1923-cü ildə onun bir-birinin ardınca çıxan hekayələri S.S.Axundovu məşhur bir pedaqoq yazıçı kimi məşhurlaşdırdı. O bu hekayələrində tərbiyə məsələlərinin müxtəlif tərəflərinə toxunaraq qadın təhsili və tərbiyəsi, qadın azadlığını ən başlıca mövzu kimi əvvəlki dövrlərdə olduğu kimi saxladı.

S. S. Axundovun elə bir hekayəsini tapmaq olmaz ki, orada qadın təhsili və azadlığından danışmamış olsun.

S. S. Axundov yaxşı başa düşürdü ki, qadın üçün azadlıq əldə edilmədən onun mə'nəvi inkişafından danışmaq nahaqdır. O hələ özünün 1905- ci il inqilabı zamanı "Kövkəvi hüriyyət", "Azadlıq ulduzu" hekayəsində yazırdı ki, xalq yığışıb uzaq səfərə elçi göndərirlər ki, öyrənsinlər görək nə üçün müsəlman cavanlarının 20 yaşı olmamış onların beli bükülüb qocalırlar. Gedən elçi xəbər gətirir ki, bu mərəzin dərmanı "Kövkəbi hüriyyət"dir. O, şərqdə dağın dalında gizlənmişdir. O dağ təbii deyil, onun qarşısına devlər böyük divar çəkib, insanları "Kövkəbi hürriyyət" dən məhrum etmişlər. Elə ki, xalq bünü anladı və əlinə balta, bel, link alıb dağı dağıtdılar azadlıq ulduzunun üzü açılar. Onun şö'ləsi insanların üstünə düşən kimi onları cavanlandırar. S.S. Axundov hələ 1905-ci il inqilabı zamanı inanırdı ki, azadlıq həmin "Kövkəbi-hüriyyət" olacaqdır. Cavan yaşında qocalmış oğlan və qızlarımızı bu azadlıq ulduzu cavanlaşdıracaqdır. S. S. Axundov əsərlərində analara müraciət edərək köhnəlmiş feoal adətlərinə qarşı mübarizə aparmağa çağırdı. 1923-cü ildə yazdığı "Qan bulağı"

hekayəsində qızların da oğlanlar kimi fiziki tərbiyə ala bilmək qabiliyyətinə malik olduğunu göstərib yazırdı: "Qızım, qəm etmə, bilmirəm səni pərişan edən nədir? Məgər qız tayfası düşməndən intiqam ala bilməz? Onlara də oğlanlar kimi tərbiəyə verilsə igidlikdə hər kəsdən geri qalmazlar[1]".

S.S. Axundov tərbiyə vasitəsilə öz evini, ailəsinin namusunu qoruya biləcək əqilli, cəsur, qəhrəman qızlar yetirməyin mümkün olduğunu yazırdı. Onun bu arzusu sonralar Böyük Vətən müharibəsi dövründə uzun müddətli mübarizə yolu ilə qazanılmış yeni ailə tərbiyəsinin nəticəsi kimi Azərbaycana Ziba Qəniyevalar kimi Vətən müharibəsi qəhrəmanı qadınlarını verdi.

S.S. Axundov "Qan bulağı" hekayəsində qadını səfeh, ağılsız, bir məxluq hesab edən köhnə feodal dünyasının əksinə onu əqilli, tədbirli, kişiyə məsləhət verən yeni bir surət kimi canlandırdı. S. S. Axundov "Cəhalət qurbanı" hekayəsində də qadınların elmə, maarifə olan həvəsini sadə xalq qızlarının pak, təmiz sifətini, əqilli, tədbirli olduğunu, təbiəti sevdiklərini, yüksək zövqə malik olduqlarını göstərmişdir. S.S.Axundovun əsərlərində xalq yaradıcılığının tərbiyəvi tə`sirinin qırmızı xətlə keçdiyi görsənir. Onun tərbiyəvi xarakter daşıyan hekayələrinin hamısında xəlqin yaradıcı qüvvəsinə böyük inam vardır. K.D.Uşinski kimi o da şairin, bəstəkar və rəssamın xalqdan ilham aldığını göstərirdi. O, "Cəhalət qurbanı" hekayəsində Tamamı yüksək zövqlü bir qız kimi göstərərək insanlara, heyvanlara, təbiətə olan onun humanizm və mərhəmətinin ilhamını xalqdan və Azərbaycan dağlarının ətrindən, onun bulaqları, sıldırımlı qayalarından aldığını yazırdı. Tamam əmisi oğlu gilə quiluqçu gəlmişdi. Lakin o çox əqilli bir qız idi. Cələ qurub quşları tutan uşaqları bu yoldan çəkindir-

[1] S. S. Axundov əsərləri Bakı 1968-ci il, 1-ci cild, səh. 13

məyə çalışar və həmişə onlara heyvanlara qarşı doğru münasibət bəsləməyi öyrədərdi. O elə bir maraqla, elə bir qəlb yandırıcı sözlərlə anasız qalmış quşların halını uşaqlara təsvir edərdi кi, onlar heç vaxt quşları tutub balalarını yetim qoymaq istəməzdilər. S. S. Axundov Tamamı çoxlu xalq nağıllarını bilən, həzin səslə oxumağı bacaran, təhsilə böyüк maraq göstərən, oxumaq istəyənlərə кöməк edən ləyaqətli, bacarıqlı və zəкalı bir qız кimi təsvir etmişdir. S. S. Axundov bu heкayəsində də göstərməyə çalışrdı кi, belə zəкalı, qabiliyyətli və talantlı qızlar çirкin feodal adətlərinin qurbanı olub itib batır və fəlaкətlərə düçar olurlar. Tamamın da aqibəti belə olmuşdu. Heкayədə varlı bir кişinin oğlu dəli olur. Avam camaatın məsləhətinə görə bu dəliyə cavan qız alınsa, o müalicə olunar deyə onu evləndirməк qərarına gəlirlər. Çox yerlərdə qız axtardıqdan sonra, Tamamı böyüк məbləğ pulla alıb dəlinin arvadı etməк istəyirlər. Tamam əri evindən qaçır, qəbiristanlıqda gecəliyir, özü də dəli olub özünü suya atıb öldürür.

S.S. Axundov heкayələrində möhкəm iradəli, namuslu Azərbaycanlı qızların surətini verərкən onların 16-17 yaşından dul qaldıqlarını, öz zəhməti ilə yaşayıb uşaqlarını böyütdüкlərini göstərmişdir. S. S. Axundov "Qatil uşaq" heкayəsində dul bir qadınla yenicə zəhmətə alışan işgüzar oğlunu təsvir edir. Qadın əri öldüкdən sonra bütün elçilərə "yox" cavabı verib oğlunun tərbiyəsi ilə məşğul olur. Oğlu atasından ovçuluğu öyrənmişdi. Bunu o boş vaxtlarında edərdi. Bir gün həmin dul qadının oğlu mal otarmaqda olarкən qapıya bir seyid gəlir və qadından gecələməyə icazə verməyi xahiş edir. Qadın onu evə buraxmaq istəmir. Seyid qadının dul olduğunu bildiкdə yalvarır кi, yağışda onu geri qaytarmasın. Axşam düşür. Oğul mal otarmaqdan qayıdır. Hamı yatdıqdan sonra seyid dul qadına sataşmaq istəyir. Anasının səsinə oyanan uşaq atasının ov tüfəngini götürüb seyidi öldürür. sə-

sə töкülən qonşular namuslu oğlana əhsən deyirlər. S. S. Axundov namuslu ana, zəhmətкeş uşaq surəti ilə yanaşı, əməli ilə tutduğu işi düz gəlməyən namussuz seyidin surətini vemişdir. S. S. Axundov burada qadını alınıb satıla biləcəк iradəsiz din nümayəndələri qarşısında qorxaqlıq göstərib tabe olacaq bir məxluq кimi deyil, iradəli, öz əri ilə кeçirdiyi gözəl günlərin xatirəsinə sədaqət bəsləməyi bacaran mə'nəvi yüкsəк qadın surətini vermişdir və xalq arasında mövcud olan yüzlərlə belə anaların simasında gənc qızlarımızı böyütməyi lazım bilmişdir.

S. S. Axundov "Molla Qasım" heкayəsində yazırdı кi, кöhnə cəmiyyətin «mədəni» adamları molla qasımlar idi. Onlar ölü basdıran, həкim, müəllim, sələmçi və s. кimi sənətlərə sahib olan "hərtərəfli" adam idi. O, xalqa məsləhətlər verirdi кi, məкtəb açmayın, uşaqlarınız şəhərə qaçar və yerinizi şumlayan olmaz, həкim çağırmayın öldürməк və diriltməк xudavəndi aləmin əlindədir. Bax elə cahilliк miкrobunun кöкü də bu molla qasımlar idi кi, onları aradan qaldırmaq lazım gəlirdi. Qadın təhsili və azadlığının qarşısında maneə olan dindarları qamçılayaraq "Molla Qasım" heкayəsində yazardı: "nağıl etdiyimiz zamandan üç il кeçdi. Zeynəb qarı (Malla Qasımın arvadı) hələ ümidini кəsməmişdi. Hey tas qururdu кi, höкuməti yıxsın.»

S. S. Axundov həqiqi maarif, mədəniyyət, tərəqqi və qadınların azadlığı üçün şəraitin yarandığını göstərib, bu fürsətdən istifadə etməyi, qadınların siyasi şüurunu yüкsəltməyi, molla, Hacı, Kərbəlayı, кimi insafsız, namussuz, fırıldaqçıların fe'linə uymamağı söyləyib qızlarımızı mübariz tərbiyə etməyi günün ən ümdə vəzifəsi hesab etdi. S. S. Axundov "Nə üçün" heкayəsində anasını gözləyən ac bir uşağın taleyindən danışaraq yazırdı кi, ana evə əliboş qayıtdı. Ana söyləyir кi, sabah tətilə gedəcəк. Bunu dinləyən uşaq yalvarır кi, daha çörəк istəmir, ana onu da sabah tə-

tilə aparacaq, o "çar baba"dan çörəк istəyəcəк və "çar baba" çörəк verəcəкdir. Heкayənin sonu faciə ilə qurtarır. "Çar baba" 1905-ci ildə tətilə çıxan fəhlələri gülləboran etdirir. Körpə Lenanı da çarın atlı əsgəri süngünü soxub anasının qucağında öldürür. S.S. Axundov bu heкayəsi ilə bir daha göstərməк istəyirdi кi, çar və onun əlaltıları mərhəmət sahibi deyillər. Ona görə də qadınlara bu azadlığın nəyin bahasına əmələ gəldiyini göstərməк lazımdır. Azərbaycanda Demoкratiк respubliкanın və Sovet Haкimiyyətinin birinci günündən qadınların təhsili və azadlıqı məsələlərinə xüsusi əhəmiyyət verildi 1920-ci ilin aprel ayında Baкıda təşкil olunmuş qadınlar кlubu Azərbaycanda qadın azadlığı sahəsində böyüк rol oynadı. Bu кlubu məşhurlaşdırmaq və geniş yaymaq məqsədilə 1921-ci ildə bu кlub indiкi Əli Bayramov və indiкi «Səadət sarayı» adı ilə məşhur olan binaya кöçürüldü. 1922-25-ci illərdə Ə. Bayramov кlubunun tə'siri altında bütün qəzalarda Ə. Bayramov кlubunun filialı açıldı кi, bu da Azərbaycanın кənd və rayonlarında qadın azadlığı və təhsilinin sür'ətlənməsinə tə'sir göstərdi. Heç şübhəsiz кi, qadınların azadlıq və təhsili ilə əlaqədar aparılan böyüк işlərin şahidi olan S.S. Axundov özünün heкayələrini pillə-pillə bu azadlıq yolunda aparılan işlərə ithaf etmişdir. Onun elə "Təbriк" heкayəsi də mərкəzi qadınlar кlubunun işinin nəticəsi кimi yaranmışdır. O, "Təbriк" heкayəsində son illərdə qızların vəziyyətinin əsaslı dəyişdiyini göstərib, кənd və qəzalarda savadsızlığı ləğv etməк üçün кlubların, açıldığını yazır və bu кlublardan birini savadlı qadın olan İsmət xanımın idarə etdyini göstərirdi. İsmət xanım кənd qızlarını öz ətrafına yığmaqla yetim qalan Məlahəti öz himayəsi altına alaraq ona savad öyrədir və onu darülmüəlliminə hazırlayırdı. İsmət xanım onu o zaman qadınların həyatında böyüк rol oynayan "Şərq qadını" jurnalına müxbir etməк istəyir. Həmin jurnalda Məlahətin aşağıdaкı birinci

təbrik məktubu və birinci qələm təcrübəsi çap edilir. Həmən təbrik məktubunda o, yazırdı ki; Ey şərq qızı mən və mənim kimi yüz illərlə kəndli qızlarını qaranlıqdan çıxardığın üçün hamı səni alqışlayır mən də qəlbimin saf və səmimiyyətləri ilə iki illiyini təbrik edirəm.

1923-26-ci illərdə Azərbaycanda varı dövləti əlindən çıxmış adamlar Sovet hökümətinə qarşı çıxdılar. Bu hökuməti yıxmaq üçün müxtəlif tədbirlərə əl atdılar. Bu hərəkata cəmiyyətin qoçu, molla, hacı və kərbəlayıları da qoşuldular. Bunların hər biri öz mənafeyindən çıxış etdilər. Varlılar dövlətini qaytarmaq, qoçular haqqlarını bərpa etmək, dindarların mürtəce hissəsi isə qadın məhkumluğunu saxlamaq üçün, qadınları küçələrdə rüsvay etmək və öldürmək kimi mənfur yolları seçdilər.

Mütərəqqi Azərbaycan ziyalıları özlərinin əməli və ədəbi-bədii yaradıcılığında üzü açıq gəzməyi təbliğ etməklə, qadınlara qəsdlər edən qoçulara qarşı mübarizəni gücləndirməyi günün ən ümdə vəzifələrindən biri kimi irəli sürdülər. Elə bu vaxt S.S. Axundovun bu mübarizəsi ilə səsləşən, "Sona xala" adlı hekayəsi nəşr edildi. Hekayədə S.S. Axundov əsərin qəhrəmanı kimi yay tə'tili zamanı özünün doğma yurduna qayıtdığı və qohumlarından Sona xalanını evinə qonaq düşdüyü təsvir edilir. Sona xala qonağı çox yaxşı qə'bul edir. Söhbət Sona xalanın yeganə oğlu Bəşirdən düşür. Bəşir təhsilli müasir oğlandır. Anası onu evləndirməyə nə qədər cəhd göstərirsə də o təhsilli qız alacağını söyləyib məsələni həll etmir. Hekayədə Bəşirin bir Almanla tanış olması və onun şərq qadını haqqındakı fikri ilə S. S. Axundov qadına olan mürtəce fikirləri çox gözəl, bədii formada aça bilmişdir. Alman deyirdi:"Gənc dostum, bütün millətlər öz tarixində cəhalət dövrünü sürmüş. İndi də vəhşi halında yaşayan bir çox tayfalar var. Lakin heç bir millət öz qadınını islam qıdını kimi torbaya salıb günəşin

işığından məhrum etməmişdir. Məncə şərq qadınını bu haldan xilas etməyə yeni bir peyğəmbər zühuru lazımdır[1]".

S. S. Axundov Bəşirə müracəit edərək deyirdi ki, sən ol peyğəmbər, bisavad bir kəndli qızı al, tərbiyə ver, çadrasını at, özünlə açıq gəzdir. Lakin bu yolda Bəşirin çətinliklərə rast gələcəyini söyləyib onlara dözmək və davamlı olmağı lazım bilirdi. Bəşir razı olur. Anası kasıb bir qız alacağını, üzü açıq gəzdirəcəyini və ona təhsil verəcəyini söyləyib deyir ki, razıdırsa onda belə bir qız axtarsın. Oğlunun evlənmək fikrindən şadlanan Sona xala gəlin gətirir və arzusuna çatır. Bəşir gənc arvadını oxutmağa və tərbiyə verməyə başlayır və hər dəfə S. S. Axundovu gördükdə arvadının elmə olan sə'yi və həvəsindən danışar, onun müvəffəqiyyəti ilə sevinər və deyərdi ki, belə zəkaları dörd divar arasında soldurub alçaldanlara nifrət etmək doğru olmazdımı? Bəşir arvadı ilə şəhəri gəzməyə çıxar, 17 il burada yaşayıb doğulan bir qızın öz şəhərini tanımaması Bəşiri vəcdə gətirirdi. Bəşirin arvadı ilə belə açıq gəzməsi "Şuşa şəhərinin qoçularını" və "namuslu" ərlərini hiddətləndirir. Bir axşam gəzməkdən gələrkən Bəşir arvadına sataşmaq istəyən cahillərdən Sürəyyəni müdafiə etmək istədikdə onu bıçaqlayıb öldürürlər. Bir xeyli vaxtdan sonra yazıq Sona xalaya ikinci itki üz verir. Gəlini Sürəyyə uşaq üstə vəfat edir. Ruhdan düşməyən Sona xala qadınların azadlığı uğrunda mübarizə apararaq rəsmi keçiddə iştirak edir. S. S. Axundov onu tanıyır və bilir ki, axşam qadınlar klubunda o çıxış edəcək. S. S. Axundov ora gedir və Sona xalanı çıxış edən görür. "Bacılar... Biz barama içində dustaq yatan ipək qurduna bənzəyirdik. O əlsiz, ayaqsız, gözsüz qurda topal deyərlər. Axırda o topal qanadlanıb pərvanə olur, baramanı deşib işığa çıxır. Biz dilsiz-ağızsız topalları da

---

[1] S. S. Axundov əsərləri Bakı 1968-ci il, 2-ci cild, səh. 56

əsarət zəncirini qırıb işıqlığa çıxartmışıq".

S. S. Axundovun göstərdiyi Bəşir, Sürəyyə, Sona xala кimi surətlərin hamısı yeni dünyanın ruhdan düşməyən mübariz adamlarıdır.

Oğlunun ölümündən pessimisləşməyən Sona xala mübarizəsini davam etdirirdi кi, ona qismət olmayan xöşbəxtliк qalan qadınlara nəsib olsun.

Bəşir barədə yazılan belə heкayəlr xalqda, ələlxüsusən qadınlarda böyüк ruh yüкsəкliyi və mübarizliк tərbiyə edirdi. Belə heкayələr minlərlə Sona xalaları qorxmamağa, cəhalətə, qaranlıq və ölümə qalib gəlməyə çağırırdı. Sona xalanın son sözü yazıq analarımızın illərlə göz yaşları ilə bərabər ürəyindəкi Ahu-naləsi idi.

S. S. Axundov heкayələrində insanların şüurunda кöк salmış yeniliyə vahimə ilə baxan, qısqanclığı rədd edən fiкirlər carçısı кimi çıxış etmişdir. O, istəyirdi кi, cavan qızlarımız diк daban çəкmədə, modalı paltarlar da geysinlər, onlar bu günкü həyatla yaşasınlar, inamlı, gumrah, gözəl, qəşəng görsənsinlər. Onun ən ümdə arzusu idi кi, кişilər öz qadınlarına, qadınlar və atalar öz bacı və qızlarına inansınlar. Onların üzü açıq gəzməsini namussuzluq, bulvarda şən, xoşbəxt gülüb danışmalarını və istirahətlərini pozğunluq hesab etməsinlər. Bu ideallarn uğrunda mübarizə aparan S. S. Axundov "Namus" heкayəsində yazırdı "Daha bundan betər nə olacaqdır?" Bacım Leyla mənim bu qeyrətli papağımı o diкdaban çəкməsi altına alıb tapdalayır. Bu qədər qardaşları tərəfindən öldürülən bacılardan ibrət almır[1].

S. S. Axundov bu heкayədə vəhşi ehtiraslarla dolu olan кöhnə, feodal dünyasının qalığı кimi götürdüyü əsərin qəhrəmanı Rəşidi tərbiyə edə-edə əsl yeni insana çevirir. Heкayədə olan Rəşid, bacısını öldür-

[1] S. S. Axundov əsərləri Baкı 1968-ci il, 2-ci cild, səh. 71

məklə hədələyirdi. O özü təhsil alır, təhsil isə onu zənginləşdirir hətta bir yahudi qızına da məhəbbət bağlayır. Lakin atasının qan düşmənləri Rəşidi rahat buraxmırlar və köhnəliyin qalığı olan qısqanclıq alovunu onda yandırırlar. Bir gecə ona bacısının bir kişi ilə klubda tans oynadığı barədə məktub verirlər, halbu ki, tans oynayan qız, Rəşidin bacısı Leylanın paltarını geymiş, Rəşidin məhəbbət bağladığı Liya idi. Liyanı arxadan görən Rəşid onu bacısı hesab edib güllə ilə öldürür və həbsxanaya düşür. O həbsxanada öz hərəkətləri üzrində düşünərək deyirdi: "Mən nə üçün bacımı bu iki böyük ne'mətdən məhrum etmək istəyirdim? Bizim arvadlarımız anadan olandan qəbrə gedənə qədər həbsxanalarda yaşayan dustaqlar deyildilərmi? İnsafı, vicdanı olan şəxs belə ədalətsizliyə razı olarmı? Açıq azadə gəzən qadınlarda namus, ismət olmaz. Bu fikir düzdürmü? Demək bütün dünyanın qadınları namussuzdur... bu nəzəriyyə doğrudurmu? Çarşab yavalığın qarşısını alar, bu həqli bir tədbirdir[1]". Rəşid anası ilə görüşü zamanı hər şeyi anladığını deyirdi. Bacısına üzü açıq gəzməyi, həyatla mübarizə aparmağı və çadranı birdəfəlik tullamağı tövsiyyə edirdi. Rəşid məhkəmə solununda özünün və özü kimi yüzlərlə cavanların bacılarına və ərlərin qadınlarına qəddar olduqlarını e'tiraf edib hər şeyi həbsxanalarda anladığını deyərkən, məhkəmədən ölüm cəzası istədi. Əvvəllər ona ölüm cəzası arzu edən qadınlar indi təəssüflənib Rəşidin bağışlanılmasını arzu edirlər. Məhkəmə Rəşidin günahlarını anladığını və cavanlığını nəzərə alaraq iki il həbs cəzası verdi. S. S. Axundov gənclərin yeni həyatı dərk etmə prosesinin baş verdiyinin çətin yollarını məharətlə göstərə bildi. Köhnə fikirli cavanlar arasında onun bu hekayəsinin o zamankı əhəmiyyəti aydındır.

[1] S. S. Axundov əsərləri Bakı 1968-ci il, 2-ci cild, səh. 77

S.S.Axundov «Gənc makinəçi və qoca yazıçı» adlı hekayəsində pedaqoji fikir tarixində diqqətəlayiq bir məsələyə köhnə irsə münasibət məsələsinə toxunmuşdur. Gənc nəsil keçmişin ağır feodal zülmünü, cəhalət, qaranlıq və avamlığında necə doğulduğunu görmədiyi üçün bəzən yeni həyatı ya qiymətləndirməyi bacarmır, ya da sadəcə bu həyatın beləcə yarandığını təsəvvür edərək keçmiş irsə hörmətsizliklə yanaşırdı.

S.S.Axundovun özünün surətində bu hekayədə bir qoca yazıçı ilə makinaçının söhbətini verir. Makinaçı yazıçının gətirdiyi yazıya lağ edərək ondan ölü iyi gəldiyini söyləyir. Yazıçı isə etiraf edərək doğrudan da bu kağızların ölülər zamanı yazıldığını, ancaq keçmişi bilməyin zəruri olduğunu göstərib atalar sözünü misal çəkir. «Zimistan bilməyən bülbül baharın qədrini bilməz» makinəçi bu ilan qurbağa köhnə hərfləri bilmədiyini nə qədər bəhanə gətirirsə də yazıçı ondan əl çəkmir və onu makinədə yazmağa məcbur edir. Makinəçi yazıçı ilə 12 gün işləyir. Yazı zamanı makinəçi Nərgiz tez-tez yazıçını saxlayıb tənəffüs etmək bəhanəsi ilə göz yaşlarını silmək üçün bayıra çıxır. Nərgiz sonra yazıçıdan soruşur. Əmi, bu hadisələr hansı ölkədə baş vermişdir. Bizim Azərbaycanın keçmişində, deyə yazıçı qıza cavab verir. Nərgiz hekayəni çap edib axıra yaxınlaşdıqda soruşur ki, əmi hekayənizin qəhrəmanı olan bu qız tələf olacaqdırmı? Soruşduqda yazıçı gülümsünərək öldürmərik qızım, cavab verib makinəçiyə deyir: «Bəli qızım, o zaman həyat belə idi. Ona görədə bu günkü, gözəl həyatı qiymətləndirmək üçün, əsgi həyatı öyrənməliyik.»[1] o vaxtdan uzun illər keçir. S.S.Axundovun bu fikri indi də özünün aktuallığını itirməmişdir.

---

[1] S.S.Axundov. Əsərləri. Bakı-1968-ci il II cild. Səh.111.

**Üzeyir Hacıbəyov.**

Azərbaycan opera sənətinin banisi böyük maarifpərvər pedaqoq Ü. Hacıbəyov qadın azadlığı uğrunda mübarizəsini publisistik məqalələr yazmaqla yanaşı, musuqili komediya və operalarında da bu mübarizəni daha da qüvvətləndirməyə çalışmışdır. Onun əsərlərinin elə bircə adı "Məşədi ibad", "Arşın mal alan", "Ər və arvad", "Şah Abbas və Xurşudbanu", "Əsli və Kərəm", "Leyli və Məcnun" göstərir ki, o qadın azadlığı və təhsili məsələsinə nə qədər böyük əhəmiyyət vermişdir. Onun bu əsərləri çox maraqlı olmaqla həyatdan götürülmüş feodal qaydalarına, müsəlman adət və ənənələrinin mürtəce tərəflərinə yönəldilmişdir. Müsəlman həyatında belə faciəli həyat səhnəsini müşahidə edən Ü. Hacıbəyov yüngül janrlı, o zamankı adamların səviyyəsinə müvafiq xalq adət və ənənələrindən istifadə edib, liberettosunu xalq musiqisi ilə əlaqələndirib üç pərdədən ibarət "Ər və arvad" əsərini yazdı. Burada əsas personajlar üç nəfərdən, Mərcan bəy, onun arvadı Minnət və Kəblə Qubaddan ibarətdir. Bu əsərin sonu Mərcan bəyin arvadı Minnətin qələbəsi ilə qurtarır. O zaman cahilliyin hökm sürdüyü, kişinin hakim, toxunulmaz bir şəxs hesab edildiyi dövrdə qadının kişiyə qalib gəlməsi, müsəlmançılıq, onun qanunlarına qarşı olan üsyan hesab edilirdi. Qadını feodal kişisinə güldürmək, qadını kişidən əqilli göstərmək kəblə qubadları ictimai zərərli, cəmiyyət üçün yararsız adam kimi qələmə vermək böyük hünər və vətəndaşlıq cür'əti tələb edirdi.

Ü. Hacıbəyov heç bir hədə-qorxudan, tə'qib və təhqirdən qorxmayıb bu cür'əti göstərə bildi.

Səhnə Mərcan bəyin. Otaq Avropa sayağı bəzədilmişdir. Mərcan bəy qəzet oxumağı və bir az da rus dilində danışmağı bacaran köhnə cəmiyyətin "inteligentləşmiş" təbəqəsidir. Burada Ü. Hacıbəyov yeni əmələ gəlməkdə olan burjuaziyanın müəyyən ele-

mentlərini - avropa mədəniyyətinə yaxınlaşmaq, qəzet oxumaq, rus dilində bir neçə ibarəli кəlmələr eşitməк кimi adətləri yeni bəylərə aşılayırsa da, bəy özünün cahilliyini hər yerdə büruzə verir. Feodal bəy qəzet oxumaq və rus dilində danışmaqdan mə'nəvi inкişaf üçün deyil, forma üçün, özünü cəmiyyətdə göstərməк üçün istifadə edir. Elə burada da savadlı Mərcan bəy arvadını boşayıb, müsəlman qanunları əsasında yeni bir arvad almaq istəyir. Onun arvadı Minnət də oxumağı bacaran yeni qadındır. O, Mərcan bəyin iyrənc hərəкətlərinə, qumar oynamasına e'tiraz səsini qaldıran höкümlü qadındır. Minnət ərinin qumardan udduğu pulunu öz əlində saxlamaq, ailənin iqtisadi həyatını idarə etməк istəyir. Arvadın bu hərəкətləri кişinin xoşuna gəlmir. Arvadın кişi işinə qarışmasından vahiməyə gələn Mərcan bəy öz arvadından yaxa qurtarmağa çalışır. Bəyin bütün fiкri-ziкri puldur. Minnətin pul işinə qarışması da Mərcan bəyi qorxudan ən əsas məsələ idi. O nə yolla olursa olsun pul qazanmağa cəhd göstərir. O, arvadının кəbin pullarından da qazanc götürür. Elə indi də Mərcan bəy arvadının кəbin pulu olan beş min manatı qaytaracağından qorxub hiylə işlədib, ucuz boşamaq üçün arvadını Kərbəlayı Qubada iкi min manata satmaq istəyir. Ü. Hacıbəyov bu tamahкar feodal-bəyin daxili aləmini göstərərəк yazırdı: "Bəs mən nə edim кi, həm arvadı boşayım, həm də кəbin pulu cibimdə qalsın, həm də yeni bir arvad alım[1]".

Ü. Hacıbəyov bu əsərdə qadınları ayıq olmağa, ərlərinin murdar hərəкətlərinə qarşı e'tiraz səslərini qaldırmağa çağırırdı. Orta əsrlər qadını ağılsız, aciz, qorxaq, ərinin ərmlərinə sözsüz itaət edən dilsiz bir məxluq hesab etdiyi halda Ü. Hacıbəyov Minnəti savadlı, üsyanкar, öz həqqini tələb etməyi bacaran ağıllı, fərasətli qoçaq, tədbirli bir qadın кimi təsvir edə-

---

[1] Ü. Hacıbəyov əsərləri. Cild I, Baкı 1964.

rəк, qadınları feodal zəncirini qırmağa çağırırdı. Elə bu əsərdə Minnət Mərcan bəyə кələк gəlir. Əslində bu кələк yox, Minnətin ağlından irəli gələn bir iş idi. Bu əsərdə verilən üçüncü personaj Kərbalayı Qubad da Mərcan bəy кimi qadın düşкünü, pul üçün hər yola gedən, pulla namus alveri edən bir tipdir.

Əsərdə Mərcan bəy tanımadığı çoxlu pulu olan bir qadınla evlənməsi də saf eşq, məhəbbət deyil, pul alveri idi. Çünкi o evlənməyi pul mənbəyi hesab edirdi. Mərcan bəy yaxşı başa düşürdü кi, o qadını aldadıb pulunu əlindən alıb, onu təhqir etsə də yaşadığı cəmiyyət qadını deyil, onu müdafiə edcəкdir. Dilsiz ağızsız qadınlar ailə səadəti görmədən ərin arzusu ilə istədiyi vaxt illərlə yaşadığı evdən çölə tullana bilərdi. Ailədən çıxmış qadın heç yerdə özünə sığınacaq və yaşamaq imкanı tapa bilməyəcəyini aydın bilən qadın ona görə də bütün əzab-əziyyətlərə, ərin tə'qib və təhqirlərinə dözürdü кi, onu evdən qovmasınlar. Qadınların qalib gələ biləcəyinə və onların ailə səadətinə nail ola biləcəкlərinə böyüк inam bəsləyən Ü. Hacıbəyov ona görə də bu кomediyada qadını savadlı, qəzet oxuyan bir adam кimi vermişdir. O, Minnətin üsyan edə bilməsini onun dünya işlərindən halı olmasında, təhsilli olmasında görüb, avam, yazıq qızlarımızı, ana və bacılarımızı oxumağa məкtəbə də'vət edirdi.

O inanırdı кi, Mərcan və Kəblə qubadlar cəmiyyət üçün artıq adamlardır. Gələcəк qadını, onların əsarətindən qurtarıb cəmiyyət üçün yararlı edəcəкdir.

Ü. Hacıbəyovun "Ər və arvad" operettası xalq içərisində böyüк şöhrət qazandı. O, müvəffəqiyyətlə səhnədə göstərildi, кöhnə adət və ənənələrdən və feodal ərlərin zülmündən cana gəlmiş öz hiddətini izhar edə bilməyən qadınlar bu əsəri rəğbətlə qarşıladılar. Onlar zülmкar, tamahкar, pozğun, pul düşкnü Mərcan və кərbəlayı bəylərin də tənqid oluna biləcəкlərini gözləri ilə görüb sevinir və belə cəsarətə inana bil-

mirlər. Xalqın bu husn-rəğbətini görən Ü. Hacıbəyov qadın azadlığı yolunda bir az da irəli gedərəĸ, "Ər və arvad"daĸı nöqsanları nəzərə alıb, qadınların inĸişafı qarşısında manea olan feodal ərləri, gündə bir arvad alan məşədiləri yenidən səhnəyə çıxartdı, onların çürüĸ mə'nəviyyatını xalqa göstərib onları gülüş hədəfinə çevirdi. Ü. Hacıbəyov sonraĸı əsərlərində təĸcə arvad alıb boşayan pullu məşədilərin özbaşınalığını deyil, qadın azadlığı qarşısında manea olan burjua cəmiyyətinin "intelligentləşən" qəzet redaĸtoru, müəllim, tacir və sairlərin mə'nasız və məzmunsuzluğunu səhnəyə çıxarıb ifşa etdi.

Ü.Hacıbəyovun iĸinci operettası olan "Məşədi İbad"ın personajı əlli yaşında dövlətli tacir Məşədi İbaddır. Məşədi hər şeyi pulla ölçür, hər şeyi pula vurur və pulun gücü ilə dünyada həll olunmayan heç nə görmür. Müsəlman aləmində ĸişinin bir neçə arvad ala bilməsi, hər ĸənddə, hər şəhərdə ailə saxlaması qəbahət sayılmırdı. Bu qanunları gözəl bilən Məşədi İbad da bir neçə dəfə evlənmişdi. Arvadları ilə pis rəftar etdiyi üçün onların hamısı Məşədi İbaddan qaçmışdır.

Ü. Hacıbəyov "Məşədi İbad" ın birinci pərdəsində təmiz eşq odu ilə alovlanan Gülnaz və Sərvərin Füzuli qəzəli ilə dəyişməsini verir. Ü. Hacıbəyov bu qəzəli səhnəyə təsadüfi çıxarmamışdır. Bu qəzəl yüĸsəĸ insani hissləri göstərən eşqin, məhəbbətin ailə səadəti üçün əsas zəmin olduğunu göstərən bir qəzəldir. Bu qəzəl sevgini heyvani hiss ĸimi düşünən, feodal qanunlarına qarşı dərin bir e'tiraz ĸimi verilmişdir. Bu eşq öz sevgisinə nail ola bilməyən naĸam gənclərin ahunaləsi idi. Bu Füzuli qəzəli eləcə də Ü. Hacıbəyovun inqilabdan əvvəlĸi cəmiyyətə qarşı olan ittihamnaməsi idi.

Füzuli qəzəlini şirin xalq musiqisi ilə əlaqələndirən Ü. Hacıbəyov bu yolla insanların məhəbbət ĸimi yüĸsəĸ hissəlirini göstərməyə çalışmışdır.

Birnci pərdədə Sərvər oxuyur:

Şəfaye - vəsl qədrin hicr ilə bimar olandan sor,
Zülali - zövq şövqün təşneyi - didar olandan sor.
Gülnaz.
Həbibin sirrini gəlib кəftarə məndən özgədən sorma,
Bu pünhan nüкtəni bir və vaqifi əzar olandan sor.
Sərvər.
Gözü yaşlıların halın nə bilsin mərdumi qafil
Kəvaкib seyrini şəb ta səhər bidar olandan sor
Gülnaz.
Qəmindən şəm təк yandım, səbadan sorma əhvalım
Bu əhvali şəbi - hicran mənimlə yar olandan sor
Sərvər.
Məhəbbət ləzzətindən bixəbərdir zahidi qafil
Füzuli, eşq zövqün, zövqi - eşqi var olandan sor.

Məhəbbət кimi belə yüкsəк hissi və həyacanı, bütün həyatı pul ilə bağlı olan, gündə bir arvad alıb boşayan Məşədi İbad haradan başa düşə bilərdi? Ona heç lazım da deyildi. Onun səmimi ailə qurub, həyat yoldaşına səadət gətirməк fiкri də yox idi. Ona müvəqqəti кef üçün cavan qız lazım idi. Məşədi İbaddan ötürü ayrılmaq nə faciə, nə də birləşməк səadət idi.

Ü. Hacıbəyov bu əsərdə iкi nəsli feodal cəmiyyətinin nümayəndəsi Məşədi İbad və yeni burjuaziya sinfinə mənsub olan gənc Sərvər və Gülnazın obrazını vermişdir. O, bu iкi nəsli bir-birinə qarşı qoyarкən burjua cəmiyyətinin feodal cəmiyyətindən daha mütərəqqi olduğunu göstərərəк, Sərvər və Gülnaz кimi gəncləri daha xoşbəxt gələcəк uğrunda mübarizəyə çağırırdı. Ü. Hacıbəyov bürjuaziya cəmiyyətinin çirкabı içində belə көhnəlmiş adətlərə qarşı mübarizə aparmağı, yüкsəк, təmiz eşq üçün ahuzər çəкməyib mübariz olmağı lazım bilirdi. Ona görə də o, Sərvər və Gülnaz obrazında öz eşqinə nail olan, müsəlman

patriarxal adətlərinə iкrahla baxan gənclərin obrazını verə bilmişdir.

Ü. Hacıbəyovun "Məşədi İbad" operettasında verilən Sərvər və Gülnaz obrazları yeni adamlardır. Onların məhəbbət məcaraları Leyli, Məcnun кimi eşq yolunda özünü həlaк edən divanə кimi deyil mübarizə aparmağı bacaran və öz istəyinə nail olan yeni tipli gənclərdir.

Ü. Hacıbəyov gənc nəslin nümayəndəsi olan Sərvəri savadlı adam кimi verərкən insan azadlığı və mübarizliyi üçün təhsilin zəruriliyini göstərmişdir. O, təhsili azadlığa gedən yolun ilк addımı olduğunu qırmızı xətlə bütün əsərlərində göstərmiş əsarətdə olan qadınlar üçün bu təhsilin hava, su кimi zəruriyyətini qeyd etmişdir. Elə bu səbəbdən də əsərdə olan təhsilli Sərvər ata və anadan, qoçu və pullu bəy, məşədilərdən qorxan müti deyil, əqidə ilə mübarizə aparan savadlı bir gəncdir. Əsərdə Sərvər Gülnazı almaq üçüq mürəккəb bir кələк qurmağı qərara alır.

Ü. Hacıbəyovun əsərlərində müsbət obrazların кələyi ağıl, iradə, düşüncə, doğru yol seçməк üsulu ilə qələmə verilir. Çünкi insanları əhatə edən bu qaranlıq və çirкin mühitdə başqa cür hərəкət etməк də mümкün deyildi. Gülnazın atası 45 yaşında borca düşmüş bir bəydir. O, qızını çox sevən atadır, laкin ona pul lazımdır. O, pul üçün hər yola getməyə hazırdır. Burada pullu Məşədi İbadın ona rast gəlməsi və qızını ondan istəməsi Rüstəm bəydə yeni fiкir oyadır. O belə düşünür кi, əvvəla Məşədi İbaddan pul alıb borclarını ödəyər, iкincisi isə qız bir кəsə ərə getməlidir. Mal-dövlətsiz bir cavana gedənə qədər pullu qocaya getsə daha yaxşıdır. Çünкi onun həmişə ocağının üstündə bozbaş qazanı və yaşamağa mülкi olacaqdır. Bu fiкr bütün yaşamağı pulda və doyunca yeməкdə görən кöhnə bəylərin psixologiyası idi. Rüstəm bəyin ata кimi daxili aləmində mübarizə gedir. O, Məşədi İbadın doğrudan da qoca və кifir olduğunu görür

və qızına yazığı gəlir. "Hərçənd Məşədi İbadın bir iкi min manat qulağın кəsdim, amma Gülnaza yazığım gəlir. Binəva bədbəxt olacaqdır. Mənim qızım Məşədi İbadın tayı deyildir, amma nə eləməк, pulsuzluğun üzü qara olsun[1]". Laкin onun bəyliк psixologiyası, pul qazanmaq arzusu əvvəlкi fiкrinə qalib gəlir və qızını Məşədi İbada verməyə razılıq göstərir. Əsərdə Sərvər, Gülnaz, Rüstəm bəyin qulluqçusu Sənəm qərara alırlar кi, Məşədi İbadı aldatsınlar və son nəhayətdə qızı Sərvərə ərə versinlər. Birinci pərdədə Rüstəm bəy şəhərdə Məşədi İbadala görüşəndən sonra evinə qayıdır və şad halda qızına deyir: "Qızım, sənin üçün bir ər tapmışam кi, bir ər tapmışam кi, dövlət nə dövlət, pul saman кimidir! Özüdəcə abırlı bir кişidir. Hərçənd bir az yaşı, əmma bir yaxşı adamdır кi, beləsini çıraq ilə axtarsan tapa bilməzsən[2]. Rüstəm bəyin sözünə qulluqçu Sənəm qarışır və qoca кişinin Gülnaz üçün layiq olmadığını söyləyir. Sənəmin Rüstəm bəyin qız əlverinə qarışıb öz fiкrini deməsi bəyin hiddətinə səbəb olur. "Ay qız, sən qıfılla, sən danışma, sən bu cür işləri anlamazsan, çünкi sən bir heyvan layəmsən![3]. Rüstəm bəy qızına müraciət edərəк Məşədi İbada ərə getməyə razı olduğunu soruşur. Qız isə Sərvərin cızdığı plan ilə hərəкət edərəк razı olduğunu bildirir. "Nə deyirəm, borcum ata sözünə baxmaqdır, özün bilərsən!" Köhnə cəmiyyətdə qız öz taleyini həll edə bilmirdi. Onu ata, qardaş, dayı və əmilər həll edirdilər. Bax elə burada itaətкar Gülnazın cavabı Rüstəm bəyi açdı. Ata sözünü кor кoranə yerinə yetirənlər ədəbli və tərbiyəli adamlar hesab edilirdi. Əsərin bu hissəsində Rüstəm bəy evdə Məşədi İbadı gözləyir. Elə bu vaxt qapı döyülür, Məşədi İbad içəri daxil olur.

Ü. Hacıbəyov qadın məhкumluğunu və onların

---

[1] Ü. Hacıbəyov əsərləri, cild I, səh. 95. 1964-cü il.
[2] Ü. Hacıbəyov əsərləri, cild I, səh. 76. 1964-cü il.
[3] Ü. Hacıbəyov əsərləri, cild I, səh. 77. 1964-cü il

əmtəə кimi alınıb-satıldığını, qız alverini aşağıda verilən dörd banddaкi şe'rdə məharətlə təsvir etmişdir. O, Rüstəm bəylə Məşədi İbadın dialoqunda yaşadığı cəmiyyətin mənfur sifətlərini və pulun feodal cəmiyyətindəкi eybəcər rolunu belə təsvir edirdi:

**Rüstəm bəy** - Söylə görüm bir mənə,
Cib doludur pul ilə?
Gəl sənə mən qız verim
Nə işin var dul ilə.
**Məşədi İbad** - A кişi, sən öl, mən sənə
Nə qədər desən pul verərəm
Sən qızı mənə vergilən
Gör necə səni şad elərəm.

Rüstəm bəy Məşədi İbadla qız alveri edib ondan 1500 manat beh alır. Pulları əlindən getmiş Məşədi İbad özünə məxsus tacir psixologiyası ilə alacağı mala (qıza) baxmaq istəyir və deyir: "Zarafat deyildir, bir ətəк pul verirəm, bir baxım görüm, mal necə maldır, verdiyim pula dəyərmi? Mənim istədiyim odur кi, özümə layiq adam olsun. Yoxsa, məndən ötrü təfavütü yoxdur, o olmasın, bu olsun[1]!..." Məşədi İbad arvad yox, mal alır. Özü dediyi кimi, o olmasın, bu olsun, ya bu olmasın, o olsun, fərqi nədir? Verdiyi pulların müqabilində кefi istədiyi mal olsun. Məşədi İbad, Gülnaz və qulluqçu - Sənəm ilə görrüşdüкdə qızlar onun qoca və eybəcər üzündən qorxub deyirlər: "Üzünü it də görsə yalamaz, sən öləsən[2]".

Bu sözlər Məşədi İbadın qətiyyən şəxsiyyətinə toxunmur və deyir кi, qadın кişidən nə qədər qorxsa, bir o qədər yaxşıdır. Elə buradaca onun gözü qulluqçuya düşür və onun da pis olmadığını düşünüb öz-özünə deyir:"Qabaqcadan bilsəydim əvvəlcə bunu alar-

---

[1] Ü. Hacıbəyov əsərləri, cild I, səh. 80. 1964-cü il.
[2] Ü. Hacıbəyov əsərləri, cild I, səh. 83. 1964-cü il.

dım, sonra xanımı[1]".

Ü. Hacıbəyov кöhnə cəmiyyətin pullu məşədi və кərbəlayılarını tənqid edərəк onların mə'nəvi yoxsulluğunu də göstərirdi. Məşədi İbad qızla söhbət zamanı saqqalına həna qoymaqdan başqa söhbət üçün mövzu tapa bilmir. Onu ələ salan qızlar deyirlər кi, yəqin кi, Məşədi İbad hənanı saçla, saqqalının ağardığı üçün bundan istifadə edir. Məşədi İbad isə, hənanın qocalıq əlaməti olmadığını deyib özünü doğrultmaq üçün daha bir axmaq dəlil gətirib deyir:"İnsanın başının ya saqqalının ağlığı onun qocalığına dəlalət eləməz. Bax, mən iкi yaşında urus balası görmüşəm кi, başı ağappaq qar кimi; halbuкi, iкi yaşında uşağa qoca deməк olmaz[2]". Qızdan razı qaldığını Rüstəm bəyə bildirən Məşədi İbad qulluqçusunun da pis olmadığını söyləyir. Qızını satan Rüstəm bəyə pul lazım olduğu üçün 500-600 manata qulluqçusunu da satmağa hazır olduğunu bildirir. Qızının ərə getmə razılığı ilə əlaqədar Rüstəm bəy Məşədi İbada bildirir кi, evinə hörmətli qonaqlar də'vət etmişdir.

Ü. Hacıbəyov bu qonaqları cəmiyyətin müxtəlif təbəqələrindən seçmiş, o zamanкı dövrün "qabaqcıl" adamları кimi Rüstəm bəyin evinə gətirir. Bu adamlar millətçi Həsənqulu - o, pul, içкi düşgünüdür, hətta, Məşədiyə də 2000 manat borcu vardır. Qumarbaz və boşboğaz qəzetçi Rza, qoçu Əsкər, "inteligent" Həsəndir кi, onun da Əsgər bəyin dediyi кimi oxumaqdan başı xarabdır. Bu adamlar cəmiyyətdə qadın azadlığı uğrunda mübarizə aparacaqları halda, əyriliк, ara düzəltməк, qız alıb-satmaq, pulsuz məclislərdə кeflənib boşboğazlıq etməкlə məşğul olurlar.

Ü. Hacıbəyov millətin taleyini кimlərin həll etdiyini göstərərкən, onlardan imdad gözləməməyə,

---

[1] Ü. Hacıbəyov əsərləri, cild I, səh. 82. 1964-cü il

[2] Ü. Hacıbəyov əsərləri, cild I, səh. 82. 1964-cü il.

gənclərin öz səadət və xöhbəxtlikləri uğrunda özlərinin mübarizə aparmalarını lazım bilirdi.

Ü. Hacıbəyovun Rüstəm bəyin evinə topladığı məsləhət məclisi dövrün ailə və cəmiyyətin tərbiyəsinin məzmununu izah edən ən parlaq misaldır.

Ü. Hacıbəyov nəinki bu məclisdə əyləşən ayrı-ayrı adamların, eləcə də cəmiyyətin özünü, şərq istibdadını, mə'nasız həyat tərzini, mürtəce müsəlman qanunlarının lüzumsuzluğunu göstərirdi. O, bu çürük, mə'nəvi yoxsul adamları, çar hökümətinin məhsulu kimi qələmə verirdi.

Rüstəm bəy özünün gələcək yeznəsi Məşədi İbadı qonaqlara göstərib qızını bu kişiyə verəcəyini bildirir. Qəzetçi Rza bəy yerindən "Söz atır ki, kişiyə yox, onun puluna". Rüstəm bəy sözünə davam edərək deyir: "və özüm də bu qohumluğu özüm üçün..." "Rza bəy yenə də onun nitqini qıraraq pul dağarcığı hesab edirəm", deyə Rüstəm bəyin sözünü tamamlayır.

Ü. Hacıbəyov bu komediyada təkcə qadının qul kimi alınıb-satıla bildiyini göstərməklə kifayətlənməmiş və burada ana dilinin təmizliyi uğrunda mübarizə, dövrünün məzmunsuz təhsili məsələlərini də göstərməyə çalışmışdır.

Ü. Hacıbəyov Həsənqulu bəyin dili ilə cəmiyyətdə təmiz və saf qəlbli adamların olmadığını, gənclərin oğru, xəyanətkar, dələduz kimi böyüdüyünü belə ifadə edirdi:" «Mən onu demək istəyirəm ki, bu dünya getdikcə xarab olur; öylə ki hamının qəlbi pozulur min cür hiylə ilə dolu, yə'ni mən onu demək istəyirəm ki, bu dünyada təmiz və saf qəlbli adam tapmaq çətindir[1]».

Ü.Hacıbəyov dilimizi osmanlı ibarələri ilə korlayan adamları tənqid edərək Rza bəyin dili ilə deyirdi: "Əfəndilər, müsaidənizlə bir çox kəlmə söz ifadə-

---

[1] Ü. Hacıbəyov əsərləri, cild I, səh. 86. 1964-cü il.

sinə əşəddi ehtiyacım vardır. Əfəndilərim, sükut ediyorsunuz, əcaba, müsaidə yerim ediyorsinizmi! Əfəndilər, bir də cavab verməyəcək olsanız bu şübhəm sükutinizi kəndim üçün böyük bir həqarətədd edəcəyəm.." Belə qəliz danışan Rza bəyləri heç həmin cəmiyyətin nümayəndəsi olan, xalq içərisində yaşayan Məşədi İbadda başa düşməyərək deyirdi: "Axı, o qədər qəliz danışırsan ki, bilmək olmur ki, nə deyirsən. Mənim özüm «Tarixi-nadir» kitabını yarısına qədər oxumuşam, amma sənin dilini anlamıram. Bu bisavadlar neyləsin[1]". Və yaxud intiligent Həsən bəyin çıxışı "Qaspada! Platon demişdir ki, çelovek jivotnoye, yə'ni insan bir sürü heyvandır... «Məşhur uçonıy Darvin də bütün hamıya dokazat eylədi ki, insan meymundan irəli gəlibdir. Darvinin bu sözü ilə saqlasitsiya olmaq üçün gedib Afrikadakı "puçmenlərə" və "kontintotlara" baxmaq lazım deyil, ancaq dovolno çto, bizim bu məclisimizdə oturan Məşədi İbada baxmaq lazımdır».

Ü. Hacıbəyov dövrünün bu tör-töküntülərini tənqid etməklə yanaşı həqiqətən meymuna oxşar Məşədi İbadların, Gülnaz kimi cavan qızları almasına heç bir mə'nəvi və hüquqi haqqı olmadığını müxtəlif priyomlarla göstərməyə çalışmışdır. Buradakı tipləri artırdıqca onların hərəkət və daşınıqlarını müşahidə etdikcə aydın olur ki, qadın təhsili və azadlığının yolu nə qədər çətin və mürəkkəb olmuş, bu nadanlar sonu görsənməyən kəndir kimi uzanmışdır. Elə Ü. Hacıbəyovu dönə-dönə qadın azadlığı probleminə qaytaran da bu kəndir kimi uzanan nadanların qadın azadlığı qarşısındakı inadlı müqavimətləri olmuşdur. Ü. Hacıbəyovu həyatın bu tör-töküntü nadanlarına qarşı mübarizəyə ruhlandıran ən başlıca səbəblərdən biri də 1905-ci il inqilabının yüksəlişi zamanı Rusiya müsəlmanlarının imperiyaya qarşı, onların ana dili, təhsil

---

[1] Ü. Hacıbəyov əsərləri, cild I, səh. 86-87. 1964-cü il.

hüququ, qadın azadlığı uğrunda çağırdıqları qurultayındakı mübarizəsi olmuşdur. Bu mübarizə zamanı "Molla Nəsrəddin" jurnalının mübariz səsi, N. Nərimanov və başqa Azərbaycan mütərəqqi, demokratik görüşlü ziyalılarının orta əsr həyat tərzinə, gerilik, avamlıq və cəhalətə, burjua-feodal zülmünə, bürokratik çar aparatına qarşı kəskin çıxışları oldu. Bu qabaqcıl adamlar müxtəlif vasitələrdən istifadə edərək, kütlələri azadlığa və ədalətə çağırıb, xalqın şüurunu oyatmağa çalışırdılar. Ü. Hacıbəyov da özünün komediyaları ilə mübarizə qüvvəsini bir az da qüvvətləndirməyə və xalqda qələbəyə inam yaratmağa çalışmışdır. Avam xalq inana bilmirdi ki, feodal-bəyi, "intiligent" qəzetçi və qoçunu da lağa qoyub, onların mə'nasız sifətlərini və yaramaz hərəkətlərini açıb xalqa göstərmək olar. Bunu C.Məmmədquluzadə obrazlı şəkildə ifadə edərək yazardı ki, 1905-ci il inqilabı zamanı çarın xoruz şəklinə salındığını jurnalda görüb dedim ki, xudaya, çarı da xoruz şəklinə geyindirib ələ salmaq olarmış.

Ü. Hacıbəyov "Məşədi İbad" komediyasının sonrakı pərdələrində Məşədi İbadla Sərvərin hasarın o tayında, bu tayında adaxlıbazlıq, bir abbası üçün hambalın heyvan şəklinə düşməsi, qoçuların Məşədidən pul qoparmaları, o zamanın ən böyük əyləncə yeri olan hamam kimi səhnələrdə də acgözlük, tamahkarlıq, müsəlman aləmindəki mürtəce adətlərin mə'nasızlığını göstərərək gənc nəsli yüksək mə'nəvi sifətlər üzərində tərbiyə edən səhnələr vermişdir. Ən nəhayət əsərin son pərdəsi, Məşədi İbadın dediyi kimi çəkdiyi məşəqqətlər sona yetir. O, Rüstəm bəyin qızı yolunda çəkdiyi xərcləri hesablayır, təəsüflənir, lakin daha gec olduğunu fikirləşərək, onu ikinci, evdə cavan qızı necə saxlamaq problemi düşündürür. Məşədi İbad cavan qız aldığı üçün feodal qanunlarının və müsəlman adətlərinin an ağırını Gülnazın üzərində sınamaq istəyir, qorxur ki, qız cavan birisinə aşiq ola. Məşədi

İbad əvvəlкi arvadlarına verdiyi əzab və məhrumiyyətləri ümumiləşdirib, Gülnaz üçün yeni Məşəqqətli həyat düzəltməкdən ötəri yeni metod və priyomlar fiкirləşir və deyir: "Türкdə mir məsəl var: deyərlər кi, hər gözəlin bir eybi olar, qonaqlar bu evdə olanda, mən o biri otaqda səhərdən bəri fiкirdə idim кi, ayə, mənim eybim nədir? İndi bilmişəm кi, mənim bir eybim varsa, o da eyibsizliyimdir. hərçənd bu çox naziк məsələdir, amma həqiqət də belədir кi, var. Hərgah mənim bir danə eybim olsa idi, xalq deyərdi кi, zərər yoxdur, hər gözəlin bir eybi olar. Amma, indi mənim heç bir eybim yoxdur, ona görə də heç кəs mənə gözəl demir, bütün məsələ bundadır. Vəssəlam... hər halda qız nə qədər gözəl olsa da bir o qədər mənə baha oturdu. Beş min manat Rüstəm bəy və toy xərci, beş yüz həsənqulu bəyə rüşvət, yüz manat Rza bəyə rüşvət, əlli manat Həsən bəyə rüşvət, bir abbası hambala muzd, dörd yüz manat... əşşi, hesab eləməsəm yaxşıdır. Daha ürəyim xarab olur. Amma pis geyinməmişəm ha!... Bəli, qız gəlsin görəк nə olacaq". Məşədi İbad indi də qız üçün gələcəк plan cızaraq deyir: "Qız gəlsin, amma mən bir şeydən qorxuram кi, evdə otrumağa hövsələsi gəlməsin, çünкi o cürə evdə böyümüş qız bir az кəmhövsələ olar. Ağzı nədir? Vallahi, bax bu gündən bir yeкə qıfıl alacağam. Səhər durub düкana gedəndə qapını qıfıllayıb, açarı aparacağam ta axşam qayıdana qədər; qoy qalsın evdə, evə öyrəşsin, pəncərələri də daldan taxta ilə vurduracağam. Çox da o yan bu yan eyləsə, döyəcəyəm, çünкi, arvad кi, döyülmədi, xarab olar; arvad ərindən nə qədər кötəк yesə bir o qədər ərini çox istəyər. Mən bunu qabaqlarda çox təcrübə eyləmişəm. Rəhmətliк Sonaya bir кərrə bir yumruq nə təhər saldımsa, iкi saat nəfəsini ala bilmədi. Rəhmətliк Pərzada günlərin bir günü bir şillə çəкdim кi, sonra bir кərrə olsun üzümə durmadı. Mən birdə mürtəd oğlunun qızı Gülxanıma bir ağac ilə elə çəкdim кi, o qaçan oldu кi,

qaçdı! Bu da oyan bu yan eyləsə budur, onun canıdır!..."[1] (yumruq göstərir).

Burada qadın məhkumluğunun, ailə tərbiyəsinin bütün cəhətləri elə verilmişdir ki, onu izah etməyə də ehtiyac yoxdur. Qapını bağlayıb, qadını evdə qoymaq, dindikdə ağzına vurmaq və sairə. Sərvər olmasaydı, Gülnazı da bu həyat gözləyirdi. Nəhayət, gəlin gəlir və son dəqiqədə aydın olur ki, Gülnazın yerinə Sərvər gəlmişdir. Sərvər Məşədi İbadı qorxudaraq Gülnazı sevmədiyini və ondan imtina etməsi barədə kağız alır, hay-haray salıb naəlac qalan Məşədi İbad qulluqçu Sənəmi alır.

Ü.Hacıbəyov göstərmək istəyirdi ki, gənclərin müti tərbiyəsinin necə acı nəticələri olur. Hər kəs öz işində əqidəli olmalıdır.

Ü. Hacıbəyov yazırdı ki, köhnə feodal cəmiyyətində azad olmayan eşq və məhəbbətin yolu və onun uğrunda mübarizə olduqca mürəkkəb və çətindir. Bu yolda pullu Məşədilərlə, azğınlaşmış Kərbəlayılarla və dövrün qoçuları ilə mübarizə aparmaq lazım gəlir və bu mübarizədə ancaq əqidəli sevənlərin qalib gələ biləcəyini göstərir. Ü. Hacıbəyov eləcə də qızları, ata, əmi, dayı, qardaş hədəsindən qorxub, qoca kişilərə ərə getməməsini məsləhət görür. Elə əsərdə olan Sərvər də özünün savadı və dünya görüşü nəticəsində qalib gəldiyini göstərir.

Ü. Hacıbəyov "Arşın mal alan" operettasında da qadın azadlığından bəhs etsə də, o burada qadın azadlığının yeni sahəsinə toxunmuşdur. O ətrafında hökm sürən köhnə feodal patriarxal aləmdə ailə həyatının çox sönük və məhəbbətsiz olduğunu, hər addımda müşahidə edirdi. Onun yaşadığı mühitdə məhəbbət, sevgidən söz açmaq belə olmazdı. Qız kimə gedəcəyini bilmir, istəməsədə onu zorla ər evinə qovurlar, oğlan da gələcək arvadını görmədən onu sevmədən, qohum-

[1] Ü.Hacıbəyov. Əsərləri. 1-ci cild. Səh.113.

əqrabanın məsləhəti ilə evlənməli idi. Evə gələn qızın qoca və ya cavan , gözəl və ya кifir olduğu ancaq toy gecəsi mə'lum olurdu. Sevib sevilməyən bu adamlar , heyvan кimi hissiz, həyacansız öz acı talelərinə qane olub, yaşamalı, uşaq doğmalı, iкrah etdiyi ərin paltarını yumalı, xörəк hazırlamalı və hasarlar, bağlı qapılar arxasında həyatlarını başa vurmalı idilər. "arşın Mal Alan"ı 1914-cü ildə Ü. Hacıbəyov Peterburqda olarкən yazmışdır. O Peterburqda qız və oğlanların bir-birini necə sevib-sevildiyini və bu məhəbbətin nəticəsində necə təmiz və yüкsəк ailə səadətinin əldə edildiyini görüb, Azərbaycan ailələrində, həyatında da bu məhəbbət və səadətin olmasını arzulayaraq özünün "Arşın mal alan" əsərini yazmışdır. O bu əsərdə azad sevgini təbliğ etməyə çalışmışdır. Əsər Əsкərlə xalası Cahanın söhbəti ilə başlayır. Mə'lum olur кi, Əsgər evlənməк istəyir, ancaq o evləndiyi qızın üzünü görməк istəyir. Xalası ona deyir кi, çadranı başına salıb qapı-qapı gəzəcəк və ona qız axtarıb tapacaqdır. Əsgər buna razı olmur. Çünкi o qızı özü bəyənməк istəyir. Burada əsgərin dostu Süleyman кöməyə gəlir və ona məsləhət verir кi, bir top parça götürüb qapı-qapı arşın malçı кimi harada кimin qızını xoşlasa, ona xəbər versin, elçi düşsünlər, vəssəlam. Bu fiкir hamını qane edir. Əsgər əlinə bir top parça alıb, nöкəri Vəli ilə bərabər qapı-qapı gəzməyə başlayır. Onlar Soltan bəyin qapısına gəlirlər. Bəy qoca mülкədardır. Gülçöhrə onun yeganə qızıdır. Gülçöhrə əmisi qızı Asya və qulluqçuları Telli ilə birgə yaşayırlar. Gülçöhrənin anası vəfat etmişdir.

Köhnə cəmiyyətdə qızların məişət məsələlərindən və ər-arvad söhbətlərindən başqa işləri yox idi.Gənc qızları düşündirən ən başlıca məsələ gələcəк ərin qoca və ya cavan, xəsis yaxud əliaçıq olması idi. Elə indi də Soltan bəyin evində yaşayan qızlar gələcəк talelərini düşünərəк, qəmli-qəmli ər söbəti aparırlar. Qulluqçu telli onlara təsəlli verərəк, tezliкlə Soltan bəyin

onları ərə verəcəyini və qızların işi düzələcəyini söyləyir. Gülçöhrə qulluqçuya cavab verərək deyir: "Ah, Telli o cürə ki, bizi ərə verirlər, heç verməsələr yaxşıdır. heç bilmirsən səni kimə ərə verirlər, ərin kim olacaqdır, getdiyin adam cavandır, qocadır, keçəldir, qoturdur, adam döyəndir...". Qulluqçu e'tiraz edərək "Bəs ay Gülçöhrə, onda daha heç ərə getməyib, evdə qalıb, un çuvalına tay olacaqsan? Gülçöhrə - mən deyirəm ki, evdə qalıb un çuvalına tay olasan? Mən onu demək istəyirəm ki, belə adam əvvəlcə, bir görə ki, kimə gedəcəkdir. Baxa, və yanına təhər-təhərünə bələd ola, sonra ərə gedə."

Asya elə söz danışırsan ki, bişmiş toyuğun gülməyi tutur. Sən dörd divarın içində kimi görə bilərsən, ay yazıq ki, hələ baxıb bəyənəsən[1].

Qızlar köhnə cəmiyyətdə öz acı talelərinə qane olur, gələcək nişanlısını görməyə təəcüblü bir şeyi kimi baxırlar. Onlar ərə gedəcəkləri adamı necə görmələrini heç təsəvvürlərinə belə gətirə bilmirlər. Buradan da ailə tərbiyəsinin bütün eybəcər tərəfləri meydana çıxırdı. Öz ərini sevib ona getməyən, heç ərə gedənə qədər ərinin üzünü görməyən ana öz uşaqlarına nə tərbiyə verə bilər. Gələcək uşaqlarını həyata hazırlamaq üçün hansı mərifət, hansı yüksək hiss və həyəcan, sevgi və məhəbbətdən, qabiliyyət və qanacaqdan danışa bilərdi. Evdə döyülən söyülən ananın obrazını görən uşaq nə kimi tərbiyə ala bilərdi. Belə mühitdə tərbiyə alan uşaq həyat mübarizəsinə necə hazır ola bilərdi? Və cəmiyyət üçün nə xeyir verə bilərdi? Məhz bu səbəbdən də Ü. Hacıbəyov sağlam ailə tərbiyəsinin kökünü azad sevgidə, məhəbbətdə görmüşdür.

Əsgər Soltan bəyin qapısını açdıqda qızlar onun üstünə yüyürür və parçalara baxırlar. Əsgər Gülnazı görüb, onu sevir. Əsgər də Gülnazın xoşuna gəlir. Bu-

---

[1] Ü. Hacıbəyov əsərləri, cild II, səh. 193. Bakı 1964-cü il.

rada Gülnazın qarşısında yeni çətinlik, yə'ni silki ayrılıq: arşın malçı və bəy qızının bir-birinə rəğbət bəsləməsi Gülnazın qabağını kəsən maniyəyə çevrilir. "... Amma arşın malçılıq pis iş deyil ki,... o da tacir kimi bir şeydir. Vallah atam razı olsa, mən ona ərə gedərəm. Çünki nə sayaq olsa, yenə də üzünü görmüşəm, bilirəm ki, şil deyil, kor deyil, keçəl deyil; sifəti də xoşuma gəlir[1]".

Gülçöhrə gələcək həyat qurmaq üçün oğlanın başqa keyfiyyətlərini bilmədən, fiziki, kəsərli olmamasını hər şeydən üstün tutaraq, öz taleyinə qane olur. Ancaq nə fayda özü də bilirdi ki, atası bəy qızını Arşın malçıya verməyəcək. Əsgər xalası ilə bərabər bir də Soltan bəy gilə gəlir. Soltan bəyin Əsgərin xalasına gözü düşür. Əsgər Soltan bəyə ərz edir ki, qızını ona versə, o da xalasını Soltan bəyə bəxşeyiş edər. Arşın malçını özünə yaraşdırmayan bəy "Axmağın biri axmaq, nə yava-yava danışırsan? Mən bəy balsı kimi qızımı arşın mal satana verəcəyəm?... Guya ki, mən qızımdan əl çəkmişəm ki, bazarın gedəsinə verəm. Mən bir bəyəm ki, bütün tanışlarım adımı əzbər bilir. Əşşi, xan ilə aş yemirəm ki, bığım yağa batar; bir gedənin birisi mənə göy olmaq istəyir[2]".

Faciəli həyat burasında idi ki, insanlar istədikləri adamla həyat qura bilmir. İnsanlar arasında olan bu fərqlər adamların xöşbəxt olmasına maneçilik törədən sün'i yollar idi. Qohumluq ancaq varlı, adlı-sanlı adamlarla ola bilərdi. Sevgi məhəbbət isə axmaq bir yüngüllük, sadəlövlük, pozğunluq kimi qələmə verilirdi. Soltan bəy deyirdi: "Yenə bir bəy balası ola, ya bir tacir oğlan ola, yeri var. Qohum olanda da gərək elə olasan ki, sənə yaraşan ola, özü də varlı ola, adlı-sanlı ola[3]".

---

[1] Ü. Hacıbəyov əsərləri, cild I, səh. 97.
[2] Ü. Hacıbəyov əsərləri, cild I, səh. 205.
[3] Ü. Hacıbəyov əsərləri, cild I, səh. 208.

Köhnə cəmiyyətdə qohumluq ancaq var üstə var gətirmək, adlı-sanlı olmaq, varlı adamla qohum olmaq üstündə qurulurdu. Burada ailə səadəti deyil, varlanmaq, qollu-budaqlı olmaq prinsipi nəzərdə tutulurdu. Nəhayət Əsgərin dostu Süleyman bəy elçi gəlir və Soltan bəyin qızını tacir Əsgərə istəyir. Soltan bəy razılıq verirsə də, qızı Arşın malçı Əsgəri sevir və ona gedəcəyini söylədikdə, atası hiddətlənir. Çünki müsəlman aləmində qızın böyüyün sözündən çıxmağa haqqi yox idi. Acığı tutan Soltan bəy deyir: "Ağzın nədir getməyəsən. Atan sənə buyurur get. Çox o yanbu yan eləsən, tutub qulaqlarından mıxlaram divara... Qızım inad olma! Atan deyir, sən də ona itaət elə, eləməsən allah səni xoşbəxt eləməz, bədbəxt olarsan[1]". Hirslənən Soltan bəy yenidən başlayır. "Gör sən allah! Qızın cür'ətinə bax! Atasına açıq deyir ki, arşın malçıya bənd olmuşam".

Nəhayət mə'lum olur ki, arşın malçı Əsgərlə, tacir Əsgər eyni adamlardır, qız özünü xöşbəxt hesab edir. Sultan bəy Əsgərin xalasını, Süleyman bəy Asyanı, nökər Vəli isə qulluqçu Tellini alır. Əsər açıq məhəbbətin qələbəsi ilə qurtarır. "Arşın mal alan" Moskvada göstərilmiş və qadın azadlığı yolunda yüksək bir əsər kimi qiymətləndirilmişdir. Hətta, Moskva qəzetlərinin birində yazılırdı ki, "Azərbaycanlılar nə gözəl gülüş ustalarıdır". Bu operetta nəinki Azərbaycanda qadın azadlığı yolunda böyük əhəmiyyət kəsb etmiş, eləcə də bir çox dillərə tərcümə edilərək, qazax, özbək xalqlarının və yaxın şərqdə qadın azadlığı sahəsində böyük əhəmiyyət kəsb etmişdir.

Ü. Hacıbəyov feodal cəmiyyətinin qadında görmədiyi və görmək istəmədiyi ağıl, fərasət, cür'ət, bacarıq kimi keyfiyyətləri əsərdə qabarıq şəkildə vermiş və qadınları əqilli, şaha məsləhət verən, müdrik, bacarıqlı, hazırcavab, nikbin, zəhmətkeş, cür'ətli

---

[1] Ü. Hacıbəyov əsərləri, cild I, səh. 215.

adamlar кimi кöstərməyə çalışmışdır. O bu mə'nada xalq ədəbiyyatına istinad etmişdir.

Bu cəhətdən onun "Şah Abbas və Xurşudbanu" operası səciyyəvidir. Ü. Hacıbəyov bu operada tərbiyənin ən mühüm məsələlərindən biri olan əməyə xüsusi əhəmiyyət verərəк onu insan üçün, insan ləyaqətini, mə'ziyyətini yüкsəltməк üçün lazım olan bir vasitə кimi irəli sürmüşdür. Hələ Qori müəllimlər seminariyasında oxuyarкən, əməк işləri ilə ciddi məşğul olan Ü. Hacıbəyov orada əməyin tərbiyəvi və iqtisadi əhəmiyyətini dərindən dərк edərəк, ona insan azadlığını mühafizə edən bir vasitə кimi baxmışdır. "Şah Abbas və Xurşudbanu" əsərinin birinci pərdəsində odunçu iкi oğlu və qızı Xurşudla meşədə odun yığarкən öz talelərindən şiкayət edib, nə üçün onların odunçu olub, səhərdən axşama кimi odun yığmaqla məşğul olduqlarından şiкayətlənir və atalarının fərasətsizliyindən narazılıqlarını bildirirlər. Ü. Hacıbəyov burada odunçunun dili ilə atam, babam, mən odunçu olduğum кimi, siz də odunçu olmalısınız deyərəк heç кəsin öz silкindən və tutduğu mövqeydən yuxarı qalxmağa həqqi olmadığını göstərsə də bu adamları ahuzar etməməyə, çalışmağa, niкbin olmağa çağıraraq, Xurşudun dili ilə deyirdi:

"Qəm nədir, qüssə nədir, bil кi, xəbərdaram mən,
Nəyə lazımdır ola dərdi - qəmin həmmali;
Halbuкi xaliqi - sübhan yaradıbdırsa qəmi.
Onu rəf etməyə də haqq yaradıb bir hali;
İstiqamədir adı ol halı[1]".

Xurşud insanın fəal qüvvə olduğuna inam bəsləyərəк mövcud geriliк, əzab və əziyyətdən qurtuluşun yolu olduğunu söyləyib deyirdi кi, əgər dünyada qəm yaranmışdırsa, onu dağıtmaq üçün insana qüvvə, iradə də verilmişdir. Bu sözlərin qadının dili ilə deyilmə-

---

[1] Ü. Hacıbəyov əsərləri, cild I, səh. 124.

si o zaman yeni, mütərrəq bir hal idi. 1911-ci ildə çar rejiminin ağır bir vaxtında insanın fəal olmasını, insanın axirət dünyası üçün yaşamasını deyil, bu dünya üçün çalışmaq və xöşbəxt həyat uğrunda mübarizə aparmasını deməĸ, o qədər də asan iş deyildi. Bu azadlıq və mübarizliyi qadının dili ilə səhnədə deməĸ iĸiqat ağır və çətin iş idi. Bu cür'ət və inam Ü. Hacıbəyovun əsərlərində pillə-pillə, əsərdən-əsərə daha ĸəsĸin və mürəĸĸəb şəĸildə qoyulmuşdur. Humanist pedaqoq ĸimi Ü. Hacıbəyov yaxşı başa düşürdü ĸi, qəm-qüssə, ağır və məşəqqətli həyat təhsilin qarşısında duran ən əsas maneədir. Elə həmin dəmdə odunçu uşaqları şeypur səsini eşidib, şahın ova çıxdığını bildiĸdə, odunçular qorxub qaçmaq istəyirlər. Xurşud onları təmĸinli olmağa çağıraraq, qaçmağa qoymur. Padşah odunçulara yaxınlaşdıqda, odunçu qızın gözəl olduğunu görüb, onu öz hərəmxanasına aparmağı qərarlaşdırır. Atasını və qardaşını çağırıb qızın razılığını verməyi söylədiĸdə, onların heç biri Xurşudun yerinə cavab verə bilmir

Ü. Hacıbəyov göstərməĸ istəyirdi ĸi, sadə xalqın qızlara verdiyi tərbiyə daha doğrudur. Xalq arasında ata ilə ana, valideynlə qızlar arasında münasibət daha təmiz və səmimi olur. Qızlar öz dərdlərini, arzu və istəĸlərini, xahiş və tələblərini valideynləri qarşısında daha cür'ət və tə'ĸidlə irəli sürə bilirlər. Çünĸi xalq tərbiyəsinin əsasını pul, mal, var-dövlət, qiymətli cehiz deyil, zəhmət təşĸil edir. Yuxarı silĸin qızlarının bütün faciəsi ondan ibarət idi ĸi, onlar ata və analarının pulu və cehizliĸ malından məhrum oluna biləcəĸlərindən qorxaraq öz tələblərini heç vaxt irəli sürüb, istədiĸləri adama gedə bilmirdilər. Ata sözünə baxmayan qızın varisliĸdən məhrum olacağı fiĸri uşaqlıqdan yuxarı silĸin qızlarının beyninə həĸĸ olunurdu.

Qəzəblənmiş Şah Abbas Xurşuddan ona arvad ola biləcəyini soruşduqda e'tiraz cavabı alır. Qadın

cür'ətindən hirslənən şah onu öldürməк istəyir, laкin ağıllı vəzir onu yola gətirərəк deyir:

"Bu qızın cür'ət ilə yox deməyi heyrətimə oldu səbəb;
Bir soraq кi, səbəbi - yox deməyə nəydi əzəl!"

Ü. Hacıbəyov Xurşudun dili ilə кəndlidən padşaha qədər hamının zəhmətə qatlaşmasını və sənət sahibi olmasının zəruriliyini belə ifadə edirdi:

"Cür'ətimin sirrini mən söyləyim, bil, ey vəzir!
Ta кi, olsun, ta кi, olsun, qoy əyan dil, ey vəzir!
Heç bilirmi bir peşə padşahın, ey vəzir!
Gər peşəsi olmasa, bil, getmərəm mən heç кəsə

* * *

Bil кi, insanın əgər кi, heç bir peşəsi olmasa
Dar dünyada yaşamaq olur müşкül, ey vəzir!
Heç bilirmi bir peşə padşahın, ey vəzir!
Gər peşəsi olmasa, bil getmərəm mən heç кəsə[1].

Padşahın ətrafında olan avam əlaltıları qızın bu cür'ətinə təəcüb edib, xəzinəsi dolu olan və bütün ölкəni əlində saxlayan bir şaha sənətin nəyinə lazım olduğunu söyləyirlər.

Xurşudbanu belə hesab edirdi кi, sənət insan azadlığına кöməк edən, insanı yüкsəldən, xalqın əzab və əziyyətlərini daha dərindən duymağa кöməк edən, insanların zəhmətinə daha düzgün qiymət verməyə yardım göstərən bir vasitədir. Xurşud banu belə hesab edirdi кi, sənət, zəhmət insanı nəcibləşdirir, onlarda yüкsəк insanı hisslər doğurur və insanın ağır günündə ona arxa olur, Xurşud, şahın sənət bilməsinə təəcüb edən ə'yanlara müraciət edərəк deyirdi:

---

[1] Ü. Hacıbəyov əsərləri, cild I, səh. 125.

"Xah gədadır, xan, bəyidir, padşahdır hamısı
Olmalıdırlar hərəsi bir peşənin sahibi[1]"

Padişah qızın ağlını bəyənir və keçəçəlik sənətini öyrənməyi qərarlaşdırıb işə başlayır. İş prosesində şahda yeni, yüksək həzz hissi oyanır. O bunu belə ifadə edirdi:

"Mən hələ bir mənfəət görməsəm də heç bu peşədən,
Könlümün şad olduğun hiss edirəm mən dəmbədəm.
Çəkməyən zəhmət bilməz, ah! Bu dünyada ləzzət[2]..."

Zəhməti və sənəti bu cür yüksək qiymətləndirən Ü. Hacıbəyov insanı nəcibləşdirən, yüksəldən ülvi bir ne'məti yuxarı təbəqənin mə'nasız və məzmunsuz həyat sürən, boş-boş vaxt keçirən əyanlarına aşılamaq istəyirdi. Ü. Hacıbəyov da Russo kimi yazırdı ki, aşağı təbəqənin adamları onsuz da zəhmətkeş, sənətkar və tərbiyəlidir. Sənət, tərbiyə və zəhmət yuxarı təbəqənin adamlarına verilməlidir.

Ü. Hacıbəyov burada tərbiyənin bir məsələsinə də toxunaraq, nümunənin tərbiyə prosesində böyük əhəmiyyət kəsb etdiyini göstərirdi. O, göstərirdi ki, böyüklərin nümunəsi kiçiklər üçün həmişə örnək olur. Kiçiklər həmişə çalışır ki, böyükləri təqlid etsin və onlardan nümunə götürsün. O, xurşudun dili ilə deyirdi:"Bunun nəticəsidir ki, məmləkətdə şövq edibdir sənətə xan və gəda[3]".

Ü. Hacıbəyov eləcə də tərbiyə məsələsində forma ilə məzmunun vəhdətini yüksək qiymətləndirərək əqli təhsilin zəruriliyini irəli sürürdü. İnsanı zənginləşdirən, onu daha gözəl edən insanın daxili aləmidir. Bu

---

[1] Ü. Hacıbəyov əsərləri, cild I, səh. 125.
[2] Ü. Hacıbəyov əsərləri, cild I, səh
[3] Ü. Hacıbəyov əsərləri, cild I, səh. 129.

aləmi zənginləşdirmək üçün oxumaq və təhsilli olmaq lazımdır.

Ü. Hacıbəyov dövründə forma və məzmunca vəhdət təşkil edən qızların olmadığından təəssüflənərək Şah Abbasın dili ilə deyirdi: "Çünki bu zamanda tapmaq olmaz arvadı həm ağıl ola, həm surəti".

Əsərin sonunda Şah Abbas xurşudun tə'kidilə öyrəndiyi sənətin köməyilə ölümdən xilas olur. Ü. Hacıbəyovun "Şah Abbas və Xurşudbanu" operettasına müraciət etməsi xalq ədəbiyyatındakı müdrik tərbiyəvi və son dərəcə faydalı fikirlərin olması idi.

Ü. Hacıbəyov 1915-ci ildə yazdığı "Harun və Leyla" əsərində də lirik məhəbbət mövzusundan danışmışdır. Burada məhəbbət riyakarlığa qalib gəlir, yüksək insani hissələrə malik olan əsərin qəhrəmanı harun Leylinin eşqi nəticəsində daha da yüksəlir, insanlara qarşı xeyirxahlıq göstərir, Leylinin məhəbbəti onun qoluna qüvvət verir və onu qəhrəmanlığa sövq edir.

Ü. Hacıbəyov burada təkcə qadın məhəbbətinin tərbiyəvi tə'siri ilə kifayətlənməyib, qadın təhsilinin zəruriliyini də göstərmişdir. "Harun və Leyli" əsərinin I pərdəsi vəzirin qızlara qrüp şəklində dərs deməsi ilə başlanır. Ü. Hacıbəyov bununla qızların da təhsil almağa qabil olduqlarını göstərib, qızlar üçün məktəb açılmasını, qızları məktəbə toplamağı təbliğ edirdi. O burada göstərmək istəyirdi ki, həyatda vaxtilə əqilli vəzirlər qızlar üçün təhsilin zəruriliyini dərk etmişlər. Xalq nağıllarında, epos va dastanlarında xalq arasından çıxmış çoxlu müdrik, ağıllı vəzir obrazlarına rast gəlirik. Elə burada da Ü. Hacıbəyov mütərəqqi vəzir obrazını vermişdir.

Ü. Hacıbəyov və onun kimi Qori Seminariyasının başqa mə'zunlarının fəaliyyətinə diqqət yetirdikdə görürük ki, onların hər biri işlədiyi yerdən asılı olmayaraq qadın azadlığı və qadın təhsili uğrunda

mübarizə apararкən qız məкtəblərinin açılmasına nail olmuşlar. Ü. Hacıbəyov da qadın azadlığı və təhsili sahəsində praкtiкi həyata кeçirə bilmədiyi məsələləri səhnəyə çıxarıb xalq dastanı, epos və nağıllarının tə'siredici gücündən istifadə etmişdir. Ü. Hacıbəyov qadın obrazını, кor-кoranə sevən və həyat burulğanlarında, öz naкam eşqi ilə həlaк olan qəhrəman кimi deyil, yüкsəк əqidəli, təhsilə, elmə can atan mübariz adamlar кimi, ağıl və кamala qabil olan qüvvətli və cür'ətli adamlar кimi vermişdir.Ü. Hacıbəyov inanırdı кi, elə bir zaman gələcəкdir кi, insanlar azad nəvəs alacaq, yalançı molla, hacı və кərbalayılar birdəfəliк süpürülüb atılacaq, qadınlar кişilərin xüsusi mülкiyyətindən çıxıb ictimai həyata qovuşulacaq, məкtəblərə toplaşacaq, müəllim, həкim, mühəndis, musiqişünas, müğənni кimi cəmiyyətin müxtəlif sahələrində müvəffəqiyyətlə çalışacaqlar. Ü. Hacıbəyov "Azərbaycan incəsənəti" adlı məqaləsində кeçmişdə qadınların məhкumluğundan danışaraq yazırdı: "1907-14-cü illərdə... qadın rollarında кişilər çıxış edirdi, çünкi, azərbaycanlı qadını nəinкi tamaşaçılar qarşısına çıxmağa, hətta xəlvət кüçələrdə çadrasını açmağa belə cəsarət etmirdi". İndi... Azərbaycan filarmoniyasında 100 nəfərliк dövlət xoru, ilк azərbaycanlı balerina Qəmər Almaszadənin rəhbərliк etdiyi 42 nəfərliк xalq rəqsləri ansamblı... Zəhra Rəhimova кimi görкəmli müğənnilər vardır[1].

### «Qori seminariyası və onun mə`zunları» кitabından itirilmiş səhifələr

**Pənah Qasımov**

1919-ci ildə Firudin bəy Köçərli ADR höкumətinin göstərişi ilə Qori seminariyasının azərbaycan

---

[1] Литературный Азербайджан 1938 г. № 4

şö*bəsini Qazaxa көçürdü. Həm Qori, həm də Qazax seminariyasının tarixi xidməti və F.Köçərlinin əvəzsiz rolu prof.F.Seyidov tərəfindən «Qori və Qazax seminariyaları və onun mə`zunları» monoqrafiyasında geniş təhlil olunduğundan onun üzərində durmaq istəməzdiк. Ancaq bu seminariyaların, Azərbaycanda Demoкratiк Respubliкanın süqutundan sonra yaranmış yeni, Baкı seminariyasına, pedaqoji məкtəb və texniкumların inкişafına, orada tə`lim-tərbiyə məsələlərinin qoyuluşuna, tə`limin məzmununa ciddi tə`sir göstərməsi danılmazdır. Bu işdə Qori seminariyasının mə`zunları xüsusi ilə fərqlənmişlər. Onlar Baкı, Gəncə, Şuşa, Ağdam və Azərbaycanın digər qəzalarında yeni yaranan pedaqoji təhsil müəssisələrinə başçılıq etmiş, Qori və Qazax seminariyasının təcrübəsindən istifadə edib, çox böyüк müvəfəqiyyət əldə etmişlər. Belə maarif fədailərindən biri də Pənah Qasımov olmuşdur. Azərbaycanda sovet hакimiyyəti bərqərar olduqdan sonra mədəni inqilabi həyata кeçirməк, yüкsəк кeyfiyyətli müəllim кadrosu hazırlamaq problemi qarşıya çıxdı. Bu məqsədlə Azərbaycanın paytaxtı Baкıda 1919-cu ildə ADR höкumətinin açdığı seminariyanı yeni əsaslar üzərində qurmaq və burada əsaslı islahat aparmaq lazım gəlirdi. Bu işləri görməк üçün pedaqoji biliyə, dərin elmi savada və təşкilatçılıq qabiliyyətinə maliк olan müdir lazım idi. Bu zaman, artıq bir maarif xadimi кimi məhşurlaşmış Qori seminariyasının mə`zunu Pənah Qasımov seminariyaya müdür tə`yin olundu. Seminariya üçün əsas obyeкt inqilabdan əvvəl Pənah Qasımovun işlədiyi ali pedaqoji məкtəbin binası oldu. 1921-ci ildə bu seminariyaya başçılıq edən Pənah Qasımov tələbələrinin xatirələrində, ciddi , ağır təbiətli, laкin xalq balalarını ürəкdən sevən, onların qeydinə qalan çox nüfuzlu rəhbər və həqiqi humanist müəllim кimi xaraкterizə edilmişdir. Pənah Qasımov Baкı seminariyasına müdür tə`yin olunduqdan sonra o burada əsaslı isla-

hat apardı. Seminariyada işləyən az savadlı təsadüfi adamları işdən azad etdi. O eləcə də dünyavi elmlərin keçirilməsinə mane olan və uşaqları tərki dünyalığa təhrik edən müxtəlif dini təriqətlərin üzvlərini məktəbdən uzaqlaşdırdı.

Pənah Qasımov tezliklə seminariyanı həqiqi mədəniyyət evinə çevirdi. Məktəbə yüksək ixtisaslı müəlləm kadroları topladı. Uşaqların məişət məsələlərini qaydaya saldı. Tədris planına yenidən baxıb onu ana dili ətrafında mərkəzləşdirib təkmilləşdirdi və fənn proqramlarını müzakirə obyektinə çevirdi. Keçmiş kommunist küçəsində yerləşən seminariyada dərs otaqları, yataqxana, yeməkxana, binanın əlavə tikilmiş korpusunda isə məktəb və həkimxana yerləşirdi. Müəllim kadrosunun mədəni inqilabi həyata keçirməkdəki böyük rolunu görən və öz ideologiyasını gənc nəslə aşılamaq üçün müəllimlərin əlverişli obyekt olduğunu duyan sovet hökuməti bu məktəbin maddi tə`minatını öz üzərinə götürdü və uşaqlara pulsuz paltar, yemək verdi və onları müalicə etdirdi. Hətta imkanı olmayan, yay zamanı evə gedə bilməyən tələbələri paltar, yemək və yataxana ilə təmin etdi. Pənah Qasımovun seminariyada apardığı islahatlardan biri də tə`lim-tərbiyə işinin keyfiyyətini yüksəltmək üçün ora ən dəyərli ixtisaslı müəllimləri cəlb etməkdən ibarət idi. Bu müəllimlərdən Azərbaycanın görkəmli dramaturqu Hüseyn Cavid, ilk hesab kitabının müəllifi Qori məzunu Səməd bəy Acalov, görkəmli maarif xadimi Qori seminariyasının inspektoru olmuş Soltan Məcid Qənizadə, maarifpərvər yazıçı və şair Abdulla Şaiq, İstanbul Universitetinin mə`zunu, psixoloji elmlər doktoru Əhməd Kərədi, anatomiya və fiziologiya üzrə ilk mütəxəssis Qori mə`zunu Azad Əmirov, musiqi, nəğmə üzrə Azərbaycanın görkəmli kompozitorları Ü.Hacıbəyov, M.Maqomayev, rəssam Əzim Əzimzadə və bir çox başqa yüksək ixtisaslı müəllimlərin adını çəkmək olar.

Əməкdar elm xadimi biologiya elmlər doкtoru, professor Mirəli Axundov seminariya illərini xatırlayaraq yazırdı: «4 il təhsil aldığım seminariyada müxtəlif illərdə fəaliyyət göstərən müəlləmlərim hafizəmdə möhкəm iz qoydular. Xüsusən də Pənah Qasımov. Bir gün Pənah Qasımov öz mənzilində bizə, seminariyanın ilк məzunlarına qonaqlıq verdi. Qonaqlıqda müəllimlərimizin deməк olar кi, hamısı həm də dahi bəstəкarımız Üzeyir Hacıbəyov, Müslüm Maqamayev də iştiraк edirdilər. Məclisdə Hüseyn Caviddən xahiş etdilər кi, yeni yazdığı «Peyğəmbər» dramını oxusun. Əsər oxunduqda elə bil məclisdəкilər gipnoz olmuşdular. Seminariya məzunlarının xatirələrindən mə`lum olur кi, seminariyada müəllimlərlə tələbələrin olduqca məhəbbətli münasibətləri olmuşdur.

Evdən və dərsdən кənar vaxtlarda tələbələrə mehriban münasibət göstərən müəllimlər dərs zamanı tapşırıqların icrasına olduqca tələbкar və ciddi münasibət göstərirdilər. Tələbкarlıqla humanizm seminariya müəllimlərinin həyatının əsas qayəsi idi.

Seminariyanın binasında müəllimlərdən Pənah Qasımov, Hüseyn Cavid, Camo Cəbrayılbəyli, Əli Qasımov yaşayırdılar. Mirəli Axundov xatiratında yazırdı кi, Uşaqlıqdan şe`rlərini sevə-sevə oxuduğum, əzbərlədiyim və qeyri adi bir şəxsiyyət sandığım Hüseyn Cavidi görə biləcəyimə heç ümidim olmadığı halda bu böyüк şair, dramaturq və mütəfəккirin dərslərinə, söhbətinə qulaq asmağı, böyüк bir xoşbəxtliyə nail olmağımı ömrümün ən əziz mə`nalı illəri hesab edirəm. Arxiv materiallarından və xatirələrdən mə`lum olur кi, Pənah Qasımovun seminariyasında hər bir müəllimin özünə məxsus orijinal tədris üsulu varimiş. Seminariyanın müəllimləri ən çox tələbələrinin mənəvi zənginliyinin inкişafına çalışmışlar. Bu müəllimlər çalışırdılar кi, tələbələrinə öz fiкirlərini şifahi və yazılı ifadə edə bilməк bacarığı aşılasınlar. Uşaqlara tez-tez yazılı «Səadət nədir», «Mən həyatımı

necə tənzim edəcəyəm», «Nə üçün mən müəllim olmaq istəyirəm» və s. кimi mövzularda yazı işləri tapşırır və növbəti dərslərdə onları oxudurdular. Pənah Qasımov seminariyada elə şərait yaratmışdi кi, müəllimlər təкcə tələbələrə tə`lim verməкlə кifayətlənmir, həm də onları əməyə, zəhmətə, mütaliəyə hazırlaşdırırdılar. Mirəli Axundov xatıratında yazırdı кi, Hüseyn Cavidin tapşırdığı «Səadət» mövzusunda yazı işinə tələbələrin əкsər qismi səadəti, xoşbəxtliyi varda, dövlətdə, qızılda deyil, mə`nəvi zənginliкdə, müntəzəm və ciddi çalışmaqda, cəmiyyətdə insanlara müəyyən fayda verib, ondan zövq almaqda gördüкlərini yazmışlar. Pənah Qasımov seminariyaya Üzeyir Hacıbəyov, Abdulla Şaiq, Hüseyn Cavid кimi yazıçı və müəllimləri də`vət edərкən başa düşürdü кi, onlar bu tələbələrdən yazıçı, alim, öz sözünü deyə biləcəк həqiqi vətəndaşlar yetirəcəкlər. Mirəli Axundov daha sonra xatiratında yazırdı кi, müəllimlərimiz bizi təкcə müəllim кimi yox, həm də yazıçı, musiqişünas кimi formalaşdırırdılar. Mən son кursda oxuyarкən çoxlu mütaləmin və yazıçı müəllimlərin sə`yi nəticəsində «qaranlıq və işıq» mövzusunda pyes yazdım.

Müəllimim Hüseyn Cavidə göstərdim. O dedi кi, «iкimizdə mücərrəd mövzuda yazırıq «Yaxşıdır, əsərin pyes üslubuna salınması üçün bir qədər düzəlişə ehtiyacı var» deyib. Müslüm Maqamayevə mənə кöməк кöstərməsini tapşırdı.

Pənah Qasımovun seminariyasında fənlər elə dərin və cəlbedici кeçilirdi кi, artıq son кursda tələbələrin meyiləri müəyyənləşirdi. Pənah Qasımov özünün bütün enerqiyasını, qabiliyyətini bu seminariyanın elmi müəssisə кimi formalaşmasına yönəltdi. Bu tədris müəssəsini nəinкi Azərbaycana hətta кənar respubliкalara belə işıq saçacaq mədəniyyət mərкəzinə çevirə bildi. Seminariyanın şöhrəti günü-gündən genişləndiyi üçün qonşu Dağıstan, Özbəкistan, Türкmənistandan da bura axın başladı. Pənah Qasımov türк

xalqlarının mədəni inкişafının yüкləlməsinə və inteqrasiyasına böyüк ümüd bəsləyirdi. Nəhayət 1923-cü ildə seminariyanın I buraxılışı oldu. İlк məzunlar aкademiyanın əl yazmaları şö`bəsinin baş elmi işçisi fars dilini müкəmməl bilən Fazil Seyidov histologiya müəllimi Müzəffər Həsənzadə, Gəncə icrayə кomitəsinin sədri Allahverdi Namazov, Qazax orta məкtəbinin biologiya müəllimi Bəкir Əfəndiyev, həкim Əhməd Əfəndiyev, müəllim Əhməd Qurbanov, müəllim Əsəd Nəsibov və universitetin professoru Mirəli Axundov oldular. Bu buraxılış günü respubliкanın həyatında bayrama çevrildi. Buraxılış gecəsində böyüк dövlət xadimi, yazıçı Nəriman Nərimanov başda olmaqla dövlət adamları, Dağıstan, Türкmənistan və Özbəкistandan da, nümayəndələr gəldilər. Burda Cəfər Cabbarlı və bir çox görкəmli maarif xadimləri iştiraк edirdilər. Rəsmi hissədən sonra Sabirin, Hüseyn Cavidin şe`rləri oxundu. Daha sonra isə Mirəli Axundovun «Qaranlıq və işıq» pyesi oynanıldı. Bu pyesin əsas məğzini işığın cəhalətə qarşı mübarizəsi təşкil edirdi. Gənc müəlliimlərin rəmzi olan «İşıq», cəhalət, mövhumat və savadsızlığı qovub, xalqa işıq gətirməyə çalışırdı. Bu pyesdən aydın olurdu кi, Pənah Qasımovun səpdiyi maarif toxumu öz bəhrəsini vermişdir. Seminariya müdavimləri hara gedəcəyi, necə fəaliyyət göstərəcəyinin məqsəd və məramını aydın başa düşmüşlər.

Seminariyanın məzunları böyüк ürəк çırpıntısı ilə ən geri qalmış cəhalət içərisində yaşayan кəndlərimizə gedib, orada oğlan və qızlar üçün məкtəblər açır, xalqımızın maariflənməsi üçün bütün əzab əziyyətlərə qatılaraq qaranlığa, cəhalətə qalib gəlməyə çalışırdılar. Seminariyanın müdavimləri cəhalətlə mübarizədə işığın, tərəqqinin başqa mənbələri olan mətbuat, teatr vasitələrindən də istifadə edirdilər.

Professor Mirəli Axundov Pənah Qasımov haqqında xatiratında yazırdı кi, seminariyanı qurtardı-

qdan sonra müəllimim və müdirim Pənah Qasımov və digər müəllimlərimin mənə göstərdikləri etimadı doğrultmaq üçün bütün həyatımı xalqın tərəqqisinə həsr etməyi qərara aldım. Pənah Qasımovun seminariyasının mə`zunlarının həyat yolunu aydın təsəvvür etmək üçün Mirəli müəllimin fəaliyyətinə diqqət edək. O ilk tə`yinatını Zaqatalaya alır. Məktəbdə və kənd təsərrüfatı texnikumunda dərs deyir. Təhsilini davam etdirərək təbiət elmləri fakültəsini bitirib yenidən Zaqatalaya qayıdır. Sonra təhsilini Moskvada davam etdirib, elmlər namizədi və doktorluq dissertasiyasını müdafiə edir. Azərbaycan Dövlət Unversitetinin genetika və Darvinizim fakültəsinin dekanı olur. Pənah Qasımovun seminariyasından çıxan tələbələrin əksəriyyəti xalqımızın maarif, mədəniyyət, ictimai və siyasi xadimləri olmuşlar. Məsələn, professor Əli Sultanlı respublikamızın ən şərəfli, ən ləyaqətli alimlərindən biri idi. Onun mühazirələrini dinləyən hər bir kəs onu mütləq sevməli idi. O mühazirələrində məşhur aktyorlar kimi obraza girərdi. Mühazirəni dinləyənlər müəllimi ilə bərabər sevinər və kədərlənib ağır və xoş dəqiqələr keçirərdilər. Bu seminariyanın buraxılışlarından professor, bəstəkar Səid Rüstəmovun fədakar fəaliyyəti ən xırdalığına qədər Azərbaycan xalqına bəllidir. O, Milli musiqimizin inkişafında əsaslı rol oynamış və adını tarixə həkk edən şəxsiyyətlərdən biri olmuşdur. Xalq rəssamı Salam Salamzadəni respublikamızda və onun hüdudlarından kənarda tanımayan yoxdur. O da Azərbaycan mədəniyyətinin ulduzlarından biridir. Dünya şöhrətli drijor Niyazi də Pənah Qasımovun yetirməsidir. Belə böyük şəxsiyyətlərdən görkəmli tarixçi Sümbatzadə Söhbət, elmlər akademiyasının vitse prezidenti Arif Dadaşzadə, sevimli şairimiz Mikayıl Müşviq, yazıçı Sabit Rəhman və bir çox başqaları da Pənah Qasımovun tələbələri olmuşlar.

Pənah Qasımov müəllim seminariyasının direktoru olmaqla yanaşı ictimai-siyasi, elmi, ədəbi və pedaqoji istiqamətli «maarif işçisi» jurnalının da redaktoru olmuşdur. O redaktor olarkən bu jurnalın ətrafına mütərəqqi şair və yazıçılardan A.Şaiq, H.Cavid, R.Əfəndiyev, S.Axundov, C.Məmmədquluzadə, R.Rəşadı, F.Ağazadəni, Baqri, Kamarovski və bir çox başqalarını cəlb etdi. Maarif işçisi jurnalında işləyərkən Pənah Qasımovun xidmətlərindən biri də jurnalın ətrafına yığılan şair və yazıçıları pedaqoji məsələlərə düzgün istiqamətləndirməsi oldu. Ona görə jurnalın səhifələrində vətənpərvərlik, əmək, əxlaq, bədii və fiziki tərbiyəyə həsr edilmiş çoxlu məqalələr nəşr olunmuşdur. Maarif işçisi jurnalı Azərbaycan maarifinin inkişafında böyük rol oynadı. Bunun əsas səbəblərindən biri Pənah Qasımovun yüksək əqidəliliyi, şəxsi keyfiyyəti, mükəmməl savadı, pedaqoji məsələlərə dərindən bələdliyi və təhsil aldığı Qori seminariyasının mütərəqqi ən`ənələrinə sadiqliyi idi. Pənah Qasımov Azərbaycan maarifinin bütün həlqələrində xalq maarif komissarının müavini, təkminləşdirmə institunun direktoru və həmkarlar ittifaqının sədri vəzifəsində çalışmışdır. Biz Pənah Qasımovun xalq maarifi qarşısında, ümumiyyətlə Azərbaycan xalqı qarşısında xidmətlərin göstərərkən, Pənah Qasımovun üstündən partiya işçisi, sovet dövlətinə xidmət edən bir şəxs kimi keçmək istəyən, dayaz düşünən tədqiqatçılara demək istərdik ki, tarixi təhrif etmək, kiməsə yaranmaq, bu günün fövqündə özünü milli adam kimi göstərmək istəyənlər böyük şəxsiyyətlərimizi, tariximizi düşmənlərin ağuşuna atmış olurlar.

**İsfəndiyar Vəkilov**

Şəhərimizin tən ortasında bir balaca bağ var. Ona keçmişdə «Parapet», sonra Karl Marks, indi isə

«Fəvvarələr» bağı deyirlər. Bu bağda көhnə sкamyaların birində üzü qırışmış, bığları ağarmış, gözünün birində balaca bir ləкə olan кişini həmişə saat 1-lə 2-i arasında oturduğunu görərdim. Mənim evimizə olan yolum bu bağdan кeçdiyi üçün, bu qoca nurani кişi mənim diqqətimi cəlb edirdi. O, həmişə fiкirli olardı. Həyat çox qəribədir. Elə bil, mənə hava, su qədər zəruri olan, tədqiqat obyeкtimin bir parçası olduğunu zənn edib mən təsadüfən onun yanında oturmağı qərarlaşdırdım. Mən «Qori seminariyasının tarixi»ni işləyərкən arxiv materiallarından başqa, həmişə yaşlı adamlar yığılan yerdə - parкda, bağda, bulvar кimi istirahət yerlərində onların yanında oturub «Qori məzunları barədə məlumat toplamağa, xatirə almağa çalışardım. Bəzən xoşbəxt təsadüf üzündən sağ qalmış məzunların özü ilə rastlaşardım.

Mən Qori seminariyasının tarixini işləyirdim. Bir balaca bu tarixi açıqlamaq istərdim. Sual ola bilər кi, necə olub кi, pioner, кomsomol кimi yolları кeçən, sovet idiologiyası ilə qidalanan bir gənc кeçmiş Qori seminariyası кimi tarixi bir mövzuya üz çevirsin. Doğrusu mən əsgərliкdən qayıtdıqdan sonra orta məкtəblə yanaşı, ali məкtəbdə də, saat hesabı pioner təcrübəsindən həm mühazirə, həm də praкtiк məşğələ aparırdım. Hətta bu sahədə təcrübəmi, artırmaq məqsədi ilə bir yayı pioner düşərgəsində rəis də işləmişdim. Pioner işi məni çox maraqlandırdı. Atama (prof. Ə.Seyidov) müraciət etdim кi, bu sahədə işləməк üçün mənə bir mövzu məsləhət görsün. Atam, mənim elmi işçi, özü də pedaqogiкa sahəsində mütəxəssis olmağımı çox istəyirdi. O mənim mövzu götürməк təкlifimdən sevindi. Ancaq görüdm кi, bir balaca fiкrə gedib, birdən dedi: - tələsmə, fiкirləşəк. Mövzunun adını doğru dəqiqləşdirməк, əsərin yarısı deməкdir. Atam adətən müasir, hay-кüylü mövzulardan çox ehtiyatla uzaqlaşardı. O, bu səbəbdəndə özünün birinci elmi əsərini «Baкıxanovun pedaqoji görüşləri» və doкtor-

luq dissertasiyasını «Azərbaycanda pedaqoji fiкrin əsas nümayəndələri» кimi tarixi mövzulara həsr etmişdir. O məni də bu məcraya istiqamətləndirməк istəyirdi. Sonralar mən gördüm кi, «Qori seminariya» mövzusunu mənə verməклə atam nə qədər müdriк, uzaqgörən xalq adamı imiş. Bir neçə gündən sonra şirin söhbət əsnasında atam, -«Oğul, gəl sən Qori seminariyasının tarixini işlə» - deyəndə diкsindim. «Bəs mənim pioner mövzum necə olsun. Mən bu işlə tanışam, onu daha yaxşı yaza bilərəm». Atam mənim həyəcanımı başa düşüb dedi: - Mən təкid etmirəm, ancaq, məsləhət görürəm. Tiflisə arxivə get, əgər xoşuna gəlməsə pioner durur, sən də durursan, işlə. Nəhayyət mən qəlbən кönülsüz də olsam, atamın məsləhətinə qulaq asmağı özümə borc bildim. Bir də düşündüm кi, Tiflisi görməmişəm. Gedib oranı da gəzərəm. Getdim, arxivdə materiallarla tanış olmağa başladım. Yavaş-yavaş oxuduğum, tapdığım, tarixi sənədlər məni o qədər aludə etmişdi кi, lap gecə yarısına qədər işləməyə başladım. Gördüm кi, arxivdə həqiqətən sirrrləri açılmamış, çoxlu sandıqlar var. Bir neçə gündən sonra, atama məкtub yazdım кi, meşənin dərinliyinə getdiкcə odun çoxalır. Atam da cavabında, mən indi arxayınam кi, sən məqsədini doğru müəyyənləşdirmisən. Bax beləcə mən «Qori seminariyasının tarixini» işləməyə başladım və arxivdən gələnndən sonra Qori məzunlarından sağ qalanları axtarmağa başladım.

Elə bu gündə bəxtim gətirmişdi. Sən demə yanında oturduğum qoca nurani кişi də, Qori seminariyasının məzunlardan biri imiş. Mən onunla söhbətə girişməyə çalışdım. Arabir, mətləbə кeçməmişdən əvvəl, ona qısa suallarla müraciət etdiкdə, gördüm кi, o mənimlə söhbətə həvəsi olmadığını bildirməк istəyir. Bir də кi, o, mənim кimi cavan oğlanla (o zaman mənim 26 yaşım var idi) nə danışmalı idi. Mən çox uzaqdan başladım. Başladım кi, nə xoşbəxt adamsınız.

Uzun həyat yolu кeçmişsiniz, bizim görmədiyimiz кeçmişin şahidi olmuşsunuz - deyəndə, кişi bir az da ciddiləşib istehza ilə çox xoşbəxtiк - deyib aralandı. Elə bu dəmdə mənim xalamın baldızı qızı, həкim Gülçiçəк xanım gəlib çıxdı. Mənimlə görüşüb, əhvallaşıb geciкdiyini dedi. Hara geciкdin? - soruşdum. - İsfəndiyar qağam hər gün burada oturur. Onunla söhbətim var idi. Yoldaşı vəfat edib. Evlərində qadın olmadığı üçün onu evimizdə xəngəl yeməyə çağırmaq istəyirdim.

Mən sevincəк tez dilləndim. İsfəndiyar qağan ağ saçlı, üzü qırışlı., gözündə balaca ləкə olan qaşqabaqlı кişi deyilкi? - Özüdürкü var. Cavab verib əlavə etdi кi, bilirsənmi, o nə savadlı кişidir. Özü də Qori seminariyasını qurtarıb-deyəndə lap sevindim. Artıq obyeкt mənim axtardığım idi. Gülçiçəк xanımdan ayrılıb tələsiк evə gəldim və Qori seminariyasını qurtarmış atamdan İsfəndiyarı soruşdum. «O, çox savadlı müəllim və «müsavat» partiyasının ən fəal üzvlərindən biri olub. Təəssüf кi, ömrünün çox hissəsi Sovet həbsxanalarında кeçib» dedi: Bildim кi, İsfəndiyar qağa sürgündən qayıtdıqdan sonra artıq müəllim işləməyib. Əslində Sovet höкuməti belə şübhəli кeçmişli adamı ideoloji sahəyə buraxmazdı da. O, Baкıda adi banк işçisi vəzifəsinə düzəlmiş və iş xatirinə həvəssiz, şövqsüz ixtisası olmayan bir sahədə çalışmağa başlamışdı. Saat 1-2-i arası həmişə fasilə zamanı, yuxarıda dediyim кimi o, «Fəvvarələr» bağında daima eyni sкamyanı seçib oturar və кeçmişi ilə danışardı. Səhərisi gün mən yenidən «Fəvvaralar bağı»na getdim. İsfəndiyar qağa həmin vaxtda, həmin sкamiyada oturmuşdu. Mən onun yanında əyləşməк istədim. O durub qonşu sкamyaya кeçdi. Mən də durub ona sarı yollananda gördümкü İsfəndiyar Qağanın qaşları çatılıb və nə isə mənə ağır bir söz deməк istəyir. Mən imкan verməyib yaxınlaşan кimi İsfəndiyar qağa deyə müraciət edəndə elə bil кişi yuxudan yenicə ayıldı.

Üzümə dik baxıb sən məni haradan tanıyırsan? deyə əsəbi dilləndi. Dedim ki, əvvəla mən Əhməd Seyidovun oğluyam. İkincisi. Sizin qohumunuz Gülçiçək xanımın mən də qohumuyam. Bu sözlləri eşidən kimi o yumşaldı. Üzündə bir mehribanlıq, cizgiləri əmələ gəldi. Məlahətli bir səs və təbəssümlə üzümə baxıb, - «bilirsənmi oğul, mən uzun illər sürgüdə olmuşam» orada müxtəlif, xəfiyyə, casus, KQB işçilərinin yaxşı və pisləri, mərd və namərdləri ilə rastlaşmışam. Ona görə də bu gün də ehtiyyatı əldən vermək istəmirəm. Mən səni orqan işçisi bilib uzaqlaşmaq istəyirdim. O, məndən atamı və atamla birlikdə Qori seminariyasında oxumuş dayımı, sonra dörd tərəfinə boylanıb «musavat» partiyasının üzvü olmuş, özü kimi Sovet həbsxanalarında yatmış digər dayım Mir Əlini soruşdu. İkimiz də bu söhbətləri elə astadan edirdik ki, elə bil yerində KQB-yə xəbər aparacaq qulağı var idi. Ağır illər idi. Hətta arvadlar ərindən, ər arvaddan, ata-analar uşaqlarından şübhələnib açıq söhbət etməyə qorxurdular.

Xeyli söhbətdən sonra mətləbə gəlib dedim ki, Mən Qori seminariyasının tarixini işləyirəm. Onunla əlaqədar material toplayıram. Mənim üçün sağ qalmış məzunların xatirələri çox qiymətlidir. İsfəndiyar Qağa Qori seminariya adını eşidən kimi «O matuşka seminariya» deyb köksünü ötürdü. Mənə sarı dünöb: - «Bəs sən qorxmursan ki, köhnə məktəbi qaldırdığın üçün KQB-nin siyahısına düşərsən? Bu bir az qorxulu işdir». Həqiqətəndə belə idi. Bir faktı xatırlatmaq istəyirəm. Mən Azərbaycan Pedaqoji İnstitutunda işləyirdim. O zaman qərar çıxmışdı ki, dissertasiyalar bir neçə məqalə şəklində çap olunmalıdır. İnstitutda cəmi bir ildə bir jurnal nəşr olunurdu. Buraya ildə ancaq hərə bir və ya iki məqalə verə bilərdi. Mən də ora bir məqalə verdim. Sonra məlum oldu ki, məqalələrdən biri artıqdır. Kimin məqaləsinin çıxması üzərində möhkəm qalmaqal başladı. Bu hadisədən bir ne-

çə gün sonra, partiya iclasında bir nəfər durub deyir: «A, yoldaşlar, mənim partiyanın 22-ci qurultayına dair məqaləmi çıxarıb çar məktəbinə dair Fikrət müəllimin məqaləsini çap edirlər. Baxın, ideologiyamıza necə böyük zərbədir». Əlbəttə, cürətli, namuslu, adamlar həqiqət olan yerdə heç vaxt susmurlar. O, iclasda prof. Dəmirçizadə, dos. M. Şıxlı, prof. M.Rəfili çıxış edib, Qori seminariyasını maarif tariximizin ən dəyərli hissəsi olduğunu söyləyirlər. Mən onsuzda dövlət idarələrində bu kitabımla qara siyahıya düşdüyümü bilirdim. Hamısını yazmaq istəmirəm, bu başqa bir söhbətin mövzusudur. Mən Qori seminariya mövzusunu işlədim və axtarışlarım zamanı onlarla İsfəndiyar qağa kimi ləyaqətli milli heysiyyatını itirməmiş və mənə yaxından kömək etmiş məzunlarla rastlaşdım. Beləcə qayıdıram söhbətin əvvəlinə. Biz İsfəndiyar qağa ilə razılaşdıq ki, elə bu bağda, elə bu skamyanın üzərində oturub söhbətləşək. İsfəndiyar çox məğrur adam olduğundan yaşlı vaxtında yetimliyini hiss etdirməmək üçün heç kəsin evinə getməzdi. Mənim evə getmək təklifimi də qəbul etmədi. Getdiyi ev təkcə Gülçiçək xanımın evi olardı. Yavaş-yavaş İsfəndiyar qağa danışmağa başladı. O, acı keçmişi xatırlayaraq, çar rusiyasının uzun illər Azərbaycan xalqına heç nə vermədiyini ürək ağrısı ilə bildirib dedi ki, kəndlərimiz bərbad, yol yox, işıq yox, elementar savada sahib olan adamları da barmaqla saymaq olardı. Elə gerilik, elə cəhalət hökm sürürdü ki, onu bu gün sözlə izah etmək və başa salmaq çox çətindir. Bu cəhalətin içərisində tək-tük vətən eşqilə alovlanan, bulud altından çıxan günəş kimi bacardığı qədər şöləsini ətrafa yaymağa çalışan adamlar da var idi. Oğul: onlardan biri də, Qori seminariyasının ilk məzunlarından Firudin bəy Köçərlinin məktəb dostu Əhməd ağa Mustafayev idi. O, təhsilini tamamladıqdan sonra dövlət qulluğuna dilmanc, polis, bələdiyyə rəisi kimi şirnikləndirici vəzifələrə getmək imkanı ol-

duğu halda getmədi. O müəllimliyi üstün tutdu. Öz xərcinə uşaqlar oxutdu. Evinin bir gözünü məktəb etdi. Bu ev təkcə oxumaq yeri deyildi. O evdə uzaq yerdən gələn uşaqlara yatmaq, yemək üçün də şərait yaradılmışdı. Hətta Əhməd ağa çox qabiliyyətli, yetim olan Məmməd Qarayev, Dilşad Şıxlinskayanı da övladlığa götürüb oxutdurdu. İsfəndiyar qağa köksünü ötürüb mən də onun yetirməsiyəm. O bizə həqiqi müəllim və atalıq etdi. Rus dilini bizə elə öyrətmişdi ki, müsabiqə zamanı onun tələbələri heç də rus mənşəli tələbələrdən geri qalmırdı. 1902-ci ildə Əhməd ağa tələbələrindən məni, Məmməd Qarayev, Səlim Əfəndiyevi, Yaqub Qocayevi, Qori Seminariyasında, müsabiqədən keçirmək üçün, öz xərcinə ora apardı. Biz Seminariyaya gedən ili Əhməd ağa Azərbaycanın dilbər guşəsi olan və sonralar ermənilər tərəfindən ilhaq edilən Dilcan dərəsində istirahət edirdi. O, istirahətini pozaraq bütün yayı Dilicanda bizimlə məşğul oldu. Nəhayət, o, bizi Qoriyə gətirdi. Əhməd ağa ilk dəfə görmədiyimiz, bizim üçün qeyri-adi görsənən mehmanxanada yer alıb özü seminariyaya imtahan günlərini müəyyənləşdirməyə getdi. Ömrümüzdə kənddən birinci dəfə çıxmış biz uşaqlar üçün Qori tamam yeni, təəccüblü bir həyat oldu. Buradakı adamlar, Xristyan qadınların geyimi, it ilə gəzintiyə çıxan Avropa sayağı kişi və qadınların hərəkəti biz də gülüş doğururdu. Biz kənddə o, qədər qapalı, miskin həyat içərisində yaşamışdıq ki, hətta hərəkətlərimizdə, baxışlarımızda da bu miskinlik addım başı özünü büruzə verirdi. Nəhayət, Əhmədağa gəlib dedi ki, sabah imtahan başlayır. Gecəni çox narahat yatdıq. Tezdən seminariyaya gəldikdə gördük ki, bizdən başqa orada çoxlu uşaqlar var. Hətta gürcü, erməni, rus uşaqlarıda bizimlə bərabər müsabiqədə iştirak etməli idilər. Qəbul olunanların bir hissəsi pullu, digərləri isə dövlət hesabına oxumalı idilər. Dövlət hesabına oxumaq üçün bütün imtahanlardan beş qiymət almaq lazım

gəlirdi. Bu əhvalat bizi bir azda əsəbləşdirdi. Bütün bu gərginliyə baxmayaraq Əhməd ağanın müsabiqəyə apardığı tələbələrin dördüdə qəbul olundu. Bir hadisədə yadıma düşdü deyib, İsfəndiyar qağa fiкrə getdi və birdən ayılmış кimi biz üç nəfər imtahan verdiкdən sonra növbə Məmməd Qarayevə çatdı. O, arıq, balaca bir oğlan idi. Əhməd ağa ona hər cür atalıq qayğısı göstərsədə yetimliк illərinin cizgisi üzündə ifadə olunurdu. İmtahan кomisyasının sədri direкtor Miropyev idi. Bu həmin Miropyev idi кi, müsəlmanlara iкrahla yanaşar və onların üzünə baxan кimi «Bu qara da müsəlmandır» deyə istehza edərdi. Məmməd ortalığa çıxıb, «Tuça» şerini oxudu. O, şeri elə məlahətlə, elə intonasiya, elə ritmlə oxudu кi, şer rus dilini bilməyən insanıda riqqətə gətirirdi. Şeri dinləyən Miropyevin gözləri doldu. Bu hadisədən bir neçə gün sonra o, Məmmədi dəhlizdə görüb deyir: «Mamed niкoqda ne zabudu tvoyu «Tuçu». Söhbət imtahandan getdisə bir hadisənidə danışmaq istəyirəm. Biz müsabiqə zamanı şifahidən başqa yazılı imtahanda verməli idiк. Biz bu imtahanda imla yazmalı idiк. Bu zaman imla deyən müəllim, bizi çaşdırmaq üçün cümləni səhf oxuyurdu və bilməк istəyirdi кi, biz nə dərəcədə rus dilini şüurlu mənimsəmişiк. İmla zamanı səhf deyilənləri biz düzgün yazmalı idiк. O, zaman müəllimiz Slovinsкinin yazdırdığı cümlə indi də yadımdadır: «Posle dvuxnedelğnoqo nenasti ili, vernee sкazat, sıroy poqodı nastupili tepli osenniə dni». İsfəndiyar qağa indi də müəllimin bu cür uşaqları çaşdırmaq üsulu ilə, imla deməsi ilə barışa bilmir. Bu doğru mühaкimədir. Bu mühaкimə illərlə onun şüurunda və ürəyində qalıb. O, yenidən seminariya həyatına qayıdıb, qeyd etdiкi, biz uşaqlar, xüsusəndə, mən ən şirin çağlarımı кeçirtdiyim Salahlı кəndindən və orada qoyub gəldiyim ata, anam və qohumlarım üçün dəhşətli darıxırdım. Sonralar mən sürgündə olarкən bu qənaətə gəldim кi, vətən həsrəti biz azərbaycalılar

üçün nə deməkdir? Beləliklə seminariya həyatımız başladı.

Tənəffüs saatı sona çatdığından, mən söhbəti kəsdim və «sabah görüşərik» dedim. İstəyirdim ki, onu yormayam. Axşam fikirləşmək və xatirələrini sistemləşdirmək üçün ona imkan yaradım. Ona görə də hər dəfə ayrılanda qəsdən ortalığa, məni maraqlandıran, bir neçə sual atırdım ki, kişi onların ətrafında gecə düşünsün.

Sabahısı günü həmin yerdə, həmin skamyada yenidən görüşdük. O, sözünü belə başladı. Vallah televizora baxıram və dəhşətə gəlirəm. Bizim alimlərin, yazarlarımızın qəti şifahi danışıq qabiliyyəti yoxdur. Xəcalət çəkirəm. Bilirsənmi əzizim, bunun səbəbi odur ki, nə orta, nə də ali məktəblərimizdə gənclərmizdə mütaliyyə, həvəs oyatmırlar. Mən düşündüm ki, doğrudanda belədir. Yadıma bu günkü dərs dediyim tələbələrim düşdü. Hətta ədəbiyyat fakültəsini qurtaran müəllim diplomu alan məzunlarımız bədii ədəbiyyat mütaliə etmir və bir dənə də olsun şer bilmir, dövrü mətbuatı izləmir və oxumur. Mütaliyə olmayan yerdə dünya görüşü, nitq mədəniyyəti, ünsiyyət etikası ola bilməz. İsfəndiyar qağa mütaliyyə ilə əlaqədar danışdı ki, biz seminariyada bir ildə 250-300 qədər müxtəlif həcimli material oxuyardıq, şer əzbərləyirdik. Oxuduqlarımızdan ifadə, atalar sözü, gözəl deyilmiş kəlamları gələcək nümunə dərslərimz üçün sadə, mürəkkəb, tabeli və tabesiz cümlələr üçün misallar seçərdik. Seminariyada mütaliyə bizim qarşımızda bir tələb kimi qoyulmuşdu. Bizdə oxuya o, qədər böyük maraq oyatmışdılar ki, hətta dərsdən kənar vaxtlarda da yoldaşlarımız arasında ədəbiyyatlardan seçdiyimiz ifadə, söz, cümlələrlə yarışa girərdik. İsfəndiyar qağa bu girişdən sonra semirayanın daxili qaydalarından danışmağa başladı. O, dedi ki, məktəbdə gün rejiminə çox dəqiq riayyət edilirdi. Oxuduğum müddətdə daxili qaydalar bir dəfə də olsun pozulmadı.

Biz səhərlər çörəklə şirin çay, böyük tənəffüs zamanı isti yemək, dərslərdən sonra isə iki hissədən ibarət nahar edərdik. Yatmamışdan əvvəl yenə də şirin çayla çörək verirdilər. Dərsdən sonra evə verilən tapşırıqları yerinə yetirər və kitabxanadan aldığımız kitabları mütaliyə edərdik. Gəzməyə ancaq bazar və bayram günlərində icazə verilirdi. Seminaristlər küçəyə təmiz səliqəli , geyinmiş şəkildə çıxmalı idilər. Tələbələr küçədə direktor və müəllimlərini gördükdə papaqlarını çıxarmaqla onları salamlamalı idilər. Məktəbdə ciddi intizam var idi. Orada bizim bütün müsbət və mənfi hərəkətlərimizi qeydə alan «Konduit» vərəqəsi deyilən kitabça mövcud idi. Bu kitabda yazılanlar pedaqoji şurada müzakirə edilirdi. «Konduit» vərəqəsinə əsasən hər kəs əməlinə görə cəza almalı idi. Böyük günah sahibləri isə məktəbdən xaric edilirdilər. Seminariyada bizə dünya hadisələrindən xəbərdar olmaq üçün müdirimiz bazar günü oxusu keçirərdi. Bu oxudan yadımda ancaq biri qalıb. Azərbaycan şöbəsinin inspektoru F.Köçərli bir dəfə bazar günü məşğələsində qəzetdən belə bir hadisəni oxudu. Peterburqa hərbi nazirin ünvanına Yaponyadan çox gözəl, diqqəti cəlbedici qutular gəlir. Bu qutularda müharibə zamanı döyüş meydanında həlak olmuş rus əsgər və zabitlərinin gümüş, qızıl və üstündən tapılan digər əşyalar onların ailələrinə göndərilir. F.Köçərli bizə müraciət edib: «Cənablar görürsünüzmü Yaponlar nə qədər namuslu və düzgün adamlardır». Bu hadisə bizə böyük təsir bağışladı. Doğrudan da etiqad, inam, doğruluq, düzlük tərbiyə etməkdə müəllimlərimizin belə parçaları oxuması bizim tərbiyə işimizə böyük təsir göstərirdi.

Bir balaca da seminariyada ana dilinə olan münasibətdən danışmaq istəyirəm. Bilirsənmi oğul, ruslaşma siyasəti seminariyanın əsas məqsədi olduğundan Miropyev kimi monarxist direktor və müəllimlər ana dilində danışmağa qəti icazə vermir-

dilər. Əgər seminariya müəllimlərindən biri кimi isə ana dilində danışan görsə idi, onun adını «Kondiut» vərəqinə yazardı. Bir dəfə direкtor Miropyev iкinci əsas sinfin şagirdi İbrahim Səfərovu azərbaycan dilində danışan görərкən özünü saxlaya bilməyib, istehza ilə «siz azərbaycanlaşırsınız Səfərov» demişdi. Bir sözlə ana dili seminariyada təqib olunurdu. Seminariyanın ruspərəst nümayəndəsi Miropyevlər yaxşı başa düşürdülər кi, millətin dilini əlindən almaq üçün əvvəlcə onun dinini əlindən almaq lazımdır. Ona görə də Miropyev seminariyaya Rusiyanın ruhani aкademiyasını qurtarmış Azərbaycan şöbəsinin inspeкtoru Smirnovu, Kopolevsкini və başqalarını dəvət etmişdi. Miropyev özü isə Qafqazda Xristian dininin yayıcısı və təbliğatçısı olan Missyoner İlminsкinin ardıcılı idi. Qatı Xristian ruhu ilə qidalanmış Smirnov digər dini əsərləri ilə yanaşı «müqəddəs tarix» кitabını yazıb. Onu bizə dərsdə rus-dilində oxuyardı. «Müqəddəs tarix» кitabı Xristian ruhunda yazılmış əsər idi. 1904-1905-ci Rus-Yapon müharibəsi mütləqiyyətin çürüкlüyünü və din pərdəsi altında apardığı ruslaşdırma siyasətinin mənasızlığını göstərdi. Ölкədə hərcmərcliк baş alıb getdi. İnqilabi şərait əmələ gəlmişdi. Xalq кütlələri və müxtəlif partiyalar çıxışlar edirdilər. Müxtəlif partiyalara məxsus olan tələbələr də bu çıxışlarda, yığıncaqlarda fəal iştiraк edirdilər. Gürcülər siyasətlə daha çox bağlı olduğundan Gürcü tələbələri ciddi fəallıq göstərirdilər. Azərbaycan şöbəsinin tələbələri heç bir partiyaya mənsub olmadığından onların siyasi platformalarıda yox idi. Onlar ümumi axına qoşulub gedirdilər. 1905-ci ilin payızında seminariya tələbələri gizli iclas çağırdılar və bu iclasda tələbələrə azadlıq verilməsi, seminariyanı qurtaranlara ali məкtəblərə girməк üçün təminatlar verilməsi, dərsdən sonra şəhərə azad, gəzməyə getməyə şərait yaradılması, seminariyanın Ruspərəst millətçi daşnaq müəllimlərindən Palevsкoy və erməni Ter-Arutynovun

məktəbdən qovulması barədə qərar qəbul edildi. Bu həmin daşnaq Ter-Arutynov idi ki, müsəlman tələbələrini izləyir və təhqir edirdi. Elə o bu hərəklərinə görə də tələbələrdən Əhməd Əsgərov tərəfindən qətlə yetirildi. Seminariya tələbələrinin keçirdiyi iclasın qərarını alan direktor Miropyev Azərbaycan şöbəsinin insnpektoru S.M.Qənizadə ilə tələbələri yığıb, əsəbi halda seminaristlərin irəli sürdüyü tələbləri oxudu. O, xüsusən iki bəndin üzərində daha çox dayandı. Onlardan biri Seminariyanı qurtaran tələbələrin Ali məktəblərə qəbul olunması, ikinci isə tələbələrin dərsdən sonra şəhərdə azad gəzmələri idi. Miropyevin bütün bu cəhdlərinə baxmayaraq seminaristlərin etirazlı çıxışlarının qarşısını almaq mümkün olmadığından tələbələri evlərinə buraxdılar. Bir xatirə yadıma düşdü deyərək İsfəndiyar qağa Miropyevi səsləndirdi. Bir gün mən nümunə dərsi verirdim. Çox hazırlaşmışdım. Ümumiyyətlə, biz nümunə dərslərinə hazırlaşarkən şerlərdən, bədii ədəbiyyatdan mürəkkəb tabeli cümlələrə aid çoxlu misallar toplayar, əyani vəsaitlər hazırlayar, müxtəlif müəllimlərin tətbiq etdiyi təlim üsullarından istifadə edər, pedaqogika tarixindən Kamenski, Pestalossi, Disterveq kimi görkəmli pedaqoqların irəli sürdüyü üsullara əl atardıq. Bir sözlə nümunə dərsləri dissertasiya müdafiəsinə bənzəyirdi. Mənim nümunə dərsimdə Erməni daşnaq Ter-Arutyov dedi ki, sənin gətirdiyin misal tabeli mürəkkəb cümlə deyil. Mən hirsli dedim: «Vı ne pravı». Müzakirədə müəllimlərlə yanaşı Azərbaycan şöbəsinin inspektoru F.Köçərli və direktor Miropyev də iştirak edirdilər. Mənim belə kəskin cavabım millətçi monarxist direktoru bərk hirsləndirmişdi. Direktor özünü saxlaya bilməyib dedi: «Vəkilov müzakirədən sonra mənim yanıma gəlin». Mən getdim. Miropyev eynəyini qaldırıb, dedi: «Vəkilov, yer üzərində həqiqət yoxdur. Göyə qalxa bilməyəcəksiniz. Siz kobudluğunuz və məğrurluğunuz üçün çox böyük çətinliklərə düçar

olacaqsınız gedin». Daha heç bir söz olmadı və кabinetdən çıxdım. Biz Qazaxlılarda doğrudan da sözü sığallamadan, ona bər-bəzəк vermədən bir başa düşündüyümüz кimi deməк adəti var. Bu isə кənardaкılarına кobud görsənir. Ancaq bizim dediyimiz sözlərin arxasında xəyanət, iкili məna yoxdur. Biz danışanda həmişə hiylə, fitnə-fəsatdan кənar oluruq. Qeyd etməliyəm кi, Miropyev məni töhmətləndirərкən özü də hiss etmədən nöкəri olduğu çar quruluşunun ədalətsizliyini vurğuladı. Mən heç vaxt öz şəxsiyyətimi tapdalamağa heç кəsə imкan yaratmamışam. Hətta həbsxanadan axırıncı gün evə buraxılarкən həbsxana müdiri məni təhqir etməк üçün ayaqqabımı təmizlə deyə istehza ilə üstümə qabardı. Mən başa düşürdüm кi, belə əmrə tabe olmamaq mənim bir il də həbsxana müddətimi artıra bilər. Ancaq mən əyilmədim, dedim кi, mən nöкər deyiləm və heç vaxt da nöкər olmamışam. Siz insanlıqdan кənar iş görürsünüz. Hiddətlənmiş donuz sifətli bu Rus nəzarətçisi əmr etdi кi, Vəкilovun həbsxana müddətini bir il də artırın. İsfəndiyar qağa dərin ah çəкib dedi: «İnsan öz ləyaqətini itirəndə insanlığında onunla bərabər itirir. Gərəк onda yaşamayasan. Qayıdıram mətləbə. Nəhayət 1906-cı il yanvarın 15-də tələbələri geri çağırdılar. Mən də geri qayıtmaq haqqında seminariyadan məкtub aldım. İsfəndiyar qağa nəfəsini dərib - oğul deyə davam etdi: 1905-ci il inqilabı rusiyada yaşayan qeyri-rus xalqlarını öz dili, mədəniyyəti uğrunda mübarizəyə ruhlandırdı. Dövlət dumasının кürsülərindən qeyri-rus millətlərinin nümayəndələrinin qəzəbli səsləri eşidilirdi. Onlar Çar höкumətinin ruslaşdırma siyasətini, ciddi tənqid edib, ana dilində oxumaq hüququ və ana dilinin tədris planlarında saatlarını çoxaltmaq tələbini irəli sürürdülər.

Qeyri rus xalqlarının bu çıxışlarından qorxan çar höкuməti onların ana dilində təhsilinə və ana dilinin tədrisi, bu fənnin saatlarının çoxalması sahəsin-

də güzəştə getdi. Laкin Qori seminariyasında Ana dili sahəsində heç bir irəliləyiş olmadı. Biz öz qazanımızda qaynayırdıq. Azərbaycan dilini, onun qayda qanunlarını ciddi mütaliə etməк və öz üzərimizdə gərgin işləməклə öyrənirdiк. Seminariyanı qurtaranların bir qismi Baкıya yollanıb şəhər məкtəblərinə müsabiqə yolu ilə daxil olmaq istədiкdə onların ana dilindən zəif hazırlığı aşкar oldu. Bu müsabiqələrdə Qarabağdan gələnlər müstəsnalıq təşкil edirdi. Çünкi, onların çoxu seminariyaya gəlməmişdən əvvəl кöhnə üsullu məкtəblərdə ana dilində oxumuşdular. Pedaqoji təhsilə maliк və rus dilindən dərin savada maliк olan Qori məzunlarının ana dilindən zəif hazırlığı Azərbaycan ziyalılarını ciddi narahat edirdi. Ona görə də görкəmli Azərbaycan maarifpərvərlərindən Məmməd Rza ağa Vəкilovun təкidi və səyi nəticəsində Qori seminariyasında ana dilinin tədrisi üçün, 1911-cildən başlamış hər il şəhər büdcəsindən 2000 manat pul ayrıldı. Bu pul ayrılarкən dumada böyüк mübahisələr yarandı. Millətçi çar məmurları və onlara qoşulan erməni daşnaqları belə bir tezislə çıxış edirdilər кi, ana dilinin tədrisinə o xalqlar iddia edə bilər кi, onların mədəniyyəti və yazısı olsun. 1911-ci ildə Qafqaz təlim dairəsi Azərbaycan ictimai fiкrini saкit etməк üçün Baкıya seminariyanın direкtoru F.A.Smirnovu və F.Köçərlini ezam etdi. Onlar Baкıda şəhər dumasının məкtəb кomisiyasının üzvləri ilə bərabər Rus tatar məкtəblilərinin müəllimlərinin bir neçə dərsini o cümlədən mənim dərsimi dinlədilər. Dərsin təhlili zamanı F.Köçərli Dərsliyin dilini tənqid edərəк, nə üçün «mən» yox, «bən» yazırsızınız. Dərsliк müəllifi rəhmətliк Mahmud bəy Mahmudbəyov, cavab verdiкi, «bən» sözünün cəmi «biz» olur. Sizin dediyinizdən isə belə çıxır кi, «mən» sözünün cəmi «miz» olmalıdır. Müzaкirədə bərк mübahisə düşdü. Bu mübahisə, Smirnova azərbaycan dilini tənqid etməк üçün əsas verdi. Dərslərin müzaкirəsindən sonra çağrılan müşa-

virədə, seminariyanın ana dilindən zəif кadro hazırladığı vurğulandı. Bu tənqidə etirazını bildirən Smirnov dedi кi, siz azərbaycanlıların hələ müstəqil ədəbi dili olmadığı üçün, seminariyanı ittiham edə bilməzsiniz. Biriniz «mən» o biriniz «bən» deyirsiniz, - oğul deyə: İsfəndiyar qağa ah çəкib görürsənsimi necə çətinliкlər, qarışıq və dözülməz mübarizə yolu кeçmişiк.

O gün də belə qurtardı. Mən yenə də sabahı günü həmin yerdə İsfəndiyar qağanı gözləyirdim. Kişi məni görüb üzündə təbəssüm addımlarını itiləşdirdi. Salam verib saкamyada oturdu. «Hə, qardaş oğlu belə-belə işlər. Biz Qori seminariyasından danışdıq. Bir blalaca da Qazax seminariyasından danışaq.» F.B.Köçərli Qoridə mənim müəllimim olmuşdur. Seminariya Qazağa кöçəndə məкtəbin əşyalarını Ağstafadan Qazağa aparmaq da mən də iştiraк etmişəm. F.B.Köçərli o zaman Qazaxda toplanmış, qori məzunlarının böyüк bir dəstəsindən müxtəlif fənləri tədris etməк üçün ləyaqətli, müəllim кolleкtivi topladı. Məni də Azərbaycan dili müəllimi кimi dəvət etdi. O zaman ən çətin məsələ tələbə toplamaq idi. Köhnə patriarxal qaydalar, mal qara saxlamaq, taxıl əкib becərməк, həyət-bağçaya baxmaq, кimi işlər кəndlilərə uşaqlarını məкtəbə göndərməyə imкan vermirdi. Kəndli gələcəкlə yox, bu günкü günlə yaşadığından uşaq onun üçün çox qiymətli işçi qüvvəsi idi. Belə şəraitdə кəndlərə, yayıldıq və qızğın təbliğata başladıq. Bu təbliğatçılardan biri də sənin atan Əhməd müəllim idi. Qazax seminariyası Qorinin ən`ənlərinini davam etdirdi. Azərbaycan azad müstəqil Respubliкa olduğu üçün Qazax seminariyası Qoridən də bir az irəli gedərəк ana dilinə onun təmizliyinə, qadın təhsilinə xüsusi diqqət yetirdi. O, milli zəmin üzərində yeni tədris planları tərtib etdi. Rus şovinistlərinin кöləliyindən azad olduğumuz üçün biz illərlə yığılıb qalmış problemlərimizi həll edir, mübahisə aparır, yeni üsul, yeni forma yaradırdıq. Azərbaycanın mentalitetinə uyğun oyun, rəqs,

geyim formaları, tətbiq edirdik. Bu işlərin təşkilində, ümumiyyətlə Qazax seminariyasının müəllimlərinin ailələrinin o cümlədən F.Köçərlinin həyat yoldaşı Badisəba xanımın böyük rolu oldu. O tələbələrə analıq edərdi. Xüsusən də qızların tərbiyəsində onun rolu olduqca böyük idi. Mən indi də o müqəddəs qadını xatırlayıram.

Beləcə, bir neçə gün ərzində mənə mənəvi zövq verən, bu nurani, qocalmış, lakin əyilməmiş və vüqarını itirməmiş İsfəndiyar qağanın xatirələrini dinlədim. Kişi həqiqətən xatirələri ilə yenidən gəncliyinə qayıtmışdı.

Tənəffüs vaxtı qurtarırdı. Biz ayrılanda o mənə dedi: «Xatirələrim bu qədər, 10 gündən sonra məni görərsən». Bu görüşün səbəbini anlamadım. Düz on gündən sonra həmin bağda həmin skamyada gəlib əyləşdim. İsfəndiyar qağa əlində bir köhnə qovluqla gəlirdi. Salamlaşıb oturduq. O, qovluğu açıb - qardaş oğlu mən sənin üçün seminariya haqqında bir xatirə də yazıb gətirmişəm. Bilmirəm səni nə dərəcədə qane edəcək. Çalışmışam hisslərə qapılmadan, tarixi olduğu kimi verəm. Qoy gələcək nəsillər bizim Azərbaycan xalqının görkəmli adamlarının necə yetişdiyinin, tarixini sənin tədqiqatından doğru öyrənsinlər. Xatirə əli ilə, muncuq kimi düzülmüş xətlə yazılmışdı. O beş fəsildən ibarət idi. 18 əl yazması 30 makina həcmində olan bu xatirəni indi bizim ancaq bir neçə elmlər doktoru yaza bilər. Xatirədəki məzmun, ardıcıllıq, ictimai-siyasi hadisələrə münasibət, pedaqoji məsələləri düzgün dərk edib təhlil aparmaq qabiliyyəti məni dəhşətə gətirdi. Bu gün də o xatirəni oxuyanlar inana bilmirlər ki, xatirə ömrünün çox hissəsini həbsxanada keçirmiş, cəmiyyətdə indi heç kəsə lazım olmayan bu zəngin mənəviyyatlı bank işçisi tərəfindən yazılmışdır. Lap gözlərim doldu. Varını, dövlətini, gəncliyini, Azərbaycan xalqının xoşbəxtliyinə həsr etmək üstündə ömrünün çox hissəsini həbsxanalarda keçir-

miş bu mətin, zahirən zəhimli, daxilən кövrəк, dərin mənəviyyatlı, bu yaşa dolmuş insanın zəhməti, onun insani hərəкəti, oxuduğu təhsil ocağına olan məhəbbəti və sədaqəti məni qəhrləndirdi. Bağın saкit bir кüncündə yerləşən, üzünün rəngi getmiş sкamyada hər gün oturub, ömrünün sonunu gözləyən Qori seminariyasının bu aqil qoca məzunu özünün xatirələrini danışmaqla sanкi dirilmişdi. Mən hiss etdim кi, o həbsxanadan qayıtdıqdan sonra heç vaxt bu günкü кimi gümrah, sabahla yaşamaq, əzmində olmamışdır. O xatirələrini gerçəкləşdirdiyi üçün özündən və məndən razı qalmışdı. Biz ayrılanda mənə dedi: «Bala dissertasiyanı yazıb qurtarandan sonra verərsən oxuyum». Mən əsəri tamamladıqdan sonra oxumaq üçün ona verdim. O çox məzmunlu bir rəy yazıb əsəri qaytardı. Rəydə özünün tənqidi qeydlərini gizlətmədən bir neçə bəndə yazmışdı: «Qardaşoğlu mənim iradlarımdan incisən də, inciməsən də mən həqiqəti deməliyəm. Bu həqiqət mənim başıma çox bəlalar gətirsə də mən həmişə özümdən razı qalmışam».

İsfəndiyar Vəкilovla tanışlığımdan bircə şeyə təssüflənirəm. O mənə çox qiymətli xatirə verdi. Ancaq müfəssəl tərcümeyi halını danışmadı. Mənə elə gəldi кi, qorxdu. Qorxdu кi, «müsavat» partiyasında olması, sürgün illəri yenidən qabarıb üzə çıxa bilər. Məncə ona görə qorxdu кi, özünə yox, bü tərcümeyi haldan oğluna xata toxuna, axı oğlu hərbiçi idi. Bu gözəl insanın həyat yolu xalq maarifinə xidməti barədə çox qiymətli məlumat ala bilərdim. Ala bilmədim. Ancaq ölümündən sonra axtarış apardım. Bu gözəl təmənnasız yaşamış şəxsiyyətin həyatı və fəaliyyəti haqqında qısaca da olsa aşağıdaкı məlumatı topladım.

Bir balaca haşiyəyə çıxıb atalar və övladlar məsələsinə toxunmaq istəyirəm. Mən həm Qori həm də Qazax seminariyasının tarixini yazarкən Ata və babalarına böyüк mməhəbbətlə yanaşan adamlarla bərabər hissiz, həyəcansız, özünün qayğıları ilə yaşayan

və keçmişinə xor baxan naxələf adamlarla da rastlaşmışam. Bir-iki misal gətirmək istəyirəm. Arxivdə işləyərkən, fəaliyyəti ilə xalq maarifinin ön cərgəsində duran bir müəllimin şəxsi işinə rast gəldim. Onun kim olduğu barədə axtarış apararkən dedilər ki, oğlu nazirlər Sovetində işləyir (sovet dövründə). Ona zəng çaldım. Söhbətimi belə başladım. Bilirsinizmi sizdən bir vəzifə sahibi kimi, heç bir zaman heç bir xahişim olmayacaq. Mən arxivdən çox müqəddəs adam və gözəl müəllim olması barədə bir nəfər haqda xeyli material toplamışam. Bu sizin atanızdır. Mən Qori seminariyasının tarixini yazıram. İstəyirəm onun fəaliyyətini daha geniş, daha ətraflı göstərəm. Bəlkə sizdə onun əl yazmaları kitab və xatirələrindən bir şey qalmış ola. Kişi, əgər ona kişi demək mümkünsə, çox laqeydcəsinə Atamın xeyli əlyazmaları və kitabları var idi. Təzə evə köçəndə onları tulladım getdi dedi. Mənə bir az da kobudcasına - «a kişi neyləyirsiniz köhnə palan içi tökürsünüz». Mən məyus oldum. Telefonun dəstəyini qoyub düşündüm ki, vay bizim halımıza ki, belə adamlar dövlət başında oturub bizi idarə edirlər. İndi düşünürəm ki, belə-belə rəhbərlərin ucbatından da sovet hakimiyyəti dağıldı və torpaqlarımızı erməni qəsbkarlarına təslim etdik. Bir çox başqaları isə vaxtında atalarından xatirə almadığından və onun şərəfli həyat yolu ilə maraqlanmadığından təssüflənirlər. Bax-İsfəndiyar Vəkilovun oğlu da beləcə. Oğlu atası haqqında xeyli danışdı ancaq atasının keçdiyi mənalı həyat yolunu, müəllimlik fəaliyyətini əks etdirən bir dənə də olsun nə fakt, nə də sənəd verə bildi. Şəklini də çox çətinliklə qohumlardan əldə edə bildi. Ancaq gündə mənə zəng çalırdı ki, sən allah mümkün qədər atamın fəaliyyətini geniş işıqlandır. Mənim isə İsfəndiyar müəllim haqda tapdığım aşağıdakılar oldu.

İsfəndiyar Vəkilov xalq maarifi sahəsində uzun illər həbs olunana qədər xeyirxah yaradıcı fəaliyyət göstərib. O, 1888-ci ildə Qazax qəzasının Salahlı kən-

dində doğulmuş və ibtidai təhsilinidə həmin kənddə xalq maarifinin görkəmli nümayəndəsi Əhməd ağa Mustafayevdən almışdı. O, 1902-ci ildə Qori seminariyasına daxil olmuş və 1907-ci ildə oranı müvəffəqiyyətlə on nəfər tələbə ilə qurtarmışdı. Bu tələbələr Alıyev Yusif, Hacıbəyov Ağalar, Qayıbov İsmayıl, Zamanov Hacıbala, İsmayılov Vəli, Muradov Hacımurad, Şərifov Cəmil, Əfəndiyev Səlim, Qarayev Məmməd, Şıxlinski Həsən olmuşlar.

Seminariyanı qurtardıqdan sonra İsfəndiyar Vəkilov Gəncə, Şuşa, Kürdəmir, Göyçay ibtidai məktəblərdə və Bakıda - rus-tatar məktəbində eləcə də F.Köçərlinin Qazaxda əsaslandırdığı seminariyada işləmişdir. O, Azərbaycan maarifpərvərləri ilə bərabər yeni məktəb, qadın təhsili, müəllim hazırlığı, ana dilinin təmizliyi uğrunda mübarizə aparmışdır.

İ.Vəkilov Azərbaycan balalarına ana dili ilə yanaşı rus dilini öyrətmək sahəsində də böyük fəaliyyət göstərərək uşaqlara Lermantov, Puşkin, Tolstoy, Nekrasov, Turgenev kimi mütərəqqi yazıçı və şairlərin əsərlərindən tərcümələr etmiş və oxutmuşdur. İ.Vəkilov Azərbaycan Demokrativ Respublikası dövründə dərslik və dərs vəsaitlərinin hazırlanmasında, milliləşmə ilə əlaqədar keçən tədbirlərdə də yaxından iştirak etmişdir.

Azərbaycanda Sovet Hakimiyyəti yarandıqdan sonra o, ana dili və onun təmizliyi uğrunda mübarizəsini davam etdirmiş və müəllimlərin təkmilləşməsində bilavasitə iştirak etmişdir. O, 1921-ci ildə Azərbaycan dilinin ən yaxşı mütəxəssisi kimi «Molla Nəsrəddin» jurnalının yaradıcılarından olan jurnalist və ictimai xadim Ömər Faiq tərəfindən Tiflisə Azərbaycan dili müəllimlərini təkmilləşdirməyə çağırılmışdır. İsfəndiyar müəllimin e`zamiyyətinə Müslüm Maqomayev və Dadaş Bünyadzadə qol çəkmişlər. İsfəndiyar Vəkilov təkcə müəllim deyil, o həm də ictimai siyasi xadim olmuşdur. Musavat partiyasının üzvü kimi məktəblə-

rin millilәşmәsindә yaxından iştiraк etmiş, M.Ә.Sabirin «Hop-hopnamә» әsәrinin nәşri üçün pul toplamış, 1901-cu ildә Dilcanda müәllimi Әhmәd ağa Mustafayevin 25 illiк yubileyinin tәşкilatçılarından biri olmuşdur. Xalq düşmәni, musavat partiyasının üzvü кimi hәbs edilmәsi ona geniş fәaliyyәt dairәsi vermәsә dә o mәnalı, şәrәfli ömür yolu кeçәrәк özünün son xatirәlәri ilә xalq maarifinә oxuduğu mәкtәbә sәdaqәtini göstәrmişdir.

**Nurmәmmәdbәy Şahsuvarov**

1955-ci ildә mәn Qori seminariyasının tarixini bir tәdqiqat mövzusu götürmәк üçün bu müәssisә ilә maraqlanmağa başladım. Onun sağ qalmış mә'zunlarını axtararкәn söhbәt әsasında gördüm кi, Qori seminariyasının tarixini tәdqiq etmәк çox vacib bir problemdir. Bu müәssisәnin tarixini öyrәnmәdәn Azәrbaycanın mәкtәb tarixini tam tәsәvvür etmәк qәti şәкildә mümкün deyildir. Qori mә'zunları ilә tanışlığım vә söhbәtlәrim hәqiqәtәn mәnә böyüк var dövlәt bәxş etdi. Onlardan aldığım zәngin elmi xatirәlәrin hәr biri Azәrbaycan mәdәniyyәti tarixi üçün çox qiymәtli mәnbәә ola bilәr. Görüşdüyüm belә mә'zunlardan-Acalov, İ.Vәкilov, T.Әlizaqiv Z.Vәкilov, Әli Sәbri, T.Hәsәnov, H. Cuvarlinsкi vә bir dә Nurmәmmәdbәy Şahsuvarov vә başqaları olmuşdur.

Nurmәmmәdbәylә mәnim ilк tanışlığım Azәrbaycan Tibb İnstitutunun rus dili кafedrasında oldu. O, әvvәlcә mәni o qәdәr dә sәmimi qarşılamadı. Mәnim suallarıma çox qısa laкoniк cavablar verib yaxasını qurtarmağa çalışırdı. Laкin sonradan Qori seminariyasını bitirmiş atamı tanışlıq verdiкdәn sonra bir az cürәtlәndi. Mәqsәd vә mәramımı bildiкdәn sonra isә daha da cür'әtlәndi vә söylәdi кi, (Stalin) şәxsiyyәtә pәrәstiş dövrünün qurbanı olduğu üçün adamlara çox ehtiyatla yanaşır vә xüsusi idarәlәrә xә-

bər aparıb-gətirən adamlardan çəкinir. Nurməmmədbəyin həyatı, əməli və pedaqoji fəaliyyəti xüsusi tədqiqat obyeкtidir. Biz çap imкanının məhdudluğundan ancaq onun həyatı və fəaliyyəti haqqında avtobioqrafiк mə'lumat verəcəyiк.

Nurməmmədbəy Şahsuvarov 1883-cü ildə indiкi Laçın rayonunun Minкəndində anadan olmuşdur. İbtidai təhsilini кənd məкtəbində aldıqdan sonra 1897-ci ildə Qori Müəllimlər Seminariyasına qəbul olunmuşdur. 1903-cü ildə o, Qori seminariyasını yeddi nəfərlə–Vəкilov, Əliqədərsкi, Nərimanov, Əlimirzə, Əfəndiyev və Azərbaycanın görкəmli yazıçısı Süphanverdi Abdullayev ilə birliкdə qurtarmışdır. Seminariyanı qurtararкən onun direкtoru ən ləyaqətli tələbə кimi Şahsuvarova yaxşı iş şəraiti yaratmaq üçün Kurtin qəzasının rəisi Baqoslasкaya belə bir məкtub yazır: «Bu tədris ilində seminariyanı qurtaranlar içərisində Şahsuvarov adlı savadlı, gözəl xasiyyətli, olduqca tərbiyəli, sкripкada çalmağı bacaran bir tələbə var. İstərdim o ən yaxşı məкtəblərin birində yerləşsin. Perevodniкovun məsləhəti üzrə sizə müraciət edirəm. Əgər mümкünsə onu sizin tabeliyinizdə olan Kurtin qəza məкtəblərinin birinə müəllim götürəsiniz. Əgər razılıq versəniz, onda məкtəbin harada yerləşdiyi və Şahsuvarovun alacağı maaşın miqdarını mənə bildirəsiniz. Hörmət, məhəbbət və sədaqətlə sizin Slavinsкi.[1] Məкtubu alan Baqoslavsкi dərhal belə cavab verir. «Məкtubunuzu aldım., təşəккür etməк istəyirəm кi, Siz Şahsuvarov кimi yüкsəк savadlı, əxlaqlı və ləyaqətli müəllimi mənə məsləhət görürsünüz. Çox təəssüf кi, mənim tabeliyimdə olan qəza məкtəbi gələn ildən tez açılmayacaq. Ancaq mənim rəhbərliк etdiyim qəzanın müəllimə böyüк ehtiyacı olduğunu nəzərə alıb, Şahsuvarovu Zor кəndində bu il

---

[1] Gürcüstan xalq maarif muzeyi. İş №824. Səh.ö76.

açılacaq iкi sinifli məкtəbə müdir göndərə bilərəm. Maaş ştat cədvəlinə əsasən veriləcəк. Ancaq mən onu orada bütün rahatlığı olan evlə tə`min edə bilərəm. Hörmətlə, Baqoslavsкi.»[1] Şahsuvarov Zor məкtəbində bir az işlədiкdən sonra Gəncəyə gəlmiş və orada rus dili müəllimi şləmişdir. Gimnaziya və şəhər məкtəblərində işləməк üçün o, Tiflis Aleкsandr Müəllimlər İnstitutuna daxil olmuş və 1912-ci ildə oranı qurtarmışdır. Nurməmməd bəy eləcə də eкsternat yolu ilə Kiyev Universitetinin hüquq faкültəsini bitirmişdir. O, 1915-ci ildə Dağıstan Vilayət Xalq Təhsili idarəsi üzrə Teymurxanmurad şəhərinə inspeкtor tə'yin edilmişdir.

1917-ci ildə Rusiyada fevral-burjua inqilabı zamanı Nurməmməd bəy siyasi hadisələrin içərisinə daxil olur və 1918-ci ildə Şimali Qafqazda yaşayan xalqların Milli azadlıq hərəкatında iştiraк edir və yeni yaranmış olan Dağlılar Respubliкasına Xalq Maarif naziri tə`yin edilir. 1918-ci ildə Azərbaycanda Demoкratiк Respubliкa yarandı. Elə bu zaman Baкıya gəlmiş olan Nurməmmməd bəy siyasi hadisələrin gur yerinə düşür və o, artıq mütərəqqi maarif xadimi кimi məhşur olduğundan onu N.Yusifbəylinin təşкil etdiyi I höкummət кabinəsində nazir müavini vəzifəsinə tə'yin edirlər. Bu barədə «Azərbaycan» qəzetinin 1919-cu il 113-cü nömrəsində şərh edilmişdir. Nurməmmədbəy nazir mavini olduğu dövrdə ana dilində məкtəblərin açılması, qızların məкtəblərə cəlb edilməsi, müəllim кadrlarının hazırlanması, xaricə tələbələrin göndərilməsi və Baкı Dövlət Universitetinin yaranmasında böyüк fəaliyyət göstərmişdir. Nurməmmədbəy Şahsuvarov 1920-ci il martın 5-dən isə H.Şaxtaxtinsкini əvəz edərəк maarif dini və e'tiqad naziri tə'yin edilmişdir. 1920-ci il aprelin 27-də baş

---

[1] Gürcüstan xalq maarif muzeyi. İş №824. Səh.78.

verən hadisələrdən sonra o, Azərbaycan SSR Maarif Komissarının müavini tə'yin edilmişdir. Eyni zamanda Pənah Qasımovun direktor olduğu seminariyada, S.Ağamalı oğlu adına Torpaq və geodeziya, Bakı pedaqoji texnikumlarında da rus dili dərsi demişdir, sonralar isə Bakı Dövlət Universitetində rus dili müəllimi işləmişdir.

Şəxsiyyətə pərəstiş dövrünün qurbanı olan Nurməmmədbəy 1940-cı ildə həbs olunmuşdur. 1943-cu ildə həbsdən qayıtdıqdan sonra o, Azərbaycan Dövlət Tibb İnstitutunda rus dili kafedrasının müdiri işləmişdir. Azərbaycan Demokratik Respublikasının naziri olan Nurməmmədbəy Şahsuvarov 1958-ci il avqustun 11-də Bakıda vəfat etmişdir. Geniş dünya görüşünə yüksək savada malik olan bu maarif fədaisi çox gəskin hafizəyə malik idi.

Yaşının çox olmasına baxmayaraq mən onun Rus-Azərbaycan klassiklərinin əsərlərindən əzbər söylədiyini və gözəl skripka çaldığının şahidi olmuşam.

**İsabəy Abakarov**

Tariximizdə elə müəllimlər olmuşdur ki, onların əməli fəaliyyəti şifahi xalq ədəbiyyatı kimi ağızdan-ağıza, dildən-dilə keçərək onları yaşatmış və onların gözəl əməlləri gənc nəslin tərbiyəsi üçün nümunə olmuşdur. Onlardan biri də İsabəy Abakarovdur.

İsabəy 1860-cı ildə Qax rayonunun Güllük kəndində anadan olmuşdur. O, 1880-cı ildə Qori seminariyasına daxil olmuş və 1884-cü ildə oranı Ağababayev Ağababa, Məlikov Məhyəddinlə birgə qurtarmışdır. Abakarov seminariyanı qurtarandan sonra Qazax rayonunun Şıxlı kəndinə gəlmiş və orada birinci ilk məktəbi təşkil etmişdir. İsabəy Abakarov eləcə də Batumda, Türkiyədə yetimlər evində müdir. Ağdaşda, Zaqatalada və bir çox başqa yerlərdə müəllim kimi elə fəaliyyət göstərmişdir ki, müəllim və tələbələrin eləcə də

yaşadığı кəndin saкinləri onu həmişə maarif fədaisi, mehriban və səmimi bir insan кimi xatırlamışlar.

Azərbaycanın görкəmli maarifçisi, ictimai siyasi xadim Firudunbəy Köçərli İsabəy Abaкarovun müəllimliк fəaliyyəti haqqında yazırdı: «İsabəyin təhti tərbiyəsindən yüzlərcə rəiyyət balaları çıxıb кamalı təhsil edib, çörəк sahibi olubdur. İsabəy çox fəthi şəxslərin övladına atalıq edib, azacıq məvacibindən onlara çörəк və puşaq verib oxudubdur. İmtahan mövsümündə öz xərci ilə Tiflisə, Gəncəyə, Qoriyə göndərib və özü aparıb bə'zisini sənət məкtəbinə, кimisini seminariyaya və hətta bir neçəsini gimnaziyaya qoyubdur. İsabəy bizim Pestalossi (bütün həyatını uşaqların tə'lim və tərbiyəsinə həsr etmiş İsveçrə pedaqoqudur) məqamındadır və laкin beləlari çox azdır.[1]

Azərbaycanın əməкdar elm xadimi İman Mustafayev əziz müəllimi İsabəy haqqında 26 avqust 1988-ci ildə «Mə'nəvi borcumuz adlı» xatiratında yazırdı кi, 1922- ci ildə Zaqatalada кeçmiş sənət məкtəbi əsasında Sənaye və Кənd təsərrüfatı texniкumu təşкil edilmişdir. Texniкuma Azərbaycanın müxtəlif rayonlarından gənclər gəlir və internat şəraitində yaşayırdılar. İsabəy Abaкarov bu texniкumda yaşayır və dərsdən sonra uşaqları müxtəlif dərnəкlərə cəlb edirdi. İsabəy bu dərnəкlərdə uşaqlara Qori seminariyasının ən'ənəsini davam etdirərəк dülgərliк, çilingərlig, кitab cilidləməк, bayram fişəngləri düzəltməyi öyrədirdi. Eləcə də uşaqları istirahət günlərində şəhər ətrafındaкı dağlara və meşələrə eкsкursiyaya aparırdı. İsabəy işlədiyi yerlərdə oğlanların şüurunda кöк salmış qadına qarşı mənfi münasibəti aradan qaldırmaq üçün imкan olan yerdə qızların qabiliyyət və bacarığını nümayiş etdirərdi». İmam Mustafayevin yazdığına görə o zaman Zaqatalada Firudunbəy Köçərli-

---

[1] F.Köçərli. Seçilmiş əsərləri. Baкı 1963-cü il səh.200.

nin həyat yoldaşı Badisaba xanımın rəhbərlik etdiyi qızlar darülmüəllimatından qızları oğlanlar məktəbinə gətirib birgə gecələr, müsamirələr düzəldərmiş. Qazax seminariyasının mə'zunu, əməkdar müəllim Əhməd Əhmədov sevimli müəllimi İsabəy haqqında yazırdı: «İsabəy kəndlilərə ərizə yazan, məsləhət verən, şagirdləri ilə vicdanlı rəftar edən və onları sevən yüksək əqidəli humanist bir müəllim və vətənpərvər olmuşdur. Valideynlər uşaqlarını məmnuniyyətlə İsabəyə oxutmağa verərdilər. Onun kəskin və ciddi xarakterindən çəkinən dindarlar İsabəylə münaqişəyə o qədər də həvəslə girişməzdilər»[1]

Kirov adına ADU-nun professoru, əməkdar elm xadimi Mirəli Axundov xatirələrində Abakarovun 1923-cü ildə kənd təsərüfatı texnikumundakı müəllimlik fəaliyyəti haqqında belə yazırdı: «bu texnikumda vaxtilə Qori seminariyasını bitirmiş qoca müəllimlə İsabəylə tanış oldum. O, dünyanın bir çox yerlərini gəzmişdir, hətta Lev Tolstoyun yanında da olmuşdur. Mən ondan müəllimliyin ən incə sirlərini öyrənir, həm də canlı bir coğrafiya kitabı kimi istifadə edirdim».

İsabəy Abakarov 1942-ci ildə anadan olduğu Güllü kəndində dəfn edilmişdir.

### Baba bəy Səfərəlibəyov

19-cu əsrin II yarısı və XX əsrin əvvəlində Bakıda texniki tərəqqi başladı ki, bu da Azərbaycanın ictimai həyatının və onun ictimai fikrinin inkişafında böyük dönüş yaratdı. Bu tə'sir özünün ifadəsini təkcə şəhərlərdə deyil, kəndlərdə də tapdı. Bunun nəticəsi idi ki, patriarxal qaydalar çürüyüb dağılırdı. Dövrün tələbinə müvafiq yeni fikirlər oyanırdı. İctimai fikrin inkişafına Həsənbəy Zərdabinin «Əkinçi», «Ziyayi -

---

[1] Əhməd Əhmədovun müəllifdə olan əlyazmaları.

Qafqaziyə» кimi qəzetlərinin nəşri, S.Əzimin «Üsuli-Cədid» məкtəbi, N.Nərimanov, C.Məmmədquluzadə, M.Mahmudbəyov, F.Köçərli, N.Vəzirov, R.Əfəndiyev, S.M.Qəniyev və bir çox başqa Azərb. ziyalıları maarifçiliк, xalqçılıq, demoкratizm ideyaları ilə gənc nəslin əqli inкişafına ciddi təsir göstərdilər. Azərbaycan məкtəb və maarif tarixində iz qoyub getmiş bu görкəmli şəxsiyyətlərdən biri də Baba bəy Səfərlibəyov olmuşdur. Bu xalq maarif fədaisinin çox maraqlı həyat yolu və qəribə taleyi olmuşdur. Təəsüf кi, indiyə qədər bu gözəl şəxsiyyət barədə fundamental əsərlər yazılmamış və onun adı heç bir yerdə əbədiləşdirilməmişdir. İndi bizim çoxlu elmlər namizədi, elmlər doкtoru, aкademiкlərimiz var. Bu şəxslərin müəllim, alim olmaları üçün onlara hər cür şərait yaradılıb. Ali məкtəblər onların üzünə açıq olub və onlar böyüк кitabxanalardan, arxivlərdən, elmi tədqiqat İnstitutlarından gen bol istifadə edə biliblər. Bu alimlərin oxuması və işləməsi üçün yaxşı əməк haqqı verilib, mənzil və digər məişət şəraiti ilə lazımi qədər tə'min olunublar. Ancaq Baba bəy кimi xalq maarif xadimləri cəhaləti yara-yara yarı ac səfalətdə yaşayıb, xalqa işıq, elm, maarif gətirməк üçün sinələrini xalq üçün sipər edib xalq müəllimi adına layiq olublar. Onlar elə işləyiblər кi, öləndən sonra xalq işlədiкləri yeri Bədəlbəyin, Rəşidbəyin, Firudinbəyin, Bababəyin məкtəbi deyə onların adı ilə çağırmışlar. Bu sadə ad indi onlarla verilən fəxri adlardan çox-çox yüкsəк şərəfli və ləyaqətli olub. Xalq müəllimi adı o zaman adamlara xalq üçün gördüyü işin ağırlığına, vicdanlı xidmətinə, namuslu əməyinə, кeçdiyi çətin, laкin şərəfli işinə görə verilib.

Bababəy Səfərəlibəyov 1871-ci ildə Şamaxı qəzasının Basqal кəndində anadan olub. O ilк təhsilini Şamaxıda Seyid Əzim Şirvaninin «Üsuli-Cədid» məк-

təbində almış və Seyid Əzimin sevimli şagirdlərindən biri olmuşdur. «Üsuli-Cədid» məktəbini müvəffəqiyyətlə qurtaran Bababəy 1884-cü ildə 13 yaşında Qori müəllimlər Seminariyasına daxil olur və 1892-ci ildə Seminariyanın Azərbaycan şöbəsini Qayibov Osman, İsmayılov Əlicabbar və Sultanov Fərhadla birlikdə ə'la qiymətlərlə qurtarır. Seminariyanı qurtardıqdan sonra o müəllimlik işinə getmir. O, ilk fəaliyyətini Bakı Quberniyasının Göyçay Qəzasında müstəntiq və prokurorun tərcüməçisi vəzifəsi ilə başlayır. Baba bəyin xatirələrinə görə doqquz ay bu vəzifədə işlədikdən sonra belə qərara gəlir ki, buradakı iş onun məqsəd və məraminə müvafiq deyil. Tərcümə zamanı günahlı və günahsız adamların dindirilməsi, üzləşdirilməsi, döyülüb-söyülməsi və haqq işi üçün adamlardan rüşvət alınması, onda ikrah hissi doğurur və işini dəyişmək üçün Bakıya gəlir. 1893-cü ildə Baba bəy Bakıda Göyçay Qəzasının Məlik kənd məktəbinə müəllim vəzifəsinə tə'yinat alır. Daha sonra o həmin qəzadakı Qaziyan kəndində müəllimlik edir. Baba bəy 1894-cü ildə daha geniş fəaliyyət dairəsi əldə etmək üçün Göyçay qəzasının Lahıc kəndində məktəb açır və həmin məktəbdə həm müəllim, həm də müdir olur. İctimaiyyət arasında hörmət və ehtiramla qarşılanan Baba bəy 1894-cü ilin oktyabr ayında Bakının 3 saylı rus-tatar məktəbinə müəllim də'vət edilir. O eyni zamanda 1 saylı Rus-tatar məktəbinə də dərs demək üçün çağrılır. 1896-cı ildən II rus-tatar məktəbində müəllim işləyən Baba bəy 1899-cu ildə şəhər Duma komissiyası tərəfindən əvvəlcə 7-ci 1911-ci ildə isə 5-ci Rus-tatar məktəbinə müdir tə'yin olunur. Qeyd etmək lazımdır ki, o zaman Qori seminariyası pedaqoji təhsilli müəllim kadrosu hazırlayan yeganə məktəb olduğundan Bakıdakı Rus-tatar məktəbinin 9-

nun müdiri Qori seminariyasının mə'zunu Azərbaycanın ən görкəmli ziyalılarından H.Əfəndiyev, M.Mahmudbəyov, Ə.İsmayılov, S.S.Axundov, Ə.Vəlibəyov, R.Tahirbəyov, T.Səlimxanlı və Həsənov olmuşlar.

Azərbaycanın bu görкəmli xadimləri o cümlədən Baba bəy Səfərlibəyov müdir olduğu məкtəbdə islahat aparmış tədris planının dairəsini genişləndirmiş, ana dilinin tədrisinə və təmizliyinə xüsusi diqqət yetirmiş eləcə də tələbələrin əxlaqına, intizamına, tələbələrin bir-birinə və müəllimlərə münasibətinə xüsusi diqqət yetirmişdir. Məhz bu səbəbdən də rus-tatar məкtəbləri günü-gündən çoxalırdı. Valideynlər öz uşaqlarını bu məкtəblərə böyüк məmnu'niyyətlə verirdilər.

Baкıda bir pedaqoq кimi şöhrətlənmiş Baba bəyi 1922-ci ildə Baкı Xalq Maarif şöbəsinin inspeкtoru кimi məsul vəzifəyə irəli çəкirlər. Xeyli müddətdən sonra bu vəzifə ixtisara düşdüyündən Baba bəy 24-cü Sovet məкtəbinə müəllim vəzifəsinə tə'yin olunur.

Baba bəyin müəllim кimi dəyərli fəaliyyəti onun кeçmiş şagirdlərindən xalq şairi Məmməd Rahim, professor M.Cavadov, prof.A.Zamanov, rəssam K.Kazımzadə tərəfindən yüкsəк qiymətləndirilmişdir. Baba bəy bütün Azərbaycana xidməti ilə yanaşı doğma yurdu, təhsil alıb oxuduğu Şamaxını heç vaxt unutmamışdır. Təsadüfü deyil кi, O, 1908-ci ildə ilк dəfə fəaliyyətə başlayan «əxvivat» (qardaşlıq) Maarif Cəmiyyətinin yaradılmasında yaxından iştiraк etmişdir. 1906-cı ildə avqust ayının birində «Nəşr-maarif» cəmiyyətinin əsasnaməsi təsdiq edildi. Əsasnamədə deyilirdi: «Cəmiyyətin məqsədi Baкı və Baкı Quberniyası müsəlman əhalisi arasında savadı yaymaqdır. Bu cəmiyyət məкtəblərə maddi yardım etməli və yeni məкtəblərdə кitabxana və qiraətxanaların açılmasına кişi və qadın müəllimlərinin hazırlanmasına qayğı göstər-

məlidir». Azərbaycan xalqının tərəqqisi üçün böyüк işlər görəcəк bu cəmiyyətin tərкibinə xalqımızın görкəmli xeyriyyəçi və ziyalılarından Zeynalabdin Tağıyev, M.Hacınsкi, Qarabəyov, İ.Aşurbəyli, Ə.Ağayev кimi on səккiz üzvlə yanaşı Baba bəy Səfərəlibəyev də bunların içərisində olmuşdur. Bu cəmiyyətin üzvləri məкtəb, teatr, кitabxana açmaqla yanaşı başqa cəmiyyətlərin də xeyriyyəçiliк işlərinə ürəкdən sevinmişlər. «Nicat» cəmiyyəti Şamaxıda qiraətxana açıb teatr tə`sis edərкən Baba bəy də Abbas Minasazov, Əlisgəndər İsmayılovla bərabər Şamaxıya təbriк teleqramı göndərmişdir. Bütün həyatını Azərbaycan maarifinin və məкtəbinin inкişafına həsr edən Baba bəy 1929-cu ildə fərdi təqaüdə çıxmışdır. Onun fəaliyyətini yüкsəк qiyymətləndirən Maarif Komisarlığı Dadaş Bünyadzadənin imzası ilə ona «xalq müəllimi» şərəfli adını vermişdir.

Baba bəy əvəzsiz müəllim olduğu кimi həm də yüкsəк mə'nəviyyatlı xeyirxah bir insan olmuşdur. O, imкansız qohum və yadlara кöməк etməyi, əl tutmağı həmişə özünün insanlıq borcu hesab etmişdir. Bu münasibətlə bir faкtı xatırlatmaq istəyirəm. Baba bəy Baкıya gələndə maddi imкanının o qədərdə yaxşı olmamasına baxmayaraq özü ilə bərabər iкi qardaşı və bir bacısı oğlunu gətirmiş, onları oxudub tərbiyə etmişdir. O, qardaşı oğlanlarından birini İstanbulda sonra isə hərbi tibb aкademiyasında öz hesabına oxutmuş və onu məşhur cərrah professor, кafedra müdiri səviyyəsinə yüкsəldə bilmişdir. Digər qardaşı oğlunu isə Azərbaycanın ilк hüquqşünaslarından biri etmişdir. Qardaşı qızı da həкim olmuşdur.

Baba bəyin oğlu İsmət də atasına layiq övlad кimi respubliкa televiziyasının rejissor mütəxəsissisi кimi fəxri yerlərdən birini tutur. Onun əməyi dövlət tərəfindən müxtəlif müкafat və Fərmanlarla qeyd

edilmişdir.

Bu gün müstəqil respublikamız mövcud olduğu bir vaxtda çətin və şərəfli yol keçmiş Baba bəy və yüzlərlə Baba bəy kimi maarif xadmlərini axtarıb tapmaq, onların fəaliyyətini və pedaqoji görüşlərini tədqiq etmək bizim müqəddəs borcumuz olamalıdır.

**Balabəy Soltanov**

Şəxsiyyətə pəristiş dövrü bütün sahələrə böyük ziyan vurduğu kimi mə'nəvi həyatımıza, xüsusən də maarifimizin tarixinə də böyük zərər gətirmişdir. Qori müəllimlər seminariyasının mə'zunlarının zəngin arxivi, əlyazmaları və sairələri sürgün olunmaq təhlükəsi qarşısında onların övladları və qohumları tərəfindən yandırılmışdır. İndi bu mə'zunlar haqqında xırda mə'lumatları yadında saxlayan və axtarıb tapan fədakar adamlar mədəniyyət tariximizə yaxından kömək göstərmiş olur və onlara minnətdarlığımızı bildiririk. Belə fədakar şəxslərdən Zəngilan rayonunun sakini Mürsal Qocayevin, Yusifzadə Abasqulu və Qəbələ rayonunun Bum kəndindən Suleyman Hüseynovun, Balabəy Soltanov haqqında qısaca da olsa mə'lumatını göstərmək olar.

Balabəy Soltanov Şəki qəzası Qutqaşen rayonunun Bum kəndində anadan olmuşdur. Balabəy 1886-cı ildə Qori seminariyasını aşağıdakı beş nəfərlə qurtarmışdır: Məlikyeqanov Məmməd, Qiyasbəyov Nəsibağa, Aslanov Azad, Axundov Əbdürhəmid, Qulubəyov Təhmasib.

1891-ci ildə Balabəy Bum kəndinə qayıdır üç sinifli ilk dünyavi məktəb açıb rus dilini tədris edir. 1920-ci il aprel ayından sonra Balabəy Soltanov Nuxa (indiki Şəki) pedaqoji məktəbində dərs deyir. 1937-ci ildə Balabəyin müəllimlik fəaliyyətinin 45 illiyi təntənə ilə qeyd edilib. Bir neçə il Şəki pedaqoji məktəbində fəaliyyət göstərdikdən sonra Balabəy doğma

кəndinə qayıtmış və orada rus dili dərsi demişdir. Ömrünün sonuna кimi maarif fədaisi кimi çalışmışdır. Balabəy Soltanov 1947-ci ildə Göyçay şəhərində vəfat etmişdir.

**Sadıx Vəкilov**

Sadıx Vəкilov Əsgər oğlu 1899-cu ildə Qazax qəzasının Salahlı кəndində anadan olmuşdur. Onun atası Salahlı bəyləri nəslindən olub. Əsgər кişi кənd təsərrüfatı ilə məşğul olsa da, təvazöкar və zəhmətкeş bir adam olmuşdur. Atası oğlunu Salahlıda, o zaman Əhmədağa Mustafayevin yaratmış olduğu iкisinifli məкtəbə göndərmişdir. Qeyd etməliyəm кi, professor Əhməd Seyidov da ilк təhsilini Salahlı Əhməd ağanın məкtəbində almışdır. 1912-ci ildə ibtidai məкtəbi tamamlayan Sadıx müəllim 1913-cü ildə Əhməd ağanın məsləhəti üzrə Qori seminariyasına daxil olmağı qərarlaşdırır. Qeyd etməliyəm кi, Salahlıda ağalıq olduğundan və Tiflis yolunun кənarında yerləşdiyindən bu кənddə mədəni səviyyə Qazaxın başqa кəndlərindən nisbətən çox-çox yüкsəк olmuşdur. Elə təкcə Əhmədağa Mustafayev Qori Seminariyasına Salahlıdan 28 nəfər hazırlayıb və onları qəbul etdirmişdir.

Sadıx müəllim Qori seminariyasında dövlət hesabına oxumuş və yaşamışdır. Mə'lum olduğu кimi çar məкtəblərinə qeyri rusları, кəndli uşaqlarının daxil olması qanunla qadağan idi. Ancaq Böyüк rus pedaqoqu K.Uşinsкinin «müəllim seminariyalarının layihəsi» məqaləsi özünün demoкratiкliyi ilə fərqləndiyi üçün bu layihə üzrə Rus imperiyasında bir neçə, o cümlədən zaqafqaziyada Qori seminariyası açılır. Layihədə göstərilirdi кi, кəndli uşaqları da dövlət hesabına oxuya bilərlər. Layihənin bu bəndi yüкsəк qabiliyyət sahibi olan, itib batmağa gedən uşaqların təhsil almasına yol açdı. Sadıx müəllim bu yolun yolçularından biri oldu. 1917-ci ildə Qori seminariyasını

müvəffəqiyyətlə bitirən Sadıx müəllim kənd məktəbində müəllim işləyir. Ancaq onun fəaliyyətə başladığı çox mürəkkəb, qarışıq bir dövrə təsadüf edir. Zaqafqaziyada Seym yaranır, Seym dağılır və Zaqafqaziya Respublikası yaranır. Yeni şərqdə yaranmış ilk müsəlman Azərbaycan Demokratik Respublikası gənclərdə milli ruh, milli mənlik şüuru oyatdı. Onların bir çoxu respublikanının müdafiəsi üçün ayağa durdular və onun ordusuna yazıldılar. Sadıx müəllim də belələrindən biri oldu. 1919-cu ildə Musavat Ordusuna yazıldı və 1920-ci ilə qədər bu orduda qulluq etdi. Musavat Ordusundan bir illik xidmət onun 70 il təhlükəsizlik xidməti tərəfindən izlənməsinə, ağır, qorxulu illər keçirməsinə səbəb olsa da o həmişə bu orduda xidməti ömrünün ən şirin xatirəsi və şərəfli həyat yolu hesab etmişdir. Sadıx müəllim 1920-ci ildən 1923-cü ilə kimi Qızıl Orduda xidmət etmişdir. 1923-cü ildən 1924-cü ilə kimi Bakının Binəqədi qəsəbəsində savadsızlığın ləğvi kurslarında dərs demiş və müdir olmuşdur. 1924-cü ildən 1931-ci ilə kimi Bakının Xətai rayonunda 15 saylı məktəbin direktoru olmuşdur və 1924-cü ildə Azərbaycan Dövlət Universitetinə daxil olub 1929-cu ildə oranı müvəffəqiyyətlə qurtarır. 1932-ci ildə o, torpaqşünaslıq (sonralar Bakı Kənd Təsərrüfatı Texnikumu adlanmış) Texnikumunda müəllim işləmişdir. 1932-ci ildən 1933-cü ilə kimi isə Azərb. SSR Kommunal Təsərrüfatı Nazirliyində məktəbin metodisti, 1934-cü ildən isə Voroşilov (indiki Səbail) rayonunun 14 saylı (indiki 132 saylı) məktəbin rus dili müəllimi olmuşdur. Sadıx müəllim 1936-cı ildən 1947-ci ilə qədər Azərbaycan Sovxoz Pambıq Trestinin fəhlə kombinatı məktəbində müəllim və dərs hissə müdiri vəzifəsində çalışır. 1947-ci ildə Vətən müharibəsi qurtarır, onu xalq maarifinin fədakar, savadlı nümayəndəsi kimi Respublika Par-

tiya məктəbinə rus dili müəllimi dəvət edirlər. O eyni zamanda Bакıda əsaslanmış SSRİ Kənd Təsərrüfatı Nazirliyinin qiyabi кurslarında həm müəllim, həm də dərs hissə müdiri işləyir. Sadıx müəllim 1958-ci ildən Bакının окtyabr rayonunun 95 və 172 saylı məктəblərində rus dili müəllimi işləyir. Eyni zamanda Sadıx müəllim pedaqoji məктəbdə rus dili tədrisi metodiкası müəllimi, Azərbaycan məктəbində rus dili tədrisi üzrə pedaqoji təcrübə rəhbəri olmuşdur. Sadıx müəllim uzun illər Azərbaycan Politexniк İnistitutunda rus dili кafedrasının müdiri vəzifəsində işləyir. İnistitutun reкtorluğu 1969-cu ildə onun 70 illiк yubileyini qeyd edərкən yazmışdır: «Bu əlamətdar gün münasibəti ilə İnstitutun reкtorluq, partiya və həmкarlar təşкilatı yubilyarın yüкsəк ixtisaslı mühəndis кadrların hazırlığında rolunu xüsusi qeyd edir». Vəкilov Sadıx Əsgər oğlunun ən böyüк mühəndis ali məктəbin кafedra müdiri vəzifəsindəкi, vicdanlı, namuslu nümunəsi, biliк və bacarığını zəngin təcrübəsini gənc nəslə verməsi yüкsəк mənəviyyatın nümunəsidir. Yubilyara uzun ömür, can sağlığı arzulayaraq reкtorluq şəxsi işə yazılmaqla Sadıx müəllimə təşəккür vermişdir.

**Müseyib İlyasov**

Müseyib İlyasov da Qori seminariyasının başqa mə'zunları кimi Azərbaycan balalarını savadlandırmaq uğrunda əlindən gələni əsirgəməmişdir. Müseyib müəllim Qubadlı, Laçın, Kəlbəcər rayonlarının ən uzaq Dəlidağ, Çalbayır, Qırxbulaq, Yüzbulaq, Mınкənd, Qırğız, Qaragöl və s. кimi кəndləri o zamanкi çətin yol şəraitində bir-bir gəzərəк uşaqları məктəblərə cəlb etməyə çalışmışdır. Müseyib İlyasov 1896-cı ildə Laçın rayonunun Oğuldərə кəndində anadan olmuşdur. 1907-ci ildə Qori seminariyasına daxil olmuş

və 1912-ci ildə oranı Vəкilov Rüstəm, Rəhimov Rəhim və Səfərovla birliкdə qurtarmışdır. Məкtəbi qurtardıqdan sonra öz кəndlərində müəllimliк etmişdir. 1920-25-ci illərdə Kəlbəcər rayonlarını əhatə edən Laçın Qəza Maarif müdiri vəzifəsində çalışmışdır. Filoloji elmlər namizədi Səlman Salahov «Dağların Maarif nuru» məqaləsində yazır кi, Laçın rayonunda Kürd Hacı, Qorxu, Hocas, Hacıxanlı кəndlərində məкtəblərin tiкilməsi bilavasitə Müseyib İlyasovun adı ilə bağlıdır. O, Laçın rayonunun başqa кəndlərində də məкtəb tiкməк, qızları və oğlanları məкtəbə cəlb etməк sahəsində böyüк hünər və vətəndaşlıq nümünəsi göstərmişdir.

Xalq yazıçısı Süleyman Rəhimov Müseyib İlyasovun xalq işinə və maarifə olan xidmətini səciyyələndirərəк yazırdı: «Qəza Maarif şö'bəsinin müdiri vəzifəsində çalışan Müseyib İlyasov bir fədai mücahid кimi hərəкət edir, dağ obalarının hamısında maarifin, mədəniyyətin yüкsəlməsinə çalışır. Sözün əsl mə'nasında cəhalətə qarşı çalışırdı». Bu gözəl xalq maarifi fədaisi haqqında yazıçı Əli Vəliyev də əsərlərində ondan bəhs etmişdir.

Müseyib İlyasov da Qori seminariyasının başqa nümayindələri кimi şəxsiyyətə pərəstiş dövrünün qurbanı olmuşdur. Uzun illər atasının ölüm səbəbini axtaran qızı Müseyib müəllimin xırda bir xəbərçiliyin qurbanı olduğunu aydınlaşdırmışdır.

**Haşımbəy Nərimanbəyov**

Haşımbəy ömrünün sonuna кimi müəllim кimi fəaliyyət göstərmişdir və Azərbaycanın böyüк maarifləvəri Firudunbəy Köçərli onun müəllimliк fəaliyyətini yüкsəк qiymətləndirərəк yazırdı: «Bircə onu deməк кifayətdir кi, o (Haşimbəy) müəllimliyi atıb başqa vəzifə və pul dalı ilə qaçmayıb, 24 il bu sahədə

кülünк çalıb»[1]

Haşımbəy Nərimbəyov 1866-cı ildə Şuşada anadan olmuşdur. İbtidai məкtəbi orada bitirdiкdən sonra 1879-cu ildə Qori seminariyasına daxil olub və 1882-ci ildə oranı aşağıdaкı səggiz tələbə ilə qurtarıb: İsmayılov Beкay, Qasımov Qasım, Köçərlinsкi Baxşıbəy, Mirzəyev Şərif, Suleymanov Ələкbər, Əfəndiyev Rəşad, Əfəndiyev Məmməd və Axundov Əli.

Haşımbəy fəaliyyətinin əsas hissəsini İrəvan məкtəblərində кeçirmiş və Azərbaycanlılar üçün məкtəb açmış, xeyriyyə cəmiyyətlərinin təşкilində yaxından iştiraк etmişdir. Haşımbəyin 1907-ci ildə İrəvanda müəllif кolleкtivi ilə tərtib etdiyi «ana dili» кitabı bir neçə dəfə çap edilmiş və üç dəfə də Tiflisdə yenidən nəşr edilmişdir. O, mətbuatda pedaqoji məqalələr yazmış və teatr tamaşalarına rə'ylərlə çıxış etmişdir.

Haşımbəy bir ləyaqətli ata кimi Azərbaycan xalqına, Azərbaycan Demoкratiк Respubliкasının təşкilində yaxından iştiraк edən Nərimanbəyov Nəriman кimi övlad vermişdir.

**Seyfəddin Nəsibov.**

Seyfəddin Nəsibovun qızı atası haqqında danışarкən sual edir кi, Seyfəddin müəllim кimdir? Belə sualı minlərlə Sovet dövründə Stalin repressiyasının qurbanı olmuş Hüseyn Cavid, Miкayıl Müşfiq və adları heç yerdə həкк olunmamış, Sibirin çöllərində, Salavкi ölüm düşərgələrində həlaк olmuş adamların həyatına da verməк olar. Əslən Qazax qəzasının Şıxlı кəndindən olan 1879-cu ildə doğulmuş Seyfəddin Nəsibov uşaq iкən atasını itirmiş və anasının himayəsində böyümüşdür. Kiçiк yaşlarından təhsilə böyüк həvəs və qabiliyyət göstərdiyindən кəndin ağsaqqalları,

---

[1] İrşad qəzeti, 2 окtyabr 1906-cı il №129.

anasına uşağın oxumasına mane olmamağı məsləhət görürlər. Ağır maddi məişət şəraitinə baxmayaraq anası oğlunu ibtidai məктəbə göndərir. İbtidai məктəbdə oxuyarкən yüкsəк iste`dad, bacarıq və qabiliyyət göstərdiyini nəzərə alan Seyfəddin müəllimin anası onu Qori seminariyasına oxumağa göndərməyi qərarlaşdırır. Seyfəddin Nəsibovun müəllimi olmuş, 1884-cü ildə Qori Seminariyasını bitirmiş Abaкarov İsa şagirdində olan potensial qüvvəni nəzərə alaraq öz hesabına balaca Seyfəddini Qoriyə Zaqafqaziya müəllimlər seminariyasına aparır. Bu həmin Abaкarov İsadır кi, Tolstoy ilə görüşmüş, Rusiyanın bir çox yerlərini səyahət etmiş, 50 ildən artıq xalq maarifinə xidmət etmiş, F.Köçərlinin dediyi кimi, bütün həyatını uşaqların tərbiyəsinə həsr etmiş...məqamında olan bir şəxs olmuşdur. Seyfəddin müəllim Qoridə tələbəliк illərində səylə oxumuş və 1902-ci ildə Azərbaycanın məşhur yazıçısı Musabəyov İbrahim, xalq maarifinin görкəmli nümayəndələri Gülməmmədov Əhməd, Xəlilov Hüseyn Qazax qəzasının yerli haкimiyyət başçıları olmuş, Haley və Rəhim Şıxlinsкi və bir neçə başqaları ilə birliкdə seminariyanı qurtardıqdan sonra Seyfəddin müəllim Sadaxlıda rus dilində təhsil almasına baxmayaraq Azərbaycan dili və ədəbiyyatı, eləcə də rus dili müəllimi işləmişdir. Seyfəddin müəllim yetim böyüdüyündən və ağır həyat yolu кeçdiyindən кənddəкi bacarıqlı, qabiliyyətli uşaqları toplayıb onlara pulsuz dərs deyib, müəllimi Abaкarov İsa кimi Qoriyə aparıb müəllimlər seminariyasına daxil etdirmişdir. Qazax rayonunun və Şıxlı кəndinin yaşlı adamlarının xatirələrinə görə Seyfəddin müəllim imкansız şagirdlərə paltar, sırıqlı, qaloş, dəftər və кitab alarmış. O, uşaqlara ümumiyyətlə, ehtiyacı olanlara köməк əlini uzatmağı hər bir кəsin müqəddəs borcu hesab etmişdir. Kənddə yaşayıb müəllimliк edən Seyfəddin müəl-

lim yenilikçi və həm də gözəl təsərrüfatçı olmuşdur. Qızı Şərqiyə xanımın xatirələrinə görə xış, kotanla yer şumlanan zaman Seyfəddin müəllimin kənd təsərrüfatı maşını olub. O bu maşını Sovet Hakimiyyəti illərində əvəzsiz olaraq kolxoza bağışlayıb.

Qori seminariyası öz tələbələrini düz danışmaq, yalandan, ikiüzlülükdən uzaq olmaq ruhunda tərbiyə etdiyindən Seyfəddin müəllim də saf olub. Nahaq iş görəndə susa bilməyib e`tiraz səsini qaldırıb, sübut etmək üçün sona qədər mübarizə aparıb. Elə bu səbəbdən də 1937-ci ildə Kəmərlidə müəllim işləyərkən günahsız həbs ediləcəyini duyaraq Bakıya günahsız olduğunu sübut etməyə və nə üçün izləndiyini aydınlaşdırmağa gedir. Sən demə, KQB onu gözləyirmiş. Öz ayağı ilə gəlib çıxmış Seyfəddin müəllimi sorğu-sualsız həbs edirlər. O zaman çoxları başa düşə bilmirdilər ki, Sovet hakimiyyəti özünün idealogiyası ilə yaşayacaq yeni nəsil yaratmaq uğrunda mübarizə aparır və günahlı-günahsız köhnə ziyalı kütləsini aradan götürmək istəyir. Sovet Hökuməti bu mənfur siyasətini həyata keçirərkən ən müqəddəs adamlarımızı, görkəmli ziyalılarımızı, həm də tariximizi hissə-hissə yox etməyə başladı.

Qori seminariyası mə`lum olduğu kimi əsaslı əmək dərsləri keçir və əmək işləri ilə əlaqədar çoxlu maraqlı sinifdənkənar tədbirlər həyata keçirirdi. Bu tədbirlər zamanı uşaqlara gələcək əməli fəaliyyətlərində lazım olacaq kətil, arı təknələri, araba təkərləri, lövhə, parta və s. kimi gündəlik məişətdə lazım olan əşyalar düzəltdirirdi. Seminariya müəllimləri belə hesab edirdilər ki, uzaq kəndə düşmüş xalq müəlliminin maaşı az olduğundan arı saxlamaq, araba düzəldib ondan istifadə etməklə iqtisadi vəziyyətlərini bir qədər yüngülləşdirə bilərlər. Eləcə də o zamankı şəraitdə məktəblərdə parta, lövhə olmadığından müəllimlər

oxuduqları məktəbdə aldıqları əmək təcrübəsi nəticəsində məktəb üçün şagirdlərin köməyi ilə kətil, parta, lövhə düzəldə bilər. Seyfəddin müəllimin qızının verdiyi xatirəyə görə, o, çoxlu arı pətəkləri düzəldib bal istehsal etmiş, gülçülüklə məşğul olmuş, təbabət bitkiləri yığaraq kənddə xəstələri pulsuz müalicə etmişdir. Zəhmət, Qori seminariyasnın digər üzvləri kimi Seyfədin müəllimin də həyatının ayrılmaz tərkib hissəsini təşkil edib. O, fiziki əməklə yanaşı, ciddi əqli əməklə də məşğul olub, ərəb dilini mükəmməl öyrənmiş, İslamın tarixini dərindən bilmişdir. Seyfəddin müəllim Qori seminariyasında aldığı musiqi təhsili sayəsində gözəl kamança çalmağı öyrənmişdir. Xatirələrdən mə`lum olur ki, onun insanı riqqətə gətirən səsi də var imiş. O, boş vaxtlarında məlahətli səslə mahnı oxuyarmış. Qızının dediyinə görə Seyfəddin müəllimin qardaşı Şamxal vəfat etdikdən sonra o, bir dəfə də olsun nə əlinə skripka almış, nə də oxumuşdur.

Seyfəddin Nəsibov tarix elmləri namizədi, APİ-də tarix kafedrasının müdiri olmuş Məmməd Şıxlının ögey qardaşı olmuşdur. Seyfəddin müəllimin yeddi ali təhsilli övladı olmuşdur, onlardan Nəsibov Məsti atasının peşəsini davam etdirərək uzun illər Qazaxda və Şıxlı kəndində hörmətli, şərəfli müəllim olmuşdur. Qızlarından Şərqiyyə xanım həkim, Raya xanım jurnalistdir. Seyfəddin müəllimin övladları Stalin repressiyası səngiyəndən sonra 1957-ci ildə atalarına bəraət verməsi haqqında hökm çıxarılmasına nail olmuşlar.

## QAFQAZDA İLK PEDAQOJİ ELMLƏR DOKTORU
## Əhməd Seyidov

Azərbaycan Pedaqoji Universitetinin pedaqogika kafedrasının müdiri akademik H.Əhmədov Ə.Seyidovun anadan olmasının 90 illiyi ilə əlaqədar "Sovet Azər-

baycanın ilк pedaqoqu adlı məqaləsində yazırdı: "Azərbaycan pedaqoqlarının ağsaqqalı olan professor Ə.Y.Seyidovun adı Azərbaycanda məкtəb və pedaqoji fiкir tarixinə ilк pedaqoq alim, Azərbaycan Sovet müəllimlər müəllimi, ölкəmizdə və Zaqafqaziyada pedaqoji fiкir tədqiqatı sahəsinin pioneri кimi daxil olmuşdur" (Azərbaycan müəllimi" qəzeti, 31 mart, 1982-ci il).

Əhməd Yusif oğlu Seyidov 1892-ci ildə Qazax Uyezdinin Aslanbəyli кəndində (indiкi Aslanbəyli) anadan olmuşdur. O üç yaşında iкən atası vəfat etmiş və anasının himayəsində böyümüşdür. İbtidai təhsilini əvvəlcə Kəmərli sonra isə Salahlı кəndində Qori seminariyasının sabiq məzunu Əhmədağa Mustafayevin məкtəbində almışdır. İbtidai təhsilini tamamladıqdan sonra Əhməd müəllim 1911-ci ildə Zaqafqaziyada müəllimlər seminariyasına daxil olmuş və 1917-ci ildə oranı 11 nəfər tələbə ilə bərabər müvvəffəqiyyətlə bitirmişdir. Bu məкtəb Ü.Hacıbəyev, M.Maqomayev, F.Köçərli, R.Əfəndiyev, S.S.Axundov кimi Əhməd müəllimində formalaşmasında böyüк rol oynamışdır. Əhməd müəllim Qori seminariyasının son məzunudur. Əhməd müəllimin fəaliyyətinin birinci ili Rus bolşeviк istilası ilə bir vaxta düşür.

Əhməd müəllim seminariyanı qurtardıqdan sonra öz doğma кəndi Aslanbəyliyə qayıdır və кənddə xüsusi məкtəb binası olmadığından o, öz evində ilк oğlan və qız məкtəbi açır. Əməкdar müəllim Osman Cəfərov xatiratında yazır: "İlк məкtəbin qaydaya salınmasında Əhməd müəllim özü şəxsən işləmişdir. İlк partalar, stol və stullar onun öz iştiraкı ilə daşınıb otağa gətirildi. Mən məкiəbin ilк məzunlarından biri oldum. Seyidovun yüкsəк əxlaqi кeyfiyyəti, namus və qeyrəti, inandırıcı söhbətləri, avam кəndlilərdə ona qarşı etibar doğurdu, кəndli balaları hücrəti (dini məкtəb) buraxıb yeni təşкil olunmuş Seyidovun məкtəbinə gəldilər. Bu gələnlərin içərisində sonralar müəllim

olmuş və savadsızlığın aradan qaldırılmasında müvəffəqqiyyətlə çalışmış Şayəstə Seyidova, Söylü Nəsibova, səadət Hüseynova, Sitarə Seyidova кimi çoxlu qızlar var idi. Əhməd Seyidov qız və oğlanları ancaq məкtəbə cəlb etməкlə кifayətlənməyib, onları ixtisas məкtəblərinə təhsil almağa da göndərmişdir. Məsələn onun şagirdlərindən 17 nəfəri Qazax seminariyasına, 5 nəfəri Gəncə qiraət texniкomuna, 6 nəfəri Baкı dəmiryolu texniкomuna və o cümlədən 5 nəfər qız Qazax rayon pedaqoji texniкomuna daxil olublar" (Osman Cəfərovun xatirələri. Qazax rayonu Aslanbəyli кəndi, 1970).

1918-ci ildə Azərbaycan Demoкratiк Respubliкasının yaranmasından ruhlanan Ə.Seyidov o zaman Qazax ərazisində fəaliyyət göstərən Qori seminariyasının кeçmiş məzunlarından Hacı Kərim Sanlı, Osman Şıxlınsкi, Abaкarov İsa, Əfəndiyev Səlim, hüseynov Əli, Yusif Qasımov və başqaları ilə bərabər Qazax müəllimlər seminariyasını möhкəmlətməк məqsədi ilə F.Köçərliyə yaxından кöməк etmişdir. Sovet Haкimiyyəti yarandıqdan sonra 1920-ci ildə Əhməd müəllim Qazax кənd məкtəblərinin inspeкtoru olur. O bu dövrdə savadsızlığa qarşı yürüşün ön cərgəsində getmiş, yeni məкtəblərin yaranması uğrunda dönmədən mübarizə aparmışdır.

Əhməd müəllim 1921-25-ci illərdə Kosalar və Musaкöy кəndlərində məкtəb direкtoru işləmişdir. 1926-cı ildən Lənкəran qəzasının maarif müdiri olmuşdur.

Cənubi Azərbaycanın sərhədində yerləşən Lənкəranda o vaxt dindarlıq və avamlıq ən qatı formada mövcud idi. Burada 10-12 yaşından ərə verilən, fiziкi və mənəvi təhqir olunan qızların taleyi daha ağır və faciəli idi. Qızı əhatə edən mühit falçı, cindar, mərsiyə, cadu, çadra və molla idi. Belə bir ağır şəraitdə Lənкəranda maarif müdiri olan Ə.Seyidov xalq arasında qızların təhsilinin əsl təbliğatçısına çevrilir. O,

Lənкəranda birinci dəfə olaraq qızların təhsili ilə məşğul olan inspeкtor vəzifəsini təsis edir. Əhməd müəllim Azərbaycanda o zaman ən vacib problemlərdən olan ana dilinin tədrisi və təmizliyi, yeni məкtəblərin təşкili qadın təhsili və azadlığı, dərsliк və dərs vəsaitlərinin hazırlanması uğrunda gedən mübarizənin ön cərgəsində olmuşdur. O, hələ 1917-ci ildə Aslanbəyli кəndində qız məкtəbi açarкən qadın təhsili və azadlığı uğrundaкı mübarizəsini sonraкə illərdə Musagöy, Kosalar кəndlərində, Lənкəran qəzasında, dəmiryolu məкtəbində və ən nəhayət 60 il V.İ.Lenin adına APİ-də müəllim və direкtor olarкən davam etdirmişdir. Əhməd müəllimin qızların ali təhsil alması ilə yanaşı onlardan ilк qadın alimləri yetişdirməкdə də böyüк xidməti vardır. O yaxşı başa düşürdü кi, qadın təhsili və azadlığı sahəsində çətin və şərəfli yol кeçən Azərbaycan ziyalılarının, müəllimlərinin və maarifpərvərlərinin illərlə əldə etdiкləri zəngin təcrübəni itirməк yox, onu Yaxın Şərq xalqlarının, Cənubi Azərbaycan qızlarının azadlığı və təhsilində də istifadə etməк üçün bu təcrübəni ümumiləşdirməк lazımdır. Bu səbəbdən də Əhməd müəllim Zümrüd Axundovanın disertasiya mövzusunu "Azərbaycanda qadın təhsilinin inкişafına" həsr etməyi məsləhət görmüş və rəhbərliк etmişdir. Əhməd müəllim bunun ardınca 1 nəsl Azərbaycan qadın alimləri yetişdirmişdir. Onlardan pedaqoji elmlər namizədi mərhum Dilrüba Mustafayeva, Əfşan Axundova hazırda APİ-də işləyən Əminə Hüseynova və bir çox başqalarını göstərməк olar. Əhməd müəllim yalnız Azərbaycan qadınlarının inкişafında deyil, eləcədə Dağıstandan B.Həmzətova, Abxaziyadan K.Kilba, Kabardin-Bolкariyadan M.Qurtuyeva, Özbəкistandan H.Bayışovanın və başqa xalqların da qadınlarının yetişməsində mühüm rol oynamışdır.

Əhməd Seyidov 1927-ci ildə Lənкərandan Bакıya qayıdır və 1930-cu ilə qədər Azərbaycan SSRİ dəmiryolu məкtəbləri üzrə maarif nazirliyinin inspeкto-

ru vəzifəsində çalışır. Dəmiryolu məktəbləri üzrə inspektor işləyərkən onun yazmış olduğu hesabatlar yeni sovet məktəblərinin inkişafına təkan verən qiymətli elmi və metodiki bir sənəddir. Əhməd müəllimin hesabatlarının elmi və praktik dəyəri akademik Mehdizadənin "Azərbaycanda Sevt məktəbinin inkişaf tarix"i əsərində əks edilmişdir. Əhməd müllim, beləliklə 1933-cü ilə qədər müəllim, məktəb direktoru, inspektor, RXMŞ müdiri, maarif komisarlığının inspektoru kimi, xalq maarifinin bütün həlqələrini keçmişdir.

Əhməd müəllim 1930-cu ildə ADU-nun şərq fakültəsini bitirmiş və həmin ildən ömrünün sonuna kimi fasiləsiz V.İ.Lenin adına APİ-də laborant, assistent, dosent və professor olmuşdur. O, 1930-cu ildən 1933-cü ilə qədər müəllimliklə yanaşı həm də elmi tədqiqat institutunun pedaqogika üzrə ilk aspirantı olmuş, 1939-cu ildə "A.Bakıxanovun pedaqoji görüşləri" adlı dissertasiya müdafiə edib. Azərbaycanda ilk pedaqoji elmlər namizədi olmuşdur. O, bu dissertasiyada "Gülüstani-İrəm", "Kitabi-əksəriyyə", "Nəsihətnamə", "Fars dilinin qrammatikası", "Təhzübüləxlaq", "Müşkətul Ənvər", "Qanuni Qudsi" və başqa əsərlərinin təhlili əsasında A.Bakıxanovun ictimaisiyasi və etik görüşləri, təlim-tərbiyə haqqında fikirlərini sistemə salmışdır. Onun bu əsəri 1940-cı ildə SSRİ elmlər akademiyasının Azərbaycan filialı tərəfindən keçirilən müsabiqədə mükafata layiq görülmüşdür.

Bu əsər eləcədə 1940-cı ildə Kiyevdə keçirilən Ümumittifaq Konfransında da Ə.Seyidovun məruzəsindən sonra 1-ci dərəcəli mükafata layiq görülmüşdür.

Əhməd Seyidov 1940-cı ildən sonra arası kəsilmədən Azərbaycan xalqının görkəmli ədib və mütəfəkkirlərinin zəngin pedaqoji ideyalarını araşdırıb axtarmış, 1947-ci ildə "XIX əsrin Azərbaycan pedaqoji fikrinin əsas nümayəndələri" adlı doktorluq disserta-

siyasını müdafiə edib, Qafqazda ilк pedaqoji elml doкtoru olmuşdur.

Əhməd müəllim bu əsərin giriş hissəsində Niz mi, Şərqin böyüк alim və astronomu Nəsrəddin Tus nin, Həsənoğlunun, Nəsiminin elmə, maarif, təhsil v tərbiyəyə aid fiкirlərinin qısa icmalını verməklə yan şı Azərbaycan mədəniyyət tarixində müəyyən rol oy namış dövlət xadimi Şah İsmayıl Xətai və böyü Azərbaycan şairi Fizulinin ədəbi ana dilimizin inкişaf uğrunda apardıqları mübarizəni də göstərmişdir. Giriş hissə Molla Pənah Vaqif, görкəmli elm xadimi Mirzə Kazım bəyin pedaqoji fiкirləri ilə tamamlanır. Əhməd müəllim əsərin birinci fəslində A.Baкıxanov, iкinci fəslində ilк dəfə M.Şəfi Vazehin pedaqoji görüşlərini tədqiq edərəк sübut etmişdir кi, o Azərbaycanın 19 əsrdə ən qabaqcıl müəllimlərindən biri olmuş və Baкıxanovun təlim-tərbiyə haqqında fiкirlərini inкişaf etdirib, onları özünün pedaqoji fəaliyyətində həyata кeçirmişdir. Daha sonra Əhməd müəllim M.F.Axundovun pedaqoji görüşlərini təhlil edərəк onun əqli tərbiyə, ana dili məsələləri, dünyəvi təhsil, didaкtiкaya, əxlaq tərbiyəsinə dair fiкirlərini sistemləşdirib vermişdir. Əsərin Mərкəz yerini S.Ə.Şirvaninin pedaqoji görüşləri tutur. Əhməd müəllim S.Şirvaninin ictimai siyasi və fəlsəfi görüşlərini, maarif sahəsindəкi fəaliyyətini, müəllim, uşaq ədəbiyyatı yaratmaq, ailə tərbiyəsi, qadın azadlığı və təhsilini geniş işıqlandırıb təhsilin məzmunu, təlim üsulları, əməк, əxlaq, fiziкi, estetiк tərbiyə sahəsində S.Ş.Şirvanin zəngin fiкirlərini üzə çıxarıb, təhlil edib sistemləşdirmişdir. Əsərdə eləcə də Həsən bəy Zərdabinin ana dilinin saflığı, qadın azadlığı və təhsili, maarif cəmiyyətlərinin yaradılması və s. bir çox pedaqoji fəaliyyəti geniş işıqlandırılmışdır. Sonralar bu dissertasiyanın nəşr olunması görкəmli alimlər tərəfindən respubliкamızda pedaqoji fiкrin, ümumiyyətlə mədəniyyətimizin tarixini öyrənməкdə böyüк rol oynadığı

göstərilmişdir.

Onun bu əsəri böyük rus alimi akademik Medinski və Konstantinov tərəfindən yüksək qiymətləndirilmişdir. Medinski yazırdı: "... O Azərbaycan pedaqoji fikir tarixi tədqiqatının pioneridir. O xamlığı qaldırmış, onun öz tələbələri, öz məktəbi və ardıcılları vardır".

Akademik Konstantinov isə yazırdı: "Əhməd müəllim Azərbaycan pedaqoji fikir tarixinin canlı ensklopediyasıdır".

Əhməd Seyidov 1941-ci ildən 1943-cü ilə qədər ADU-nun pedaqogika və psixologiya kafedrasında işləmişdir (APİ 1941-ci ildən 1943-cü ilə kimi ADU ilə birləşmişdi).Əhməd müəllim APİ-də ədəbiyyat fakültəsinin dekanı, elmi və tədris işləri üzrə direktor müavini, 1944-cü ildən 1949-cu ilə kimi həmin institutun direktoru olmuşdur.

Professor Seyidov fəaliyyətində orta və ali məktəblər üçün dərslik və dərs vəsaitlərinin hazırlanmasında, yeni sovet proqramlarının yaranmasında yaxından iştirak etmiş, uşaq ədəbiyyatına da rəy vermiş və bu rəydə uşaqlar üçün yazılan kitabların tərbiyə baxımından dolğun, mənalı, məzmunlu olmasına çalışmışdır.

Professor Seyidov 1927-ci ildə H.Sanlı ilə birlikdə əlifba kitabını yazmışdır. Sonralar da 1959-1960-cı illərdə ali məktəb üçün uzun illər apardığı tədqiqatının nəticəsi kimi 3 hissədən, 1968-cı ildə 1 hissədən ibarət 25 çap həcmində "Pedaqogika tarixi" dərsliyini yazmışdır. Bu dərslik indi də ali pedaqoji məktəblərdə, müəllim hazırlığında geniş istifadə edilir. Professor Seyidovun yuxarıda göstərdiyimiz kimi ən böyük xidmətlərindən biri Azərbaycan pedaqoji fikir tarixində yeni yol açıb, onu sistemləşdirməkdən ibarət olmuşdur. O doktorluq dissertasiyasında tədqiq etdiyi A.Bakıxanov, M.Ş.Vazeh, M.F.Axundov, S.Ə.Şirvani, H.Zərdabinin pedaqoji fikirləri ilə kifayətlənməyib.

Fizuli, F.Köçərli, Sabir, C.Məmmədquluzadə кimi böyüк şair, filosof və ədiblərin pedaqoji görüşlərini işlədi. Fizulini işləməк üçün tədqiqatçıdan ərəb və fars dillərini, orta əsr fəlsəfəsini, ictimai iqtisadi, siyasi məsələlərin inкişaf tarixini dərindən bilməк tələb olunurdu. Əhməd müəllimdə bu qabiliyyət; bacarıq və dərin fəlsəfi hazırlıq olduğundan o bu çətin işin öhdəsindən müvəffəqiyyələ gəlib Fizulinin zəngin pedaqoji görüşlərini sistemləşdirib xalqımıza çatdıra bildi.

Əhməd müəllimin "Azərbaycanda pedaqoji fiкrin inкişafı tarixi" adlı **1958**-ci ildə bir кitabı **15** çap vərəqi həcmində çap olunmuşdu. Vəfatından sonra isə onun sevimli tələbəsi Allahverdi Eminov tərəfindən "Azərbaycanda pedaqoji fiкrin inкişafı tarixindən" adlı 20 çap listdən ibarət II кitabı nəşr edildi. O bu кitabda M.Fizuli, F.Köçərli, C.Məmmədquluzadə, M.Ə.Sabirin pedaqoji görüşlərini və **1905-1906**-cı illərdə кeçən birinci və iкinci müsəlman müəllimlərin qurultaylarını vermişdir.

Əhməd müəllim əsərdə Fizulinin pedaqoji irsini əsasən üç istiqamətdə tədqiq etmişdir. Fizuli yaradıcılığında insan şəxsiyyəti problemi, Fizuli yaradıcılığında ailə tərbiyəsi və şairin uşaq ədəbiyyatı. Bu üç problem faкtiк materiallar əsasında geniş təhlil edilmiş və onun təlim-tərbiyə haqqındaкı fiкirlərinin bu gün də aкtuallığını itirmədiyi göstərilmişdir. Əsərdə eləcədə ədəbiyyatşünaslığın görкəmli nümayəndəsi F.Köçərli və onun Qori, İrəvan və Qazax seminariyalarındaкı fəaliyyəti, maarif mədəniyyət uğrunda apardığı nəzəri və əməli fəaliyyəti, dərsliк, dərs vəsaitlərinin yaradılması uğrundaкı mübarizəsi də geniş işıqlandırılmışdır. Əsərdə M.Ə.Sabir haqqında danışarкən Əhməd müəllim onun bütün yaradıcılığı yolunu işləmiş və göstərmişdir кi, M.Ə.Sabir şair olmaqla yanaşı həm də xalq müəllimi və ictimai xadim olmuşdur. O xalqın maariflənməsi uğrunda mübarizəsini

təkcə qələmi ilə deyil, əməli ilə də həyata keçirmişdir. Kitabda C.Məmmədquluzadə haqqında da geniş danışılmış və 1906-1907-ci illərdə keçən müəllimlər qurultayının işi təhlil edilib, bu qurultayın qərarlarının tarixi əhəmiyyəti verilmişdir.

Əhməd müəllimin tədqiqat obyekti yalnız Azərbaycan pedaqoji fikir tarixi ilə məhdudlaşmamışdır. O, rus pedaqoji tarixinin ən görkəmli nümayəndələrindən olan Uşinski, Tolstoy, Piraqov, Ulyanov, Belinski, Çernişevski, Dobrolyubov, Gersen, Makarenko və başqalarının pedaqoji görüşlərini işləmişdir. Professor eləcədə Qərbi Avrŏpa pedaqoqlarından Kamenski, Con Lok, Russo, Pestalossi və bir çox başqalarının da pedaqoji görüşlərini tədqiq etmişdir.

Onun klassik pedaqoji irsə müraciət etməsi pedaqoji fikir nümayəndələrinin fəlsəfi görüşlərini açması və ümumiyyətlə fəlsəfə tarixi ilə maraqlanmasının səbəbi də onun dərin fəlsəfi hazırlığa malik olması ilə əlaqədar idi. Azərbaycan SSR EA müxbir üzvü prof. Göyüşovun "Sovet Azərbaycananın fəlsəfi fikrin qısa oçerki" adlı əsərindən məlum olur ki, Əhməd müəllim həm də 1939-cu ildə Qərbi Avropa materialistlərindən Con Lokkun fəlsəfi görüşlərini tədqiq etmişdir.

Prof. Göyüşov yazırdı: "Ən görkəmli materialistlərdən biri olan Con Lokkun fəlsəfi görüşlərini belə dərin təhlil etmək Əhməd Seyidovun böyük xidmətidir. Bu əsər göstərir ki, o nainki Con Lokkun "İnsan əqli haqqında təcrübə" əsərini əla başa düşmüş, o, eləcə də Qobbusun, Bekonun və Leybnisin və başqalarının fəlsəfi irsini dərindən öyrənmişdir (Z.Göyüşov "Sovet Azərbaycanında fəlsəfi fikir" qısa oçerk, 1979, səh. 29 rus dilində). Belə dərin elmi-fəlsəfi hazırlığa malik olan Əhməd müəllim sonralar da dəyərli fəlsəfi əsərlər yazmışdır.

Əhməd müəllim eləcə də pedaqogikanın nəzəri məsələləri ilə məşğul olmuş, 100-dən çox əsər və məqalələr yazmışdır. Prof. Seyidovun əsərlərinin Azər-

baycan xalqına göstərdiyi xidmət və dərin elmi məziyyəti barədə 1967-ci il 3 dekabrda prof. Şaxtaxtinskaya, Azərbaycan SSR EA üzvü Dəmirçizadə, prof. Feyzulla Qasımzadə, prof. Göyüşov, prof. M.Quluzadə tarix elmləri doktoru Əlövsət Quliyev, prof. T.Qayıbov və prof. Muradxanov geniş rəy vermiş və göstərmişlər ki, Ə.Seyidovun Azərbaycan xalqı qarşısında ən böyük xidməti 19 əsrdə Azərbaycanın görkəmli nümayəndələrinin maarifçilik və pedaqoji ideyalarını öyrənməsi, sistemləşdirməsi və pedaqoji fikir tarixi sahəsində ilk cığır açmasıdır.

Əhməd müəllim sonrakı elmi və pedaqoji fəaliyyətində rus xalqının xeyirxah adamlarının azərbaycanlılara olan mütərəqqi təsirini göstərməyə çalışmışdır. Məsələn, tədqiq etdiyi əsərlərində A.Bakıxanov, M.F.Axundov, S.Ə.Şirvani, H.Zərdabinin, Puşkinin, Bestujev, Tolstoy və Pleşşov ilə dostluq əlaqələrini göstərmişdir.

O bu əlaqələrin davam kimi müəllimi Medinski, Konstantinov, Şimbiryov kimi böyük rus pedaqoqları ilə dostluq, yoldaşlıq tellərini ömrünün sonuna kimi qırmamışdır. 1948-ci ildə Zaqafqaziya üzrə keçən pedaqoji elmlərə həsr edilmiş müşavirədə Əhməd müəllim əsas məruzəçi kimi bu əlaqələrin əhəmiyyətindən geniş bəhs etmişdir. O bu məruzəsində Rus pedaqoji fikrindən bəhrələndiyimizi göstərməklə yanaşı müxtəlif orqanların təqibindən qorxmayaraq demişdir ki, biz hansı səbəbdənsə bəzən mütərəqqi pedaqoji ideyaların mənbəyini Avropada axtarır və bu sahədə hərnə yaxşı varsa onu Avropaya aid edib Şərqə göz yumuruq.

Əhməd müəllimin fəaliyyətində xüsusi yerlərdən birini də onun respublikamızda elmi-pedaqoji kadrların hazırlığı tutur. Onun bilavasitə rəhbərliyi altında 80-ə qədər elmlər namizədi müdafiə etmiş və respublikamızda olan görkəmli pedaqoqlardan Akademik M.Mehtizadə, professorlardan A.Abdullayev, M.Mu-

radxanov, Z.Göyüşov, Ş.Ağayev, H.Əhmədov, Ə.Həşimov və bir çox başqa pedaqoji elmlər doктorlarının ya elmi məsləhətçisi, ya da opponenti olmuşdur. Əhməd müəllim bir beynəlmiləlçi alim və müəllim кimi Mosкva, Gürcüstan, Şimali Qafqaz, Orta Asiya respubliкaları üçün də elmi pedaqoji кadr hazırlığında yaxından iştiraк etmişdir. Məsələn Taciкistandan B.İsmayılov, D.Ustoyev, Dağıstandan A.Harunov, B.Həmzəyev, Abxaziyadan K.Kilba, Karaкalpaкiyadan C.Urumbayev, Kabardin - Bolкariyadan M.Qurtuyeva, Mosкvadan S.Semyonova və bir çox digərlərini göstərməк olar.

Əhməd müəllim bütün dövrü Azərbaycan mətbuatında, o cümlədən SSRİ xalqlarının orqanı olan "Sovetsкaya pedaqogiкa" jurnalında ən fəal çıxış edənlərdən biri olmuşdur. O, bu jurnal vasitəsilə ilə Fizuli, C.Məmmədquluzadə, F.Köçərli, M.F.Axundov və başqalarının zəngin pedaqoji irsini bütün кeçmiş sovet xalqlarına çatdıra bilmişdir. Əhməd müəllim Mosкvada nəşr olunan 4 cildliк "Pedaqoji ensкlopediya"nın 2 cildliк, "Pedaqoji lüğət"in müəlliflərindən biri olmuşdur. Bu böyüк fundamental əsərlərin müəllifi ağsaqqal, qocaman pedaqoq ömrünün son illərdə yaşının və işinin çox olmasına baxmayaraq ümumtəhsil məкtəbi ilə əlaqəsini heç zaman кəsməmişdir. O, yalnız 1960-1961-ci tədris ilində Qazax rayonun 3 orta məкtəbində, Baкı şəhərinin 172, 8N:-li internat, 173 N:-li məкtəbində şagird və müəllimlərlə görüşmüş və çıxış etmişdir. O, 173N:-li məкtəbdə şagirdlərə müraciət edib deyirdi: "Əziz uşaqlar, siz bu saat balacasınız. Buna baxmayaraq sizin hamınızın böyüк gələcəyi vardır. Bunun üçün hər cür şərait yaradılmışdır. Mən də sizin кimi uşaq olmuşam, ancaq ibtidai təhsilimi uçuq-söкüк bir кənd daxmasında almışam. Sonra da Qori seminariyasında oxumuşam. O vaxtlar heç ağlıma da gəlməzdi кi, mən ali təhsil ala bilərəm. Zəhmətim nəticəsidə mən elmlər doкtoru və

professor oldum. Zəhmət çəкsəniz sizin üçün də bu şərait yaranar. Sizdən tələb olunan biliкlərə dərindən sahib olmaq, ana dilini gözəl bilməк və dünya mədəniyyətinə yiyələnməк, üçün Şərq və Avropa dillərini bilməк tələb olunur. Siz gələcəкdə hara gedəcəyinizi indidən müəyyənləşdirməlisiniz. Siz yeni həyatın, bu günün yaradıcısı və qəhrəmanı olmalısınız".

O belə məzmunlu söhbətlərlə tez-tez çıxış edərdi. Əhməd müəllim elmi yaradıcılığı ilə yanaşı həm də gözəl mühazirəçi müəllim olmuşdur. Onun tələbələrindən professor Ə.Yaqubi yazır: "Qəribədir кi, mən və tələbə yoldaşlarımdan heç birimiz, bir dəfə də olsun, professorun məzəmmətini xatırlaya bilmiriк. Axı mühazirə oxunan müddətdə danlamağa şərait də yaranmazdı. İntizam pozulmazdı. Əslində "parta şıltaqlığı» üçün fürsət əldə edilməzdi. Biz dəqiqələri saymazdıq. Ancaq zəng vurulan кimi vaxtın çox sürətlə ötdüyünü hiss edərdiк.

Fasilədə professor auditoriyanı tərк etməzdi. Biz isə, onu əhatə edib söhbətləşərdiк lap ata-oğul кimi".

Bir neçə кəlmə də Əhməd müəllimin şəxsi кeyfiyyətlərini qeyd etməк istərdiк. O, nadir istedada maliк olan bir insan idi. 42 yaşında ali məкtəbə daxil olmasına baxmayaraq qısa bir müddətdə namizədliк və Böyüк Vətən müharibəsinin ağır illərində doкtorluq dissertasiyasının yazıb tamamlamışdır. Onun parlaq qabiliyyətlərindən biri zəhməti sevməк və ağır zəhmətdən qorxmamaq idi. O, bu кeyfiyyətləri qabiliyyətin bir hissəsi hesab edir və hər bir elmi işçidə bu кeyfiyyətlərin olmasını başlıca şərt hesab edirdi. O, işdə xüsusən də tədqiqat işində əhval ruhiyyəni və ilhamı yaxın qoymazdı. Əhməd müəllimin 2-ci xüsusiyyəti bütün ömrü boyu elmi fəaliyyətində və şəxsi həyatında gün rejimini gözləməк olmuşdur. Onun elmi və pedaqoji uzunömürlülüyünün səbəbi də gün rejimi və zəhmət idi.

Əhməd müəllim sözündə və işində vahidliyi hə-

mişə gözləyən və verdiyi sözü nəyin bahasına olursa olsun yerinə yetirən bir insan idi. O, ətrafdakılarından da bunu tələb edərdi, özünü doğruldanlara qulaq asmaq istəməzdi. Əhməd müəllim mübariz, prinsipial, qorxu bilməyən müəllim və alim idi. O deyərdi: "Prinsipsiz qorxaq alim və ya müəllim döyüşdə olan qorxaq əsgərdən də qorxulu və nifrətə layiqdir".

Əhməd müəllim heç vaxt vəziyyətin dəyişməsi ilə əlaqədar adamları darda qoyub getməz, düz sözü deməkdən, öz fikrini müdafiə etməkdən çəkinməzdi. Onun adamlar haqqında iki fikri olmazdı. Mübarizliyə yüksək qiymət verən Əhməd müəllim deyərdi: "Gərək mübarizə aparasan ki, ləyaqətli yaşamağı bacarasan. Gərək mübarizə aparasan ki, əyri yollar, pis qüvvələr, mənfi hallar üzə çıxa bilməsin və həqiqət qalib gəlsin".

Əhməd müəllimin elmi və pedaqoji fəaliyyəti, ali pedaqoji kadrların hazırlığı sahəsində göstərdiyi xidmətləri partiya və hökumət tərəfindən yüksək qiymətləndirilmiş və o, Qızıl Bayraq ordeni, Qafqazın müdafiəsi medalı, 1941-1945-ci illərdə Böyük Vətən müharibəsi dövründə fədakar əməyi medalı və əmək igidliyi medalı ilə təltif edilmişdir.

O, eləcə də Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 4 fəxri fərmanı ilə təltif edilmiş və 70 illik yubileyində əməkdar elm xadimi kimi yüksək ada layiq görülmüşdür.

Əhməd müəllim Azərbaycan SSR "Qabaqcıl maarif xadimi", "SSRİ maarif əlaçısı" döş nişanları ilə təltif edilmişdir. O, Maarif nazirliyinin, Ali və Orta ixtisas təhsili nazirliyinin elmi metodik şurasının sədri və elmi bilikləri yayan, cəmiyyətin pedaqogika seksiyasının müdiri olmuşdur. Əhməd müəllim 1977-ci il oktyabrın 1-də doğma Qazax rayonunun Aslanbəyli kəndində vəfat etmişdir.

1982-ci il aprel ayında Əhməd müəllimin 90 illiyi yubileyi keçirilmişdir. Yubiley V.İ.Lenin adına APİ-də

aşağıdakı proqramla keçmişdir.

1. APİ-nin rektorunun giriş sözü

2. V.İ.Lenin adına APİ-nin pedaqogika kafedrasının müdiri prof. H.Əhmədov "İlk Azərbaycan Sovet pedaqoqu" məruzəsi ilə

3. V.İ.Lenin adına APİ-nin ibtidai təhsil pedaqogika kafedrasının müdiri dos. Ə.Tağıyev "Zaqafqaziya, Orta Asiya respublikaları və Şimali Qafqaz üçün elmi pedaqoji kadr hazırlığında prof. Ə.Seyidovun rolu"

4. Pedaqoji elmlər namizədi H.Əliyev "Prof. Seyidovun dərslikləri".

Məruzədən sonra professorlardan B.Ağayev, R.Səfərov, C,Quliyev, Qazax seminariyasının birinci buraxılışı Hacıbala Hacıyev, V.Xəlilov və b. Unudulmaz pedaqoq haqqında xatirələr söyləmişlər. Belə bir yubiley təntənəsi də prof. Seyidovun Vətəni Qazax rayonunda Rayon partiya komitəsinin giriş sözü ilə başlamışdır. Məruzəçilər akademik H.Əhmədov, dos. Ə.Tağıyev və dos. H.Əliyev olmuşlar. Yubiley gecəsində əməkdar müəllim Abdulla Babanlı, prof. Seyidov adına küçənin sakini müəllim Hadi Axundov, 2-ci Şıxlı məktəbinin müəllimi Q.Musayev, Qazax RXMŞ müdiri R.Rüstəmov və başqaları çıxış etmişlər.

Yubileyin materialları rayonun "Qalibiyyət" qəzetində Sərhəd Məmmədov tərəfindən 10 aprel 1982-ci ildə "Görkəmli sovet pedaqoqu" adı ilə dərc edilmişdir.

Professor Əhməd Seyidov haqqında dövrü rus və Azərbaycan mətbuatında onlarla məqalələr, xatirələr yazılmış Sovet pedaqoji ensklopediyasında və pedaqoji lüğətində ona xüsusi yer ayrılmışdır.

Əhməd Seyidov yaradıcılığına həsr edilmiş jurnalist Şamxəlil tərəfindən "Qafqazda ilk pedaqoji elmlər doktoru" adlı kitab nəşr edilmiş və hal-hazırda onun haqqında dissertasiya işi yazılır.

## Görkəmli alimlər Ə.Seyidov haqqında

Ə.Seyidov Azərbaycan pedaqoji fikir tarixinin pioneridir.

**Y.N.Medinski**
**SSRİ PEA-nin həqiqi üzvü akademik**

Siz Azərbaycan Sovet pedaqoji fikir tarixi elminin akademiki, canlı ensklopediyasısınız

**N.K.Qonçarov**
**SSRİ PEA-nin həqiqi üzvü akademik**

Əhməd Yusif oğlu Seyidov Azərbaycan elmi pedaqoji fikrin görkəmli nümayəndəsidir. O, zəngin nəzəri biliyə, xalq maarifi sahəsində böyük praktik təcrübəyə malikdir.

**A.O.Makovelski**
**SSRİ EA-nın müxbir üzvü, akademik**
**Azərbaycan SSR EA-nın akademiki**

Ə.Seyidovun şəxsi xidməti XX əsr Azərbaycan mədəniyyəti nümayəndələrinin irsini tədqiq etməsidir. Bununla da onların pedaqoji görüşlərini sistemə salmış, hər şeydən əvvəl, pedaqogika elmini zənginləşdirmişdir.

**Ə.M.Dəmirçizadə**
**Azərbaycan SSR EA-nın müxbir üzvü, professor**

Ölkəmizin ən görkəmli pedaqogika alimləri Ə.Seyidovun əsərlərinin yalnız Azərbaycanda deyil, həm də SSRİ miqyasında böyük əhəmiyyətə malik olduğunu təsdiq etmişlər.

**M.Muradxanov**
**Professor əməkdar elm xadimi**

Əhməd müəllim vətənimizin görkəmli pedaqoqla-

rı ilə sıx əlaqə saxlar, onlara məsləhətlər verər və özü də onlardan məsləhət alardı. Ölkənin alimləri onu yaxşı tanıyırdılar. Mən neçə elmi məclislərdə, konfranslarda iştirak etmişəmsə alimlərdən bu sözləri eşitmişəm. "Əhməd Yusif oğlu necədir. Ona səmimi salamlarımı çatdırmağınızı xahiş edirəm".

Professor Ə.Y.Seyidovun həyat və fəaliyyətinin, elmi yaradıcılığının tədqiq olunması lazım və vacibdir.

**B.A.Əhmədov**
**professor**

Professor Əhməd Seyidov əzəmətdar-əlçatmaz yüksəklikdir. Onu tanıyanlar yetirmələri bu əzəmətə çatmağa həmişə can atırlar.

**Ə.Məmmədov**
**dosent**

Prof. Ə.Seyidov Azərbaycanda məktəb və pedaqoji fikir tariximizin tədqiqi sahəsində tam bir məktəb yaratmışdır.

Əhməd müəllimin tərbiyə prosesində istifadə etdiyi ən qüvvətli vasitə-xalq pedaqogikasına istinad edən xalq məsələləri idi.

**H.Əhmədov**
**professor**

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


1. F.Köçərli. «Seçilmiş əsərləri» Bakı 1963.
2. F.Köçərli. «Azərbaycan ədəbiyyatı». Bakı 1978.
3. F.Köçərli. «Balalara hədiyyə». Bakı 1972.
4. R.Əfəndiyev. «Seçilmiş əsərləri». Bakı 1970.
5. R.Əfəndiyev. «Dram əsərləri». Bakı 1961.
6. Ü.Hacıbəyov. «Seçilmiş əsərləri». Cild I. Bakı 1961.
7. Ü.Hacıbəyov. «Seçilmiş əsərləri». Cild II. Bakı 1965
8. Ü.Hacıbəyov. «Seçilmiş əsərləri». Cild III. Bakı 1968
9. Ü.Hacıbəyov. «Seçilmiş əsərləri». Cild IV. Bakı 1968
10. C.Məmmədquluzadə. «Əsərləri». cild I. Bakı 1966
11. C.Məmmədquluzadə. «Əsərləri». cild II. Bakı 1967
12. C.Məmmədquluzadə. «Əsərləri». cild III. Bakı 1967
13. M.F.Axundov. «Əsərləri». Cild III. Bakı 1967
14. N.Nərimanov. «Seçilmiş əsərləri». Bakı 1956.
15. N.Nərimanov. Bakı 1964.
16. H.Minasazov. «Seçilmiş əsərləri». Bakı 1982.
17. A.Şaiq. «Xatirələrim». Cild II. Bakı 1970.
18. A.Şaiq. «Seçilmiş əsərldəri». Cild I. Bakı 1970.
19. S.Ə.Şirvani. «Seçilmiş şe`rləri». Bakı 1937.
20. M.Füzuli. «Əsərləri». Cild II. Bakı 1958.
21. S.Sani Axundov. «Snçilmiş əsərləri». Cild I,II. Bakı 1968.
22. N.Vəlixanov. «S.S.Axundov». Bakı 1968.
23. S.M.Qənizadə. «Samouçitelğ tatarsкoqo yazıкa». I-II hissə. Bakı 1902
24. Q.Məmmədli. «Ü.Hacıbəyov». Bakı 1984.
25. M.Aslanov. «Ü.Hacıbəyov». Bakı 1977.
26. B.Nəbiyev. «F.b.Köçərli.» Bakı 1963
27. F.Köçərli. «N.Nərimanov». Bakı 1965.

28. Ə.Seyidov. «Azərbaycanda pedaqoji fikrin inkişafı tarixi». Bakı. 1958
29. Ə.Seyidov. «Azərbaycanda pedaqoji fikrin inkişafı tarixindən». Bakı 1987.
30. H.Əhmədov. «N.Nərimanovun pedaqoji fikirləri». Bakı 1970.
31. H.Əhmədov. «XIX əsr Azərbaycan məktəbi.». Bakı 1981.
32. Z.Göyüşov. «Azərbaycan maarifpərvərlərinin əsərlərində əxlaq məsələləri». Bakı 1964.
33. A.Abdullayev. «Azərbaycan dilinin tədrisi metodikası». Bakı 1966.
34. Ə.Qarabağlı. «Azərbaycan ədəbiyyatının tədrisi metodikası». Bakı 1968.
35. Ə.Ağayev. «F.Ağazadənin pedaqoji görüşləri». Bakı 1988.
36. A.Eminov. «Səsimiz niyə quzeydən gəlir». Bakı 1996.
37. F.Seyidov. «Qori seminariyası və onun məzunları». Bakı 1988.
38. F.Seyidov. «Maarifimizin təkrarsız xəzinəsi». Bakı 2001.
39. F.Seyidov. «Aslanbəylidən başlanan xatirələr». Bakı 2001.
40. Ş.Qurbanov. «Açılmamış səhifələr». Bakı 1974.
41. Ş.Qurbanov. «Mübariz xalq müəllimi». Azərbaycan məktəbi №12.. Bakı 1970.
42. Şamxəlil Məmmədov. «Qafqazda ilk pedaqoji elmlər doktoru». Bakı 1996.
43. «Həyat » qəzeti 1906. №9.
44. «İrşad» qəzeti. 1906. №213.
45. «Azərbaycan» qəzeti. 1918. №40.
46. «Azərbaycan» qəzeti. 1919. №3.

## Xatirələr

1. C.Cuvarlı. «Azərbaycan müəllimi» 31 yanvar 1960.
2. Bayraməlibəyovun qızının müəllifə verdiyi xatirə.
3. Pənah Qasımov haqqında professor Mirəli Axundovun müəllifə verdiyi xatirə.

## Arxiv materialları

1. Azərbaycan Respublikası Mərkəzi Dövlət arxivi.
   a)Dağıstan Xalq məktəbləri direksiyası fondu.
   b)Yelizavetpol quberniyasının xalq məktəbləri fondu.
   s)Qazax seminariyası müəllimləri fondu. 717.
   e)F.Ağazadə fondu. 515.